AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI SLAVYAN UNİVERSİTETİ

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ СЛАВЯНСКИЙ УНИВЕРСИТЕТ

# E L M İ  Ə S Ə R L Ə R

## İctimai-siyasi elmlər seriyası

**BİRGƏ NƏŞR**

# В У Ч О Н Ы Я  З А П І С К І

## Серыя: Грамадска і палітычных навук

**СУМЕСНАЕ ВЫДАННЕ**

**№1- 2016**

**Bakı – Minsk**

**Redaksiya heyəti:**

prof. N.M.Əliyeva, prof. R.M.Novruzov, prof. C.R.Məmmədov,
prof. H.N.Məmmədov, prof. A.A.Merejko, prof. İ.Marşalek-Kava,
dos. Ş.H.Əliyev (baş redaktor), dos. D.P.Plamen, dos. Ə.S.Əhməd,
İ.K.Niftalıyeva (məsul katib)

**Редакционная коллегия:**

проф. Н.М.Алиева, проф. Р.М.Новрузов, проф. Дж.Р.Мамедов,
проф. Г.Н.Мамедов, проф. А.А.Мережко, проф. И.Маршалек-Кава,
доц. Ш.Г.Алиев (главный редактор), доц. Д.П.Пламен, доц.А.С.Ахмед,
И.К.Нифталиева (ответственный секретарь)

**Redaksiyanın ünvanı:**

Azərbaycan Respublikası, Bakı şəhəri, S. Rüstəm küç. 33,
Bakı Slavyan Universiteti
tel: 599 08 70
faks: (99412) 440 27 70

e-mail: bakslavuniver@hotmail.com

**Адрес редакции:**

Азербайджанская Республика, город Баку,
ул. С. Рустама, 33, Бакинский славянский университет
тел.: 599 08 70
факс: (99412)440 27 70
e-mail: bakslavuniver@hotmail.com

© Bakı Slavyan Universiteti – 2016

**BAKI SLAVYAN UNİVERSİTETİNİN**

70 *- illiyinə həsr olunur*

*- летию*

**БАКИНСКОГО СЛАВЯНСКОГО УНИВЕРСИТЕТА**

***посвящается***

Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası | 2016-№1 | Серия общественно-политических наук

## DÜNYA SİYASƏTİ VƏ TARİX

## МИРОВАЯ ПОЛИТИКА И ИСТОРИЯ

**MAHAL QACAR**
*Bakı Slavyan Universiteti*

# BAKI SLAVYAN UNİVERSİTETİNİN TARİXİNDƏN

***Açar sözlər:*** *Bakı Slavyan Universiteti, rus dili və ədəbiyyatı, tədris, tarix.*
***Ключевые слова:*** *Бакинский славянский университет, русский язык и литература, преподавание, история.*
***Key words:*** *Baku Slavic University, russian language and literature, teaching, history.*

1922-ci ildən SSRİ tərkibinə daxil olmuş Azərbaycan Sovet Sosialist Respublikasında, digər müttəfiq respublikalarda olduğu kimi, ümumi ünsiyyət və dövlət dili olan rus dilini tədris etmək və öyrənmək bir zərurətə çevrilmişdi. 30-cu illərin ortalarında Azərbaycanda icbari yeddiillik təhsil sisteminə keçilməsi müəllim kadrların, dərslik və dərs vəsaitlərinin çatışmaması ilə müşayət olunurdu. Bu dövrdə ölkədə millətlərarası ünsiyyət vasitəsi rolunu oynayan rus dilinə tələbat daha da artmışdı. Bunu nəzərə alan Respublika Hökuməti 1938-ci ildə “Respublikanın qeyri-rus məktəblərində rus dilinin məcburi öyrənilməsi haqqında” xüsusi qərar qəbul etmişdi. Qərara əsasən Xalq Təhsil Komissarlığı və gənclər

təşkilatları orta təhsilli gəncləri səfərbər edərək respublikanın qeyri-rus məktəblərinə işə göndərirdilər. Onların köməyi ilə 1938/39-cu tədris ilində 1864 məktəbdə rus dilindən dərslər təşkil etmək mümkün olmuşdu. Lakin ölkədə yüksək ixtisaslı рус дили мцяллимляри və mütəxəssislərinə ehtiyac təmin olunmurdu. Problemi həll etmək üçün respublikada qısamüddətlı rus dili kursları təşkil edilirdi. Əlbəttə, bu cür kadr hazırlığı yenə də kifayət etmirdi.

Problemi həll etmək üçün Azərbaycanda 1938-1939-cu tədris ilində M.Ə.Sabir adına Pedaqoji məktəb yaradıldı, sonralar isə V.İ.Lenin adına Azərbaycan pedaqoji institutu və Azərbaycan Dövlət Universiteti nəzdində rus dili müəllimlərinin hazırlığına başlanıldı. Bunlar da respublikanın rus dili müəllimlərinə və mütəxəssislərinə olan ehtiyacı ödəmirdi. Bu boşluqları aradan qaldırmaq üçün respublikanın bütün pedaqoji institutlarında qeyri-rus məktəbləri üçün rus dili müəllimləri hazırlayan şöbələr təşkil edildi. Bəzi rayonlarda – Lənkəranda, Şamaxıda M.Ə.Sabir adına Pedaqoji məktəbin şöbələri və Gəncədə K.Tsetkin adına xüsusi Pedaqoji məktəb fəaliyyətə başladı.

Bütün bunları nəzərə alan SSRİ Xalq Komissarları Soveti 1946-cı il 2 fevral tarixli 1313 saylı sərəncam qəbul etdi və Azərbaycan SSR Nazirlər Soveti ona müvafiq olaraq 1946-cı il 15 may tarixli qərar qəbul edərək M.F.Axundov adına ikiillik Azərbaycan Dövlət Müəllimlər İnstitutu yaratdı. Dosent Loginov Aleksey Spiridonoviç onun direktoru (1946-1959), Məmmədov Qulam Kərim oğlu direktor müavini təyin olundular. İnstitutda marksizm-leninizm, rus ədəbiyyatı, azərbaycan dili, pedaqogika və psixologiya kafedraları yardıldı (5, 8). İnstitutda elmlər doktoru və namizədləri çatışmadığından rəhbər vəzifələrə çox vaxt elmi dərəcəsi olmayan mütəxəssisləri təyin edirdilər. Lakin məqsədyönlü və ardıcıl aparılan tədbirlərin nəticəsində artıq 1950-ci ildə institutun səkkiz kafedrasından altısının müdiri vəzifəsini elmi dərəcəlilər tuturdu. İnstitutun gərgin fəaliyyəti nəticəsində həm müəllim kadrların təcrübəsi artır, həm də tələbə qəbulu genişləndirilirdi. Artıq institutun məzunları işə cəlb olunur, kafedra və şöbələrə göndərilirdilər. Bu tədbirlər institutun getdikcə inkişafına və genişlənməsinə şərait yaradırdı.

Lakin ikiillik təhsi sistemi yüksək ixtisaslı və ali təhsilli kadrların yetişdirilməsində kifayət qədər effektli deyildi. Ona görə də M.F.Axundov adına Müəllimlər institutu 1952-ci ildə rus dili müəllimləri hazırlayan pedaqoji instituta çevrildi. SSRİ Nazirlər Sovetinin 15790-P saylı sərəncamına əsasən Azərbaycan SSR Nazirlər Soveti 1952-ci il 24 iyun tarixində qərar qəbul edərək M.F.Axundov adına müəllimlər institutunu Azərbaycan pedaqoji rus dili və ədəbiyyatı institutuna çevrilməsini həyata keçirdi. Həmin ildə İnstituta tələbə qəbulu 200 nəfər təyin edilmiş, onun tədris binası müəyyən edilmişdi. Beləliklə, 1952-ci ildə M.F.Axundov adına ikiillik Müəllimlər İnstitutu dördillik pedaqoji instituta çevrilmişdir. İnstitutda təhsil müddətinin dördillik müəyyən edilməsi, onun tələbə kontingentinin qəbulu planı, tədris binasının ayrılması, digər tədbirlərin həyata

keçirilməsi ilə paralel gedirdi. İnstitut tam səlahiyyətli təhsil müəssisəsi statusu almışdır. Qeyd etmək lazımdır ki, bu təhsil müəssisəsi təşkil olunduğu ilk gündən onun tələbələrinin milli tərkibi daim diqqət mərkəzində olmuş, daha çox azərbaycanlı balalarına üstünlük verilməsi nəzərdə tutulmuşdur.

1953-cü ilin iyun ayının 18-də Azərbaycan SSR Nazirlər Soveti "Respublikanın yeddiillik və orta məktəblərini ali təhsilli mütəxəssis kadrlarla təmin edilməsi"ni qarşıya məqsəd qoydu. Azərbaycanda rus dili üzrə kadrların hazırlanması M.F.Axundov adına Pedaqoji rus dili və ədəbiyyatı institutuna həvalə edildi. Bununla əlaqədar, institutda rus dilininin öyrənilməsinə daha çox fikir verilmişdir. Tələbə qəbulu xeyli artırılmışdır. Onların sayı 1954-cü ildə 445, 1955-ci ildə 1063, 1956–cı ildə artıq 1175 olmuşdur (**5**, 13).. Yeni-yeni fənlərin öyrənilməsi üçün ayrılmış saatların miqdarı artırılmış, müvafiq kafedralar, şöbələr yaradılmışdır.

1956-1957-ci tədris ilində institut beşillik təhsil proqramı ilə işləmək sisteminə keçirilmişdir. Rus dili ilə bağlı olan fənlərin öyrənilməsinə ayrılan saatların miqdarı xeyli artırıldı. Həm də tələbə qəbulunda respublikanın ucqar rayonlarından gənclərin qəbuluna daha çox üstünlük verilirdi. Onların milli tərkibi də nəzərə alınırdı. Yerli gənclərin instituta qəbulunun artması özünün müsbət nəticələrini göstərirdi.

50-ci illərin sonuna olan məlumatlar göstərirdi ki, artıq respublikada ali təhsilli rus dilli mütəxəssislər kifayət qədərdir. Bunlar da öz növbəsində başqa bir problemin həllini günün məsələsi kimi irəli çəkirdi. İnstitutun qarşısında duran vacib məsələ elmi-pedaqoji kadrların hazırlanması sisteminin təkmilləşdirilməsi və institut əməkdaşlarının elmi-professional dərəcələrinin yüksəldilməsi məsələləri dururdu. Bu məqsədlə aspirantura və dissertantura sistemi genişləndirildi. Elmi-tədqiqat işləri ilə məşğul olmaq üçün əməkdaşlara yaradıcılıq məzuniyyətləri verilirdi. Bu zaman Moskva, Lenuinqrad və ölkənin digər aparıcı ali məktəblərinin və elmi-tədqiqat institutlarının imkanlarından geniş istifadə edilirdi. Nəticədə elmi dərəcəli mütəxəssislərin sayı ildən-ilə artırdı. Yalnız 1953-1958-ci illər ərzində 10 nəfər institut əməkdaşı rus dili üzrə namizədlik dissertasiyasını müdafiə edib, doğma institutda çalışırdı (5, 14).

Tarixinin ilk dövründə Rus dili və ədəbiyyatı müəllimləri hazırlamaq üzrə İnstitut respublikada xüsusi aparıcı rol oynadı və böyük bir təhsil müəssisəsinə çevrildi. Onun hazırladığı rus dili müəllimləri ölkənin orta məktəblərini rus dili mütəxəssisləri ilə təmin edə bilirdi. Təkcə 1952-1959-cu illərdə institutun divarları arasında dörd mindən çox rus dili müəllimi hazırlanmış və məktəblərdə çalışmağa başlamışdılar.

1959-cu ilin 14 aprelində Azərbaycan KP MK və respublikanın Nazirlər Soveti "Azərbaycan SSR-də ali pedaqoji məktəbin profili haqqında" qərar qəbul edərək M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu və Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu bazaları əsasında M.F.Axundov

adına Azərbaycan Pedaqoji Dillər İnstitutu yaradılmışdır (5, 15). Əvvəlki illərdə İnstitutun rektor müavini vəzifəsində çalışan Məmmədov Qulam Kərim oğlu İnstititun rektoru vəzifəsinə (1959-1966) təyin olunmuşdur. Bundan sonra M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutu respublikada rus dili və ədbiyyatı, Avropa dilləri - alman, ingilis və fransız dilləri üzrə yüksək ixtisaslı pedaqoji kadrların hazırlanması mərkəzinə çevrildi. Həmin dövrdə institutda artıq 15 kafedra fəaliyyət göstərirdi. Göründüyü kimi, 60-cı illərdə İnstitut çox profilli, çoxsahəli böyük bir elmi-pedaqoji və dillər üzrə elmi-metodik və elmi-tədqiqat mərkəzinə çevridi. Həm də beynəlxalq aləmdə tanınmağa başladı. Afrika, Asiya və digər yeni müstəqillik əldə etmiş dövlətlərin vətəndaşları institutun nəzdində yaradılmış hazırlıq kurslarını bitirərək respublikanın ali təhsil ocaqlarında müxtəlif ixtisaslara yiyələnir və vətənlərinə ali təhsilli mütəxəssis kimi dönürdülər. Bu dövrdə institun rəhbərliyinə Abdullayev Ağaməmməd Səməd oğlu (1966-1970) gətirilmişdi.

Azərbaycan respublikasının, xalqımızın müasir tarixində 1969-cu il dönüş nöqtəsi kimi yadda qalmışdır. Həmin ilin avqust ayında Heydər Əlirza oğlu Əliyev respublikanın rəhbərliyinə gətirildi. Bununla da böyük dövlət xadimi və görkəmli siyasətçisi Heydər Əliyev respublikamızın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatının inkişafı naminə iri miqyaslı planların və proqramların hazırlanmasında və həyata keçirilməsində misilsiz xidmətlər göstərmişdir. Onun Azərbaycan təhsilinə, maarifinə, elminə və mədəni irsinə göstərdiyi diqqət bu sahələrin daha da inkişafı üçün proqram xarakteri daşıyırdı (2, II c.,216). H.Əliyev rus dilinin imkanlarının daha çox olduğunu qiymətləndirir və bu imkanlardan səmərəli istifadə edilməsinin tərəfdarı idi. O, deyirdi: “Axı rus dili böyük dildir, Rusiya böyük dövlətdir. Rusiyadan kənarda, başqa dövlətlərdə də rus dilində oxuyurlar. Əgər məktəblilərimiz ingilis, fransız, alman dillərində dərs keçirlərsə, bu, böyük nailiyyətdir, əgər rus dilində də təhsil alırlarsa, bu da nailiyyətdir” (2, I c., 157). İnstitut rəhbərliyində 1970-ci ildə aparılan dəyişikliklər də buna yönəlmişdi. Respublikada rusistika elminin banisi sayılan professor Tağıyev Məmməd Tağı oğlu (1970-1972) institutun rektoru təyin edilmişdi. Onun fəaliyyəti institutun inkişafı və genişlənməsi ilə bağlı olmuşdu.

Prezident H.Əliyev Azərbaycanın təhsil sisteminin inkişafının, təkmilləşdirilməsinin və genişləndirilməsinin zəruri olduğunu, xalqımız üçün müstəsna əhəmiyyət kəsb etdiyini dəfələrlə qeyd etmişdir. Azərbaycan təhsilinin inkişafı ilə bağlı qəbul edilmiş fərmanlar və sərəncamlarda, öz çıxışlarında ulu öndər təhsilimizin dövrün tələblərinə cavab verəcək səviyyəyə qaldırılması üçün bütün imkanlardan istifadə edilməsini tövsiyə edirdi.

Respublikanın rəhbəri H.Əliyev Azərbaycan təhsilinə daim qayğı ilə yanaşır və onun inkişafına xüsusi diqqət yetirirdi. Onun təşəbbüsü və Azərbaycan hökumətinin 2 noyabr 1972-ci il tarixli 362 saylı qərarı ilə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutu bazasında M.F.Axundov adına Azərbaycan

Rus Dili və Ədəbiyyatı instititutunu bərpa edildi. İnstitutda rus dilinin və onunla bağlı digər fənlərin öyrənilməsinə, təkmilləşdirilməsinə və xüsusi proqramların həyata keçirilməsinə imkanlar yaradıldı. İnstitutun yeni rektoru Məmmədov Əliağa Novruzəli oğlu (1972-1982) dövründə institutun elmi-metodik və elmi tədqiqat fəaliyyəti daha da yüksəlmiş və qarşıya qoyulmuş məsələlərin həllində öncül cərgədə dururdu. İnstitut rəhbərliyi ölkənin məktəblərində yaranmış vəziyyəti nəzərə alaraq Azərbaycan SSR Ali təhsil nazirliyi qarşısında məsələ qaldıraraq institutda iki fakültənin: 1 saylı rus dili və ədəbiyyatı fakültəsi və Azərbaycan dilli məktəblərə rus dili müəllimləri hazırlamaq üçün 2 saylı rus dili və ədəbiyyatı fakültəsi yaradılması təşəbbüsünü irəli sürdü. Bu məzmunda yaradılmış fakültələr 2000-ci ilə qədər fəaliyyət göstərdilər. Eyni zamanda institutda müəllimlərin biliklərinin təkmilləşdirilməsi məqsədi ilə ixtisasartırma və yenidən ixtisasalma fakültəsinin yaradılması da mühüm və müsbət əhəmiyyət daşıyırdı. Bu dövrdə həm də Azərbaycan dilinə və Azərbaycan tarixinin öyrənilməsinə ayrılan saatların miqdarı da artırıldı.

F.T. Sultanzadə (1982-1988), B.H. Tahirbəyov (1988-1990) və F.H. Hüseynovun (1990-1997) İnstituta rəhbərliyi dövröndə on minlərlə rus dili və ədəbiyyatı üzrə yüksək ixtisaslı mütəxəssilər hazırlamış və respublikanın rus dili müəllimlərinə olan ehtiyacını ödəməyə çalışılmışdır. Bundan əlavə institutun yetirmələri elmi-tədqiqat mövzuları üzərində axtarışlar apararaq namizədlik və doktorluq dissertasiyaları müdafiə etmişlər. Onların arasında görkəmli elmlər doktorları, professorlar Tağıyev M.T., Babayev H.B., Bədəlov Ç.Ə., Mahmudov A.R., Sadıxov M.Z., Svariçevski A.A., Vəkilova L.Q., Əliyev Ə.Ə., Həsənov A.Ə., Mirzəyev R.S., Cəfərova L.Ə., Qocayev M.Q., Novruzov R.M., Şükürov T.H.,Hüseynov F.H., Qranovskaya L.M., Quliyeva R.H., Həmidov İ.H., Azizov R.İ., Nadjiyeva F.S.,Şahbazova A.E., və digərləri bu şərəfə çatmışlar. İctimai elmlər üzrə görkəmli professorlar İmanov Y.İ., Rzaquliyev O.M., Şəfiyev S.Ə., Məmmədov C.R. və b. institutun fəxrləri sayılırlar.

Sovetlər İttifaqının 70 ili ərzində Azərbaycanın dünya xalqları, o cümlədən Slavyan və Şərqi Avropa dövlətləri ilə bütün əlaqələri yalnız rus dili vasitəsilə həyata keçirilirdi. Bu ali təhsil mərkəzi vasitəsilə Azərbaycan elmi və mədəni nailiyyətləri beynəlxalq aləmə yol açmış və dünya xalqlarının mədəniyyətlərini zənginləşdirmişdir. Eyni zamanda Azərbaycan xalqı da öz növbəsində rus dili vasitəsilə dünya mədəniyyətlərindən bəhrələnmişdir.

Lakin Azərbaycan müstəqillik qazandıqdan sonra vəziyyət kökündən dəyişdi. Müstəqil Azərbaycan bundan sonra dünya dövlətlərilə beynəlxalq əlaqələr sisteminə daxil oldu. Respublikamız dünya, o cümlədən Slavyan xalqları ilə birbaşa əlaqələr yaratmaq zəruriyyəti ilə qarşılaşdı. Bakı Slavyan Universitetinin (BSU) Respublikanın Prezidenti Heydər Əliyev tərəfindən yaradılması məhz yeni şəraitin tələblərindən doğan bir tədbir idi.

Nəticədə Azərbaycan Respublikasının Prezidenti H.Əliyev 2000-ci il 13 iyun tarixli fərmanı verərək, profili genşləndilməklə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu bazasında Bakı Slavyan Universiteti yaradılmışdır. Univesitetin yaradılması ilə bağlı Ulu öndər H.Əliyev qeyd edirdi: "1972-ci ildə biz, bütün atributları olan xüsusi, ən yüksək səviyyəli institut yaratdıq. İndi isə bu, Slavyan Universitetidir. Düşünürəm ki, bu universitetin böyük gələcəyi, böyük perspektivi var. ...hər bir xalq üçün dillərin, ümumən xarici dilin əhəmiyyəti, azərbaycanlılar üçün, Azərbaycan gəncləri üçün rus dilinin əhəmiyyəti azalmadı, əksinə, artdı. İndi rus dilini bilmək, digər Avropa dillərini də bilmək indi çox böyük əhəmiyyətə malikdir. Odurki, biz bu universitetə çox böyük ümidlər bəsləyiyirik" (4, 321). Bakı Slavyan Universitetinin ilk rektoru vəzifəsinə professor Kamal Mehdi oğlu Abdullayev (2000-2014) təyin olundu.

Bakı Slavyan Universitetinin kollektivinə Prezident H.Əliyev böyük ümidlər bəsləyirdi. H.Əliyev göstərirdi ki, bu kollektivdə çalışan insanlar universitetin ən yaxşı nümayəndələridir, millətimizin qaymağıdır. Bu təhsil ocağında çalışanlar rus dilinin Azərbaycan gənclərinə öyrədilməsində, Azərbaycan məktəbləri üçün rus dili müəllimlərinin hazırlanmasında, rus dilinin həm keçmişdə, həm də indi xalqımız üçün mühüm əhəmiyyət kəsb etməsində, onun Azərbaycanda layiqli yer tutmasında bir deyil, bir neçə on illər xidmət göstərmiş adamlardır (4, 320). Ulu öndər bu universitetin böyük gələcəyi, böyük perspektivi olduğunu xüsusilə qeyd edirdi.

Universitet statusu alana kimi İnstitut rus dili və ədəbiyyatı müəllimi hazırlayan 2 fakültədən ibarət idi. Universitet statusu almış ali məktəb bu fakültələrin mütəxəssis hazırlığı profilini daha da dəqiqləşdirərək onları pedaqoji və filologiya fakültələri kimi formalaşdırdı. İslahatlar proqramı davam etdirilərək Universitetdə 2000-ci ildə yeni fakültələr yaradıldı. Həmin ilin oktyabr ayında yaradılmış «Regionşünaslıq və Tərcümə» fakültəsi Universitetin perspektiv inkişaf yolunda atılan addım idi. Prezident H.Əliyev təhsilimizin dövrün tələblərinə cavab verəcək səviyyəyə qaldırılması üçün bütün imkanlardan istifadə edilməsini tövsiyə edirdi. Təhsil sistemində islahatların aparılmasına böyük diqqət yetirən Ulu öndər göstərirdi ki, təhsil sistemində islahatların əsas məqsədi ondan ibarətdir ki, "Azərbaycanın təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşdırılsın. Əgər biz bu yolla gediriksə, qısa bir zamanda Azərbaycan təhsil sistemini dünya standartlarına çatdıra bilərik.." Onun proqram xarakterli nitq və çıxışlarında müstəqil Azərbaycanın təhsilinin inkişafı üçün bütöv bir konsepsiya öz əksini tapmışdır. Prezident H.Əliyev 2001-ci il 1 sentyabrda Bakıda məktəb kompleksinin açılışındakı nitqində göstərirdi ki, təhsil sistemi Azərbaycanın gələcəyini təmin edən bir sistemdir. Hər bir millətin, hər bir ölkənin gələcəyi gənclərdir. Biz gənclərimizi nə qədər yüksək təhsilli etsək, həqiqi yüksək təhsilli etsək, onların müəyyən ixtisaslara mükəmməl yiyələnməsinə şərait yarada bilsək, müstəqil

Azərbaycanın gələcəyi və demək, müstəqil Azərbaycanın inkişafı, elminin inkişafı, təhsilinin inkişafı, insanlarının rifah halı bir o qədər də yaxşı olacaqdır (4, 415).

2001-ci ildə Filologiya fakültəsi tərkibində «Filologiya-Azərbaycan dili və ədəbiyyatı» ixtisası üzrə mütəxəssislərin hazırlanmasına başlanıldı. Fakültədə çalışan yüksək ixtisaslı mütəxəssis-kadrların olması buna tam mənası ilə imkan verirdi. Universitetin perspektiv inkişaf və islahatlar planı durmadan həyata keçirilirdi. Fakültələrin profillərini düzgün müəyyənləşdirmək üçün kafedraları da təkmilləşdirmək və ixtisasyönumlu etmək yolu ilə hərəkət edilirdi. 2004-cü ilin oktyabrında Regionşünaslıq və Tərcümə fakültəsi bazası əsasında 2 yeni: «Beynəlxalq münasibətlər və regionşünaslıq» və «Tərcümə» fakültələri yaradıdı.

Slavyan dilləri üzrə geniş profilli mütəxəsislərin yetişdirilməsi Azərbaycanda ilk dəfə olaraq bu universitetdə həyata keçirilirdi. Universitetin univesallığı və unikallığı da bunlarla müəyyən edilirdi. Universitet üzrə 1999-cu ildən "regionşünaslıq" ixtisası üzrə tələbə qəbulu həyata keçirilməyə başlanmış və 2003-cü ildə "Regionşünaslıq" (Rusiyaşünaslıq, Yunanşünaslıq) ixtisaslarına yiyələnmiş bakalavrların ilk buraxılışı olmuşdur. Bakı Slavyan Universitetində regionşünaslıq üzrə aşağıdakı ixtisaslarda mütəxəssis hazırlığına başlanılmışdır.

- ✓ 1999-cu ildən Rusiyaşünaslıq və Yunanıstanşünaslıq,
- ✓ 2000-ci ildən Polşaşünaslıq, Bolqarıstanşünaslıq, Çexiyaşünaslıq,
- ✓ 2001-ci ildən Ukraynaşünaslıq, Slovakiyaşünaslıq,
- ✓ 2002-ci ildən Azərbaycanşünaslıq,
- ✓ 2003-cü ildən isə Türkiyəşünaslıq

Regionşünaslıq ixtisası üzrə magistratura pilləsi 2003-cü ildən açılmışdır.

- 2004-ci ildən Polşaşünaslıq, Bolqarıstanşünaslıq, Çexiyaşünaslıq,
- 2005-ci ildən Ukraynaşünaslıq, Slovakiyaşünaslıq,
- 2006-cı ildən Azərbaycanşünaslıq,
- 2007-ci ildən isə Türkiyəşünaslıq

Təşkilati tədbirlər və yeni islahatlar həyata keçirilməkdə davam edirdi. Universiteti gələcəkdə qabaqcıl ali təhsil müəssisəsi səviyyəsinə yüksəltmək üçün və unikal ali məktəbə çevirməkdən ötrü başlanılmış planları həyata keçirmək və onları daha da genişləndirmək yolunda aparılan işlər öz bəhrəsini verirdi. 2000-ci ildə universitetin Elmi Şurası "Universitetin **Fəxri Doktoru**" adını qəbul etdi və bu titulu universitetin qonaqlarına, görkəmli dövlət və ictimai xadimlərinə, xalqlar arasında əlaqələrin möhkəmləndirilməsində mühüm rol oynamış şəxslərə verməyi qərara aldı. Bu şərəfə ilk dəfə Rusiya Federasiyasının prezidenti V.V.Putin layiq görül. Prezident H.Əliyev 2001-ci il yanvarın 10-da BSU-nun "Fəxri Doktor" diplomunu ali qonağa təqdim etdi. Bundan sonra bu titula Ukraynanın Ali Radasının Sədri İ.S.Plyuş (fevral, 2001), Moskva və Bütün Rusiyanın Patriarxı II Aleksi (may, 2001), Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının Sədri S.M.Mironov (may, 2002), Bolqarıstan Respublikasının eks-prezidentı

J.Jelev (oktyabr, 2002), Yunanıstan Respublikasının eks-prezidentı K.Stefano-pulos (iyun, 2004), Bolqarıstan Respublikasının prezidenti G.Pırvanov (sentyabr 2004), Ukrayna Republikasının eks-prezidenti V.A.Yuşşenko (sentyabr, 2006), Polşa prezidenti L.Kaçinski (2009) də layiq görülmüşlər.

Universitetin elmi potensialı, yüksək ixtisaslı kadrların mövcudluğu, maddi-texniki bazanın olması burada ixtisasartırma və yenidənhazırlanma problemlərini həyata keçirməkdən ötrü belə bir fakültənin yaradılmasını zəruri etdi. Universitetdə 2002-ci ildə «İxtisasartırma və yenidənhazırlanma» fakültəsi işi yenidən quruldu. Fakültədə yalnız orta məktəblərdə çalışan rus dili müəllimləri ixtisaslarını artırmır, eyni zamanda başqa ixtisaslara da yiyələnirlər.

2003-cü ilin 18 aprelindən BSU-da Ali Attestasiyası Komissiyası tərəfindən təsdiq edilmiş doktorluq və namizədlik dissertasiyalarının müdafiəsi üzrə xüsusi Dissertasiya Şurası (D 02.071) fəaliyyətə başladı. 2004-cü ildən, 25 illik fasilədən sonra «Bakı Slavyan Universitetin Elmi əsərləri» yenidən dərc edilməyə başlamışdır. Elmi əsərlər 2 istiqamətdə: «Dil və ədəbiyyat» və «İctimai və siyasi elmlər» şəklində dərc olunur. Universitetin bu nəşri əməkdaşların əsər və məqalələrinin çap edilməsi şansını artırdı. 2000-ci ildən «Tələbə dünyası» qəzeti çıxmağa başladı.

1997-ci ildən fəaliyyətə başlayan magistratura pilləsində də islahatlar keçirilmişdir. Magistratura pilləsində yeni-yeni ixtisaslar üzrə mütəxəssislər hazırlığı genişlənmişdir. Qiyabi şöbə ayrıca fəaliyyət göstərirdi. Universitetdə 2000-ci ildə yaradılmış hazırlıq şöbəsində azərbaycan, türk, ərəb, fars, yunan, ingilis, alman, fransız, ispan, italyan və slavyan xalqlarının dilləri üzrə azərbaycanlı şagirdlər öz biliklərini artırırlar.

Ulu öndər Azərbaycanın Avropa məkanında gedən dəyişikliklərlə ayaqlaşmağı, yeni yaranmış mütərəqqi metod və üsullardan bəhrələnməyi təhsil işçiləri qarşısında vacib məsələ kimi qoyurdu. Onun siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev 2008-ci ildə Azərbaycan "Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanina inteqrasiyası" ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam verərək 2008-2012-ci illərdə bu istiqamətdə həyata keçiriləcək tədbirlər proqramının hazırlanmasını irəli sürmüşdür (6, Xalq qəzeti, 2008, 31 yanvar).

Ulu öndər tərəfindən təhsil sahəsində hazırlanmış konsepsiya Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə həyata keçirilir. 2004-cü ilin 4 oktyabrında «Azərbaycan müəllimlərinə» müraciətində Azərbaycan təhsil sitemində aparılan islahatların xalqımız üçün əhəmiyyətindən bəhs edən Prezident İlham Əliyev iftixar hissi ilə qeyd etmişdir ki, zəngin maarifçilik ənənələrinə malik təhsil sistemimiz aparılan islahatlar nəticəsində bu gün müasir beynəlxalq standartlara cavab verməkdədir. O, Azərbaycan müəllimlərinin XXI yüzillikdə Milli təhsilin davamlı inkişafı və dünya təhsil siteminə inteqrasiyası üçün əllərindən

gələni edəcəklərinə, bu sahədə artıq dönməz xarakter almış islahatlar prosesini uğurla davam etdirəcəklərinə əmin olduğunu bildirmişdir (4, 781).

Universitet qarşıya qoyulan təhsil problemlərini həyata keçirməkdə yeni-yeni yollar axtarır və mütərəqqi elmi-metodik üsulların daha da dərinləşməsi istiqamətində inkişaf edirdi. Bu dövrdə universitetin rəhbərliyinə professor Asif Abbas oğlu Hacıyev (2014-2016) gətirildi.

"Azərbaycanın ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqinda" 2008-ci ilin yanvarında Prezident İ.Əliyevin qəbul etdiyi Sərəncamda Azrbaycan təhsilinin Avropa məkanına inteqrasiyasına geniş yer verilir və əsas vəzifələr müəyyənləşdirilir. Orada ali təhsilin bütün sahələrinin hərtərəfli inkişafı, Avropa və dünya təhsil sisteminə qoşulması, bu işin, əlbəttə ki, düzgün seçilmiş kadrların üzərinə düşdüyü vurğulanır.

Universitetin rektorluğunun və Elmi Şuranın fəaliyyət dairəsi çoxcəhətli və müxtəlif istiqamətləri əhatə edirdi. Elmi işləri daha da canlandırmaq üçün və elmi axtarış işlərinin genişləndirilməsi naminə Universitetdə magistratura pilləsindən sonra doktorantura və dissertantura da fəaliyyət göstərir. Bu pillələrdə universiteti bitirmiş mütəxəssislər bir çox sahələrdə ixtisaslarını artırır, günün tələblərinə cavab verəcək kadrlar cərgəsinə qatılırlar. Universitetin adları çəkilən qurumlarında 150-dən çox tədqiqatçı namizədlik və 40 elmlər namizədi doktorluq dissertasiyaları üzərində çalışır. Təkcə 2002-ci ildə Müdafiə Şurasında 28 nəfər rus dili, rus ədəbiyyatı və dil nəzəriyyəsi ixtisasları üzrə namizədlik dissertasiyaları müdafiə etmişlər.

Universitetin fəaliyyətini daha da səmərəli etmək,elmi-tədqiqat işlərini daha da zənginləşdirmək, tədris sistemini daha da yüksəltmək üçün 2016-cı il iyul ayının əvvəllərində BSU rəhbərliyi daha da möhkəmləndirildi. Professor Əliyeva Nurlana Müzəffər qızı Bakı Slavyan Universitetinə rektor təyin edildi. Yeni rektor fəaliyyətinin ilk günlərindən universitetin problemləri ilə yaxından məşğul olmağa başladı. İlk növbədə universitetin maddi-texniki bazasını nizama salmaq yolunda böyük dəyişikliklər edildi. Binaların xarici və daxili görünüşü kökündən dəyişdirilərək müasir tələblərə cavab verən üslubda tərtib olundu. Universitetin akt zalı yenidən quruldu, orada dünya standartlarına cavab verən avadanlıq yerləşdirildi. Universitetin struktur sistemində köklü islahalar həyata keçirildi.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev. Müstəqillik yollarında (4 cilddə), "Azərbaycan" nəşriyyatı, Bakı, 1997.
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. (I, II, III cildlər). Buraxılışa məsul Ramiz Mehtiyev, Bakı, 2003.
3. Xudiyev N. İlhamla Sabaha.Bakı, 2002, Azərbaycan nəşriyyatı
4. Azərbaycanın təhsil siyasəti 1998 – 2004. -Bakı, 2005,Ic., - 832 s .

5. Çıraqzadə V. İnstitutun tarixindən. M.F.Axundov adına Azərbaycan Rus Dili və Ədəbiyyatı institutunun (1946 – 1996). 50 illiyi, (rus dilində), Bakı, Mütərcim,1996. – 160 s.
6. Xalq qəzeti, 2008, 31 yanvar
7. "Tələbə dünyası" BSU-nun qəzeti 27 fevral, 2010

## РЕЗЮМЕ

В статье кратко изложена история Бакинского славянского университета с момента его создания до сегодняшних дней. С 1946 года был создан двухгодичный учительский институт, а 50-гг. 4-х годичный и 5-и годичный институт русского языка и литературы. В 2000 году институт получил статус Бакинского славянского университета.

## SUMMARY

The artikle talks about the short history of the institute of the Russian language – Baku Slavic University since its establishment up to prezent days. It is noted that the institute had a two-year course in 1946, four and fiev-year cours in the 50s. BSU, which was created in 2000, was the continuation of further development of the Russian and Slavic languages in Azerbaijan.

Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası | 2016-№1 | Серия общественно-политических наук

**ƏSGƏR ƏHMƏD**
*Bakı Slavyan Universiteti*

# XIX ƏSR VƏ XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN MAARİFÇİLƏRİNİN DÜNYAGÖRÜŞÜNDƏ TOLERANTLIQ VƏ MULTİKULTURAL İDEYALAR

*Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və ləyaqət şəraitində bir ailə kimi yaşamışlar...*
***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Açar sözlər:*** *tolerantlıq, multikultural ideyalar, Şərq-qərb, maarifçilik, mədəniyyətlərarası dialoq*

***Ключевые слова:*** *толерантность, мультикультурные идеи, восток - запад, просвещение, межкультурный диалог*

***Key words:*** *tolerance, multicultural ideas, East - West, enlightenment, intercultural dialogue*

XIX əsri Azərbaycan tarixində yeni dövr kimi xarakterizə etmək mümkündür. Çünki, bu yeni dövr Azərbaycanın ictimai-siyasi, sosial-fəlsəfi fikir tarixində bir sıra yeniliklər və mütərəqqi istiqamətlərlə yadda qalıb. Məhz, bu dövrdən etibarən ictimai menyuya qabaqcıl ziyalılarımız tərəfindən xalqımızın öz milli kimliyini dərk edə bilməsi, cəhalət girdabından xilas olmaq, cəmiyyətin inkişafına kömək edə biləcək dünyadakı yeniliklərdən faydalana bilməsi və s. yöndə ideyalar təklif olunmuşdur.

Azərbaycan maarifçiliyinin multukulturalizm ideyaları ilə də üst-üstə düşən, səsləşən mühüm xüsusiyyətlərindən biri başqa xalqların mədəniyyətinə

sayğı və mədəni yeniliklərdən faydalanmaq istəyidir. Onlar ölkənin tərəqqisi naminə dünya mədəniyyətinin qabaqcıl nümunələrinin Azərbaycanda tətbiqinin tərəfdarı olub, ölkə ərazisində yaşayan xalqların bir arada, dostluq şəraitində, ədavətsiz yaşamalarını istəyirdilər. Bu əsasda mühüm istiqamətlərdən biri Şərq və Qərb dəyərlərinin qarşılaşdırması, onların dialoqunun qurulması cəhdləri ilə bağlıdır. Düzdür, bu qarşılaşdırmada Qərb dəyərlərinin müasirliyi və ümumbəşəri xarakteri ön plana çəkilir və ondan faydalanmanın yolları aranırdı. Onlar dərk edirdilər ki, Şərqin qalxınmasında, cəhalətdən və gerilikdən xilas olunması yolunda bu qabaqcıl mədəni nailiyyətlərin tətbiqinin mühüm rolu vardır. Əlibəy Hüseyzadə yazırdı: "Biz avropalıların özlərinə deyil, ədəbiyyatlarına, sənayelərinə, elm və maariflərinə, kəşf və ixtiralarına müraciət etmək istəyirik. Biz istəyirik ki, islam-türk ölkəsinə onların boğazları, mədələri girməsin, beyinləri girsin! Biz istəyirik ki, ölkəmiz onların mədələrində həzm olunmasın, özü onların beyinlərini həzm etsin! Bu gün biz onların mədələrində həzm olunmamaq üçün bir çarə varsa, o da onların beyinlərinin məhsulunu alıb həzm etməkdən ibarətdir" (22). Təbi ki, eyni zamanda Şərq mədəniyyətinin nailiyyətləri və müsbət cəhətləri də unudulmurdu. Ə. Ağaoğlu "Kaspi" qəzetinin 1900-cu il 24 iyun sayında dərc etdirdiyi "Şərqşünaslıq cəmiyyəti" adlı yazısında bu məsələyə toxunaraq yazırdı: "Biz dəfələrlə Şərqin, onun dilinin, ədəbiyyatının, tarixinin, məişətinin, dinlərinin və ənənələrinin hərtərəfli öyrənilməsi mənasında şərqşünaslığın əhəmiyyətini, zəruriliyini qeyd etmişik. Bu, Şərqlə Qərb arasındakı qarşılıqlı anlaşılmazlığı, birbirinə biganəlik pərdəsini aradan qaldırmağa aparan yeganə yoldur" (4). Bu mədəniyyətlərin qarşılıqlı dialoqu və təsiri Azərbaycanın sonrakı inkişafında da öz sözünü dedi. Şərqdə bir çox ilklərə imza atan Azərbaycan xalqı (ilk opera, ilk demokratik respublika və s.) bunlara görə, həmin mədəniyyətləri bir araya gətirərək uzlaşdıran, ondan qarşılıqlı fydalanmanı saxlayan Azərbaycan maarifçilərinə borcludurlar.

Azərbaycan maarifçiliyi özünün formalaşması dövründə Avropa maarifçiləri kimi cəmiyyəti geriliyə və cəhalətə sürükləyən radikal dinçiliyə və mövhumata qarşı mübarizə aparmaq məcburiyyətində idi. Azərbaycan maarifçilərinin ən böyük xidmətlərindən biri də dini xurafatı kəskin tənqid atəşinə tutmaqla islamın siyasiləşmə imkanlarını məhdudlaşdırmaları ilə bağlıdır. Çünki, cəmiyyəti cəhalətə və geriyə sürükləyən radikal dinçiliyin və mövhumatın siyasi qüvvəyə çevrilməsinin ağır nəticələri hamıya məlumdur. Bununla bağlı dünya praktikasında çoxlu faktların olması məlumdur. Qeyd edək ki, Azərbaycan maarifçilərinin radikal dinçiliyə və mövhumata qarşı apardıqları mübarizə nəticəsində sonrakı onilliklərdə Azərbaycanda loyallığı və tolerantlığı ilə fərqlənən, siyasi iddialardan uzaq islamın mövqelərini bir xeyli gücləndirdi. O dövrün intellektualları dinin insanların mənəvi həyatı ilə bağlı olduğunu irəli sürür və onların etiqad və inanclarını sərbəst surətdə seçə biləcəyi bir cəmiyyətin qurulmasını arzulayırdılar. Y.V.Çəminzəminli "Biz kimik və istədiyimiz nədir?" adlı məqaləsində bu proble-

mə toxunaraq yazırdı: «Din insan ilə Allahın əlaqəsinə dair bir şeydir. Din bir müqəddəs yoldur ki, insanın gizli sirlərini, dua və diləklərini Allah hüzuruna aparır. Bu yolu hərə özünə bir növ təsvir eliyor. Din bir alətdir ki, oraya dünya qanunlarının qarışmağı lazımsızdır. Allah ilə insanın arasına girmək insanın azadlığına xətər yetirər. Ona görə Azərbaycanda etiqad və inamlara zor olmayacaq: hər kəs hansı məbədə üz döndərəcək döndərsin. Bizə onun sadiq vətən xadimi olması lazımdır» (16, 7)

XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda yenlikci və modernist ideyaların yayğınlaşmasında, eləcə də mövcud tolerantlıq və multikultural ənənələrin möhkəmlənməsində Mirzə Kazımbəy, M.F. Axundzadə, Həsən bəy Zərdabi, Əli bəy Hüseyzadə, Əhməd bəy Ağaoğu, M.Ə.Rəsulzadə, Y.V.Çəminzəminli, Ə.Topçubaşov və s. kimi bir çox digər intellektualların əvəzsiz xidmətləri olmuşdur. Onlar Azərbaycan ictimai fikrini bu ideyalarla zəngilədirərək Azərtbaycan xalqını mütərəqqi dünyanın çağrışlarına cavab verə bilən və İslam Şərqində bir sıra ilklərə imza atan xalq kimi dünyaya tanıtdırdılar.

**Mirzə Məhəmməd Əli Hacı Qasım oğlu**. XIX əsr Azərbaycan elminin ən böyük nümayəndələrindən biri Mirzə Kazım bəydir. Mirzə Məhəmməd Əli Hacı Qasım oğlu (rusca Aleksandr Kazımoviç Kazımbek 1802– 1870) çox maraqlı, və keçməkeşli həyat tarixcəsinə malikdir. Şərq (türk-azərbaycan, ərəb, fars) və Qərb dillərinin (ingilis, fransız, alman və qismən yəhudi dilləri) gözəl bilicisi olan Kazım bəy öz çalışqanlığı və istedadı sayəsində, 33 yaşında artıq Rusiya Elmlər Akademiyasının müxbir üzvü seçilmişdi. Xatırladım ki, o bu yüksəkliyə mədrəsə şagirdliyindən, heç bir ali təhsil almadan yüksələ bilmişdir. O L.N.Tolstoy və N.Q.Çernışevskiyə Şərq dillərini öyrətmiş, N.İ.Lobaçevski və başqaları kimi böyük rus intellektualları ilə yaxınlıq etmişdir. Mirzə Kazımbəyin "Türk-tatar dilinin qrammatikası" (Kazan, 1839), "Müsəlman qanunşünaslığı kursu" (Kazan, 1845), «Firdovsi əsərlərində fars mifologiyası» (SPb, 1848), "Dərbəndnamə" (SPb, 1851), «Müridizm və Şamil» (SPb, 1859, «Bab və babilər» (SPb, 1865) və s. kimi 100-ə qədər dərin məzmunlu elmi əsərləri ona dünya şöhrəti qazandırır. O şərqşünaslıq elminə verdiyi töhfələrə görə Britaniya Kral Asiya Cəmiyyəti, Kopenhagen Kral Şimal Antikvar Cəmiyyəti, Fransada Asiya Cəmiyyəti, Amerika Elmlər Akademiyası, Almaniya Şərqşünaslar Cəmiyyəti, Amerika Fəlsəfə Cəmiyyəti, Rusiya Elmlər Akademiyası və s. kimi beynəlxalq elmi qurumların üzvü seçilmişdi.

Məlumdur ki, müxtəlif mədəniyyətlərin bir arada yaşaya bilmə özəllikləri, bir-birinin mədəni dəyərlərindən faydalanma multukulturalizmin başlıca prinsiplərindədir. Mirzə Kazımbəyin də yaradıcılığında Şərq və Qərb uyqarlıqları arasındakı münasibətlərin araşdırlması məsələləri mühüm istiqamətlərindən birini təşkil edir. Şərq və Qərbi dərindən bilməsi ona bu iki sivilizasıyanın uzlaşan nöqtələrini və əksikliklərini müəyyənləşdirməyə imkan verirdi. O çox yaxşı dərk edirdi ki, bu iki sivilizasiyanın yaxınlaşması və bir-birindən nələrisə əxz etməsi

onları qarşılıqlı surətdə zənginlədirir və bütövlükdə bəşəriyyətin tərəqqisinə xidmət edir. Görkəmli rus filosofu M.M.Baxtin müxtəlif mədəniyyətlərin qarşılıqlı dialoji təsir nəticəsində bir-birini zəngiləşdirməsi məsələsinə toxunaraq yazırdı: «Bir məna digəri ilə qarşılaşan anda özünün əsl mahiyyətini açıqlayır və onlar arasında dialoq başlayır və bu dialoq bu mədəniyyətə məxsus fikirlərin bitərəfliyini və qapalılığını aradan qaldırır. İki mədəniyyətin belə dialoji qarşılaşmasında onlar bir-birinə qarışmır və bir-birini təkzib etmir, hər biri özünün vahidliyini və bütövlüyünü saxlayır, lakin onlar qarşılıqlı əlaqədə bir-birini zənginləşdirirlər» (15, 334-335). Baxtinə görə mədəniyyət öz-özlüyündə dialoji xüsusiyyətə malik olub və dialoqun bir formasıdır, müxtəlif mədəniyyətin nümayəndələrinin kommunikasiya məkanıdır.

Şərq və Qərbi dərindən bilməsi onu müasirlərinin bir çoxlarından fərqləndirən üstün cəhətlərdən biri idi. Məhz, bu cəhət Kazımbəyə kömək edir ki, Şərq-Qərb dialoqunun qurulmasında yaxından iştirak etsin və Şərqə qarşı yönəlmiş, haqsız hücumların qarşısının alınmasında fəal rol oynaya bilsin. O xristianlığı qəbul etməsinə baxmayaraq, Şərq dünyasını tanıtmaq və təbliğ yolunda böyük işlər görmüşdür. Böyük alim Qərbdən öyrənməyin tərəfdarı kimi çıxış etsə də, anlayırdı ki, Şərqin oyanışı, dirçəlişi şərqlilərin özləri tərəfindən həyata keçirilməlidr. O yazırdı: «Qərb öz siyasəti ilə Asiyada maarifi bərqərar edə bilməz… Ölkəni dəyişdirənlər həmin ölkədə doğulmuşlar sırasından çıxmalıdır». O Şərqi yüksək qiymətləndirərək deyidi; "... orada sivilizasiya ruhu gizlənmişdir" (21, 155). Kazımbəy Rusiyada və Qərbdə İslama qarşı yönəldilən ittihamlara qarşı tutarlı cavabları ilə də onun ən böyük müdafiəçisinə çevrilir. «Bab və babilər» əsərinin müqəddiməsində müəllif yazır ki, islam sivilizasiyaya əngəl törədən din deyildir. Abbasilər sülaləsinin hakimiyyəti zamanı yunanların bütün maarif qaynaqlarını islamın paytaxtı Bağdada köçürməsi və sonralar oradan da bütün elm və incəsənət sahələrinin müxtəlif yollarla Avropaya yayılması faktı buna sübutdur. H. İsaxanlı çox düzgün qeyd edir ki, Mirzə Kazımbəy "... bütün həyatını İslam dünyasının tədqiqinə, Rusiyada şərqşünaslıq məktəbinin təşəkkül tapmasına və inkişafına həsr etdi. O, İslam dünyasının iqtisadi, siyasi və texnoloji geriliyində islam dinini günahlandıranlara qarşı çıxır, geriliyi dində deyil, siyasi-tarixi səbəblərdə aramağı düzgün sayırdı" (23).

Mirzə Kazımbəy "Azərbaycan dili" ("Azerbicanskiy yazık" formasında) terminini ilk dəfə işlətməklə və elmi dövrəyə daxil etməklə Azərbaycan sözünün xalqın adı kimi status qazanmasında mühüm rol oynamışdı (21, 134). Xatırladaq ki, ruslar tərəfindən Cənubi Qafqazda yerli müsəlman-türk əhali "Qafqaz tatarları", yaxud "Qafqaz müsəlmanları" adlandırılırdı. O, ərəb əlifbasının dəyişdirilməsi məsələsində M.F.Axundovla həmfikir olmuşdur. Azərbaycan türkcəsinin Cənubi Qafqazda geniş yayılmasına və burada yaşayan digər xalqlarında bu dili bilməsinə işarə edərək onu buraların "yeganə ümumi xalq dili" kimi qiymətləndirirdi və əslində Azərbaycan türk dilinin, bu bölgədə xalqlararası ünsiyyət dili

kimi statusa malik olmasını təsdiqləyirdi. O yazırdı: ”... Zaqafqaziyada qulluq etmələri nəzərdə tutulan bu beş dinləyiciyə Zaqafqaziyanın yeganə ümumi xalq dilı sayılan yerli Azərbaycan ləhcəsini bilmək vacibdir və deməli, bu ləhcənin Qazan Universitetində tədrisi zəruridir (34,134).

«Müridizm və Şamil» kimi tarixi əsərində Mirzə Kazım dağlıların Şeyx Şamilin rəhbərliyi altında çar Rusiyasına qarşı mübarizəsindən bəhs edərək Şamil hərəkatının siyasi xarakteri haqqında dəyərli mülahizələrini söyləmişdir. O, Şeyx Şamili (onunla iki dəfə görüşmüşdü) yüksək qiymətləndirərək yazırdı: «Şamilin adında tarixlik və vətənpərvərlik siqlətli fikirlər gizlənir. O qəhrəmandır – qəhrəmanlar yetişdirən bir qəhrəman!» (21, 150). Kazımbəy Qafqaz xalqlarının mübarizə ruhunu yüksək qiymətləndirərək bildiridi ki, Qafqaz xalqlarını ancaq üç silahla – alicənablıq, təmənnasız cəsurluq və ədalət yolu ilə ram etmək olar.

**M.F.Axundov**. Xalqın iqtisadi-mədəni həyatda mövcud problemləri duyan, onların tərəqqisinə təkan verən görkəmli Azərbaycan maarifçilərindən biri də M,F.Axundzadə olmuşdur. Öz xalqının tərəqqisinə çalışan böyük mütəfəkkir inanırdı ki, qabaqcıl Qərb dəyərlərindən faydalanmaqla Azərbaycanın inkişafına nail olmaq olar. Onun əsərlərində və praktiki fəaliyyətində biz digər xalqlara və onların mədəni dəyərlərinə müsbət yanaşmanın şahidi oluruq. Axundov mədəniyyətlərarası dialoqun tərəfdarı olub, Şərq və Qərb mədəniyyətlərinin ən yaxşı nümunələrindən faydalanmağın tərəfdarı idi. “Hekayəti-Müsyö Jordan həkimi-nəbatat və Dərviş Məstəli şah cadukünі-məşhur” komediyasında Axundzadə bir tərəfdən qəhrəmanı Müsyö Jordanı Azərbaycana gətirərək, onun dilindən Avropa-da olan tərəqqidən və yenilikdən söhbət açır, digər tərəfdən isə o yerlilərinin mövcud avamlığına təəssüflənir. Hatəmxan ağanın “Balam sən hələ uşaqsan, bu zadlar tamam boşdur. İnsana ağıl lazımdır. Bir dil artıq bilməklə ağıl artmaz” (10, 51) və ya “Sən Parijə getmədən də Müsyo Jordanın söhbətlərinə qulaq asmaqla oranın əhlinin adət və xəvvasından mütəlle ola bilərsən” (10, 51) sözləri ilə o ictimai fikri istiqamətləndirən mövcud mühafizəkar hakim zümrənin və dini-siyasi elitanın mövqeyini ortaya qoyaraq tənqid atəşinə tutur. Burada müsbət olan cəhətlərdən biri Şahbazın firəng aliminin söhbətlərindən təsirlənərək Avropaya elm dalınca getmək istəyi, eləcə də patriarxal bir mühitdə qalmasına “Mənim tay-tuşlarım tamam mərifət sahibi olub, qulluq edib, xoşbəxt olublar. Mən qalmışam elə bu qamışlıqda adsız, sansız” (10, 57) deyərək etiraz etməsidir. Sanki Axundov firəng alimini Azərbaycanın bir ucqar bölgəsinə gətirməklə və onun dilindən mütərəqqi fikirlər səsləndirməklə xalqımızın yeni dəyərlər sisteminə yiyələnmə-sinə böyük ehtiyacı olduğunu vurğulamışdır.

Axundzadənin Qərb ideyalarından bəhrələnməsinə gözəl misallardan biri də onun yazdığı “Hacı Qara” komediyasıdır. Əsərin ideyası Avropa ədəbiyyatından (Molyerin əsərindən) götürsə də əsərdə canlandırılan əsas qəhrəman Hacı Qara Azərbaycan reallığından götürülən bir şəxsdir.

Böyük Azərbaycan maarifçisi öz əsərlərində tolerantlığın mühüm prinsiplərindən sayılan iradə və fikir azadlığı problemini qaldırır, onu insan tərəqqisinin əsası hesab edirdi. O, Con Stüart Millə istinadən deyirdi: «... fikir azadlığı olmadan tərəqqi mümkün ola bilməz» (11, 206), yaxud, «... müxtəlif fikir və rəylərin toqquşmasından haqq yerini tutacaq və mədəniyyət aləmində tərəqqiyyat zühur edəcəkdir» (11, 207), yaxud «...insan növünün tərəqqisi ağıl ilədir, bu biçarələrin ağlı üçün isə hərəkət yolu bağlanmışdır» (11, 207). Fikir azadlığını reallaşdırılması yollarını arıyan M.Fətəli yazırdı: "Canlılar aləmində insan daima tərəqqi tələb edən bir növdür və fikir azadlığı olmadan tərəqqi mümkün ola bilməz. Tərəqqinin nəticəsini zəmanəmizdə sivilizasyon adlandırırlar. Sivilizasyon elə bir ümumi sözdür ki, onun məzmununda bütün sənətlər, fəndlər, qüdrəti-dövlət, millətin asayişi və mədəniyyətin bu kimi şərtləri cəm olmuşdur. Əgər cəmiyyət öz fərdlərinə fikir azadlığı verməzsə onları ata-babanın və övliyaların qərar verdikləri şeylərlə kifayət etməyə və bunlardan kənara çıxmamağa və ağıllarını mədəniyyət işlərində işlətməyə məcbur edərsə, bu sürətdə fərdlər yer əkən, məhsul toplayan və hər bir işi düşünmədən və fikir etmədən görən avtomat olarlar; və ya onlar dəyirman atlarına bənzərlər ki, hər gün müəyyən dairədə dolanarlar və öz vaxtında da arpa-saman yeyib su içər və yatarlar, sonra yenə oyanıb haman dünənki dolanışı dünyanın axırına qədər təkrar edərlər. Və bu biçarə atların hərgiz xətri olmaz ki, dünyada çəmənlər, otlaqlar, çayırlıqlar, çiçəkliklər, meşələr, dağlar və dərələr vardır; əgər bağlı olmasaydılar, dünyada gəzərdilər və o könül açan yerləri görərdilər və dünya nemətlərindən tamamilə faydalanmış olardılar" (11, 207). O, insan düşüncəsini, onun azadlığını tərəqqinin əsası hesab edirdi**.** Böyük mütəfəkkir yazırdı: "...Bəşər övladına səadət və qurtuluş o zaman nəsib olacaqdır ki, istər Asiyada və istərsə də Avropada insanın şüuru tamamilə əbədi həbsdən xilas olsun və bütün işlərdə də, təfəkkürdə də hədisələr deyil, insanın ağlı yeganə dəlil, sənəd və hakimi - mütləq olacaq" (13, 188).

Bütün dinləri puç və əfsanə hesab edən Axundzadə bildirirdi ki, "Mən o dini tərcih edirəm ki, onun vasitəsi ilə insan bu dünyada xoşbəxt və azadə ola bilsin" (12, 30). O, islam dinini ciddi tənqid atəşinə tutaraq onun modernləşdirilməsinin tərəfdarı idi. Böyük mütəfəkkir yazırdı: "Ərəblər nə qədər ki, islam dinində protestantizm əmələ gəlməmiş və bu dinin əlverişli olmayan bəzi ehkamı tərk və ləğv edilməmişdir, labüd və əlacsız olaraq dünyanın sonu çatıncaya qədər cəhalətdə, korluqda, zillətdə və alçaqlıqda qalacaqdırlar" (14, 247). O, hesab edirdi ki, müsəlmanların islam dininə baxışları dəyişməli, Avropa xalqlarının xristianlığa olan münasibətindən fərqlənməməlidir: «Necə ki, ingilislər, amerikanlar və bir sıra başqa Avropa xalqları zahirən xristian olsalar da, həqiqətən protestantdırlar. Yəni onlar əqlə, məntiqə tabedirlər» (14, 247).

Xalqın gözünün açılması, cəhalətdən qurtulaması üçün qabacıl dünyadan öyrənməyi irəli sürən M.F.Axundzadə "Kəmalüddövlə məktubları"nda yazırdı: «Ey Cəlalüddövlə! Sən bilirsən ki, idarə və politika elminin təhsili İranda müm-

kün deyil, vacibdir ki, Avropaya səfər etmək və orada təhsil eləmək. Aya, bu mümkündürmü? Necə səfər etmək və kafirlərlə görüşüb tanış olmaq. Aya, fanatik və şarlatan üləma bu işə razı olarmı? Aya, bu puç əqidələr bu işə fitva verərmi?» (12, 45). "Kəmalüddövlə məktubları"nda müəllif, həmçinin Monteskyö, Volter və digər Qərb maarifçilərinin ənənəvi monarxiya hakimiyyəti ilə bağlı görüşlərinə şərik çıxaraq zülmü, istismarı dəstəkləyən rejimlərə qarşı çıxırdı.

M.F.Axundzadə "Kəmalüddövlə məktubları"nı fars dilində yazmış, sonradan onu rus dilinə çevirmişdir. Onun qələmindən çıxmış "Aldanmış Kəvakib" povesti də forma və janr xüsusiyyətlərinə görə Qərb tipli bir əsər idi.

M.F.Axundzadə, Mirzə Hüseyn Qayıbzadə və A.O.Çernyayevskinin ciddi səyləri ilə 1879-cu ildə Qori Müəllimlər seminariyasının Azərbaycan şöbəsi açılmışdı. Bu seminariya Azərbaycanda yeni tipli məktəblər üçün müəllimlər hazırlığında, eləcə də Azərbaycan xalqının ziyalı potensialının güclənməsində əhəmiyyətli rol oynamışdı. Bu seminariyanın məzunları sırasında Ü. Hacıbəyov, Rəşid bəy Əfəndiyev, Firidun bəy Köçərli, Teymur bəy Bayraməlibəyov, Sultan Məcid Qənizadə, C.Mahmudbəyov, Mustafa Mahmudov, Mehdi bəy Hacıbababəyov, Səfərəli bəy Vəlibəyov, Əlicabbar Orucəliyev, Mehdi Quliyev və onlarca başqları kimi Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynamış şəxsiyyətlər vardır.

M.Fətəli A.S.Puşkin, Belinski, Lomonosov, Derjavin, Karamzin kimi rus ədib və alimlərinin irsi ilə yaxından tanış idi. O, 1837-ci ildə dueldə öldürülən A.S.Puşkinin ölümündən kədərlənmiş və onun ölümü münasibəti ilə "A.S.Puşkinin ölümünə Şərq poeması"nı yazmışdı. "Poema" Axundov tərəfindən fars dilində yazılmış və sonradan onu özü t rus dilinə sətri tərcümə edərək dostu I.S.Klementyevə təqdim etmişdi. Klementyev poemadan təsirlənmiş və böyük ehtimalla üzərində müəyyən işlər apardıqdan sonra çap olunmaq üçün kiçik məktubla "Московский наблюдатель" jurnalına göndərmişdi. "Puşkinin ölümünə Şərq poeması" tezliklə jurnalın 1837-ci il XI nömrəsində (mart) çap olunmuşdu.

**H.Zərdabi.** XIX əsrin II yarısı - XX əsrin əvvəllərində Azərbaycanın ictimai siyasi həyatında mühüm rol oynayan maarifpərvərlərdən biri də H. Zərdabidir. O, Azərbaycan tarixində bir sıra ilklərə (1873-cü ildə o, demək olar ki, həvəskar quruluşlar əsasında yaranan Azərbaycanda ilk teatrın yaradıcısı olmuşdur. Eyni zamanda ilk Azərbaycan dilində çıxan «Əkinçi» qəzetinin redaktoru idi (qəzet 1875-ci ildə yaranmışdı, 1877-ci ildə isə hakimiyyət tərəfindən bağlanılmışdır)) imza atan nadir şəxsiyyətlərdəndir. Öz xalqının geridə qalmasından pəjmürdə olan Zərdabi qabaqcıl Avropa təcrübəsindən faydalanmağı önə sürərək "Qonşu getdi, biz qaldıq, haray ellər, ay ellər…" (20) deyərək həyəcan təbili çalırdı.

Həsən bəy, xalqının və bütövlükdə Şərqin Avropadan geriliyinin səbəblərini arayır və belə nəticəyə gəlir ki, onlar azadlıq əldə etdiklərinə, eləcə də elm və təhsilə görə bizdən irəlidədir. O, yazırdı: "Neçə dəfə Avropa tayfalarının, yəni

Məğrib-zəminin bizim tayfalardan, yəni Məşriq əhlindən artıq tərəqqi etməyindən və onun səbəblərindən danışmışıq. Əlbəttə, bu səbəblərin ümdəsi onlar bizdən artıq elm təhsil etməkdir və bunun bir səbəbi də azadlıqdır. Nə qədər Avropa əhli bizim təki azadlıqdan bixəbər olub ol vaxtacan bizdən bədtər avam olub. Amma bu halda azadlıq cəhətindən Avropa əhli çox tərəqqi edib və hər bir işdə bizdən irəli düşüb. Əgərçi bizim şəriətimizə görə qul azad etmək çox böyük savabdır, amma biz bu barədə həm işi gec qanmışıq. Satınalma qulu azad etməyi savab hesab edə-edə, biz öz xahişimiz ilə bir-birimizə qul olmuşuq. Rəiyyət padşaha, övrət kişiyə, uşaq ataya, nökər ağaya, şagird ustada və qeyrə məgər qul deyil?" (17).

O Avropa mədəniyyəti və onun qabaqcıl nailiyyətləri ilə yaxından tanış idi. Zərdabi Darvinin məşhur «Stagel for layt» ifadəsini dilimizə – «yaşamaq üçün qovğa», «Zindəganlıq cəngi» - şəkilində çevirərək, belə hesab edirdi ki, millətlərin yaxşı həyat, yaxşı gələcək uğrunda mübarizəsində onların savadlanması və qabaqcıl mədəni nailiyyətlərdən yararlanması vacib şərdir. O xəbərdarlıq edərək bildirirdi ki, xalqımızın bu mübarizədə məğlub olmaması üçün savadlanmaq və müasir mədəniyyətə yiyələnməsi vacibdir. Böyük mütəfəkkir yazırdı: ***«Avropa mədəniyyətini və maarif sistemini qəbul etməsək, qonşularımızın əsiri olaraq qalacaq və məhv olub gedəcəyik***» (9, 145***).*** O öz həmvətələrini dünyadan öyrənməyə səsləyərək yazırdı: ***"Ey müsəlmanlar, heç mürvətdirmi ki, tamam dünya bizim qonşularımız ilə belə elm təhsil etməyə səy etsinlər ki, zindəganlıq cəngində düşmənə faiq gəlsinlər, amma bizlər Allahdan buyruq, ağzıma quyruq deyib duraq? Ey müsəlmanların millət təəssübü çəkən kəsləri, bir açın gözünüzü, dünyaya tamaşa edin..."*** (19, 59).

Zərdabi öz xalqını qabaqcıl dünya ölkələrinin tarixi, adət-ənənələri, oradakı ictimai-siyasi həyat, müasir istehsal üsulları və yeni texnologiya barəsində məlumatlandırmaq üçün böyük səy göstəriridi. Bunun üçün "Əkinçi" qəzetində nəzdində yardılan "Elm xəbərləri" şöbəsi yaradılmışdı və şöbə bu sahədə mühüm işlər görürdü. Onlar vaxtaşırı Amerika, İtaliya, Almaniya, Fransa və digər ölkələrin həyatında baş-verən ictimai-iqtisadi və mədəni hadisələrdən öz həmvətənlərini xəbərdar edir, digər tərəfdən isə onları maarifləndirirdi.

Böyük naşir öz yazılarında Qafqazda tarixən xalqlar arasında formalaşmış dostluq münasibətlərinə xələl gətirən və çarizmin təhriki ilə ədavət toxumu səpənləri ciddi tənqid atəşinə tuturdu. O, XIX əsrin 70-ci illərinin ortalarında erməni və Azərbaycan xalqları arasında ədavət toxumu səpməyə çalışan Arsruni adlı bir erməni qəzetçisinə cavab olaraq (Əkinçi qəzetində) yazırdı: "Ey cənab, Arsruni (zikr olunan qəzetin münşisinin adıdır) əgərçi cənabınız doğru buyurursunuz ki, zəmanəmiz elm zəmanəsidir və bu halda ermənilər bizdən artıq elm təhsil etməyə rağibdirlər, amma neçə yüz ildir ki, biz ermənilər ilə qonşuluq edirik, indi cənabınıza eyib deyilmi ki, bizim aramızda ədavət salırısınız…" (19, 350). O, "... bəni-Adəm hamı qardaşdır. Gərək qardaşlar arasına sülh vermək..."

(18) deyərək bütün xalqlar arasında, ö cümlədən ermənilərlə azərbaycanlılar arasında qardaşlıq münasibətlərinin olmasına işarə edirdi (19, 300).

**Əhməd Ağaoğlu.** XIX əsrin sonları XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi həyatında çox mühüm rol oynamış şəxslərdən biri də Əhməd Ağaoğludur. Ağaoğlu 1869-cu ildə Şuşada doğulub və ilk təhsilini də doğma şəhərində, ermənilərin və rusların yaşadığı səmtdə yerləşən Şuşa real məktəbində (yeddi illik kursu) almış (1886) və gimnaziya təhsilinin davamı olaraq 1887-ci ildə Tiflis real məktəbinin son sinfində oxuyaraq buranı bitirmişdi.

Daha yaxşı təhsil almaq istəyi onu əvvəlcə Peterburq şəhərinə, sonra isə (1888-ci il) Fransaya Paris şəhərinə çəkib aparır. Burada o altı ay gərgin olaraq fransız dili ilə məşğul olduqdan sonra Sarobona universitetinin yanındakı Paris Hüquq Məktəbinə daxil olaraq, oranın tələbəsi olur. Eyni zamanda, Praktik Ali Tədqiqatlar Məktəbində məşhur tədqiqatçı "Avesta"nın məşhur tədqiqatçısı C.Darmstaterin, Şərq Dilləri Məktəbində isə Şefer və Barbiye de Meynarın ərəb, fars və türk dillərinə dair mühazirələrini dinləyir. Fars dilini dərindən bilməsi və Şərq haqqında məlumatlı olması onu tezliklə professor Ceyms Darmstaterin sevimli tələbəsinə çevirir və eyni zamanda professorun vasitəçiliyi ilə qabaqcıl Fransa ziyalıları ilə tanışlıq imkanı yaranır. O, özü bu barədə sonralar yazırdı: "Professor Ceyms Darmstaterin sevgisini qazandım. O, haqqımda unudulmaz yaxşılıqlar etdi, səylər göstərməyə başladı. Məni evinə çağırdı. Parisdə önəmli bir ədəbi salon sahibəsi kimi tanınan və Paris ədibləri arasında seçkin mövqe qazanmış olan xanım Mari Robinsona təqdim etdi. Mən də müntəzəm şəkildə xanım Robinsonun salonuna getməyə başladım. Bu salonun ziyarətçiləri arasında o zaman Fransanın məşhur alim və ədiblərindən sayılan Ernst Renan, Hippolit Ten, Qaston Paris, Yulius Oppert, madam və müsyö Dielafo kimi şəxslər vardı. Ev sahibəsi məni onlara təqdim etdi" (25). Tələbəlik illərində, o, C.Darmstater və E.Renan kimi müəllimlərinin köməkliyi ilə Parisin mətbu orqanlarında məqalələr dərc elətdirməyə başlayır.

Parisdə o, həmçinin, Osmanlı Sultanı Əbdülhəmid rejiminə qarşı çıxan Əhməd Rzabəy, Esat Paşa və başqaları kimi "Gənc türkçü"lərlə tanış olur və onlarla yaxınlıq edir. Eyni zamanda böyük islam intellektualı Şeyx Camaləddin Əfqani ilə yaxından tanış olur. Bu tanışlıq barəsində o yazırdı: "İslam aləminin mütəfəkkirlərindən olan Camaləddin Əfqani Parisdə olarkən mənim sadə evimi başqalarının zəngin saraylarından üstün tutmuşdu və həftələrlə bir yerdə qalmışdıq" (26).

Bu şəxslərlə tanışlıq və bütövlükdə Paris mühiti onun dünyagörüşünə, ictimai-elmi fəaliyyətinin gələcək istiqamətlərinə çox ciddi təsir göstərir. Qərbdə təhsil alması, Qərb mühiti və mədəniyyəti ilə yaxından tanışlıq, eləcə də Şərqi dərindən bilməsi ona ölkəsində baş verən hadisə və prosesləri dərindən anlamağa kömək edir. Əhməd bəyin ictimai-elmi fəaliyyətində müəyyən ziddiyyətlər nəzərə

çarpsa da öz xalqına təmənnasız xidmət etmək, problemlərinin həlli yolunda əzimkarlıqla mübarizə aparmaq istəyi onun həyat qayəsinin əsasını təşkil etmişdir.

Əhməd bəy yaradıcılığında və əməli fəaliyyətində Şərq və Qərbin qarşılaşdırılması, ortaq və fərqli cəhətlər problemi, bu sivilizasiyalar arasında uzlaşdırma yollarının aranması, Şərqin geridə qalma səbəbləri və s. kimi məsələlər əhəmiyyətli yer tutmuşdur. O, öz xalqının, islam sivilizasiyasının, bütövlükdə Şərqin geridə qalma səbəblərini dərindən araşdıran və bu geriliyin aradan qaldırılması yollarını arayan, bu yolda yorulmadan mübarizə aparan şəxslərdəndir. Ağaoğlu "Üç mədəniyyət" əsərində yazırdı: "Üç mədəniyyətə, Batı, Budda-əBrahma və İslam mədəniyyətlərinə baxsaq, birincinin qalib, yerdə qalanların isə məğlub durumunu görərik. Nə qədər üzülsək də bu məğlubiyyəti qəbul etmək zorunundayıq. Batı mədəniyyəti ilə olan mücadilənin sonucudur ki, Osmanlılıq da pərişan hala düşüb. Yenilmə iki cür olur, maddi və mənəvi. Biz ikisində də yenilmişik. Mənəvi yenilməyə gələndə maddi yenilmə qədər açıq olmasa da düşüncə adamı üçün o qədər gerçəkdir. Yenilmə nədir? Başqasının şəxsiyyətini qəbul edib iradəsinə tabe olmaq. İslam və Budda-Brahma mədəniyyətləri Batnın iradəsinə tabe olmaq zorunundadır. Həm müsəlmanlar, həm də sarı irq evlərinin döşəməsindən tutmuş ədəbiyyat və musiqiyəcən Avropa modellərindən istifadə edirlər. Biz bu gün Avropavnın 4-5 əsr öncəki düşüncə və yaşam tərzində qalmışıq. Onun üçün də qurtuluş üçün çağdaş Avropa qurumlarını yamsılamağa zorunluyuq" (6, 3). O, Şərq mədəniyyətinin tənəzzülünü və zaman-zaman öz yerini Qərb mədəniyyətinə tərk etməsinin başlıca səbəblərindən biri kimi Şərqdə fəzilətin hökmdara, Qərbdə isə qanunlara itaət olunmasında görürdü. Əhməd bəy bu geriliyin islam cəmiyyətlərinin durğunluğundan, eləcə də idarəçilərin və üləmanın insani qüsur və ya yetərsizliyindən qaynaqlandığını bildirirdi. O, geriliyin səbəbləri sırasına patriarxal mühit, nadanlıq və sxolastika, gerilik və cəhalət, qadın hüquqsuzluğu, savadsızlıq, dövrün tələblərinə cavab verən ədəbi və fəlsəfə əsərlərinin olmaması və s. kimi keyfiyyətləri də əlavə edirdi. Ona görə də Ə.Ağaoğlu üzünü Şərqə tərəf tutaraq söyləyirdi ki, geriliyi aradan qaldırmaq üçün passivcəsinə, fantastik arzularla yaşamaqdan əl çəkmək lazımdır. Eyni zamanda tərəqqiyə yardım edəcək və cəmiyyətin maddi və mənəvi cəhətdən təkmilləşdirməsinə kömək edə biləcək hər cür aktiv fəaliyyət dəstəklənməlidir.

Məlumdur ki, multikultural dəyərlər üçün digər mədəniyyətlərlə açıqlıq, qarşılıqlı təsir və onlar arasında dialoji mühitin yaradılması kimi keyfiyyətlər xarakterikdir. Əhməd bəyin də elmi-ictimai fəaliyyətində bu cür dəyərlərin mühüm rol oynadığının şahidi oluruq. O, Qərbin qabaqcıl dəyərlərindən faydalanmağın tərəfdarı idi və bunu dəfələrlə söyləməkdən də çəkinmirdi. Ə.Ağoğlu Bakıda rus dilində çıxan "Kaspi" qəzetində Qərbdən öyrənmək məsələsinə toxunaraq yazırdı: "Tərbiyənin əsasına daxil edilməli olan ümumbəşəri ideya və hissləri almaq üçün biz hara müraciət etməliyik? Aydındır ki, Qərbə" (3). "Aləmi-islamə bir nəzər" adlı məqaləsində isə həmvətənlərini o durmadan tərəqqi edən Qərbdən ibrət

götürməyə səsləyərək yazırdı: "...Qərb aləminin durmayıb, tənəzzüli mədəniyyətdən nə cür tərəqqiyi-mədəniyyətə nail olduğunu nəzəri-etibar və ibrətə almamız lazımdır. Fəqət bu cəhətdən dəxi zəvahirə aldanmayıb bu mədəniyyətin dini qövmiyyətlərə deyil, bəlkə ümumi bəşəriyyətə aid əsaslarını mütaliə ilə əsbabi – tərəqqi və rifahiyyətlərini dini – islama tovfiqən millətimizin tərəqqiyatına tabe etməliyiz. Avropa ülumuna, maarifinə, ədəbiyyatına, sənaət və sənayeinə kəsbi-vüquf etməyə və millətimiz beynində nəşrə çalışmalıyız. Biz belə yapmağa qeyrət edəcəyiz. Məsləkimiz bunu iqtiza etdirir" (5).

Əhməd bəy Ağoğlu eyni zamanda qərb mədəniyyəti qarşısında aludəçiliyin əleyhinə idi. Onu bəzən ifrat qərbçilikdə ittiham da edirdilər. O, bu ittihamlara cavab olaraq "biz öz kökümüz üstündə qərbləşməliyik" tezisini irəli sürürdü. Böyük maarifçi öz yazılarında zamanın çağırışlarına cavab verə bilən, cəmiyyətin inkişafına təkan ola biləcək dəyərləri təbliğ edirdi. Əhməd bəy bəzi Qərb oryantalistlərinin Şərq barəsəndə aşağılayıcı fikir söyləmələrinə qarşı çıxır və yeri gəldikcə bu cür düşünənləri tənqid edirdi. O, ta qədimdən Şərq haqqında Avropada yaranmış mənfi münasibətin aradan qaldırılmasında şərqşünasların üzərinə böyük vəzifələr düşdüyünü vurğulayaraq yazırdı: "Homer zamanında yunanlar bir tərəfdən milli qürurlarını oxşamaq, o biri tərəfdən isə sanki öz-özlərinə təsəlli vermək məqsədi ilə iranlıları "barbar" adlandırırdılar. Yunanların varisləri sayılan romalılar da bu zehniyyəti sələflərindən qəbul etmişdilər. Romalıların varisləri olan avropalılar da öz növbələrində həmin etiqadı davam etdirirlər. Şərqşünasların məqsədi isə tarixə qədərki dövrdə Şərq ilə Qərb arasında heç bir ədavətin olmadığını, bizim günlərdə iki qitəni ayıran ünsürlərin həmin vaxtlar əksinə, onları yaxınlaşdırdığını və biri-birinə bağladığını göstərməkdən ibarətdir (4). O, "Şərq – Şərqdir, Qərb – Qərbdir, onlar heç zaman birləşə bilməyəcəklər" kəlamının müəllifi, tarixə Britaniya imperializminin tərənnümçüsü kimi daxil olan gələcək Nobel laureatı Rediard Kiplinqlə də polemikaya girərək Şərq-Qərb münasibətlərində daha bəşəri və demokratik mövqe ortaya qoymuşdu (27**)**.

O, Şərqlə Qərbi yaxınlaşdıran ortaq cəhətləri önə çəkərək, bu iki sivilizasiyanın uzlaşmasının tərəfdarı idi. Əhməd bəy X London Beynəlxalq Şərqşünaslıq Konfransı ilə bağlı yazısında Şərqlə Qərbi yaxınlaşdıran ortaq cəhətlərə diqqət çəkərək yazırdı: "Doğrudur, bir yandan Aralıq dənizi ilə Qara dəniz və Xəzər dənizi, o biri yandan isə Ural dağları dünyanın bu iki cəhəti arasındakı fiziki sərhədlərdir. Lakin məgər bu coğrafi məntəqələr eyni zamanda həm Şərqə, həm də Qərbə aid deyilmi? Onlar bir bütöv kimi birləşərək riyazi mənada bölünməz vahid yaratmırlarmı? Darvin dövründə bəşər irqinin vəhdətinə, onun mənşə eyniliyinə kim şübhə ilə yanaşa bilər ?" (8). O, bu iki uyğarlıq arasında vəhdətin yaranmasında şərqşunasların üzərinə böyük vəzifələr düşdüyünü vurğulayaraq yazırdı: "Şərqşünasların məqsədi isə ondan ibarətdir ki, tarixə qədər olan dövrdə Şərq ilə Qərb arasında heç bir ədavət olmadığını, zəmanəmizdə iki qitəni bir-birindən ayıran ünsürlərin o dövrdə, əksinə, onları bir-birinə bağladığını göstərsin (8).

Kaspi qəzetində dərc etdirdiyi "Şərqşünaslıq cəmiyyəti" adlı digər bir yazısında yenə o şərqşunasların öhdəlikləri ilə bağlı məsələyə toxunaraq yazırdı: "Biz dəfələrlə Şərqin, onun dilinin, ədəbiyyatının, tarixinin, məişətinin, dinlərinin və ənənələrinin hərtərəfli öyrənilməsi mənasında şərqşünaslığın əhəmiyyətini, zəruriliyini qeyd etmişik. Bu, Şərqlə Qərb arasındakı qarşılıqlı anlaşılmazlığı, bir-birinə biganəlik pərdəsini aradan qaldırmağa aparan yeganə yoldur" (4).

Ə.Ağaoğlu cəmiyyətin həyatında dinin böyük rolu olduğuna diqqət çəkərək, dini şüurda zaman-zaman dəyişikliklərin baş verməsinin, bir sözlə dinin modernləşdirilməsinin tərəfdarı idi. O, qeyd edirdi ki, dinlərlə onları daşıyanlar arasında gözəgörünməz etgilər var. Din insanların gərəklərinə cavab verərək meydana gələndi, insanları gəlişdirir. İnsanlar dəyişdikcə, zaman dəyişdikcə dinlər də dəyişirlər, dəyişməsələr, sıradan çıxırlar. Əhməd bəy hesab edirdi ki, islam dininin geridə qalmasının islamla heç bir əlaqəsi yoxdur və "dindəki qüsurlar bizim müsəlmançılığımız"dan qaynaqlanır. O, din adına danışanların səbatsızlığı və nadanlığının, eləcə də dindən öz mənafeləri naminə istifadə edilmənin də islamın inkişafına zaman-zaman ciddi əngəllər törətdiyini bildirirdi: "Təsəvvür edin ki, kütlənin əhatə etdiyi din xadimi moizə oxuyur. Savadsız və qaşqabaqlı kütlə onu itaətkar bir sükutla dinləyir. O, dini təhrif edir, ona xələl gətirir, Peyğəmbərin böyük şəxsiyyəti və ölməz hədisləri onun dilində tanınmaz şəkil alır. Din, daxili zəka və nəhayətsiz ruhi inkişaf əvəzinə, fərziyyələr, ikiüzlülük, nadanlıq, ağıla və qəlbə heç nə deməyən məşqlər mənbəyinə çevrilir. O, dincliyin bütün mahiyyətini bu məşqlərdə görür, kütlə isə qardaş qırğını, yalan, məkr girdabına sürüklənərkən belə özünü günahkar sayır" (2). «Qurani-Kərim»də cəmiyyəti irəliyə apara biləcək bir çox ideyaların olduğuna diqqət çəkərək böyük mütəfəkkir bildirirdi ki, Quran humanist ideyalarla doludur, yaxın adamlara məhəbbət, əməyə məhəbbət, həqiqətə və düzlüyə məhəbbət təbliğ edir, qanunçuluğu və ədaləti gözləməyi yüksək tutur. İslam və onun təlimi özgə əməyinə, özgənin vicdanına və həyatına, azadlığına və müstəqilliyinə qəsd etməyi böyük günah hesab edir. Quranda heç bir yerdə bir cümlə belə yoxdur ki, insanların bir qismi zəhmət çəkməli, digərləri isə onların əməyi hesabına müftəxorluq etməlidir. O, dini şüurda islamın yeniləşməsi və islahatların aparılması üçün İslamın mahiyyətində böyük potensialın olduğunu vurğulayaraq qeyd edirdi ki, dini-mənəvi təlim olan İslam nəinki yeniləşə bilər, həm də elmin və fəlsəfənin işığı ilə müsəlman xalqlarını dirçəldə bilər. Əhməd bəy İslamı maarifə düşmən kimi qələmə verənlərə səslənərək deyirdi: "İslamın maariflə düşmənçiliyi, uyğunsuzluğu haqqında vulqar düşüncə mənasız və əsassız olmaqla bərabər, həm də ən kiçik tənqidə belə dözmür. Həqiqi islam, əsl müsəlman təhsilsiz, maarifsiz təsəvvür olunmazdır" (1, 7).

Əhməd bəy öz yaradıcılığında İslam düşüncəsinin müxtəlifliyə dözümlü münasibət göstərməsi, digər din və mədəni qrupların mövcudluğunun qəbul etməsi məsələlərinə də geniş yer ayırırdı. "İslama görə və islamiyyətdə qadın" əsərində

Ə. Ağaoğlu yazırdı: "Quranın mətni İslamın peyğəmbəri, onu ilk dəfə Xristosun təlimi ilə tanış etmiş sabinləri necə də nəcib minnətdarlıq hissləri ilə xatırlayır. İsanın iztirabları haqqında, Onun mövludu, Məryəm, "İlahi ruh"un anası haqqında bəhs olunan yerlər elə dərin həyəcan, şəfqət və ehtiram ifadə edir, o qədər ülvi və əzəmətlidir ki, buna Quranın üslubunda nadir hallarda rast gəlmək olar. Müsəlmanlar arasında Məryəm bəzi xristian sektalarda olduğundan daha hörmətlidir. O, Allahın seçdiyi günahsız, saf bir qızdır; Məhəmməd ona qarşı dərin ehtiram hissləri bəsləyir; öz qızı Fatimə haqqında o deyir: "İlahi ruhun anası olan Məryəmdən sonra Fatimə ikinci qadındır". O, İsanın təlimini özünəməxsus tərzdə dərk etmişdi və Məhəmmədin yaratdığı din, onun təbirincə, İsanın dininin təhrif olunmasına qarşı etirazın təzahürü idi; Quranda tez-tez təkrar olunur: "Mən İsanın təliminin həqiqətlərini bərpa etmək üçün gəlmişəm" (35, 56).

Əhməd bəy Ağaoğlu öz yazılarında milli şüurun oyanışını, millətçiliyi hər bir millətin həyatında mütərəqqi hal kimi qiymətləndirərək, öz-özlüyündə millətlərin həyatında onun "hörmətə layiq", "möhtəşəm hadisə" olduğunu vurğulayardı. Bu barədə o, yazırdı: "... millətçilik özü-özlüyündə hörmətə layiq, hətta möhtəşəm bir hadisədir, çünki o, xalqların həyatında bir zərurətdir. Mən hətta düşünürəm ki, bəşəriyyətin təkamülü tarixində millətçilik dindən sonra insan ruhunun ikinci böyük mərhələsidir. O, tarixdə ən böyük qəhrəmanlıqların nədəni olmuş, yenə də olacaq. Onsuz bir sıra xalqlar yenə də yadların zülmü altında inləməli olacaqdı və məhz onun sayəsində hələ bir çoxları uyğun çıxış yolu tapacaq..." (24). Əhməd bəy, eyni zamanda həqiqi millətçiliyi, qatı millətçilikdən ayırır və qatı millətçiliyi insanlığa zidd, zərərli bir hal kimi dəyərləndirirdi. Ağaoğlu Rusiyada milli azlıqları assimilə etməyə çalışan hakim rus millətçiliyini, onun şovinist mahiyyətini ciddi tənqid atəşinə tutaraq qeyd edirdi ki, "həqiqi, dürüst, sonunadək özünə sadiq qalan millətçi, özününkünü müdafiə edərkən, başqasınınkı üzərində hər hansı zülmü də rədd etməlidir" (24). Öz millətini başqalarının fövqündə qoymağı, millətinin eyiblərini, başqa millətlərin isə müsbət keyfiyyətlərini gizlətməyi xəyanət hesab edən Əhməd bəy 1909-cu ildə çap etdirdiyi "Millət və millətçilik" adlı məqaləsində yazırdı: "Həqiqi millətçi millətini tənqid etməkdən, millətinin eyyubatını (eyiblərini), qüsuratını görkəzməkdən, millətinin azarlarını, dərdlərini arıyıb da açıq-açığa deməkdən nəinki çəkinmiyorlar, bəlkə bir an böylə qafil olmuyorlar. Və həmçinin həqiqi millətçilər qeyri millətlərin arasında olan gözəl sifətləri, gözəl adətləri, gözəl binaları öz milləti üçün imtisal edüb (örnək bilib), millətini bu günə şeyləri əxz etməyə təhrik və təşviq etməkdən çəkinmiyorlar" (7).

**M.Ə.Rəsulzadə.** M.Ə.Rəsulzadə öz ömür yolunda bir-birini əvəz edən müxtəlif ideoloji cərəyanlara tərəfdar çıxsa da, onun ictimai fəaliyyətinin başlıca istiqamətini vətən sevgisi, xalqını başqa xalqlarla birgə azad və inkişaf etmiş görmək istəyi təşkil etmişdir. "Millətlərin, qövmlərin, heyətlərin siniflərin və şəxslərin hüquq və ixtiyaratda azad və bərabər olmalarını", hər növ təcavüzdən

qorunmalarını müdafiə edən Məmməd Əmin "İnsanlara hürriyyət, millətlərə istiqlal!" şüarını irəli sürürdü. O, hesab edirdi ki, ölkənin tərəqqisi və inkişafı orada yaşayan xalqların nizam içində, sülh şəraitində yaşaya bilməsindən asılıdır. Rəsulzadə yazırdı: «Məntiq diyor ki, bir ölkənin, bir əyalətin tərəqqi və təməddünü (inkişafı) bağlıdır o əyalətdə olan müxtəlifülcins millətlərin təvafüq (bir-birinə uyğun gəlmə) qədəm ilə tərəqqi etmələrinə»( 28).

Qərbin insan haqları ideyasına dərindən bələd olan Rəsulzadə fərdin əmək və çalışma azadlıqları və millətlərin azadlığı kimi ideyaların öz ölkəsində də kerçəkləşməsini istəyirdi. O, sosial statusundan asılı olmayaraq hər hansı bir təbəqənin digər təbəqələr üzərində hökmranlığına qarşı çıxaraq deyirdi: «Heç bir qanun, heç bir şəriət, heç bir kitab, heç bir əql, heç bir elm, ictimaiyyət və rəvaşi fəhlələrin müəllimlərdən, ruhanilərdən və amirlərdən ixtiyarları az olmasına işarə eləməyib və eləməz» (29, 38). Məmməd Əmin hər bir xalqın azdlığını və tərəqqisini təmin edə biləcək xalq hakimiyyətinin tərəfdarı idi: "... indiki Rusiyada millət təzyiqini rəf etməkdən ötrü hökuməti-istibdadiyyəyənin kökünü bilmərrə aradan götürüb ***el hökumətilə*** bərabər elə müəssisələr icad etməlidir ki, hər millətin həyati ruhaniyyəsinə azadlıq ilə tərəqqi etmək yollarını təmin eləsin" (29,74 ). O, çarizmin "parçala hökm sür" siyasəti əsasında Qafqaz xalqları arasında düşmənçilik toxumlarının səpilməsini qınayaraq yazırdı: "Ey vətənini istəyən qafqazlı sülhsevən ünsürlər! Əgər sülh istəyirsiniz, yəni düçar olduğumuz mərəzdən səhhət tapmağımızı arzu edirsiniz, müttəhid olun, birləşin taki zikr olunan illətlər aradan götürülsün. Nə qədər ki, bu illətlər duruyor, bu mərəz, bu xəstəlik də olacaqdır" (29, 21). Məmməd Əmin tərəfindən iki xalq arasında düşmənçilik toxumu səpən erməni millətçilərini kəskin tənqid atəşinə tutaraq, aydınlardan bu əhval-ruhiyyənin aradan qaldırmaqda fəal mövqe tələb edirdi. O, yazırdı: "Zaqafqaziya min illərcə qonşuluq edən iki millətin qanları ilə əlvan oldu… Çoxları sülh və müsalimətdən qəti-ümid edib, ələmi-ədavət və qisasda cövlan ediyorlar. Çarəmiz nədir? Müsaliməti haradan taparız? İixtila və nifaqı rədd edib anlaşmaya nə vəsil ilə müvəffəq olarız? Bu suallara hər kəs öz fəhm, fərasəti müvazinəsincə cavab verir. Bəndənizsə bu suallara bu tövr cavab verirəm: Ən əvvəl bu vaqieyi-müəssəflərin nətayici iqtisadiyyə və siyasiyyələrin nəzərə alıb hər iki tərəfin qara cəmaəti arasında sülh və müsalimət mənfəətinə mitinqlər, ictimalar tərtib verməklə bərabər müşəviviqlər (təşviq edənlər) hazırlamaldır ki, cəmaət arasına girib gidal və qitalın müzürr olduğunu məxluqə bildirsinlər. İkinci əlac isə bilafərq məzhəb və din iaənə dəftərləri açıb hərəkati-vəhşiyanədən mütəzərrər olanlara maddən kömək etməkdir. Üçüncü əlac yazıçılar əlindədir. Yazıçılar lazımdır ki, nifaqa bir cüzi dəxi olsa xidmət edən məqalələrdən ibrazi-nifrət və narazılıq etsinlər. Bunu bilməlidir ki, erməni-müsəlman əlaqəsinə zərb-hərəkət verən idareyi-müstəbiddeyi maziyyə oldusa da, amma bu qədər davam edib uzanmasına hamana nifaqpərəst yazıçıların təqrirati-şəriranələri səbəb oldu. Hərgah «Erməni məsələsi və panislamizm» kimi kitablar əvəzində, məhəbbət və

qardaşlığa çağıran risalələr nəşr etsə idilər, bu qədər nahaqq qanlar tökülməyib, bu qədər evlər, xanimanlar bərbad olub viran qalmaz idi» (30).

O, hər cür millətçiliyi, xüsusilə də ifrat və fürsətcil erməni millətçiliyini pisləyərək bildirirdi ki, bu cür millətçilik sonunda həmin "milləti bərbad" edəcəkdir: «Millətçilik! İnsan insanlar əvəzindən utanır, xəcalət çəkir! Belə bir qayda xüsusunda bundan artıq tənqid də bulub, belə bir rəftardan nə kimi şeylər törənə biləcəyini ədavət saxlayan mədəni oxucuların, ələlxüsus, internasyonal ermənilərin nəzər-diqqətlərinə həvalə edirəm. Özüm isə belə bir təəccüblü boykotçuluğu qəribə bir vəhşilik hesab etməkdən başqa bir şey bilmirəm!!! Millətçiliyin bu dərəcəsinə çıxmaq, haman o milləti bərbad etməkdir!» (31).

M.Ə.Rəsulzadənin millət anlayışı millət daxilində yaşayan "heyətlərin" bir-biriləri ilə bərabər, birlikdə sülh içində yaşamaları prinsipinə söykənirdi. Bu düşüncələri ilə o, sanki tolerant və multikultural dəyərlərin hökmran olduğu bir cəmiyyət modelini cızırdı. Məmməd Əmin "Dirilik nədir?" adlı məqaləsində yazırdı: "Filosoflar və sufilər nə deyirlərsə desinlər: dirilik dünyanı sevməkdən və öz hüquq və namusunu mühafizə edə biləcək qədər qüvvətli olmaqdan ibarətdir. Avropa qamusları "millət, nasyon" kəlməsini bu surətlə tərif edərlər: "İnsanların əxlaq əsasları üzərinə qurulmuş ittihadlarının böyük bir şəklinə "millət" deyilir. Millət daxilində olan müxtəlif heyətlərin bir-birlərilə bərabər yaşamasına müttəhid (birləşmiş, müttəfiq), bir dirilik keçirmələrini arzu etmələri şərt olduğu kimi, o cameyə daxil olan bəzi heyətlərin digərinə təsəllüt (son dərəcə narahat etmə) etməməsi də əlzəmdir" (32). O, "mədəniyyəti - bəşəriyyə"nin millətlərin əməyi sayəsində yarandığına işarə edərək yazırdı: "Məncə, mədəniyyəti - bəşəriyyə millətlərin zəhmətlərindən hasil olan bir yekundur. Hər millət öz iqtidar və öz istiqlalı sayəsində, yəni öz diriliyi ilə özünə xüsusi, xüsusi olduğu qədər də qiymətli bəzi şeylər əlavə ediyor ki, bir millətin ölməsi və yaxud ölgün fikirlərlə yaşaması yalqız özünün bədbəxtliyi deyil, bəşəriyyətin də böyük bir nöqsanını təşkil ediyor" (32).

M.Ə.Rəsulzadə arzuladığı və "Dirilik nədir?" adlı məqaləsində layihələşdirdiyi tolerant cəmiyyət modelini özünün də yaranmasında fəal iştirak etdiyi Azərbaycan Xalq Cümhuriyyəti reallaşdırdı. Sonralar "Çağdaş Azərbaycan tarixi" adlı əsərində bu barədə yazacaqdı: "Hər şeydən əvvəl, Azərbaycan Cümhuriyyətinin əsas idarəsi bütün vətəndaşlarının bərabər hüquqla yaşaması üzərində qurulmuşdu. Burada hər bir insanın möhtərəm şəxs, Azərbaycan vətəndaşı olduğu üçün hüququ saxlanırdı. Kişi-qadın, müsəlman, xristian, Türk-Türk olmayan, cins və milliyyət fərqi qoymadan varlı-kasıb, sahibkar işçi, torpaq sahibi-muzdur, öyrətmən-tələbə, möhtərəm-cahil, sinif, məslək, təbəqə, rütbə, vəzifə, nəsil, bilgi imtiyazı aramadan bütün vətəndaşlar məmləkətin idarəsində iştirak edir, qanun verən qurumlara girmək haqqına da sahib idilər. Burada bir sinif digər sinfə hakim deyildi. İnsan nə varına görə haqlı, nə də yoxsulluğuna görə haqsız görünürdü. Bunun kimi nə yoxsulluğu üçün sayğılanır, nə də zənginliyi üçün alçaldılırdı.

Burada məktəb, elm, texnika tərəfsiz tutulub ondan bəlirli bir partiya və ya sinfin haqlı-haqsız tələblərinə, qulağı sırğalı əsir kimi tabe olması istənilmir, əksinə məktəblə alimlərdən yaxşı ilə pisi şəxsən müstəqil fərqləndirən vasitələrə sahib namuslu bir Azərbaycan vətəndaşı tərbiyə etmələri istənirdi" (33, 40).

## ƏDƏBİYYAT


1. Abdullayeva T. Azərbaycan ədəbi fikrində qərbçilik meylləri. (XX əsrin əvvəlləri). Bakı, "AVROPA", 2014, 152 səh.
2. Агаев А. Мечты мусульманина. Г. "Каспий", 6 ноября 1903, Н 239.
3. Агаев А. Чужды ли мусульманам общечеловеческие идеалы? г. "Каспий", 2 февраля 1904, № 128.
4. Агаев А. Общество востоковедения. Г. "Касп", 24 июня 1900, Н 134.
5. Ağaoğlu Ə. Aləmi-islamə bir nəzər. "İrşad" q., 17 noyabr 1907, № 116.
6. Ağaoğlu Ahmet. Üç Medeniyet. Devlet Kitapları, 2.baskı, İstanbul, 1972 146 s.
7. Ağaoğlu Ə. Millət və millətçilik. – Tərəqqi, 22 yanvar 1909, № 16.
8. Ağaoğlu Ə . Şərqşünasların konqresində (1892), (rus dilindən tərcümə Əziz Mirəhmədov). https://az.wikisource.org/wiki/
9. Azərtbaycan tarixi. Ali məktəblər üçün mühazirələr kursu. II hissə (XIX-XXI əsrin əvvəli). Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2010, 545 s
10. Axundzadə M.F. Dərviş Məstəli şah caduküni-məşhur Hekayəti-xırsi-quldurbasan. Əsərləri. Üç cilddə. I cild. Bakı, "Şərq-Qərb", 2005, 296
11. Axundzadə M. F. Con Stüart Mill azadlıq haqqında. Axundzadə Mirzə Fətəli. Əsərləri. Üç cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2005, 376 səh.
12. Axundzadə M. F. "Hindistan şahzadəsi Kəmalüddövlənin öz dostu İran şahzadəsi Cəmalüddövləyə farsi dilində yazdiği üç məktubun və Cəmalüddövlənin ona göndərdyi cavabin türki dilində tərcüməsi. Əsərləri. Üç cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2005, 376 səh.
13. Axundzadə M. F. 1872-ci il mart ayının sonlarında Tehrana gedərkən Tiflisə gəlmiş Ruhül-qüdsdən neçə məclisdə eşitdiklərim. Əsərləri. Üç cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2005, 376 səh.
14. Axundov M.F. Bədii və fəlsəfi əsərləri. Bakı: Yazıçı, 1987, 368 s.
15. Бахтин М. М. Эстетика словесного творчества. М.: Искусство, 1979, 504 с.
16. Çəmənzəminli Y.V. Biz kimik və istədiyimiz nədir? B.:Universitet nəşriyyatı, 1993, 12 s.
17. Əkinçi qəzeti. 9 iyun, 1877.
18. Əkinçi qəzeti, 20 noyabr 1876-cı il,№22
19. Əkinçi. 1875-1877. Tam mətni. Bakı, "Avrasiya Press", 2005, 496 səh.
20. Əli Akif . Mədəniyyət toxumu səpən "Əkinçi" azerlit.info/?article=1627
21. Hüseynov H. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. Bakı, Zəkioğlu nəşriyyatı-2006, 544 səh.
22. Hüseynzadə Ə. Kasablanka faciəsi və Osmanlı-İran komediyası. "Füyuzat" j., 1907, № 24.
23. İsaxanlıİ. "Din mənim üçün mədəniyyətdir, tarixdir, kimlikdir". "Cəmiyyət və Din" qəzeti. № 49 (136), 28 dekabr - 11 yanvar 2012-ci il, səh. 5 (birinci yazı)).

24. Газета “Каспий”, 25 сентября 1903, № 207.
25. Quliyev V.Əhməd Ağaoğlu:Paris illəri. “525-ci qəzet” 28.05.2011, s. 24-25
26. Quliyev V. Əhməd Ağaoğlu:Paris illəri (II yazı). “525-ci qəzet”. 18.06.2011
27. Quliyev V. Əhməd Ağaoğlu şərqşünasların London konqresində. 525-ci qəzet.- 2014.- 4 oktyabr.- S.14-15.
28. Rəsulzadə M.Ə. Realnı məktəbində müsəlman əlifba sinfi. «Tərəqqi» qəz., Bakı, 1908, 23 sentyabr
29. Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I c., II clddə, Bakı:Azərnəşr, 1992, 470 s
30. Rəsulzadə M.Ə. Kənddə müsibət. «İrşad» qəz., Bakı, 1906, 5 yanvar
31. Rəsulzadə M.Ə. Qəribə bir boykot. «Tərəqqi» qəz., Bakı, 1909, 29 iyun
32. Rəsulzadə M.Ə. "Dirilik"№1, 16 sentyabr 1914
33. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. B.; Gənclik, 1991. 112 səh
34. Рзаев А.К. Очерки об ученых и мыслителях Азербайджана XIX века. Баку: «Маариф», 1969, 142 с.
35. Süleymanlı M. Əhməd Aağaoğlunun “İslama görə və islamiyyətdə qadın” ısırını eli-tənqidi yanaşmalar. Bakı, 2008, 148 s.

## РЕЗЮМЕ

Статья посвящена исследованию характерных особенностей толерантных и мультикультурных идей, которые отражены в мировоззрении просветителей Азербайджана XIX – начала XX века. Следует отметить, что подавляющее большинство азербайджанских просветителей XIX – начала XX века в своей творческой деятельности наряду с идеями просвещения, восприятия национальной идентичности, причинами невежества и отсталости, извлечения новизны развитого мира освещали также толерантные и мультикультурные идеи. Такие выдающиеся просветители как М.Кязымбек, М.Ф. Ахундзаде, А.Гусейнзаде, А.Агаоглу, Ю.В. Чяминзаминли, М.А.Расулзаде сыграли важную роль в распространении и укреплении толерантных и мультикультурных идей в Азербайджане. Наряду с желанием помочь различным культурным конфессиям жить в дружественной атмосфере, приспособить различные культуры и ценности Востока и Запада, они также были ярыми сторонниками внедрения передовых образцов мировой культуры в Азербайджане.

## SUMMARY

The article is devoted to the investigation of the characteristic features of tolerant and multicultural ideas that are reflected in Azerbaijan Enlighteners outlook in the XIX and early XX century. We must mention that the vast majority of Azerbaijan enlighteners of XIX and early XX century have given wide coverage to the tolerant and multicultural ideas alongside with enlightenment, perception of national identity, the reasons of ignorance and backwardness, to benefit from innovations of advanced world and etc. in their creativity and practical activity. Most of that time representatives of Azerbaijan enlight-

enment as Mirza Kazimbey, M. F. Axunzade, A. Huseynzade, A. Agaoglu, Y. V. Chamanzaminli, M. A. Resulzade and etc. played an instrumental role in the widespread and strengthening of tolerant and multicultural ideas in Azerbaijan. They tried to adapt different cultures and nations, specially East and West values, to establish their dialogue and were passionate supporters of implementation of advanced samples of world culture in Azerbaijan for the sake of country's progress. They always wanted nations and religious confessions in Azerbaijan to live together in friendly atmosphere without feud.

Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası 2016-№1 Серия общественно-политических наук

**HACI R.M.**
**CƏFƏRQULİYEVA M.R.**
*Bakı Slavyan Universiteti*

# AZƏRBAYCANÇILIQ MƏFKURƏSİNİN İNKİŞAFINDA MULTİKULTURALİZMİN ROLU

***Açar sözlər:*** *Azərbaycan Respublikası, multikulturalizm və birgəyaşayış, mədəni irs, azsaylı xalqlar, sülh.*

***Key words:*** *Azerbaijani Republic, multiculturalism and coexistence, cultural heritage, ethnic minorities, peace.*

***Ключевые слова:*** *Азербайджанская Республика, мультикультурализм и сосуществование, этнические меньшинства, мир.*

Bəşəriyyətin yaranmasından bu günədək, keşməkeşliyi və mürəkkəbliyi ilə insanları və zamanı heyrətə gətirərək təəccübləndirən proseslər baş verməkdədir. Bütün bunlar geoiqtisadi, geosiyasi maraqların ardınca gedən milli, dini, şəxsi maraqların toqquşmasından qaynaqlanır. Belə bir proseslərdə dövlətçilik ənənələri olan, ətrafında müxtəlif mədəniyyətlərə malik xalqları, etnik qrupları, din və dini qurumları birləşdirən hər bir dövlətin və millətin milli ideologiyaya, milli məfkurəyə ehtiyacı vardır. Dövlət müstəqilliyimizin əbədi olması, taleyimizin qismət etdiyi coğrafi məkan, strateji mövqe Vətən torpaqlarımızda yaşayanlar üçün qəbul oluna biləcək mənəvi-siyasi yönümün müəyyənləşdirilməsini zəruri etmişdir. Bu taleyüklü missiyanı uğurla həyata keçirən Azərbaycan Respublikasında torpaqlarımızı parçalanaraq əyalətlərə çevrilmədən qoruyan Ümummilli liderimiz Heydər Əliyev oldu. O, milli ideologiyanı inkişaf etdirərək azərbaycançılıq məfkurəsini irəli sürdü. Bu xətt, Azərbaycanda vahid milli-dövlətçiliyin formalaşmasını, milli-mənəvi dəyərləri, etnik-milli yetkinləşmə və bütövləşməni özündə əks etdirir, digər tərəfdən, milli kimliyindən, dini mənsubiyyətindən və

dilindən asılı olmayaraq Vətənimizin hər bir vətəndaşının hüquq və azadlıqlarının təmin olunmasını, onların mənəvi-mədəni dəyərlərinin inkişaf etdirməsi üçün lazımi şəraitin yaradılmasını nəzərdə tutur.

Prezident İlham Əliyev tərəfindən ölkəmizin tolerantlıq ənənələrinə, mədəniyyətlərarası dialoqa mühüm töhfələr verdiyini nəzərə alaraq 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi ilə bağlı sərəncam imzalamışdır. Orada qeyd edilir ki, "Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmağımızın bariz nümunəsidir. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində keçirilməsi barədə qərar qəbul edilməsi dünya ölkələrinin Azərbaycanda multikultural mühitə olan münasibətlərinin real ifadəsidir" (11).

Azərbaycan torpaqları qədim dövrlərdən müxtəlif xalqların və mədəniyyətlərin Vətəni olmuşdur. Azərbaycan dövlətinə, dövlətçiliyinə, ərazi bütövlüyünə və tarixinə onların sadiqliyi mənəvi-mədəni dəyərlərimizin mahiyyətindən irəli gəlir. Burada tarixən birgə yaşayan xalqlar, toplumlar özlərini azad, firavan hiss etmiş, özlərinə qarşı daima tolerant münasibət görür, sıxılmadan yaşayır və mədəniyyətlərini yaşadırlar. Azərbaycan və azərbaycançılıq, bu ulu və müqəddəs diyarı öz Vətəni hesab edən, onun adı ilə qürur duyan bütün insanların gücündə və qüdrətindədir. Məhz bu səbəbdən azərbaycançılığın ortaq dəyər və sərvətlərə söykənərək doğuracağı potensialın təsir və miqyasını təsəvvür edəndə, yalnız xoş məram və niyyətlə sevinənlər deyil, narahatlıq hissi keçirənlər də olmuşdur. Ölkəmizin əsrlər boyu bir çox fərqli sivilizasiyaların və mədəniyyətlərin qovuşağında yerləşməsi, Şərqlə-Qərb arasında körpü rolunu oynaması, Azərbaycan torpaqlarında çoxmədəniyyətliliyin yaranmasına səbəb olmuşdur (7, 58).

Qloballaşmanın müasir mərhələsində yuxarıda qeyd etdiklərimizin məntiqi kimi, azərbaycançılıq məfkurəsi Vətən torpaqlarımızda tarixən bərqərar olmuş multikulturalizmi nəinki inkar etmir, əksinə, onu özünün tərkib hissəsi kimi götürür. Bu baxımdan Azərbaycan multikulturalizmi azərbaycançılıq məfkurəsinin təməl daşları olan dövlətçilik, milli-mənəvi dəyərlər, müasirlik və milli mentalitetimizə hopmuş multikulturalizmin tərkib hissəsi olmaqla dünyada cərəyan edən assimilyasiya, təcridolma, aparteid, milli və dini ayrı-seçkiliyə alternativ təqdim olunan sosial-ideoloji bir addım və siyasətdir. Multikulturalizm cəmiyyətin tarixi inkişafının məhsulu, cəmiyyətdə baş verən proseslərdən qaynaqlanan ictimai hadisədir. Multikulturalizmin əsasını tolerantlıq, etnik birliklərin adət-ənənələrinə və azadlıqlarına hörmət hissi təşkil etməklə digər xalqın nümayəndəsinə və dinlərinə hörmətdir. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, bütün xalqları birliyə çağırır, mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır. Multikultural cəmiyyətdə hər bir vətəndaş öz mədəniyyətini, dilini, ənənəsini, etnik və dini dəyərlərini inkişaf etdirmək, ana

dilində məktəb açmaq, qəzet və jurnal dərc etdirmək hüquqlarına malikdir. Multikulturalizm siyasəti assimilyasiyanı inkar edir, inteqrasiyaya aparır. İctimai hadisə kimi formalaşan multikulturalizm həyatın digər sahələrinə - siyasətə, iqtisadiyyata, mədəniyyətə, mənəviyyata, ictimai şüurun müxtəlif formalarına və digər sahələrə öz təsirini göstərərir (4).“Bəşəriyyət bütöv və ayrılmaz bir ailədir” məntiqi multikulturalizmin ana xəttini təşkil etməklə irqindən, cinsindən və dinindən asılı olmayaraq bütün insanların mənşəyinin həm təbii-elmi, həm də dini nəzəriyyədə eyni kökdən olmasına əsaslanır (3).

Azərbaycan Prezidentinin IV Bakı Beynəlxalq Humanitar Forumunda vurğuladığı fikirlər qeyd etdiklərimizi tam təsdiq edir: “Azərbaycan həm Avropa Şurasının, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının üzvü kimi multikulturalizmi bir missiya kimi öz üzərinə götürmüşdür. Biz hesab edirik ki, multikulturalizmin müasir dünyada alternativi yoxdur. Multikulturalizmin alternativi yalnız ayrı-seçkilik, irqçilik, ksenofobiya, islamofobiya və antisemitizm ola bilər” (6, 34).

Bu gün Azərbaycanda 80-dən artıq etnik birliyin üzvü yaşamaqla onlar qafqazdilli, irandilli, türkdilli, slavyandilli qruplara aid olmaqla, respublika əhalisinin etno-konfessional tərkibini təşkil edir. Bu etnik birliklərin sırasında xınalıq, cek, ingiloy, udi, ləzgi, qırız, buduq, tat, talış, rus, yəhudi, kürd və digərlərini sadalamaq olar. Sadalananların bir hissəsi Azərbaycanın köklü əhalisi olmaqla, digər bir hissəsi tarixin müxtəlif inkişaf mərhələlərində baş verən sosial-siyasi proseslərin nəticəsi olaraq Vətən torpaqlarımıza gələrək məskunlaşmış, xalqımızın onlara olan xoş münasibəti nəticəsində bu torpaqlarda inkişaf etmişlər. İslamaqədərki dövrdə Azərbaycanda konfessional durum özünün rəngarəngliyi ilə seçilmiş, ölkənin cənub torpaqlarında əhali əsasən zərdüştlüyə, eramızın 74-cü ilindən başlayaraq xristianlıq yayılmaqla 313-cü ildə dövlət dini kimi qəbul edilmiş, Vətən torpaqlarımızda 600-ə qədər xristian kilsəsi mövcud olmuşdur. Qafqaz Albaniyasının əhalisi nestorian məzhəbinə sitayiş etsə belə, əhalinin az bir hissəsi politeist dinlərə, böyük əksəriyyəti isə xristianlığın diofizit və monofizit məzhəblərinə etiqad etmişlər (10).

Azərbaycan multikulturalizmin əsas məkanlarından biridir. Dünyanın ən qədim məscidlərindən biri, 743-cü ildə tikilmiş məscid Azərbaycanın Şamaxı şəhərində yerləşir. Dünyanın ən qədim kilsələrindən biri olan Yelisey kilsəsi Azərbaycanın digər çoxəsrlik tarixə malik Şəki şəhərinin yaxınlığında yerləşir. Pravoslav və katolik kilsələri, sinaqoqlar, atəşpərəstlər məbədi - bütün bunlar Azərbaycanın mədəni irsinin tərkib hissəsidir. 2003-cü il martın 9-da Bakıda Avropanın ən böyük yəhudi sinaqoqu açılmışdır. Dünyada dağ yəhudilərinin yığcam halda yaşadığı yeganə yaşayış məntəqəsi Azərbaycanın Quba rayonundakı Qırmızı qəsəbədir. Bu gün Azərbaycan əhalisinin 96 faizini islam, qalanını isə xristian, yəhudi və d. dinlərin nümayəndələri təşkil edir. Respublikamızda 600-dən artıq dini icma olmaqla, onlardan 21-i qeyri-müsəlman icmasıdır. Azərbaycan

nadir ölkələrdən biri olmaqla həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının üzvüdür (9).

Ərəb xilafəti dövründə islam dini Azərbaycanın əksər bölgələrində könüllü yayılsa da Uti, Arsax, Kambisena vilayətlərinin əhalisi xristianlığın daşıyıcısı olmaqla "kitab əhli" olduğu üçün ərəblər onların dini etiqadlarına dözümlə yanaşmışlar. Əcdadlarımızın yaşadığı tarixi şərait multikultural ənənələrin yaranması və inkişafı üçün zəmin olmuş, konfessiyalara qarşı tolerantlıq mədəniyyəti formalaşmışdır. Buradan göründüyü kimi, xalqımızın tarixən keçdiyi konfessional təkamül ona polikonfessional mədəniyyət çalarları gətirmiş və bu gün respublika ərazisində zərdüştlük, xristian, islam abidələri fərq qoyulmadan müstəqil dövlətimizin xüsusi diqqət və qayğısı ilə qorunub saxlanılaraq inkişaf etdirilir.

Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il mayın 28-də yarandığı ilk gündən "İstiqlaliyyət akt"ını qəbul edərək ərazisində yaşayan bütün xalqlara hüquq bərabərliyi verdi. Bu bərabərlik parlamentdə öz praktiki ifadəsini tapmaqla hər 24 min insana bir deputat nəzərdə tutulmaqla 120 deputat yerindən 80-i müsəlmanlara, 21-i ermənilərə, 10-u Bakı Rus Milli Şurasına, 1-i Alman Milli Təşkilatına, 1-i Yəhudi Milli Şurasına, 1-i Gürcü Milli Şurasına, 1-i Polyak Milli Komitəsinə ayrılmış oldu. Cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti türkçülüyü, islamçılığı və müasirliyi dövlət idarəçiliyinin ana xətti kimi müəyyən etmiş, sonrakı yetmiş illik sovet rejimi müstəqillik anlamını yaddaşlardan silməyə çalışılsa belə, lakin XX əsrin 80-cı illərindəki mövcud xalq hərəkatı xalqımızın azadlıq ruhunun ölmədiyini, əksinə daha böyük enerji ilə püskürmək üçün məqam gözlədiyini üzə çıxartmış oldu. 70 illik sovet dövründən sonra müstəqilliyini yenidən bərpa edən xalqımızın multikultural dəyərləri azərbaycançılığın əsas sütunu olan dövlətçiliyimizin və dövlətçilik ideologiyasının, həmçinin əməli fəaliyyətinin əsas qayəsinə çevrildi. Polietnik əhaliyə malik olan Azərbaycan Respublikası azsaylı xalqların hüquq və azadlıqlarının qorunmasını müstəqilliyimizin ilk illərindən dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi qəbul etməklə qanunvericiliyimizdə etnik birliklərin mədəni inkişafı, onların hüquqlarının qorunması əsas vəzifə olaraq irəli sürülür.

Azərbaycanın multikultural ənənələrinin dövlət tərəfindən qorunması işində ən mühüm istiqamətlərdən biri də Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmasıdır. Demokratiya prinsiplərinə əsaslanan ali qanun Azərbaycan Respublikasının bütün vətəndaşlarına qanun və məhkəmə qarşısında bərabərlik hüququ verməklə Konstitusiyanın 25-ci maddəsində qeyd edilir: "..İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyə, əqidəyə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır". Həmçinin ölkə əhalisinin tərkib hissəsi olan etnik birliklərin milli mənsubiyyət hüququnun qorunmasını əsas götürərək 44-cü maddədə "Hər kəsin

milli mənsubiyyətini qoruyub saxlamaq hüququnu, “Ana dilindən istifadə hüququ” (maddə 45, bənd 1, 2) və digər maddələri göstərmək mümkündür (1, 75).

Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz. Müstəqil dövlətimiz 1995-ci il fevralın 1-də Avropa Şurasının “Milli azlıqların müdafiəsi haqqında çərçivə konvensiyası”nı imzalamış və 16 iyun 2000-ci ildə ratifikasiya etmişdir. Konvensiyanın 4-cü maddəsində qeyd edilir ki, Avropa Şurasının üzvü olan bütün dövlətlər “milli azlığa mənsub olan hər bir şəxsin qanun qarşısında bərabər müdafiə olunmaq hüququna zəmanət verirlər. Bununla əlaqədar milli azlığa mənsubluğu əsaslanan hər cür ayrı-seçkilik qadağan olunur” (11). Bu gün Azərbaycan Respublikası insan hüquqları, etnik birliklərin hüquqlarının qorunması istiqamətində 50-dən artıq konvensiyaya qoşularaq onları Milli Məclisdə ratifikasiya etmişdir. Xalqımızın tarixən formalaşmış multikultural ənənələrini inkişaf etdirən Azərbaycan Respublikası etnik birliklərinin mədəniyyətini, dilini, adət-ənənələrini qorumaqda yardımçı olmaqla bərabər, onların etnik mənşə və konfessional fərqlərindən, dilindən, dinindən, sayından asılı olmayaraq tolerantlıq ənənələrini həyatda reallaşdırmaq üçün tam şərait yaratmışdır.

Ümummilli liderin dediyi kimi “Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi Vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da - bütünlükdə hamısı azərbaycanlıdır”. Bu sözlər bu gün də son dərəcə əhəmiyyətlidir. Bunun göstəricisi olaraq hazırda Azərbaycan Respublikasında əhalinin 10 faizə qədərini etnik millətlər təşkil etməklə onlar heç bir təzyiqə və ayrı-seçkiliyə məruz qalmadan, bərabər hüquqlara malik olmaqla, tam sərbəst şəkildə yaşayırlar (2,68).

Bu gün müstəqil, unitar və demokratik qanunlara əsaslanan respublikamızda etnik birliklər öz milli mərkəzlərini, assosiasiyalarını və digər qurumlarını yaratmaq hüquqlarından sərbəst şəkildə istifadə edirlər. Respublikamızda onlarla milli mədəniyyət mərkəzləri fəaliyyət göstərir ki, onların sırasında Alman-Azərbaycan cəmiyyəti, “Kapelhaus” alman mədəniyyət icması, Ahıska türklərinin “Vətən” cəmiyyəti, Azərbaycan-slavyan mədəniyyət mərkəzi, Ukrayna cəmiyyəti, Tat mədəniyyət mərkəzi, Azərbaycan-İsrail cəmiyyəti, “Ronai” kürd mədəniyyət mərkəzi, “Samur” ləzgi milli mərkəzi, Talış mədəniyyət mərkəzi, Avar cəmiyyəti, Dağ yəhudilərinin icması, Avropa yəhudiləri (Aşkenazi) icması, “Polonia” polyak mədəniyyət mərkəzi, “Birlik” cəmiyyəti və s. fəaliyyət göstərirlər. İslam dinini, pravoslavlığı və iudaizmi özündə birləşdirən “Üç qardaş” təşkilatının respublika ərazisində fəaliyyət göstərməsi, 26 dekabr 2014-cü ildə Binəqədi rayonuda açılan şiələrlə-sünni məzhəbinə aid müsəlmanların Heydər məscidində birlikdə namaz qılmaları, multikulturalizmin daşıyıcısı olan respublikamızda tolerantlıq ənənələrə hörmətlə yanaşmanın bariz nümunələrindən biridir (5, 374).

Xalqımızın Ümummilli lideri Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. Bu gün birmənalı şəkildə qeyd

etmək olar ki, Ümummilli lider Azərbaycan multikulturalizminin siyasi banisidir. Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix və adət-ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı. Heydər Əliyevin multikulturalizmi azərbaycançılıq ideologiyasının tərkib hissəsi kimi təqdim edərək səsləndirdiyi "milliyətindən, irqindən, dilindən və dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan Respubilikasının bütün vətəndaşları eyni hüquqlara malikdirlər və bu hüquqlar qorunmalıdır", "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu çox yüksək qiymətləndiririk və daim qoruyub saxlamalıyıq" kimi fikirləri Azərbaycanın multikultural mədəniyyətinin yüksəlməsini təmin edərək, onu keyfiyyətcə yeni bir zirvəyə qaldırdı.

Ulu öndər haqlı olaraq multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu öndər qeyd edirdi ki, etnik millətçilik, etnik separatizmə, xalqlar arasında münaqişəyə gətirib çıxarır. Azərbaycançılıq ideologiyası isə dinindən, dilindən və irqindən asılı olmadan ölkədə yaşayan bütün vətəndaşları birləşdirir.

Müstəqil Azərbaycan Respublikasında həyat tərzinə çevrilmiş multikulturalizmin dünyaya çatdırılması istiqamətində görülən işlər Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın məqsədyönlü fəaliyyəti nəticəsində daha böyük vüsət almışdır. Məhz bu fəaliyyətin nəticəsi kimi Bakı 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan edildi. Şərq ilə Qərbi birləşdirən İpək yolunun bərpası işinin təməli Bakıda qoyulduğu kimi, şəhərimiz "Şərq-Qərb" mövzusunda kinofestivallar, incəsənət bayramları, beynəlxalq elmi konfransların keçirildiyi mədəni-mənəvi məbədə çevrildi. "Tolerantlığın ünvanı Azərbaycan" layihəsi çərçivəsində respublikamızdakı məscid, kilsə və sinaqoqlarda təmir-bərpa işləri uğurla aparılır. Mehriban xanım Əliyevanın bu fikri diqqətəlayiqdir: "Xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, tolerantlığın hökm sürdüyü Azərbaycan cəmiyyəti bizim tarixi nailiyyətimizdir və bu amil ictimai-siyasi həyatımızın aparıcı normasına çevrilmişdir. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şərait təmin edilmişdir. Azərbaycanın bütün vətəndaşları dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, əsas insan hüquq və azadlıqlarına malikdirlər. Qürurverici faktdır ki, Azərbaycan dünya ölkələri üçün tolerantlıq örnəyi hesab olunur və bir çox dövlətlər bizim təcrübəmizdən yararlanmağa çalışırlar" (9).

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət hazırda

Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Dövlətimizin başçısının IV Bakı Beynəlxalq Humanitar Forumunda dediyi kimi, "Multikulturalizmin müasir dünyada alternativi yoxdur. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu da çox aydındır. Bu, ayrı-seçkilikdir, irqçlikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir". Ümummilli lider Heydər Əliyev multikultural dəyərlərə əvəzsiz sərvət kimi yanaşırdı: "Azərbaycanın çoxmillətli, tolerant ölkə olması bizim böyük sərvətimizdir, üstünlüyümüzdür... "Azərbaycan" sözü bizi həmişə birləşdirib" (2, 369).

Elə bu məntiqlə də zəmanəmizin dühası Heydər Əliyev Azərbaycanın çoxmillətli dövlət olaraq milli siyasətinin əsas məzmununu belə müəyyən etmişdir: "..Respublikamızın ən başlıca sərvəti əsrlərdən bəri bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olar". Respublikamızda tolerantlıq mühiti əsasında duran mühüm amillərdən danışarkən, ilk növbədə siyasi sabitliyi, sosial və iqtisadi inkişafı qeyd etmək lazımdır. Prezident İlham Əliyevin apardığı davamlı siyasət nəticəsində multikulturalizm Azərbaycan Respublikasının dövlət siyasəti, xalqımızın həyat tərzinə çevrilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev bu siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa böyük önəm verir. O, respublikamızın bu təşkilatlar tərəfindən qəbul edilən milli azlıqların hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı konvensiyalara qoşulmasının vacibliyini qeyd edir. Məhz bu siyasi xəttin nəticəsi kimi, Azərbaycan Prezidentinin göstərişi ilə ölkəmizin 26 noyabr 2009-cu il tarixli qanunla "Mədəni özünüifadə formalarının müxtəlifliyinin qorunması və təşviqinə dair" UNESCO Konvensiyasına qoşulmasını göstərmək olar. Azərbaycan Respublikasının mənəvi-siyasi yüksəlişində son dərəcə vacib məqamlardan biri Prezident İlham Əliyevin təşəbbüsü və iştirakı ilə 2011-ci ildən bəri mütəmadi olaraq Bakıda Beynəlxalq Humanitar Forumun keçirilməsidir. Respublikamız son illərdə Beynəlxalq Humanitar Foruma, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransına, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna, Dünya Dini Liderlərinin Zirvə görüşünə, Krans Montana Forumuna, Davos Forumuna, III Qlobal Bakı Forumuna, habelə ilk Avropa Oyunlarına və digər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etmişdir. Şübhəsiz, beynəlxalq forumlar, konfranslar vasitəsilə sivil dialoqların qurulması, ideyalar, nəzəri və praktiki bilik mübadiləsi, debat və müzakirələr üçün platformanın formalaşdırılması deməyə əsas verir ki, Bakı şəhəri həm də multikultural ideyalar ətrafında intellektual müzakirələr məkanına çevrilir. 2012-ci ildə "Evrovizion-2012" kimi qlobal musiqi yarışmasını yüksək təşkilatçılıqla keçirən Azərbaycan ötən ilin iyun ayında daha bir mötəbər idman tədbirinə - "Baku 2015" ilk Avropa Oyunlarına uğurla yekun vurmuşdur (11). Onu da qeyd etmək lazımdır

ki, Azərbaycan sadalanan reallıqlar kontekstində artıq 2016-cı ilin 25-27 aprel tarixində BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumuna da ugurla ev sahibliyi etmişdir (5, 472).

Belə bir siyasi kontekstdə Prezident İlham Əliyev 28 fevral 2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşavirliyi xidmətini, respublikamızı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və Azərbaycan modelini təşviq etmək məqsədilə 15 may 2014-cü ildə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzini yaratmışdı. Qısa zamanda Bakı Slavyan Universitetində "Azərbaycan multikulturalizmi" kafedrası açılmış, dünyanın 15 universitetində və respublikanın 28 ali məktəbində bu gün "Azərbaycan multikulturalizmi" və "Multikulturalizmin əsasları" fənləri keçilir. Bu fənlərlə bağlı xüsusi proqram hazırlanaraq Təhsil Nazirliyində təsdiq olunmuşdur. Bununla yanaşı, Prezident İlham Əliyevin müvafiq Fərmanına əsasən, 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir. Bütün bunlar bir daha onu sübut edir ki, Azərbaycan multikulturalizm modeli pozitiv sosial təzahür kimi cəmiyyətin inkişafı üçün münbit şərait yaradır, etnik münaqişələrin qarşısını alır və müxtəlif xalqlar arasında etimadı möhkəmlədib.

Bu gün Azərbaycan Respublikasının əldə etdiyi nailiyyətlər, həyata keçirdiyi uğurlu siyasət, respublikamızın beynəlxalq nüfuzunun artması, qlobal əhəmiyyətli tədbirlərin, ümumbəşəri humanitar məsələlərin müzakirə və həll olunduğu multikultural məkana çevrilməsi dünya ictimaiyyəti tərəfindən qəbul olunmaqdadır. Respublikamızda bu siyasəti təkcə siyasi elita deyil, eyni zamanda digər təbəqələr ilə yanaşı, həm də milli və dini azlıqlar da dəstəkləyirlər.

Cənab İlham Əliyevin məşhur "Multikulturalizmə alternativ yoxdur!" şüarı müxtəlif mədəniyyətlərin bərabər imkanlara sahib olması ilə yanaşı, demokratik dəyərlərin inkişafının labüdlüyünü özündə birləşdirir. Bütün sadalanan faktlar Azərbaycanda çoxmədəniyyətliliyin dəyərlər sistemi kimi qəbul olunur. Bir çox ölkələrdə yəhudilər, xristianlar, müsəlmanlar və digər dinlərin nümayəndələri ayrı-ayrı məhəllələrdə yaşayırlar. Azərbaycanda isə müxtəlif dinə mənsub insanlar bir küçədə, bir həyətdə, hətta bir evdə sərbəst yaşayır və bir-birilərinin bayramlarında, dini ayinlərində bir ailə kimi yaxından iştirak edirlər. Bu baxımdan Azərbaycanın təcrübəsi multikulturalizm ideyalarının təbliği üçün çox dəyərlidir. Çünki multikulturalizm Azərbaycanın hər bir vətəndaşının həyat tərzidir.

### ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, Azərbaycan nəşriyyatı, 1997, 112 s.

2. Heydər Əliyev. Müstəqillik əbədidir. II cild, 1997, c. 465.

3.“Azərbaycan 2020 gələcəyə baxış” İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2012-ci il tarixli Fərmanı, “Respublika” qəzeti , 30 dekabr 2012-ci il.

4.Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1992-ci il tarixli fərmanı.

5.Ramiz Mehdiyev. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. I cild, Bakı, 2006, 662 s.

6.Etnik azlıqların hüquqlarının təmin olunmasında və münaqişələrin tənzimlənməsində BMT və ATƏT-in rolu İnam Plüralizm Mərkəzi. Bakı, 2000, 40 s.

7.Azərbaycan Respublikasının milli siyasəti, problemlər, perspektivlər. Bakı “Azərbaycan” nəşriyyatı, 1994, 94 s.

8. Prezidentin milli azlıqlar barədə fərmanı ardıcıl həyata keçirilir.AzərTac “Azərbaycan” qəzeti, 21 may, 1993-cü il.

9. “Azərbaycan” qəzeti, 18 iyun, 2014-cü il.

10. “Heydər Əliyev və azərbaycançılıq məfkurəsi”.Bakı,Azərbaycan Universitetinin nəşriyyatı, 2002.

11. Hadi Rəcəbli.Ulu öndər Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisidir Multikulturalizm siyasətinin azərbaycan nümünəsi.Səs qəzeti. 22 aprel 2016.səh.11

## РЕЗЮМЕ

Азербайджан исторически сложился как государство, базирующееся на демократических ценностях и мирном сосуществовании различных народов. В настоящее время в стране проживает более 80 этносов. Конституция Азербайджанской Республики обеспечивает защиту прав этнических групп, в республике создаются все необходимые условия для их развития. Общенациональный лидер Гейдар Алиев основал идеологию Азербайджанизма как основу для модели национального единения, Президент Азербайджанской Республики Ильхам Алиев продолжает эту конструктивную политику.

## SUMMARY

Azerbaijan historically is the state based on peaceful coexistence of ethnic groupes and democratic values. There are more than 80 ethnic groupes living currently in our country. The Constitution of Azerbaijani Republic provides protection of the ethnic groups and state creates all favourable conditions for their development. Nationwide Leader Heydar Aliyev created the basis of the Azerbaijanism ideology as the model of national unity, President of Azerbaijan Ilham Aliyev continues this constructive policy.

Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası | 2016-№1 | Серия общественно-политических наук

**MƏMMƏDOV H.N.**
*Bakı Slavyan Universiteti*

# BAKI SLAVYAN UNİVERSİTETİNİN AZƏRBAYCAN – BOLQARISTAN TƏHSİL, ELM VƏ MƏDƏNİ ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA ROLU

**Açar sözlər:** *Azərbaycan, Bolqarıstan, Bakı Slavyan Universiteti, Sofiya Universiteti, elm, təhsil, mədəni əlaqələr*

**Ключевые слова:** *Азербайджан, Болгария, Бакинский славянский университет, Софийский университет, наука, образование, культурные связи*

**Keywords:** *Azerbaijan, Bulgaria, Baku Slavic University, Sofia University, science, education, cultural relations*

Azərbaycan Respublikasının bir çox ali məktəblərində, o cümlədən Bakı Slavyan Universitetində ayrı-ayrı millətlərin, xalqların dilləri, tarixi və mədəniyyətləri öyrənilir və təbliğ olunur, sivilizasiyalar və mədəniyyətlər arasındakı əlaqələr tədqiq olunur. Avropaya inteqrasiya olunmaq və onun müasir elm, təhsil və mədəni dəyərlərini qəbul etmək heç də Azərbaycanın öz milli - mədəni dəyərlərindən və dini varlığından imtina etməsi demək deyildir. Kor – koranə təqlidçilikdən də söhbət ola bilməz.Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, məqsəd bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək, həm də respublikanın elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir (9, 205). Bunu da qeyd etmək lazımdır ki, mədəniyyətlərarası dialoq və əməkdaşlıq, multikulturalizm dəyərlərinin qorunub saxlanması bu gün xüsusilə aktual əhəmiyyət kəsb edir. Hələ 2004-cü il oktyabrın 7-də Bolqarıstan Prezidenti G.Pırvanov Bakı Slavyan Universitetində qonaq olarkən çıxışında birmənalı olaraq bildirmişdi: “Mədəniyyətlər toqquşmamalı, qarşılıqlı fəaliyyətdə olmalı və dialoqa girməlidirlər...Əminəm, XXI əsrdə hamımız çalışmalıyıq ki, cəmiyyətlərimizdə mədəni separatizm və

fundamentalizm genişlənməsin. Mən siyasi xadimlərin və liderlərin rolunu bunda görürəm ki, onlar dözümlüyə və dialoqa geniş imkanlar açsınlar" (5).

Avropaya öz milli-mənəvi dəyərlərini qoruyub saxlamaqla inteqrasiya olunmaq və Avropa ölkələri ilə münasibətləri daha da möhkəmləndirmək istiqamətindəki strateji xəttin mahiyyətini Prezident İlham Əliyev belə xarakterizə etmişdir: "Azərbaycan rəqabət səhnəsinə çevrilməyəcək, o, regional və dünya miqyasında əməkdaşlığın meydanı olacaq" (13, 59-60). Biz bunu Azərbaycan və Bolqarıstan arasındakı elm, təhsil və mədəni əlaqələrdə aydın şəkildə görürük.

Azərbaycanın Bolqarıstan Respublikası ilə elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığının genişlənməsində Bakı Slavyan Universiteti mühüm və müstəsna rol oynayır. "Bakı Slavyan Universiteti Avropanın Azərbaycanla və Azərbaycanın Avropa ilə yaxınlaşmasına kömək edən möhkəm mənəvi və intellektual körpu sayılır" (4, 4). Belə ki, BSU Bolqarıstanın Müqəddəs Kliment Oxridski adına Sofiya Universiteti , Yepiskop Konstantin Preslavski adına Şumen Universiteti, Bolqarıstan Milli və Dünya Təsərrüfatı Universiteti və digər ali təhsil ocaqları ilə əməkdaşlıq edir. BSU-nun həmin universitetlər ilə imzaladığı müqavilələr, sazişlər və protokollar müəllim və tələbə mübadiləsini, birgə elmi tədqiqatların, konfransların, simpoziumların, seminarların həyata keçirilməsini, müəllimlərin ixtisaslarının artırılmasını, informasiyaların və elmi-metodiki ədəbiyyatların mübadiləsini və s. sahələri əhatə etmişdir.

Bakı Slavyan Universitetinin Beynəlxalq münasibətlər və regionşünaslıq, həmçinin Tərcümə fakültələrində Bolqarıstan Respublikası üzrə mütəxəssis hazırlığına xüsusi diqqət yetirilmişdir. Belə ki, universitetdə 1996-cı ildən bolqar dili tədris olunur, bolqarşünaslıq ixtisası üzrə mütəxəssislər, o cümlədən bolqar dilindən tərcüməçilər hazırlanır. Burada fəaliyyət göstərən "Bolqar dili və mədəniyyəti mərkəzi" elmi-tədqiqat və tədris işində, mənəvi dəyərlərin qarşılıqlı mübadilə olunmasında böyük əhəmiyyət kəsb etmişdir. Bakı Slavyan Universitetinin bolqarşünasları 2002-ci ildə "Ermənistan-Azərbaycan münaqişəsi (müharibəsi): Dağlıq Qarabağ ətrafında müharibə" kitabını bolqar dilinə çevirdilər (3). Bu kitab həmin ilin dekabrında Universitetin rəsmi qonağı olmuş Bolqarıstan prezidenti J.Jelyevə hədiyyə edildi (2, 449). BSU-nun "Tərcümə problemləri" laboratoriyasında Şərqi Avropa müəlliflərinin bir sıra əsərləri, o cümlədən J.Jelevin "Faşizm" kitabı tərcümə edilərək çap olunmuşdur (15). Sabiq səfir İ.Palçevin Sofiyanın "Bolqarski pisatel" nəşriyatında çapdan çıxan "Azərbaycan-Qafqaz pələngi" kitabı (14) Bakı Slavyan Universitetinin əməkdaşı S.Süleymanova tərəfindən Azərbaycan (12) və rus (13) dillərinə tərcümə edilmişdir.

2004-cü il oktyabrın 7-də Bolqarıstan Prezidenti G.Pirvanovun Bakı Slavyan Universitetinə gəlişi elm və təhsil sahəsində əməkdaşlığın inkişafına müsbət təsir göstərmişdi. Onun iştirakı ilə universitetdə bolqarşünaslıq istiqaməti üzrə tədris prosesinin təkmilləşdirilməsinə kömək etmək məqsədi ilə və Bolqarıstanın Azərbaycandakı səfirliyinin dəstəyi ilə Bolqar Dili və Mədəniyyəti Mərkəzi

yaradılmışdı (5). Mərkəzdə Azərbaycanda bolqarşünaslığın inkişaf mərhələlərini, ölkələrimiz arasında qarşılıqlı münasibətləri, Azərbaycanda bolqar dili və ədəbiyyatının tədrisi problemləri və perspektivlərini araşdırmaq məqsədilə "Azərbaycanda bolqar dili (tarix, müasirlik, perspektivlər)" adlı elmi-tədqiqat layihəsi işlənir. BSU-nun Bolqar dili və mədəniyyət mərkəzinin Kitab fondu 350-yə yaxın kitabdan – dərsliklər, vəsaitlər, lüğətlər, bədii ədəbiyyat, Bolqarıstan tarixi və mədəniyyəti, coğrafiyası və iqtisadiyyatı haqqında və bolqar dili üzrə materiallardan ibarətdir. Mərkəzdə oxucular bolqar dilində jurnallar və qəzetlər, video və audio kasetlər, CD və DVD disklərlə də təmin olunur. Kitabların bəziləri bir neçə nüsxədədir (8). Mərkəzin fondundakı bolqar dilində E.Drosnevanın «Фолклор, библия, история» («Св. Климент Охридски», София, 2002), Y. Andreyevin «История на второто българско царство» (ВТр., 1996), İ.Bojilovun «Културата на средневековна България» (С., 1996), T.Petrovun «Крахът на таталинарната икономика» (С., 1990), N.Nikovun «Празнищите на Българите с легенди и предания» (София, 2004), B.Dimitrovun « Българите Първите Европейци. (Св. Климент Охридски. София, 2002), İ.Palçevin « Ахмед Доган. Опит за политически портрет» (София, 2001) və başqa müəlliflərin əsərləri Bolqarıstanın tarix və mədəniyyəti, adət-ənənələri, dili, diplomatiyası ilə yaxından tanış olmağa imkan verir.

Mərkəzin nəzdində danışıq dilinin mükəmməlləşdirilməsi məqsədilə bolqar dili dərnəyi yaradılmışdır (10, 11). Burada ötən müddət ərzində Bolqarıstanın tarixi, mədəniyyəti və adətləri ilə bağlı tədbirlər keçirilmişdir. Belə ki, səfirlik əməkdaşlarının iştirakı ilə mərkəzdə hər il Bolqarıstanın milli dirçəliş gününə həsr olunmuş tədbirlər, mart ayının ilk günlərində Milli bolqar bayramı "Martenitsa", apreldə "Velikden", mayda Bolqar yazı və mədəniyyəti gününə və "Georgyovden" – Cəsurluq və Milli ordu günü bayramına həsr olunmuş tədbirlər, dekabrda Kolyada (Milad bayramı) bayramı və s. təşkil edilmiş, bolqarların özünəməxsus milli-mədəni dəyərləri barədə geniş məlumat verilmişdir. Bütün bunlar Azərbaycanda bolqar dilinə və mədəniyyətinə yüksək diqqət və qayğı göstərildiyini təsdiq edir. Bolqar Dili və Mədəniyyəti Mərkəzinin "Azərbaycan-Bolqarıstan Dostluğunun İnkişafına Yardım" İB ilə birgə "Azərbaycanda bolqar xalqının özünəməxsusluğu və mədəni irsinin qorunub saxlanılması" mövzusunda keçirdiyi tədbirləri xüsusilə vurğulamaq lazımdır. Mərkəz öz fəaliyyətində bolqarların mədəni irsinin qorunub saxlanılması və geniş təbliğ olunması üçün bu cür tədbirlərin keçirilməsinə həmişə böyük önəm vermişdir. Mərkəzdə həmçinin, Bolqarıstanın dövlət, mədəniyyət və elm xadimləri ilə, o cümlədən 2004-2016-cı illərdə Bolqarıstan Respublikasının Azərbaycandakı səfiri İ.Palçev, Bolqarıstan Respublikasının Milli Məclisinin sədri G.Pirinski, Bolqarıstan Respublikasının Baş Naziri S.Stanişev, Bolqarıstan Gənclər və İdman Dövlət Agentliyinin sədr müavini M.Balabanov, Hüquqlar və azadlıq naminə Gənclər hərəkatının sədri B.Mixaylov, bolqar yazıçısı, ssenari müəllifi, rejissor G.Branev, Sofiya Milli və Dünya

Təsərrüfatı Universitetinin rektoru, Bolqarıstan Prezidentinin təhsil, elm və iqtisadi inkişaf məsələləri üzrə müşaviri B. Borisov, Bolqarıstan Respublikasının Xalq Məclisinin sədri xanım Ts.Tsaçeva və başqaları ilə görüşlər keçirilmişdir. Görüşlərdə xalqlarımız arasında sıx dostluq münasibətlərinin olduğu və təhsil və mədəni əlaqələrin inkişafında BSU-nun mühüm rol oynadığı həmişə vurğulanmışdır.

2011-ci ildə Bakı Slavyan Universitetində "Bolqarıstan dövləti və bolqarlar qədim dövrdən bu günə kimi" mövzusunda sərginin açılışında BSU-nun tələbə və müəllimləri ilə yanaşı, Bolqarıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vasil Kalinov, Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetinin Tarix fakültəsindən bir qrup mütəxəssisi - Sofiya Universitetinin Tarix fakültəsinin dekan müavini, dosent T.Popnedelev və Sofiya Universitetinin "Avropa dialoqu" Doktorant və Postdoktorant Tədqiqatları İnstitutunun direktoru, dosent K. Qrozev da iştirak etdilər (7).

2012-ci il 14 may tarixində Bolqarıstan Respublikasının Xalq Məclisinin sədri xanım Ts.Tsaçeva BSU-da olarkən bolqarşünas tələbələrin Bolqarıstanda təlim kurslarında iştirakı məsələsini müzakirə etmişdir (1).

Azərbaycanşünaslıq mərkəzinin yaradılması Azərbaycan-Bolqarıstan təhsil əlaqələrinin inkişfına mühüm töhfə olmuşdur. Belə ki, 2013-cü il mayın 24-də Sofiya şəhərində Bakı Slavyan Universiteti və St.Klement Ohridski adına Sofiya Universiteti arasında St.Klement Ohridski adına Sofiya Universitetində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin yaradılması haqqında Saziş imzalandı. Hal-hazırda Mərkəz Sofiya universitetində Azərbaycanşünaslıq istiqamətində tədris prosesinin təkmilləşdirilməsində, bütövlükdə Azərbaycan və Bolqarıstan arasında elm, təhsil və mədəni əlaqələrin inkişafında əhəmiyyətli rol oynamaqdadır. Artıq 2013-cü ildən Sofiya Universitetinin Klassik və yeni filologiya fakültəsində türkologiya ixtisasının tələbələri üçün "Azərbaycan dili" seçmə fənni üzrə dərslər keçirilir (11).

Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin kitabxanasında tələbə, magistr və müəllimlər Azərbaycan dilində jurnallar və qəzetlər, video və audio kasetlər, CD və DVD disklərlə də təmin olunurlar. Mərkəzdə mütəmadi olaraq *Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə, Yeni il və Novruz bayramlarına, 28 may-Respublika Günü,* 20 Yanvar faciəsi və Xocalı soyqırımının ildönümü qeyd edilir. Tədbirlərdə Azərbaycanın Bolqarıstandakı Səfirliyin nümayəndələri, Sofiya Universitetinin rəhbərliyi, fakültələrin dekanları, Azərbaycan dilini öyrənən tələbələr iştirak edirlər.

Ümumiyyətlə, Bolqarıstanın nüfuzlu ali məktəblərindən biri olan Sofiya Universitetində də Azərbaycan dili və mədəniyyət mərkəzin açılması Azərbaycanın milli-mədəni irsi ilə bolqarların daha yaxından tanış olmasına və xalqlarımız arasında mədəni-elmi və təhsil əlaqələrinin dərinləşməsinə təkan vermişdir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşəbbüsü ilə Sofiya Universitetində

"Azərbaycan multikulturalizmi" fənni tədris edilir ki, bu işdə BSU-nun əməkdaşları yaxından iştirak edirlər.

2016-cı ilin sentyabında Bakıda keçirilən V Beynəlxalq Humanitar Forumun iştirakçısı, Bolqarıstan Respublikasının vitse-prezidenti xanım M. Popova sentyabrın 30-da BSU-da fəaliyyət göstərən Bolqar Dili və Mədəniyyəti Mərkəzində olmuş, kitabxanaya yeni kitablar hədiyyə etmişdir.Görüşdə Bakı Slavyan Universitetinin rektoru prof. Nurlana Əliyeva BSU-nun bolqar ali məktəbləri ilə təhsil əlaqələrinin yüksək səviyyədə olduğunu bildirərək qeyd etdi ki, burada fəaliyyət göstərən Bolqar Dili və Mədəniyyəti Mərkəzi ölkələrimiz arasında mədəni-elmi əlaqələrin daha da inkişaf etməsində müstəsna rol oynayır. Vitse-prezident M.Popova Bakı Slavyan Universitetində bolqar dilinə, ədəbiyyatına, tarixinə və etnoqrafiyasına göstərilən diqqətə görə BSU rəhbərliyinə minnətdarlığını bildirdi və vurğuladı ki, "tələbələrimiz xalqlarımız arasındakı dostluq və qardaşlıq münasibətlərini daha da inkişaf etdirəcəklər" (6).

Beləliklə, Bakı Slavyan Universiteti dövlətimizin beynəlxalq təhsil, o cümlədən multikulturalizm və tolerantlıq, mədəniyyətlərarası dialoq və əməkdaşlıq siyasətinin mühüm komponentinə çevrilmiş, Azərbaycan - Bolqarıstan təhsil, elm və mədəni əlaqələrinin inkişafında əhəmiyyətli rol oynamışdır. Qeyd etmək lazımdır ki, nəinki Azərbaycan və Bolqarıstan respublikalarının, eləcə də bütün dünyanın gələcəyi qarşıdurma və çarpışmalardan deyil, qarşılıqlı anlaşma və təhsil, elm və mədəni əlaqələrin inkişafından asılıdır.

## ƏDƏBİYYAT:


1.Azərbaycanlı tələbələr Bolqarıstan Parlamentində staj keçəcəklər" // Yeni Azərbaycan, 2012, 15 may

2.Абдуллаев К.М., Гамидов И.Г. Русский язык в Азербайджане (история, современность, перспективы) /научно–публицистические очерки/ .Баку: «Kitab aləmi», 2005, 550 с.

3.Армено-Азербайджанскиятт конфликт (война) около Нагорния Карабах. Научно-аналитическият сборник №1 // Под редакция на проф. К.М. Абдуллаев (переводьт Сулейманова С.Я., Пчелинцева И.В. и др.). Баку: Издательство на БСУ, 2002, 50 с.

4.Bakı Slavyan Universiteti. Бакинский Славянский Университет. Baku Slavic University. Bakı, 2009, 132 s.

5.Bolqarıstan Prezidenti Georgi Pırvanova Bakı Slavyan Universitetinin fəxri doktoru diplomu təqdim edildi."Tələbə dünyası" qəzeti, 12.10. 2004,№ 14(58)

6.Bolqarıstanın vitse-prezidenti Bakı Slavyan Universitetində olub / http://azertag.az/ xeber/Bolqaristanin_vitse_prezidenti_Baki_Slavyan_Universitetinde_olub-997605

7.BSU-nun beynəlxalq əlaqələri güclənir" // Üç nöqtə, 2011, 15 aprel, № 542 (2577)

8.BSU-nun Bolqar dili və mədəniyyət mərkəzinin Kitab fondu
9.Əliyev H.Ə. Müstəqilliyimz əbədidir: 30 kitabda, I kitab (İyun 1993-may 1994). Bakı: Azərnəşr, 1997, 597 s.
10.Крепнуть связи между Азербайджаном и Болгарией // Международный журнал «Аккорд», 2006, январь-март, № 1(4), s.10-11
*11.Müqəddəs Kliment Oxeidski adına Sofiya Universiteti nəzdində Azərbaycan dili və Mədəniyyəti Mərkəzi /* http://bsu-edu.org/AXabar.aspx?kkk=2233.
12.Palçev İ. Azərbaycan-Qafqaz pələngi (tərcümə edən: S.Süleymanova və b.). Bakı: Mütərcim, 2009, 156 s.
13.Палчев И. Азербайджан – Кавказский тигр (перевод с болгарского языка С.Сулейманова). Баку: Мутарджим, 2009, 168 с.
14.Палчев И. Азербайджан-Кавазкият тигър. София: «Български писател» ЕООД, 2008, 126 с.
15.Şiqayeva S. Azərbaycanda bolqar xalqının özünəməxsusluğu və mədəni irsinin qorunub saxlanılması. «Tələbə dünyası» qəzeti, 13.10.2008, №10 (128)).

## РЕЗЮМЕ

Статья посвящена изучению роли Бакинского славянского университета в создании и развитии образовательных, научных и культурных связей между республиками Азербайджана и Болгарией.

Здесь описаны основные направления и формы сотрудничества между Бакинским славянским университетом и болгарскими высшими учебными заведениями.

## SUMMARY

The article is devoted to studying the role of the Baku Slavic University in the creation and development of educational, scientific and cultural relations between the Republics of Azerbaijan and Bulgaria.

Described here the main directions and forms of cooperation between Baku Slavic University and the Bulgarian universities.

Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası | 2016-№1 | Серия общественно-политических наук

**БАРХАЛОВ Г.Н.**
*Бакинский славянский университет*

# НАЦИОНАЛЬНАЯ ИДЕЯ И ПОЛИТИЧЕСКАЯ МОДЕРНИЗАЦИЯ

***Açar sözlər:*** *transformasiya prosesi, siyasi tranzit, milli ideya, qloballaşma, institutlaşma, siyasi modernləşmə.*

***Ключевые слова****: процесс трансформации, политический транзит, национальная идея, глобализация, институализация, политическая модернизация.*

***Key words:*** *process of transformation, political transit, national idea, globalization, institutionalization, political modernization.*

Основа для полноценного развития Азербайджанской республики- это активное участие во всех региональных интеграционных процессах. На современный период наша страна является гарантом и организатором в рамках многих глобальных проектов, которые увеличивают коммуникативную значимость Азербайджана на международной арене.

Для эффективного экономического развития и становления сильного государства и демократического общества, для развития стабильности и успешного развития будущих поколений необходимы: демократические преобразования политической стабильности, а также существенные предпосылки для экономического развития республики. Так, Гейдар Алиев писал, что государство должно быть гарантом всего населения, которое проживает на его территории (1, 60) .

Таким образом, Азербайджану необходимо дать собственный национальный ответ на вызов развития цивилизации.

Старые концепции информации в советском обществе не явились достаточно четкой концептуальной основой для перехода к этому обществу.

Поэтому развитие процесса в данном направлении определяется информационной зависимостью Азербайджана от стран, являющихся лидерами в области информации. Фактически процесс информатизации в Азербайджане характеризовался компьютеризацией, связанной с определенным распадом интеллектуального и информационного потенциала. Национальные ресурсы в информационной области, которые были созданы ранее, исчерпываются. И именно информация не способствовала стабильности и устойчивому развитию регионов, формированию оптимальных структур управления.

Тем не менее, и в странах Запада предпринимаются активные усилия для перехода к постиндустриальному развитию цивилизации. Так Европейский Союз разработал и реализует программу технологий информационного общества. Следовательно, Азербайджану необходимо предпринимать меры, которые обеспечат адекватное восприятие перехода Запада к этапу постиндустриального общества.

Несомненно, что подобие азербайджанского общества западным стандартам не решит проблему, поскольку наша культура коренным образом отличается от западной. Переход к новой политической системе не представляет собой однозначно необратимый процесс, создание нового политического порядка сопряжено со сменой принципов и механизмов социальной эволюции, сопровождаемой ростом общественных противоречий. «Независимость государства, - отмечал Гейдар Алиев, - это большая ответственность для каждого гражданина, поскольку является бесценным достоянием народа. После приобретения независимости для Азербайджана первостепенными задачами были: восстановить территориальную целостность, укрепить государственную независимость, построить демократическое государство и обеспечить безопасность и благосостояние народа. А в этом заключалось построение правильной внутренней и внешней политики с использованием интеллектуального и экономического потенциала республики» (2,1).

В этой связи в настоящее время крайне необходимо комплексное исследование феномена политического транзита. В настоящее время нет общей теории трансформации, учитывающей имеющийся мировой опыт использования тех или иных установок в качестве своеобразных начал, организующих трудовые и общественно-политические отношения граждан государства. Именно поэтому в мировой государственной практике усиливаются поиски конвергентных решений, сочетающих преимущества всех существующих в настоящее время подходов. Как пишет академик Р.Мехтиев – суть государственной политики выражалась в обеспечении стабильности и безопасности, в минимизации экономического потенциала страны и в ликвидации социально-экономического неравенства при максимальной оглядке на проблемы «транзита» (3,67). Очевидно именно это привело к формированию в стране так называемой «минимальной демократии», которая по мне-

нию того же автора при сильной государственной власти является единственной формой общественного устройства, дающей возможность постепенно продвигаться к «демократии универсальной» (3,69).

Для Азербайджана процесс трансформации есть, прежде всего уяснение творческого использования опыта европейских стран с сохранением своей самобытности, продиктованной своеобразием страны, ее прошлым, характером государственности, сознания и мышления людей, всего цивилизованного культурного фона.

В целом же думается, что в Азербайджане достаточно представлены три основных общественных свойств политического развития – рационализация, национальная интеграция и социальная мобилизация, что позволяет определить вектор происходящей политической модернизации в сторону развития. Рубеж XX-XX1 веков – это время политических преобразований во многих странах.

Мировой опыт заставляет относиться к политическим институтам не как к простому инструменту управления, а как к упорядоченному механизму взаимоотношений между управляющими и управляемыми, эффективному только в усвоенных обществом писанных и неписанных ценностных системах, образцах поведения и нормах.

Следовательно, возникает вопрос использования мирового опыта институализации. Здесь речь идет о глобализации, которая ускорила мировые связи и быстро превратила всю планету в единое информационное и экономическое пространство. Развитие современных информационных форм и глобализация сильно ускорили и процесс заимствования институциональных и культурных образцов и сделали совершенствование национальных, политических и экономических механизмов условием выживания для каждой страны.

Одно из важнейших итогов прошлого века – это относительное преимущество демократической модели социально-политических институтов. Ее преимущество обнаруживается, прежде всего, в долгосрочном плане, заключается в эластичности и гибкости, которая обеспечивается за счет эффективной обратной связи. Государственное устройство демократического типа дает возможность общественной консолидации, оптимизации управления и взаимодействий социальных и политических субъектов.

Введение демократических норм и принципов в социальную и политическую практику, создающих реальный потенциал в реализации интеллектуальных возможностей народа в XX1 веке, без сомнения приведет к достижению экономического процветания, и достойной и свободной жизни, и укреплению независимости и национальной безопасности. Но если не учесть национальные особенности социума, данный процесс обречен на неудачу.

Для полноценного служения развитию нации и для процветания государства, национальная идея должна непременно ориентировать общество на инновационную модернизацию.

Национальная идея, овладевая умами людей, несомненно, реализовывается в решениях конкретных целей и задач народа. Таким образом, демократия на современном этапе становится важным компонентом азербайджанской национальной идеи. На сегодняшний день активно проводятся в жизнь концептуальные проекты реализации модернизационных планов трансформационных процессов, исходя из реалий нынешней социальной структуры азербайджанского общества, динамики перемен, происходящих в жизни нашего общества.

Основное внимание уделяется формирующемуся гражданскому обществу, которое, являясь важнейшим элементом социальной организации социума, есть составляющая структура демократии. Для Азербайджана она является такой социальной средой, где все этнические и социальные группы мирно сосуществуют, ощущая себя равноправными гражданами своей страны, а также глубоко заинтересованные в политическом и экономическом развитии государства. Так, современная эпоха характеризуется тем, что реализация национальной идеи без учета интересов общества не имеет перспектив.

Особенностью современной национальной идеи является то, что каждый гражданин ощущает себя частью своего государства, ища в себе силы к преобразованиям, и ощущая потребность в наличии сильного государства и лидера. Нужно отметить, что Президент Азербайджана Ильхам Алиев реализует политику, в которой национальная идея сочетает в себе всестороннее экономическое развитие, демократизацию политического пространства, интеграцию в мировое сообщество, при этом сохраняя национальный дух и самобытность. В условиях глобализации это важный фактор. Так, в 2004 году президентом было отмечено, что демократизация общества и экономический рост – основные элементы проводимой политики, невозможные один без другого. Президент отмечал, что государство будет экономически сильным только при демократическом обществе, где права человека защищаются. В наше время создание и развитие независимого молодого государства, проведение реальной независимой внутренней и внешней политики в рамках национальных интересов, при расчете только на свои силы и ресурсы является очень тяжелой и сложной задачей. И глава государства, который добивается ее решения, становится лидером.

Взвешенная и последовательная политика страны все больше и больше завоевывает успехи в культурном и политическом контексте на мировой арене. Последние годы в жизни Азербайджана это показатели признания нашего государства со стороны мирового сообщества как государства,

обладающего возможностью оказывать влияние на решение многих международных проблем.

Азербайджан как суверенное государство формирует экономический базис модернизации, тем самым решая проблему развития экономики в других политических и исторических условиях, создавая совершенно новую экономическую систему, нацеленную на экономическую свободу и интеграцию в мировое хозяйство. Мы предполагаем, что это ведет к демократизации всего общественного сознания, способствуя завершению этапа становления гражданского общества и изменяя место индивида в социуме, тем самым приводя к осознанному пониманию принципа «свободный гражданин – есть сильное государство».

Именно политическая модернизация, которая конечной целью ставит переход к консолидированной демократии, определяет весь спектр преобразований, сплачивая активные слои общества на решение задач, позволяя своевременно менять тактику и корректировать ситуацию, формируя общественное сознание и создавая политическую элиту инновационного характера.

В 1918 году провозглашенная в Азербайджане идея первой республики на Востоке нашла качественно новый импульс в азербайджанской идеологии. Следует отметить, что сегодня содержание национальной идеи – это богатая история, азербайджанский язык, традиции и самобытность нашей культуры, а также религиозная толерантность. Она способствует формированию настоящего и будущего азербайджанской государственности как независимого субъекта мировой политики и отдельной единицы в период глобальной интеграции.

Современная национальная идея азербайджанского народа – это прочная база для будущего развития, которая дает успешные ответы на вызовы переживаемой эпохи.

## ЛИТЕРАТУРА

1.Афоризмы. Б., Университет Азербайджан, 1997, 120 с.

2.Алиев Г. Обращение к азербайджанскому народу в связи с наступлением нового 2001 года. Нового века и третьего тысячелетия. Газета «Бакинской рабочий», 2002, май.

3.Мехтиев Р.Э. «Мир и национальная идея в конце XX-начале XX1 века». Баку, «Азертадж». 2003, 360 с.

4.Мехтиев Р.Э. На пути к демократии: размышляя о наследии. Баку. Шерг-Герб, 2007, 570 с.

## XÜLASƏ

Müasir dövr cəmiyyətin mənafelərini nəzərə almadan milli ideyaların həyata keçirilməsinin perspektivinin olmaması ilə səciyyələnir. Azərbaycan üçün bu hazırda demokratiyanın stukturundan ibarət sosiumun sosial təşkilidir. Hər bir vətəndaşın özünü öz dövlətinin bir hissəsi olduğunu, güclü dövlət və liderin varlığına təlabatı hiss etməsi müasir milli ideyanın xüsusiyyətidir.



## SUMMARY

The modern era is characterized by the fact that the realization of national idea without considering the interests of society has no future.

For Azerbaijan, it is an element of social organization of society, which in this case is the structure of democracy.

The peculiarity of the modern national idea is that each citizen feels a part of the state, searching for the strength to transform and feeling the need for a strong state and a leader.

Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası | 2016-№1 | Серия общественно-политических наук

**FƏRZƏLİYEV Y.B.**
*Azərbaycan Dövlət İqtisad Universiteti*

# XIX ƏSRİN II YARISINDA BAKI ŞƏHƏRİNİN XARİCİ TİCARƏTİ

***Açar sözlər***: *Bakı, beynəlxalq, ticarət, neft, ipək*
***Ключевые слова***: *Баку, международная торговля, нефть, шелк*
***Keywords***: *Baku, international, trade, oil, silk*

XX əsrin əvvəllərində "Dünya neft kralının qızıl tacı" hesab edilən neft Bakısında 70-ci illərdən sonra kapitalist sənayesinin inkişafına təkan verən bir sıra amillər vardır. İmperiyanın mərkəzində və milli ucqarlarında meydana gələn saysız-hesabsız fabrik-zavodların və nəqliyyatın neft yanacağına tələbatı sürətlə artırdı. D.İ.Mendeleyevin "Bakı nefti" bütün Rusiyanı isindirir, işıqlandırır və hərəkətə gətirir" deməsi təsadüfi deyildi. 60-cı illərin ortalarında və 70-ci illərdə neft mədənlərinə təhkim olunmuş Balaxanı kəndlilərinin təhkimli əməyinin ləğv edilməsi, buruqla quyu qazılması, Zaqafqaziya və Ümumrusiya dəmir yolunun və Xəzər ticarət donanmasının istifadəyə verilməsi, xarici kapitalın Bakı neftinə güclü nüfuz etməsi kapitalizmin inkişafına zəmin yaradırdı.

Bakı şəhərinin xarici ticarətində neft və neft məhsulları mühüm rol oynamaqla bərabər, həm də şəhərin beynəlxalq aləmdə nüfuzunun artmasına güclü təsir edirdi.

Əsas məsələ neft məhsullarının Bakıdan kənara, Rusiyanın daxili əyalətlərinə və dünya bazarlarına daşınması məsələsi idi. 70-ci illərin sonunadək neft yelkənli gəmilər vasitəsilə boçkalarda Rusiyanın daxili əyalətlərinə daşınırdı. Bu işlə Xəzərdə "Volqa", "Qafqaz və Merkuri", "Şərq", "Mazut" və başqa şirkətlərin gəmiləri məşğul olurdu.

1877-ci ildə Nobel qardaşlarının sifarişi ilə hazırlanan dəmir korpuslu "Zərdüşt" gəmisi xüsusilə fərqlənirdi.

Xarici bazarlarda Bakı neftinə olan tələbatı ödəmək üçün "Ziyayi-Qafqaziyyə" qəzeti yazır ki, Xəzər dənizində neft daşınması üçün yeni neft daşıyan gəmilər işə salınırdı. Məsələn, 1883-cü ildə 30 min neft tutumu olan gəmi Xəzər dənizində suya salınmışdı ki, bu da xarici ticarətin inkişafında mühüm rol oynamışdı. (1, №25)

Qəzet yerli tacirlərin xarici ticarətdəki rolundan söhbət açaraq yazır ki, Bakı neft tacirləri Batumi ətrafındakı neft alış-verişindən xeyli gəlir əldə etmişlər. Təkcə 1885-ci ildə Abşerondan yüz milyon puddan ziyadə o yerlərdən sadə neft covhəri xaricə ixrac olunmuşdur. (2,№42)

1900-cü ildə Xəzər neftdaşıma donanmasında yüktutumu 140 milyon pud olan 1300 barj vardı. Bakı dəniz limanı yük dövriyyəsinə görə Peterburq və Odessa limanlarından da güclü idi. Məsələn, Odessada 185 milyon pud, Peterburqda 286 milyon pud, Bakıda isə 338 milyon pud yük daşınırdı (3,20) Neftin Rusiya və dünya bazarlarına daşınmasında dəmiryolu çəkilməsinin böyük əhəmiyyəti oldu. Mühəndis Şuxovun təklifi ilə dəmir yolunda vaqon-sisternlər işə salındıqdan sonra nefti uzaq yerlərə daşımaq asanlaşdı. D.İ. Mendeleyevin təklifi ilə 1897-1907-ci illərdə Bakı ilə Batumi arasında çəkilmiş 829 verst uzunluğunda neft kəməri iqtisadi cəhətdən çox faydalı oldu. Həmin kəmər vasitəsilə ildə 60 milyon pud neft nəql edilirdi. (3,20)

Qeyd etmək lazımdır ki, 1888-ci ildən çar xəzinəsi hesabına aksiz hesabı ilə müəyyən "məbləğ" alınırdı. Bu hesaba görə neftin hər pudundan 40 qəpik alınırdı. Əlbəttə, iri neft alverçiləri üçün həmin məbləğin ödənilməsi çətinlik törətmirdi, lakin xırda neft alverçiləri üçün bu mümkün olan iş deyildi. Əslində bu problem xırda neft alverçilərinin vəziyyətini ağırlaşdırmaqla bərabər həm də ticarət əlaqələrinin inkişafına maneçilik törədirdi. (2, №75)

Qəzet Bakıdan əcnəbi kapitalistlərin külli miqdarda xaricə neft və neft məhsulları apararaq çox böyük mənfəət əldə etdiklərindən xəbər verərək bildirir ki, get-gedə yerli tacirlərə nisbətən əcnəbi tacirlərin rolu artır, nüfuzu güclənirdi. Yerli xırda tacirlər isə iri xarici tacirlər tərəfindən sıxışdırılaraq müflisləşirdilər. 1891-ci ilin sonundan Bakıda neft emalı edən 101 zavodda hasil olan neftin əsas hissəsi xaricə ixrac edilirdi. Neft ixrac edən firmaların arasında Nobel firması mühüm yer tuturdu. (4,33) Bakı nefti xarici ticarətdə mühüm rol oynadığı üçün 1903-cü il dekabrın 29-da Peterburqda təşkil edilmiş məclisdə Zaqafqaziya dəmir yolu ilə əcnəbi ölkələrə aparılan neftin tranzit xərci hər pudda 10 qəpik artmışdı. (5, №1)

Qeyd etmək lazımdır ki, yerli sahibkarlar neftli yerləri əcnəbi kapitalistlərə dəyər-dəyməzinə satmaqla özlərinin xarici ticarətdəki mövqelərini zəiflədirdilər. Əcnəbi kapitalistlər isə neftli torpaqları ələ keçirib xarici ticarətdə böyük nüfuza malik olub, fəaliyyət dairələrini get-gedə genişləndirirdilər.

XIX əsrin sonlarında Bakı şəhərinin xarici ticarətdə rolu, onun beynəlxalq aləmdə get-gedə artan nüfuzu, əcnəbi kapitalistlərin buraya olan marağı ilə müəyyən olunur. O ki, qaldı xarici kapitalist ölkələrinin Bakı nefti üzərində hegemonluğu, yerli müsəlman tacirlərin bu sahədə sıxışdırılması, onların əksər hissəsinin pambıq-parça və digər sahələrdəki fəaliyyəti çar Rusiyasının hakim təbəqələrinin apardığı məqsədyönlü siyasətin təzahürü idi. Çünki onlar Azərbaycan millətindən olan tacirlərin əl-qol açmasına hər vəchlə mane olur, müəyyən vasitə və üsullarla onların fəaliyyət dairələrinin güclənməsinə əngəl törədirdilər.

XIX əsrin II yarsında Bakı şəhərinin xarici ticarətində yağ, süd və şəkər kimi ərzaq məhsullarının mühüm əhəmiyyəti olmuşdur. Bu dövrdə ərzaq mallarının satışı ilə məşğul olan tacirlərin dünya ölkələrinin ərzaq mallarına olan tələbatla bağlı gəlirləri də xeyli artmışdı. "Əkinçi" qəzeti inək və camışın qatığından, onun qaymağından, sərmə südün üzündən və çiyədən hazırlanmış yağın hansı vasitələrlə xarab olmamasını, hansı üsullarla xarici ölkələrə satış üçün göndərilməsindən məlumat verərək yazır: "Yağı xarici ölkələrə satmaq üçün yağı soyuq su ilə yuyub bərk duzluyub palıd ağacından qayrılmış qablara doldurub başqa yerlərə satılmağa göndərirlər. Belə saxlanılan yağ çox qalır." (6, №2)

Əkinçi qəzetində Bakı ilə Peterburq arasında gedən mal mübadiləsindən ətraflı məlumatlar dərc edilmişdir. Qəzet Peterburqla Bakı arasında yağ sahəsində ticarət əlaqələrinin genişlənməsindən, Peterburqda ərzaq məhsullarına olan ehtiyacla bağlı, ərzaq mallarının qiymətinin qalxmasından, yağın bahalaşmasından məlumat verərək yazır: "Peterburqda yanvarın 27-də gərçək yağı 7 manat 25 qəpik, inək yağı 8 manat 25 qəpikdir" (6, №3).

Mətbuatda Firəngistan, Rusiya ilə Bakı arasında genişlənən ticarət əlaqələrindən, o ölkələrdən Bakı bazarlarına satış məqsədilə göndərilən qəndin yerli qənd məhsullarını sıxışdırmasından, xaricdən gətirilmiş qəndin baha qiymətə satılmasından, yerli xırda qənd alverçilərinin müflisləşməsindən məlumat verilir.

XIX əsrin sonlarında düyü, zəfəran və quru meyvə məhsulları alveri ilə məşğul olan alverçilər və iri tacirlər də öz ticarətini getdikcə genişləndirirdilər.

"Əkinçi" qəzetində İranla xarici ticarət əlaqələrində Bakının rolundan bəhs edən müəllif yazır ki, bu il İrandan Badikubəyə o qədər düyü gətirilmişdi ki, düyünün qiyməti düyünün bolluğu ilə əlaqədar xeyli aşağı düşmüşdür. (6, №9)

Mətbuatda Bakının xarici ticarətində zəfəranın mühüm əhəmiyyət kəsb etdiyindən, tacirlərin gəlirinin çoxalmasından, xarici ölkələrin bazarlarında zəfərana olan tələbatın günü-gündən artmasından, Maştağa zəfəranının üstünlüyündən, zəfəranın gəlirli sahə olmasından, onun dünya bazarlarında azlığından məlumatlar verilir.

Əsrin sonlarında bəzi mallar üzrə qoyulan gömrüyün yüksək olması xarici ticarətin inkişafına ciddi mane idi. Lakin bunu da qeyd etmək lazımdır ki, bu

dövrdə fəaliyyət göstərən yarmarkalar və topdansatış ticarət mərkəzləri xarici ölkələrlə aparılan ticarət əlaqələrində müstəsna rol oynamışdır.

“Kəşkül”qəzetinin verdiyi məlumata görə Bakıda açılmış yeni yarmarka, xarici ticarət əlaqələrinin genişləndirilməsində mühüm rol oynamışdır. (2, №21)

Bundan əlavə hər il mayın 6-dan iyunun 6-na qədər bir aylığa açılan bir yarmarka var idi. Hər il bu yarmarkaya xaricdən 500 min manatlıqdan çox hazır fabrik malı (parça, xırdavat və s.) gətirilirdi (7, 167).

Topdansatış ticarət isə Bakıda, həmçinin ölkədə yeganə olan və 1886-cı ildə yaradılan Bakı birjasında cəmlənmişdi (7,167).

Birja şəhərdə ticarət işləri ilə məşğul olan ticarət və sənayenin bütün sahələrində qarşılıqlı əlaqələri olan adamların daimi yeri idi. Şəhərdə ticarətin son dərəcə inkişaf etdiyi bir dövrdə birjanın böyük rolu vardı. Birja maliyyə nazirliyinin sərəncamında idi. Birjanın nəzdində Birja cəmiyyəti yaranmışdı. Birja cəmiyyətində onun üzvlük haqlarını verməklə birinci və ikinci dərəcəli tacirlər, gəmi və zavod sahibləri yaxından iştirak edirdilər. (8, 149)Xarici ticarət əlaqələrinin genişləndirilməsidən söhbət açan müəllif onu da diqqətimizə çatdırır ki, get-gedə əcnəbi tacirlər yerli tacirləri sıxışdıraraq mühüm sahələri öz əllərində cəmləşdirirdilər. Belə ki, xırda ticarət müsəlman xalqlarının əlində idi, topdansatış ticarətdə isə əsas rolu ermənilər, yəhudilər və başqa avropa xalqları oynayırdı (7, 167).

“Əkinçi”-də İranla Bakı arasında xarici ticarətin inkişafı ilə əlaqədar mal dövriyyəsinin günü-gündən artmasından bəhs edən müəllif gömrük xərclərinin də tədricən bahalaşmasından və bunun da xarici ticarətin inkişafına maneçilik törətməsindən məlumat verir (6, №6).

XIX əsrin sonlarında xarici ölkələrə aparılan malların üzərinə qoyulan gömrük xərcləri bir tərəfdən xarici ticarət əlaqələrini tənzimləyirdisə, digər tərəfdən o dövrdə çar Rusiyasının hakim təbəqələri şəxsi maraqlarını əsas götürərək gömrük xərcini yüksəldirdilər ki, bu da xarici ticarətin inkişafına əngəl törədirdi. Amma bu maneələrə baxmayaraq yarmarkalar və topdansatış ticarət mərkəzləri getdikcə xarici ticarət əlaqələrinin inkişafına təkan verirdi.

Bakı şəhərinin əcnəbi ölkələrlə apardığı xarici ticarət əlaqələri şəhərin iqtisadi həyatının canlanmasına, beynəlxalq aləmdə nüfuzunun artmasına, şəhərin günü-gündən abadlaşmasına səbəb olurdu.

Bakının xarici ticarətində mərmər və qeyri-daşlar, metal və metal əşyaları mühüm əhəmiyyətə malik olduğu kimi, pambıq, buğda, Azərbaycan xalçası da əsas rol oynayırdı.

“Kəşkül” Bakı-Tiflis yolunun xarici ticarətin inkişafında əhəmiyyətindən bəhs edərək yazırdı: “Dəmir yolunun xalqa nəfi olmağı məlumdur. Hər kəs beş gün peşkom (piyada) ilə gedilən yolu bir günə rahat gedir. Ondan məsava bizim yerlərimizdən və mallarımızdan hasil olan şeyləri bir az kirayə ilə Tiflis və Badikubə şəhərlərinə və qeyri yerlərə aparıb artıq qiymətə satmaq olur.

“Əkinçi” qəzetində xarici ticarətdə pambıq satışına da geniş yer verilirdi. Qəzetin verdiyi məlumata görə 1876-cı ilin yanvarın 27-də pambığın qiyməti xeyli bahalaşmışdı. Qəzet pambığın satış qiymətindən bəhs edərək yazırdı: “Pambığın çetverti 8 manat 50 qəpikdir” (6, №3).

“Əkinçi” qəzeti Bakı ilə Peterburq arasında gedən ticarət əlaqələrində buğda alverinin əhəmiyyətindən, 1876-cı ildəki quraqlıq ilə əlaqədar Peterburq bazarlarında Bakı buğdasına ehtiyacın artmasından və Bakı buğdasının Peterburqdakı qiymətindən məlumat verərək yazır: “Buğdanın çetverti 11 manat 30 qəpikdir” (6, №3).

Qəzet Bakıdan əcnəbi ölkələrin bazarlarına satış üçün yunun aparılmasından, yun alverçilərinin gəlirinin artmasından xəbər verir.

“Əkinçi” qəzetində Bakıda bazarlarda İran tacirləri tərəfindən gətirilmiş saxta pulların mal alverində istifadə etmələri nəticəsində aldanmış bəzi nadan tacirlərin var-yoxdan çıxması, xarici ticarət əlaqələrində onların rolunun azalması və sairə haqqında məlumatlar dərc edilmişdir (6, №5).

Ən gəlirli əmtəə məhsullarından biri ipəkçilik idi. Xam ipək istehsalının əsas rayonları Nuxa və Şamaxı qəzaları qalmaqda idi. Onlardan başqa Şuşa, Quba, Zaqatala, Ordubad əhalisi də ipək yetişdirilməsi ilə məşğul olurdu.

Hər il 200-250 min pud ipək istehsal olunurdu ki, onun xeyli hissəsi Rusiya-ya və xaricə ixrac edilirdi. Əsrin sonunda Azərbaycanda mindən artıq kənd ipəkçiliklə məşğul olurdu. 1900-cu ildə Zaqafqaziyada istehsal olunmuş 450 min pud ipəyin 290 min pudu (yaxud 64%-i) Azərbaycanın payına düşürdü. (3,11)

İslahatdan əvvəlki dövrdə Azərbaycanın maldarlıq məhsulları Rusiyada kifayət qədər bazar tapa bilmədiyi halda, 80-90-cı illərdə toxuculuq sənayesinin inkişafı ilə əlaqədar ona tələb artdı.

Zaqafqaziyada Azərbaycan maldarlıq sahəsində birinci yerdə dayanırdı. Qoyun cinslərindən tərəkəmə və dağ qoyunları geniş yayılmışdı. Rusların Azərbaycana gətirdiyi zərif yunlu qoyunların sayı 2 dəfə artmışdı. Onların yununa Rusiya və dünya bazarlarında böyük maraq vardı. Burada ildə orta hesabla 166 min pud yun istehsal edilirdi. Onun bir qismi yerli istehsala, qalan əksəriyyəti Rusiya və dünya bazarlarına çıxarılırdı.

Azərbaycanla Avropanın arasında tranzit ticarətinin meydanı Gürcüstan olmuşdu. Buranın içərisindən gedən neft və cövhər boruları vasitəsilə Batumiyə 40 milyon pud cövhər (ağ neft) yeridilirdi (7, 172).

Yenə Batumi limanı vasitəsilə Avropaya biyan kökü, yun, ipək, barama, xalça-palaz və mis göndərilirdi. Bunların əvəzində Avropadan Gürcüstan vasitəsilə sənaye malları, məsələn, manifaktura,qalanteriya və texnika alınırdı.

Mətbuatın verdiyi məlumata görə Bakının nəinki iri tacirləri, hətta xırda tacirləri də Tiflislə xarici ticarət əlaqələrində mühüm rol oynayırdılar. Qəzetdə Tiflis bazarlarında müsəlman tacirlərinin böyük mənfəət əldə etməsindən, gəlirlərinin xeyli çoxalmasından da məlumatlar verilmişdir.

“Kəşkül” qəzetinin məlumatına görə 1887-ci ilin iyul ayının əvvəllərində Bakı quberniyasının məşhur və mötəbər kapital sahibi Tiflisdə Qafqaz xalı-xalçası üçün bir ticarət mərkəzi təsis etmişdir (2, №75).

Qəzet diqqətimizi çar Rusiyasının hakim təbəqələrinin yeritdiyi müstəmləkəçilik siyasəti nəticəsində yerli tacirlərin və milli burjuaziyanın əcnəbi kapitalistlər tərəfindən sıxışdırılmasına cəlb edirdi. Qəzet yazırdı: “İndi 10-20 mağazadan biri ticarətxanaların, yüzdə biri isə müsəlmanların əlində qalıbdır. Günbəgün ticarətimiz və dövlətimiz əlimizdən çıxır. İrandan, Osmanlıdan gələn qeyri millətlər Bakıya gəlib beş gündə tacir olur. Biz də ata-analarımızdan vərəsə qalan yerləri onlara satırıq. O yerlərdə onlar fabrik-zavod tikdirir, binalar tikdirir, xoş gün keçirirlər (5, №48).

Yuxarıda sadaladığımız faktlardan aydın olur ki, XIX əsrin ortalarında xarici ticarətdə yerli tacirlər mühüm rol oynadığı halda əsrin axırlarında çox böyük kapital sahibləri olan əcnəbi ölkələrin tacirləri tərəfindən sıxışdırılırdı. Xarici ticarətin əsas aparıcı sahələrində əcnəbi dövlətlərin iri tacirləri fəaliyyət göstərirdilər. Onlar Bakının iri sənaye sahələrini (neft, gəmiçilik, və s.) əllərinə keçirmiş, hətta xırdavat və pambıq-parça sahələrini də öz əllərinə keçirməyə can atırdılar. Tədqiqatdan məlum olur ki, xarici ticarətdə neft və neft məhsulları mühüm rol oynamışdır.

Yerli tacirlərin zəifliyi mühüm sənaye sahələrinin onların əlindən çıxmasına, xarici ticarətdə nüfuzlarının düşməsinə əsas səbəb isə çar Rusiyasının yeritdiyi müstəmləkəçilik siyasəti idi.

Çünki çar Risiyasının irticaçi hakim təbəqələri müsəlman tacirlərinə nisbətən xristianlara üstünlük verirdi ki, bunun da nəticəsində müsəlman tacirləri rəqabətə tab gətirə bilmirdi.

## ƏDƏBİYYAT


1. “Ziyayi-Qafqaziyyə” 1883, №25
2. “Kəşkül” 1886, №42; 1888, №75; 1885, №21
3. Azərbaycan tarixi. B.1988
4. M.C.İbraqimov “Neftyanaya promışlennost Azerbaydjana v period imperializma”. Bakı, 1984
5. “Şərqi-Rus” 1904, №1;1903,№48
6. “Əkinçi” 1875,№2; 1876, №3; №9
7. Məhəmməd Həsən Baharlı. Azərbaycan (fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk). Bakı,1993
8. Q.İlkin “Bakı və bakılılar”. B. 1998

## РЕЗЮМЕ

Бурный рост нефтяной промышленности в Баку и развитие капиталистических отношений в Азербайджане во второй половине XIX века, способствовало росту как внутренней торговли, также и внешней торговли. В данном периоде нефть и нефтепродукты были ведущими отраслями внешней торговли. Вместе с этим, в Россию и за рубеж экспортировались продукты животного происхождения, хлопок, шелк, ковровые изделия и т.д.

## SUMMARY

The rapid growth of the oil industry in Baku and development of capitalist relations in Azerbaijan in the second half of the nineteenth century, contributed to the growth of both domestic trade and foreign trade also. In this period, oil and petroleum products were the leading sectors of foreign trade. Together with that, in Russia and abroad exported products of animal origin, cotton, silk, rugs and so on.

Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası 2016-№1 Серия общественно-политических наук

SİYASƏT VƏ ŞƏXSİYYƏT

ПОЛИТИКА И ЛИЧНОСТЬ

**МАМЕДОВ Дж.Р.**
*Бакинский славянский университет*

# ФИЛОСОФСКО-ПОЛИТИЧЕСКИЕ ВЗГЛЯДЫ АРИСТОТЕЛЯ

***Açar sözlər:*** *siyasət, dövlət, hakimiyyət, hüquq, konstitusiya, ədalət, bərabərlik, demokratiya*

***Ключевые слова:*** *политика, государство, власть, право, конституция, справедливость, равенство, демократия.*

***Keywords:*** *politics, state, power, law, constitution, justice, equality, democracy*

7. Kərimova S. XIX əsrin axırları,XX əsrin əvvəllərində Azərbaycanda ibtidai təhsilin inkişafında xeyriyyə cəmiyyətlərinin rolu. Avtoreferat.B -2004.


## XÜLASƏ


Məqalə Azərbaycanda ibtidai məktəbin inkişaf tarixinə həsr olunub. Burada XIX əsrə qədər Azərbaycanda ilk təhsil ocaqları olan – məktəb və mədrəsələrdən danışılır. Məqalədə ilk dövlət məktəblərin yaranması, xalqın maarifləndirilməsi və məktəb işinin inkişafında zəhməti olan görkəmli pedagoq və mesenatların, xeyriyyəçi cəmiyyətlərin fəaliyyətindən söhbət gedir.


## SUMMARY


The article is devoted to the issues of history primary school in Azerbaijan. There is about the first schools –mekteb and madrasah on the area of Azerbaijan, and the questions, which snows establishment of the first state schools, and about the role known ed-

ucators and philanthropists, charitable society in the development of education in Azerbaijan.

Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası | 2016-№1 | Серия общественно-политических наук

**XƏLİLOVA A.İ.**
*Bakı Slavyan Universiteti*

# ŞƏRQ FƏLSƏFƏSİNDƏ YARADICILIQ PROSESİ

***Açar sözlər:*** *yaradıcılıq psixologiyası, şüur, şüursuzluq, psixi proses, idrak, intuisiya*

***Ключевые слова:*** *творческая психология, сознание, бессознательное, психические процессы, познание, интуиция*

***Key words:*** *creative psychology, consciousness, unconsciousness, mental processes, cognition, intuition*

İnsan davranışına, onun yaradıcılıq fəallığının mənbələrinə, yaradıcılığın sirlərinə zaman-zaman münasibətlər bildirilib. Insanlar hələ qədim zamanlardan yaradıcılığın sirlərinə bələd olmağa, onun təbiətini, mexanizmini, ona təsir göstərən amilləri və qəribə qüvvələrin mənbəyini açmağa cəhd etmiş, bu hadisələrin nə üçün baş verdiyini anlamağa çalışmışlar.

Yaradıcılıq prosesi cəmiyyətin inkişaf mərhələsinin tələbindən doğur, cəmiyyətin qanun və qaydalarına, dövrün tələbinə, dövlətin və millətin siyasətinə, insanlığm qarşısında duran vəzifələrə əsaslanır. Yaradcılığın hər bir faydalı nəticəsi cəmiyyətin inkişafına, bu əsasda hər bir cəmiyyətin üzvünün-şəxsiyyətin inkişafına səbəb olur.

Şərqin hissi dünyanın öyrənilməsində əldə etdikləri elmi biliklər müstəvisində yaradıcılıq psixologiyası sahəsində tədqiqatlar aparılaraq bir sıra konsepsiyalar yarandı.

Şərqin tərkib hissəsi olan antik mədəniyyətində, fəlsəfəsində yaradıcılığa psixi proses kimi baxılmanın əsası qoyulur.

Dinə və mənəviyyata əsaslanan kəlam və sufizmlə paralel, platonçuluq və aristotelizm inkişaf edirdi. Mənsur Həllac, əl-Qəzali, Ş.H.Sührəvərdi, Mövlana, İbn Ərəbi ilə yanaşı, Fərabi, Biruni, İbn Sina, Ə.Bəhmənyar, Ş.Y.Sührəvərdi kimi alimlər yaradırdılar.

Mübalığəsiz demək olar ki, yaradıcılığın öyrənilməsi sahəsində ən mükəmməl töhfələr yunan filosofları Platon və Aristotel vermişdir. Yaradıcılıq psixologiyasının sonrakı inkişafı tarixində alimlər məhz onların tədqiqatlarına üz tutaraq, bəşər sivilizasiyanın, onun mənəvi təkamülünün, müasir insan məzmunu və qayəsi olan psixikanın araşdırılmasını davam etdirilmişdirlər.

Prof. S.S.Xəlilov qeyd etdiyi kimi, "Yaradıcılıq Gələcəkdə (Yeni Dövrdə) müstəqil bir tərəf, düşüncə tərzi və sivilizasiya kimi formalaşacaq Qərbin rüşeymi hələ bütövlükdə Şərqin tərkib hissəsi olan antik mədəniyyətin, fəlsəfənin bətnində, bir tərəfdən, Hippokrat və Arximed təbiətşünaslığında, digər tərəfdən də Aristotel fəlsəfəsində qoyulmuşdu. Platon təpədən dırnağa qədər Şərq hadisəsi olduğu halda, Aristotel içərisində bir qərbli düşüncəsinin baş qaldırdığı sinkretik zəka sahibi idi. (1, s.51).

Şərq mütəfəkkiri Platona görə, ideya, anlayış sadəcə bizim varlıq haqqında fikirlərimiz olmayıb, varlığın özüdür. Platon yaradıcılığı ağılsızlığın xüsusi növü kimi təzahür edən ilahi keyfiyyət hesab edirdi.

Platon yaradıcılığın ümumi tərifini də verir: "Yaradıcılıq geniş anlayışdır. Yoxluqdan varlığa keçidi əlaqələndirən hər şey yaradıcılıqdır, nəticə etibarı ilə bütün incəsənət əsərlərinin yaradılmasını və peşələri yaradıclıq, bütün yaradanları isə yaradıcılar adlandırmaq olar" (2, 133).

Dialoq formasında əsərlər yazmış Platonun etik fikirlərinə, yaradıcılıq barədə düşüncələrinə «Fedon», «Sokratın tərifi», «Qanunlar», «Dövlət», «Ziyafət», «Teatet», «Protaqor» və s. dialoqlarında rast gəlirik. Lakin yaradıcılıq haqqında düşüncələr  "Fedr" dialoqunda xüsusi olaraq öz əksini tapır. Mahiyyətcə sevgi ətrafında düşüncə xarakteri daşıyan dialoqda yaradıcılıq "eşq" və ilhamla" bağlı olan proses kimi dəyərləndirilir. "Muzaların eşqi, ilhamı incə və pak qəlbi bürüyüb oyadır, nəğmələrində və hər cür başqa yaradıcılığında onu vakxlarsayağı vəcdlə dilə gətirir, əcdadların saysız-hesabsız əməllərini mədh eləməklə gələcək nəsilləri tərbiyələndirir. Kim muzalardan ilham almadan, yalnız bacarığına güvənib yaratmaq həvəsinə düşürsə, kamillikdən uzaqdır; eynilə bu cür də ayiq başlıların yradıcılığı divanələrin yaratdıqları qarşısında heçə-puça çıxır" (3, s.24)

Beləliklə, dialoqdan gətirdəyimiz bu sətirlərdən Platonun yaradıcılıq prosesinin necə böyük quvvəyyə malik olduğunun, insanın emosional sferasıyla bağlılığının, yaradıcı insanın digərlərinin görüb və duya bilmədiyini görməsinin və duymasının, nəsilləri tərbiyələndirən və nəhayət, ilahi bir qüvvə kimi xarakterizə etdiyini görürük .

Platon fəlsəfəsindən bəhrələnən Aristotel, müəllimindən fərqli mövqe tutur, insan idrakının məhsulu olan biliyi önə çəkir.

Aristotelə qədər dünyanı ancaq hissi qavranılan reallıq kimi, vahid maddi təmələ malik olan sistem kimi götürən materialist baxışlar və həqiqi varlığı ancaq ideya ilə, ruhla əlaqələndirərək hissi dünyaya bir kölgə və illüziya kimi baxan, hissi təcrübədən alınan bilikləri həqiqət olaraq qəbul etməyən idealist mövqelər

var idi. Aristotel ideya və maddiyyatı birləşdirmək mövqeyini seçdi. O, Platondan fərqli olaraq ideyaları şeylərin fövqündə deyil, özündə axtardı və ideyanı, eydosu şeyin mahiyyətini və funksiyasını müəyyənləşdirən forma ilə əvəz etdi. Aristotel belə hesab edir ki, dərk olunan şey yoxdursa, onda onun haqqında bilik də yoxdur, varlığın öyrənilməsi yalnız məntiqin sayəsində mümkündür.

Qeyd etdiyimiz fikirlər öz əksini "Ruh haqqinda" traktatda tapmışdır: Beləliklə, Aristotel yaradıcılığa psixi proses kimi yanaşaraq, yaradıcılığı insan ağlının məhsulu kimi dəyərləndirmişdir.

İbn Sina, həm bir filosof, həm də zəmanəsinin ən böyük həkimi olmaqla, nəfs və bədən problemini elmi sistem halında araşdırmış və bu sahədə bir sıra yeni ideyalar irəli sürmüşdür. Psixologiyanın əsasları Aristotel tərəfindən qoyulsa da, onun sonrakı inkişafında ən böyük söz sahibi İbn Sina olmuşdur.

İbn Sina əsasən Aristotel xəttindən çıxış edərək onu təkmilləşdirərək yeni bir nəzəriyyə yaratmağa çalışmışdır. İbn Sinaya görə, insan nəfsi İlahi İşığın emanasiyasından (yaradıcı enerjisindən) doğulur, insan həyatı isə İşığa doğru qayıdış yoludur. «Doğuluş və qayıdış» («Mabda və maad») əsəri də məhz bu problemə həsr olunmuşdur. İnsan həm də bədənə malik olduğundan və bədən ontoloji iyerarxiyada ruha nisbətən aşağı pillədə dayandığından insanın məqsədi və ya kamilliyin yolu bədəndən ruha, qaranlıqdan işığa qayıdışdan ibarətdir. Bu fikirlərdə peripatetizmdən sufizmə körpü atıldığının şahidi oluruq.

Məntiq sahəsində İbn Sina Aristotel məntiqini sadəcə şərh etməmiş, bu sahəyə bir sıra yeniliklər gətirmişdir. Əslində İbn Sina məntiqin xüsusi bir sahəsi olan *modal məntiqin* banisidir. Belə ki, Avropada bu problemlə ancaq XIII-XIV əsrlərdən məşğul olmağa başlamışlar və o da yəqin ki, İbn Sinanın əsərləri ilə tanışlıqdan sonra.

İbn Sina məntiqə daha geniş planda yanaşır, məntiqi məlum anlayışlardan naməlum anlayışlara düzgün keçidin qaydalarını, habelə bu anlayışların vəziyyətini öyrənən elm kimi müəyyənləşdirir (4, 33).

Şərq fəlsəfəsinin inkişafında yaradıcılıq prosesinə həqiqətin kəşfi kimi baxılırdı. Azərbaycan alimi Əbülhəsən Bəhmənyar Şərq fəlsəfəsinin inkişafında özünəməxsus yer tutur. Məşhur İbn Sinanın şagirdi olan Bəhmənyar Aristotelin şərhçiləri içərisində güclüsüdür. Şərq peripatetizminin ən böyük nümayəndəsi olan Bəhmənyar «Təhsil», «Gözəllik», «Səadət», «Musiqi kitabı» «Metafizikanın mövzusu», «Mövcudatının mərtəbələri» və s. əsərlərini yazmışdır.

Bəhmənyara görə, hər şeyin səbəbi və nəticəsi var, bədən əqlin sayəsində mövcud olur. Bəhmənyarın məntiqə dair yazdığı əsərləri indi də öz əhəmiyyətini saxlamaqdadır. Peripatetik filosof, Aristotelin və İbn Sinanın mövqelərindən çıxış edən Bəhmənyar onların ideyalarının inkişafına məntiq prizmasından yanaşırdı. O, idrakı– hissi və məntiqi olaraq iki hissəyə bölmüşdür. İdrakın mənbəyi də ikidir: hissi təcrübə və əqli təfəkkür. Onun fikrincə, məhz məntiq qüsür və yanlışları üzə çıxarmağın, həqiqəti dərk etməyin və yenilik yaratmağın zəruri şərtidir (5, s.51).

Biri digərini şərtləndirir. İdrak nəzəriyyəsində idrak prosesində hissi və rasional momentlərin mövcudluğu qəbul olunur.

Ümumiyyətlə, Bəhmənyarın təlimi sonrakı alimlər nəslinin yetişməsində mühüm rol oynamışdır.

Orta əsr Azərbaycan, eləcə də müsəlman Şərqində məşhur filosoflardan biri Şihabəddin Yəhya Sührəvərdi dünyada ən çox tanınan Azərbaycan filosoflarından biridir və o yaradıcılığının ilk dövründə bir tərəfdən peripatetizmin, digər tərəfdən də sufizmin güclü təsiri altında olmasına baxmayaraq, öz fəlsəfi təlimini yarada bilmiş, bu gün də orijinallığı ilə diqqəti cəlb edən yeni sistemin əsasını qoymuşdur

Sührəvərdi idrak məsələlərinə münasibətdə Platondan fərqli mövqe tutmuş. Burada insan şüurunun («düşüncəli nəfs») timsalında ideyalar aləmi (işıq) və cismlər aləminin (qaranlıq) vəhdətindən söhbət gedir. Yəni yalnız işıqlanma (ozarenie) məqamında, kəşf məqamında cismin, hadisənin həqiqi mahiyyəti üzə çıxır və qarşıda duran vəzifə bu mahiyyətin duyğu üzvlərimiz vasitəsilə verilən biliklərdən təmizlənməsi, xalis şəkildə dərk olunmasıdır.

Sührəvərdinin yazdığına görə, «xarici dərkedicilərdən (beş duyğu: toxunma, dadbilmə, iybilmə, eşitmə, görmə) sayəsində daxili dərkedicilər görünən surətləri təxəyyül yolu ilə deyil, əyani şəkildə müşahidə edir» (6, s. 217). Yəni, Sührəvərdi nurun (ideyaların) deyil, məhz cismlərin, maddi aləmin dərkindən söhbət açır. Lakin bu dərk zamanı «cismin daxili cəhəti deyil, yalnız səthi duyulur» "(6, s.218).

«Sən bir şeyi yalnız onun səndəki surətinin hasil olması ilə dərk edirsən. Dərk etdiyin həmin şeyin ona mütabiqliyi lazım gəlir, əks halda onu olduğu kimi dərk etməzdin»… (6, s. 217) «Onların səndəki surəti ölçülü deyildir… o, sənin düşüncəli nəfsindir… o, hissələrə ayrılmayan təkdir, … təsəvvürlər onu əsla bölə bilməz» (6, s.217). Bu bölünməz şüur hadisəsi hissi fəaliyyətin yox, işıqlanmanın nəticəsi kimi ortaya çıxır və cismin özündən də vacib hesab olunur. O - düşüncəli nəfs «cismani olmasa da, cismlər aləmini idarə edir» (6, s.222).

Beləliklə, maddi dünya və nurani dünyanın təsiri ilə yaranan, kəşf sayəsində müstəqil mövcud olan şüur hadisəsi hissi obrazlardan da, sözlə, məntiqlə ifadə olunan biliklərdən də yüksək tutulur.

Ş.Sührəvərdi Z.Freyddən səkkiz əsr əvvəl yazırdı: «Bütün hərəkətverici və dərkedici qüvvələrin daşıyıcısı heyvani ruhdur» (6, s.229).

Şihabəddin Yəhya Sührəvərdinin «Əqllər aləmində inikas» təlimində təxəyyülün xüsusi yeri vardır. Hissi obrazları yadda saxlayan hafizədən fərqli olaraq təxəyyül «əqli şeylərin» fikirdə canlandırılmasına və onlar arasında xəyali əlaqələr yaradılmasına xidmət edir. Ş.Sührəvərdi yazır: «Təxəyyül qabiliyyətinə görə obrazlar işıqlana bilir». (7, s. 83)

Duyğularla alınan informasiyanın gerçəkliyə adekvatlıq dərəcəsinə şübhə ilə yanaşmağa başlamışlar. Əsil həqiqətin məqsədyönlü düşüncə ilə intiusiya və vəhylə əldə olunması ideyası müxtəlif çalarlarda qədim hind-çin fəlsəfələrində və

antik fəlsəfədə ifadə olunmuşdur. Orta əsrlər İslam fəlsəfi fikrində də bu ideya aparıcı olmuşdur. Ş.Sührəvərdi xarici duyğular vasitəsilə alınan biliklərin insanı çaşdırdığını, əsil həqiqətdən uzaqlaşdırıldığını qeyd edir.

Burada yada salmaq yerinə düşərdi ki, hələ orta əsrlərdə İbn Sina və Ş.Sührəvərdi nəfs hadisələrini bədənlə izah etmək cəhdlərinin qüsurlu olduğunu göstərirdilər. Ş.Sührəvərdi yazırdı ki, aşağıda olan özündən yüksəkdəkini idarə edə bilməz. Ona görə də, nəfs bədənin məhsulu ola bilməz. Bədən nəfsi yox, nəfs bədəni idarə edir. Müqayisə etsək Karl Qustav Yunqunda oxşar mövqeyini görərik. O, yazır ki, ideyalar hansı isə konkret insandan yox, nə isə daha böyük bir varlıqdan yaranır. Biz onları deyil, onlar bizi formalaşdırır (8, 6.)

Rus şərqşünas filosofu A.Smirnov Sührəvərdinin «Hikmət əl-işraq» kitabını təhlil edərək yazır ki, əs-Sührəvərdi də İbn Sina kimi həqiqi idrakın iki növündən danışır: bilavasitə, intuitiv idrak və bilavasitə, məntiqi idrak. Həqiqətin bilavasitə əldə olunmasını «mən»in dərk olunması ilə əlaqələndirən Sührəvərdi ikinci növ idrakı tədqiqatla (bəhs) əlaqələndirir. (1, 57.)

İdrakın birinci forması isə intuitiv idrak hesab olunur. Maraqlıdır ki, Sührəvərdi bununla kifayətlənmir və bilikləri də iki yerə bölür: «İnsan bilikləri anadan gəlmə (fitri) və sonradan əldə edilmiş şəkildə olur» (6, 218).

Beləliklə, Şərq mütəfəkkirləri yaradıcılıq prosesini özündə hissləri, təxəyyülü, təfəkkürü ehtiva edən, insanı fəallığa stimullaşdiran akt kimi təhlil edirdilər.

## ƏDƏBİYYAT


1. Xəlilov S.S. Fəlsəfə: Tarix və müasirlik (Fəlsəfi komparativistika). Bakı, «Azərbaycan Universiteti» nəşriyyatı, 2006 , 420 səh.
2. Philosophical romanticism, Rout ledge, 2006, 304 p.
3. Платон. Федр. М.: Прогресс, 1989.
4. Ибн Сина. Избранные философские произведения. М.: Наука, 1980.
5. Seyidov S. Yaradıcılığın fenomenologiyası. Bakı, Qanun nəşriyyatı, 2013, 288 c.
6. Ş.Sührəvərdi. Nur heykəlləri. VII heykəl. – Şərq fəlsəfəsi. B., 1999
7. Sohravardi. The book of Radiance. California, 1998, p. 83
8. Юнг К. Г. Психология бессознательного. М., Канон, 1994.



## РЕЗЮМЕ

Статья посвящена проблеме творческого процесса в восточной философии. Проблема творчества имеет древнюю историю. Обращение к истории вопроса позволяет раскрыть трансформацию этих подходов. Начиная с античности, творческому процессу уделяется пристальное внимание в трудах Платона, Аристотеля. Дальнейшее развитие проблема получает в работах восточных ученых - Ибн Сины как

представителя восточного аристотелизма, Ш.Й.Сухраварди, А.Бахманияра, рассматривающие творческий процесс как акт стимулирующий деятельность.


## SUMMARY

The article is devoted to the creative process in the eastern philosophia. creative problem has a long history. Appeal to the history of the question can reveal the transformation of these approaches. Since antiquity, the creative process is paid close attention to the writings of Plato, Aristotle. Further development of the problem gets in the works of Oriental scholars Ibn Sina as a representative of the eastern Aristotelian Sh.Y.Suhravardi, A.Bahmaniyara considering the creative process as an act of stimulating activities.

Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası 2016-№1 Серия общественно-политических наук

**БАРАНОВ Н.П.**
*Минский государственный лингвистический университет, Беларусь*

# К ПРОБЛЕМЕ ГРАЖДАНСКО-ПАТРИОТИЧЕСКОГО ВОСПИТАНИЯ СТУДЕНЧЕСКОЙ МОЛОДЕЖИ

**Açar sözlər:** *vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi, tələbə, gənclər, təhsil prosesi.*
**Ключевые слова:** *гражданско-патриотическое воспитания, студент, молодежь, образовательный процесс.*
**Key words:** *civil and patriotic education, student, youth, educational process.*

Гражданско-патриотическое воспитание студенческой молодежи - важная государственная задача, эффективное решение которой активно обеспечивается всем педагогическим составом непосредственно в образовательном процессе и всеми воспитательными структурами в системе целенаправленно организованной воспитательной работы вуза.

Особый исследовательский и педагогический интерес к проблематике гражданско-патриотического воспитания студентов в современных условиях связан с тем, что объективно закономерно возрастают государственно выраженные, общественные требования к социально-гражданскому развитию молодежи, определяемые цивилизационными трансформациями белорусского социума: формированием и успешным развитием молодого, суверенного белорусского демократического государства, активным становлением в нем гражданского общества. Поэтому данное направление воспитания имеет в нашей Республике приоритетный статус в системе многоаспектной воспитательной работы с молодежью и рассматривается в качестве базового в ее личностном гражданственном и профессиональном становлении, в формировании политической культуры и активной жизненной позиции учащейся молодежи.

Концепцией непрерывного воспитания детей и учащейся молодежи в Республике Беларусь акцентируется, что приоритетом воспитания в учреждениях образования является целенаправленное и активное содействие личностному становлению профессионала-труженика, гражданина и патриота своей страны. Формирование гражданственности, патриотизма и национального самосознания на основе государственной идеологии определяется в качестве основной задачи воспитательной работы, реализуемой через единство таких направлений воспитания как идеологическое, политическое и непосредственно гражданско-патриотическое воспитание молодежи. Резюмирующим в системе этих основополагающих идей государственной концепции выступает положение о том, что гражданское и патриотическое воспитание направлено на формирование активной жизненной позиции, патриотизма, правовой и политической культуры учащейся молодежи (1).

Таковы исходные, государственно выраженные идеи, определяющие ключевые принципы подхода к гражданско-патриотическому воспитанию учащейся молодежи в нашей Республике, в том числе студенчества вузов как объекта наших непосредственных воспитательных педагогических воздействий в образовательном процессе.

В предметном рассмотрении гражданственность и патриотизм с неоспоримой очевидностью предстают не как самодовлеющие реалии, а как органично взаимосвязанные между собой, обусловливающие друг друга феномены. Объективно они действительно являются неразрывными гранями единой субстанции – первоосновы всей системы воспитания личности, формирования высочайших по своей значимости ее социальных и духовных качеств. Не бывает и быть не может (кроме как в чисто умозрительной, поверхностной абстракции) патриотизма без (вне) гражданственности и гражданственности без (вне) патриотизма. Действительный гражданин всегда – действительный патриот, настоящий патриот всегда – настоящий гражданин: такова глубинная сущностная взаимосвязь феноменов гражданственности и патриотизма, являющихся основополагающими в социальном и духовно-нравственном самоопределении личности. Вполне обоснованно можно утверждать также, что у социально зрелой личности патриотизм есть квинтэссенция гражданственности, и данное неразделимое качество есть следствие активного социального развития личности, результат ее целенаправленного воспитания.

Начинающийся с чувства любви к Родине патриотизм, и вызревающая с пониманием личностью своей государственно-этнической принадлежности и суверенитета своей страны, личного долга и ответственности за ее развитие гражданственность, представляют в сформированном своем состоянии закономерный онтологический сплав гражданственности-патриотизма, который становится основой национального самосознания граждан Респуб-

лики Беларусь, основой консолидации белорусского общества, формирования монолитного, активно действенного духа народа – этих важных факторов обеспечения успешного цивилизационного развития Республики Беларусь в современном глобализирующемся мире.

В силу своей актуальной значимости и полифункциональности гражданско-патриотическое воспитание является одним из главнейших концептов идеологии белорусского государства, выражающим один из основных национальных интересов нашего государства в социальной, политической и духовной сферах.

Развитие в белорусском обществе, и, прежде всего, у молодежи, гражданственности и патриотизма становится на современном этапе особо актуальным в контексте следующих обстоятельств.

Бурно нарастают противоречия и вызовы глобализационных процессов, в горниле которых проверяется цивилизационная жизнеспособность суверенных государств. Особой приметой нынешнего времени стали жесткие информационные войны, небывалое обострение информационного противоборства, объектом глобализационно-идеологических воздействий которого, в том числе деструктивных, является духовность народов. Наиболее ценной (ей продолжать творческое созидание будущего страны) и в то же время наиболее уязвимой (еще только формирующей свое мировоззрение) частью этноса, безусловно, является его учащаяся молодежь, вступающая в активную общественную жизнь Республики и закономерно требующая повышенного внимания к ее гражданско-патриотическому воспитанию.

Констатируя особую значимость гражданско-патриотического воспитания молодежи как ключевого фактора обеспечения дальнейшего развития молодого суверенного белорусского государства, Президент нашей страны А.Г. Лукашенко проникновенно и убедительно сказал следующее. «Вступает во взрослую жизнь новое, первое поколение белорусов, родившихся и выросших в суверенном государстве. Их Родина – Республика Беларусь. Их будущее – это будущее этой страны», - заявил Президент, выступая с ежегодным Посланием белорусскому народу и Национальному собранию 8 мая 2012 г. «Новому поколению, - отметил А.Г. Лукашенко, - жить в новом времени – полном кардинальных изменений и тревожных вызовов. Наша с вами общая задача… сделать все, чтобы превратить эти вызовы в возможности и в успех страны. Но богатство – не самоцель. Убежден: движущей силой прогресса являются не материальные блага, а патриотизм». По мнению Главы государства, движение вперед невозможно без искренней любви к Родине, земле предков, к своему народу. «Патриотизм проявляется не в словах и лозунгах, а в жизненной позиции человека, его повседневных трудах. В том, что он живет не только для себя, но и для своего Отечества». «Многое может меняться вокруг нас, но эта истина остается непоколебимой. Пат-

риотизм был, есть и должен оставаться незыблемым постулатом нашей государственности. Это вечная ценность, которая скрепляет поколения» (2, 2).

В общественно-политической, научной и образовательной сферах Республики Беларусь закономерно усиливается внимание гражданско-патриотическому воспитанию как ведущей ценностной мировоззренческой основе социального становления молодежи, обсуждению и осмыслению его проблем, аспектов и форм организации, его совершенствованию в контексте вызовов современности.

Постоянное, не ослабляемое внимание гражданско-патриотическому воспитанию студенческой молодежи уделяется в вузах непосредственно в системе качественно обновляющегося социально-гуманитарного образования, государственные образовательные стандарты которого ориентированы на формирование у подготавливаемых специалистов широкого спектра исключительно важных социально-личностных компетенций и качеств. Соответственно, процесс развития такого педагогического феномена, как гражданско-патриотические качества личности, может быть полноценно реализован только в широком культурном контексте, интегрирующем философию, историю, общественно-политические и психолого-педагогические науки. Ведь среди факторов социализации образование (в том числе акцентируемое в исследуемом аспекте социально-гуманитарное образование) является ретранслятором всей культуры человечества, заключенной в знании. Сфера гуманитарного знания, дословно обозначающая развитие человеческого в человеке, и ориентирована на развитие его родовых, всеобщих по значению общекультурных способностей.

Базовыми системообразующими элементами исследуемого процесса, подлежащего активному педагогическому воздействию и регулированию выступают, как акцентировано выше, гражданственность и патриотизм.

«Понеже от прирожения звери, ходящие в пустыни, знают ямы своя; птици, летающие по воздуху, ведають гнезда своя; рибы, плывающие по морю и в реках, чують виры своя; пчелы и тым подобныя боронять ульев своих, - тако ж и люди, игде зродилися и ускормлены суть по бозе, к тому месту великую ласку имають» (3, 444), - так классически выразил понимание патриотизма великий белорусский мыслитель Франциск Скорина. В этом, глубоко прочувствованном до истоков родной земли, философски выверенном скорининском определении «любоў да Радзімы – самае першае і высокае духоўнае пачуццё» (там же. 444), - эта мысль последователей Ф.Скорины созвучна мыслям о патриотизме и соответствующим чувствам каждого современного гражданина Республики Беларусь как достойного наследника своих исторических предков.

Важной лейтмотивной темой его (Ф.Скорины) философствования была также гражданственность человека, относительно которой Франциск Скори-

на считал наинеобходимейшим научить человека «вкупе жить» и бескорыстно служить «посполитому (общественному) доброму», «пожитку посполитому» (4, 622).

В своем научном развитии к категориальному уровню, понятия патриотизма и гражданственности (онтология позволяет рассматривать их в любой последовательности) постоянно содержательно углублялись, вбирая все обогащающие их содержание исторические представления о них, отражавшие связанные с ними актуальные противоречия социальной реальности.

Так, по В.И. Далю, патриотизм (от греч. patris – родина, отечество) – любовь к Родине, отечеству; патриот (от греч. patriotes – соотечественник) – любитель отечества, ревнитель о благе его, отчизнолюб, отечественник или отчизник (5, 627).

По акцентированному В. Ульяновым (Лениным) определению, «Патриотизм – одно из глубочайших этнических чувств, сформированных веками обособленных отечеств» (6, 282).

Вместе с тем нельзя не согласиться и с А.Н. Толстым, отмечавшим, что «Патриотизм – это не значит только любовь к своей Родине. Это гораздо больше. Это – сознание своей неотъемлемости от Родины и неотъемлемое переживание вместе с ней ее счастливых и несчастных дней» (7, 70).

Трактовки патриотизма разнообразны, но сходятся к единой глубинной сути: «Высочайший патриотизм – страстное, беспредельное желание блага Родине» (Р.Г.Чернышевский), «Нет у человека ничего прекраснее и дороже родины. Человек без родины - нищий человек» (Я.Колас), «Любовь к родине – первое достоинство цивилизованного человека» (Наполеон), «Истинное мужество просвещенных народов состоит в готовности к самопожертвованию во имя родины» (Г.Гегель), «Самые большие подвиги добродетели были совершены из любви к Отечеству» (Ж.Ж.Руссо) и, вместе с тем, «Патриотизм не должен ослеплять нас; любовь к отечеству есть действие ясного рассудка, а не слепая страсть» (Н.М.Карамзин), «Настоящий патриотизм не тот, который суетится и чванится в торжественные минуты, а тот который ежедневно и неутомимо заботится об общем благе и не бахвалится этим» (А.Граф). «Любовь к отечеству должна выходить из любви к человечеству, как частное из общего» (В.Г.Белинский), «Любовь к отечеству совместима с любовью ко всему миру» (К.Гельвеций), «Ногами человек должен врасти в землю своей родины, но глаза его пусть обозревают весь мир» (Д.Сантаяна) (Там же. 68 - 71). «Патриотизм: убеждение, что твоя страна лучше других потому, что именно ты в ней родился» (Джордж Бернард Шоу) (8, 573).

Дискуссии о содержании патриотизма и его особенностях в современных условиях, которые мы наблюдаем сегодня, не только не утихают, но даже нарастают. Они ведутся по основополагающим вопросам: что такое

патриотизм? как соотносятся патриотизм и национализм, с одной стороны, патриотизм и интернационализм, с другой? как измерить патриотизм, диагностировать его уровень в обществе? как его формировать? каким образом его развивать? куда и как направлять? Аналогично дискутируются вопросы и по феномену гражданственности. В чем заключается ее глубинная сущность? Каково действительное, осязаемое содержание этой актуальной социальной абстракции? Какова конкретная ее взаимосвязь с патриотизмом, конкретный «механизм» их взаимовлияния? Какими критериями возможно эффективно оценивать гражданственность? С какого времени развития личности, какими факторами наиболее целесообразно и действенно ее развивать? Ведь «гражданин, - как это было акцентировано еще в великую эпоху европейского Просвещения, - главная ценность исторически развитого общества» (Жан Жак Руссо). Эта идея вызревала в философской мысли человечества с античной древности, где впервые в ареале европейской культуры заговорили о гражданственности как особом социальном качестве человека.

Категориальные научные определения патриотизма и гражданственности вобрали в обобщенном виде весь опыт развития исторических представлений о них. Обратимся к данным дефинициям.

В научном видении и категориальном определении, патриотизм есть интегративная, системообразующая характеристика личности (социальной общности, общества в целом), имеющая генетические корни, отражающая объективно сложившуюся связь «человек (общность) – среда обитания и развития» и подразумевающая нравственно-эмоциональную связь названных субъектов с комплексом географических, этнических, исторических, религиозных и т.п. представлений, которые имеют ценностно-деятельную природу и проявляются в стремлении данные ценности отстаивать, защищать и приумножать (9, 11). В более лаконичном философском виде, данный феномен может быть определен следующим образом: патриотизм – чувство любви к своему Отечеству и готовность защищать его интересы.

Соответственно, гражданственность сущностно представляет собой интегративное качество социализированности личности, основными элементами которого являются нравственная, правовая и политическая культура – качество, наиболее полно выражаемое в понимании личностью своей государственной принадлежности, своих государственных (определенных государством) разносторонних гражданских обязанностей и в их активно-деятельностном исполнении.

Основная цель гражданского воспитания – воспитание в человеке ключевых нравственных идеалов общества – любви к Родине, стремления к миру, сотрудничеству, взаимоуважению, и др.; формирование осознанного восприятия-понимания своих прав и обязанностей, которыми наделяет его общество, уважения к правам и обязанностям – своим и сограждан; форми-

рование потребности в труде на благо общества, понимания ответственности за выполнение своего гражданского долга – что от его действий зависит не только собственная жизнь, но и судьба ближайших людей, народа и государства; формирование осознанной жизненной позиции, выражающейся в активной, сознательной деятельности во имя принципов, лежащих в ее (гражданственности) основе. Это интегративное качество позволяет человеку ощутить себя полноценной личностью - нравственно, юридически, социально, политически и практически дееспособным членом общества и гражданином государства.

Из категориальных определений сущности исследуемых феноменов следует, и это важно учитывать, что гражданственность тесно связана с патриотизмом, но не совпадает полностью с ним. Патриот чувствует и проявляет любовь к Родине, а гражданин четко и ясно осознает свои обязанности перед ней. Подлинность того и другого определяется конкретным реальным участием личности в жизни общества и государства. При этом гражданственность выступает как социально-политическое качество личности, духовно-нравственным критерием которого является патриотизм. То есть в социально зрелом своем состоянии патриотизм – это еще и гражданственность, гражданская позиция человека.

Патриотизм и гражданственность, таким образом, разные по своей природе, но в то же время теснейшим образом, взаимосвязанные феномены. Они проявляются как социальные (социально-политические и духовно-нравственные) характеристики личности и социальных общностей и указывают на качество их социального и духовно-нравственного развития.

Свое зрелое выражение патриотизм и гражданственность находят в интеллектуальном, понятийном выражении их личностью. В последовательно сформированных гражданско-патриотических взглядах под определенным углом зрения осмысливаются те или иные социальные основы, актуальные отношения и проблемы, пути и способы их изменения и решения в интересах Отечества.

Социальные идеи и теории, а также личностно выражаемые взгляды и гражданскую позицию, открыто провозглашающие свою патриотическую направленность на интересы Отечества, можно характеризовать как «гражданско-патриотические».

Интеллектуальная составляющая гражданско-патриотического воспитания, всецело обеспечиваемая, на наш взгляд, образовательной системой государства, в том числе вузовской, – ответственнейший аспект социализации личности, социализации ее мышления, формирования и развития ее национального самосознания, формирования и развития ее гражданственности и патриотичности.

Как известно, период обучения в вузе является важнейшим в процессе формирования личности молодого человека. Наряду с приобретением общих и специальных знаний, студенты вырабатывают не только свои первые профессиональные компетенции – навыки и умения, но и соответствующую данному уровню их социализации и социального взросления систему мировоззрения, нравственных и социальных ценностей, в ряду которых гражданственность и патриотизм выступают поистине корнеобразующей основой всей системы их социального и духовного развития. Восприятие ценности бытия, жизни невозможно без органичного включения в нее ценности любви к Родине, чувства общности и принадлежности к семье, социуму, общественным идеалам, ценности личного и национального самосознания, национального достоинства, ценности активной жизнедеятельности, творческого сотрудничества в созиданиях, ценности социальной коммуникации и т.д. Без них человек не может ощущать себя человеком, личностью. Поэтому гражданско-патриотическое воспитание, как основополагающий компонент развития всей нравственной и социальной ценностной системы человека не может не быть предметом постоянной педагогической заботы на всех уровнях и ступенях образовательной системы.

Как целостный педагогический процесс, гражданско-патриотическое воспитание имеет две стороны: одна из них – овладение гражданско-патриотическими знаниями и умениями оперировать ими (представляет образовательный аспект); другая – формирование гражданско-патриотического отношения и соответствующего поведения личности (представляет собой воспитательный аспект). Результатом их гармоничного взаимодействия и развития является формирование высокоценных гражданско-патриотических качеств у студентов – мировоззренческих, идеологических, социальных, нравственных.

### ЛИТЕРАТУРА

1. Концепция непрерывного воспитания детей и учащейся молодежи в Республике Беларусь: утв. Постановлением Министерства образования Респ. Беларусь, 14 декабря 2006 г. № 125.
2. Лукашенко, А.Г. Белорусский путь: патриотизм, интеллект, прогресс: Послание Президента Республики Беларусь белорусскому народу и Национальному собранию 8 мая 2012 года//Рэспубліка. – 2012 г. – 10 мая. – С.1 - 3.
3. Беларуская энцыклапедыя: у 18 т. Т.14: Рэле-слаявіна/Рэдкал.:Г.П.Пашкоў і інш.- Мн.:БелЭн.,2002. – 512 с.
4. Скорина, Франциск/Э.К. Дорошевич, В.Л. Абушенко. Новейший философский словарь. – Мн.; 1998. – 896 с.
5. Даль, В.И. Толковый словарь русского языка: Современное написание/В.И.Даль. – М.:ООО «Изд-во АСТ»,2002. – 984 с.

6. Большая Советская Энциклопедия в 30 т. Т.19/Гл.ред. А.М.Прохоров.- 3-е изд. –М.: Сов.энциклопедия,1975. – 648 с.
7. Жемчужины мысли/Сост. А.А.Жадан.- 2-е изд. –Мн.: Современная школа, 2010. –864 с.
8. Душенко, К.В. Большая книга афоризмов/Сост.К.В.Душенко. – М.: Изд-во Эксмо, 2005. – 1056 с.
9. Патриотизм и проблемы патриотического воспитания в контексте вызовов современности: монограф./В.А. Ксенофонтов (и др.). – Минск, ВА РБ, 2014. – 256 с.

## XÜLASƏ

Məqalə pedaqoqikanın aktual problemlərindən birinə – ali məktəb təhsil prosesində tələbə gənclərin vətəndaş-vətənpərvərlik ruhunda tərbiyəsinin fəlsəfi təhlilinə həsr olunub. Müasir şəraitdə tələbə gənclərin vətəndaş-vətənpərvərlik ruhunda tərbiyəsinə yanaşmada vətəndaşlıq və vətənpərvərliyin sosial fenomenlərinin, onların ontoloji qarşılıqlı əlaqəsi və bağlılığını, eləcə də dövlətin müəyyən etdiyi prinsiplərin mahiyyəti araşdırılır.

## SUMMARY

The article is devoted to the philosophical analysis of one of the most pressing educational problems - civil-patriotic education of students in the educational process of the university. Accented reveals the essence of social phenomena citizenship and patriotism, their ontological relationship and interdependence, as well as state-defined principles of the approach to civil-patriotic education of student's youth in modern conditions.

Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası | 2016-№1 | Серия общественно-политических наук

**CƏFƏROV E.**
*Azərbaycan Dövlət İqtisad Universiteti*

# MALİYYƏ İNSTİTUTLARINDA STRATEGİYA MƏFHUMU

***Açar sözlər:*** *maliyyə, strategiya, resurs, vergi siyasəti*
***Ключевые слова:*** *финансы, стратегия, ресурсы, налоговая политика*
***Key words:*** *finance, strategy, resource, tax policy*

Maliyyə strategiyası - pul vəsaitləri ilə təmin edilməsi yolunda görülən tədbirlərin, edilən hərəkətlərin baş planıdır. O, maliyyənin formalaşmasının, planlaşdırılmasının nəzəri və praktiki məsələlərini əhatə edir, bazar təsərrüfatı şəraitində maliyyə dayanıqlığını təmin edən vəzifələri həll edir. Maliyyə strategiyası nəzəriyyəsi bazar münasibətləri əsasında qurulan təsərrüfatçılığın obyektiv qanunauyğunluqlarını tədqiq edir, yeni şəraitdə maliyyə institutlarının fəaliyyət göstərməsinin, yaxın və uzaq gələcək üçün maliyyə taktikasının hazırlanıb həyata keçirilməsinin üsul vəformalarını araşdırır. Maliyyə institutlarının strategiyası dedikdə, müəyyən qaydaların və məhdudiyyətlərin toplusu vasitəsilə qarşıya qoyulmuş hədəfə çatmaq üçün maliyyə resurslarının ümumi istiqamətlənməsi və istifadəsi üsulları nəzərdə tutulur. İşlənib hazırlanmış strategiya sayəsində, maliyyə institutları öz imkanlarını müəyyən edilmiş məqsədin ziddinə olmayan bütün həll variantları üzərində cəmləşdirir. Qarşıya qoyulan vəzifəyə nail olduqdan sonra bu strategiya maliyyə institutlarının inkişafının yeni hədəflərinə uyğun olaraq təshih edilir. Maliyyə strategiyası maliyyə institutlarının maliyyə imkanlarını, daxili və xarici amillərin obyektiv təsirini hərtərəfli nəzərə alır. Mövcud qaydaya görə, baş maliyyə strategiyası, operativ maliyyə strategiyası, baş strateji məqsədə və fərdi (hissəvi) strateji məqsədlərə nail olmaq strategiyaları mövcuddur (Müəssisələrin maliyyəsi, Bakı 2009 , 239s).

Maliyyə institutlarının fəaliyyətini, onun bütün səviyyəli büdcələrlə qarşılıqlı münasibətlərini, gəlirin əmələ gəlməsini və istifadə olunmasını, ehtiyacların həcmini və il ərzində onların maliyyələşmə mənbələrini müəyyən edən strategiya baş **maliyyə strategiyası** adlanır.

Maliyyə resursları ilə gündəlik manevr etmək, vasitələrin xərclənməsinə və xüsusilə daxili ehtiyatların səfərbər edilməsinə nəzarət etmək üçün rüblük, aylıq, zərurət olduqda isə daha qısa müddətə maliyyə strategiyası hazırlanır.

**Operativ maliyyə strategiyası** - baş maliyyə strategiyasından fərqli olaraq əmək haqqı, satılmış məhsula görə alıcılarla hesablaşmaları, kredit əməliyyatları üzrə mədaxillər nəzərə alınmaqla bütün ümumi gəlirləri və daxilolmaları, digər tərəfdən isə hər cür məcmu məsarifləri (mal təchizatçılarına ödəmələr, əmək haqqı, büdcə öhdəliklərinin yerinə yetirilməsi) əhatə edir. Mədaxillərin və məxariclərin tərkibinin belə qruplaşdırılması imkan verir ki, planlaşdırılan dövrdə pul mədaxillərinə və məsariflərinə dair gözlənilən dövriyyələr daha dolğun nəzərə alınsın. Məxaric və mədaxilin bərabərliyi və yaxud mədaxilin məxarici üstələməsi normal hal hesab olunur.

**Maliyyənin baş strateji məqsədi** təşkilatın zəruri və kifayət qədər pul resursları ilə təmin etməkdir. Onun əsasında bazarın tələblərinə və müəssisənin imkanlarına uyğun olan maliyyə strategiyası hazırlanır ki, burada da icraçılar və iş istiqamətləri üzrə vəzifələr müəyyən edilir və bölüşdürülür.

Baş strateji məqsədə nail olmaq üçün maliyyə strategiyası özündə müxtəlif üsul və hərəkətləri cəmləşdirir, yəni:

* maliyyə resurslarının formalaşması və onlara mərkəzləşdirilmiş qaydada idarə olunması;
* həlledici istiqamətlərin dəqiqləşdirilməsi və təşkilatın rəhbərliyinin mümkün ehtiyatları səfərbər etməklə bütün gücünün bu istiqamətlərin reallaşdırılmasına yönəldilməsi;
* məqsədlərin əhəmiyyətlərinə görə sıralanması və onlara ardıcıllıqla, mərhələ - mərhələ nail olunması;
* maliyyə hərəkətlərinin təşkilatın iqtisadi durumuna və maddi imkanlarına uyğun gəlməsi;
* hər bir zaman kəsiyində ölkədəki maliyyə - iqtisadi durumun və müəssisənin maliyyə vəziyyətinin obyektiv qiymətləndirilməsi və uçotunun aparılması;
* strateji ehtiyatların yaradılması və istifadəyə hazırlanması;
* özünün və rəqiblərin iqtisadi və maliyyə imkanlarının öyrənilməsi;
* rəqiblər tərəfindən gözlənilən əsas təhlükənin müəyyən edilməsi, onun aradan qaldırılması üçün qüvvələrin səfərbər edilməsi və maliyyə əməliyyatlarının istiqamətlərinin önəmli seçilməsi;
* rəqiblər üzərində həlledici üstünlük qazanmaq məqsədilə manevr edilməsi və təşəbbüsü ələ almaq üçün mübarizə aparılması.

Maliyyə institutunun önünə qoyduğu məqsədlərə çatmaq üçün mütləq maliyyə institutunun maliyyə strategiyası olmalıdır. Maliyyə institutunun maliyyə strategiyasında planlaşdırmanın vaxtı (dövrü), əsas maliyyə məqsədləri və onlara çatma üsulları müəyyən olunmalıdır.

Strategiyanın icrasına nəzarət də çox vacibdir. Belə ki, nəzarət fəaliyyətin səmərəliliyini qiymətləndirməyə, planlaşdırılmış nəticələrdən kənarlaşmaları müəyyən etməyə, gələcək dövrlər üçün strategiyada düzəlişlər etməyə kömək edir.

Maliyyə institutunun maliyyə strategiyası – Maliyyə institutunun pul vəsaitləri ilə təmin edilməsi və onlardan istifadə edilməsi üzrə ümumi fəaliyyət planıdır. Maliyyə strategiyasının aşağıdakı elementləri vardır:

- Maliyyə institutunun iqtisadi - maliyyə vəziyyətinin təhlil edilməsi və qiymətləndirilməsi (şirkət rentabelli və likvidlə işləyir);
- Uçot və vergi siyasətinin işlənib hazırlanması (bu sahələr üzrə metodologiya və planların hazırlanması);
- Əsas vəsait və amortizasiya siyasətinin idarə edilməsi (Maliyyə institutunun uçot siyasətinə daxildir);
- Dövriyyə vəsaitləri və kreditor borclanmasının idarə edilməsi (sərmayə və kredit strategiyası);
- Borc vəsaitlərinin idarə edilməsi (kredit strategiyası);
- Cari gecikmələrin, məhsulun və xidmətin maya dəyəri və mənfəətin idarə edilməsi (ümumi maliyyə strategiyası);
- Dividend və sərmayə siyasəti (sərmayə və kapital strategiyası);
- Maliyyə institutunun bazardakı dəyəri və onun uğurlarının qiymətləndirilməsi.

*Maliyyə strategiyasının işlənib hazırlanması mərhələləri:*

İlk növbədə, maliyyə strategiyasının fəaliyyət (qüvvədə olma, icra) müddəti, maliyyə fəaliyyətinin məqsədləri müəyyən edilməli, maliyyə siyasəti formalaşdırılmalı, strategiya dövrlər üzrə həyata keçirilməli, maliyyə göstəriciləri(maliyyə planı) detallaşdırılmalıdır. Maliyyə strategiyasının aşağıdakı mərhələləri vardır:

- Strategiyanın fəaliyyət dövrü:

Maliyyə strategiyası ümumi və operativ maliyyə strategiyasına bölünür. Ümumi maliyyə strategiyası bütün səviyyələrdə olan büdcələri qarşılıqlı əlaqələndirməli, maliyyə institutunun gəlirlərinin yaranma prinsipləri və istifadə edilməsi, maliyyə ehtiyatları və onların ortamüddətli (uzunmüddətli) dövr üçün formalaşma mənbələrinə olan ehtiyacı əhatə etməlidir.

Operativ strategiya isə maliyyə ehtiyatlarının cari idarə edilməsini özündə birləşdirməlidir. O ümumi maliyyə strategiyası əsasında tərtib edilir və konkret müddət aralığında onu detallaşdırır.

Ümumi maliyyə strategiyasının fəaliyyət dövrü maliyyə institutunun ümumi inkişaf strategiyasının işlənib hazırlanması dövrünü keçməməlidir.

Operativ maliyyə strategiyası adətən qısamüddətli olur. O illik, yarımillik, rüblük, aylıq, ehtiyac yarandıqda, həftəlik ola bilər.

- Maliyyə institutunun strateji maliyyə məqsədlərinin formalaşdırılması:

Maliyyə institutunun maliyyə strategiyasının məqsədləri sistemi maliyyə institutunun ümumi strateji məqsədlərində onun bir "qol"u kimi göstərilir. Bu "qol"un quruluşu aşağıdakı addımlardan ibarətdir:

*Birinci addım:* Maliyyə institutunun korporativ strategiyasının ranj olunmasına müvafiq olaraq maliyyə institutunun ümumi strategiyasına maliyyə strategiyasını daxil etmək.

Maliyyə strategiyasında maliyyə strategiyasının məqsədləri qismində, maliyyə institutunun bazar dəyərinin maksimum artırılması, xüsusi kapitalın yaradılması, onun həcminin müəyyən edilməsi, rentabelliyinin, likvidliyinin təmin edilməsi, aktiv və passivlərin strukturunda maliyyə alətlərinə, uzunmüddətli maliyyə vəsaitlərinin cəlb edilməsinə, yeni fəaliyyət növlərinə sərmayələrin cəlb edilməsinə, maliyyə tsiklinin azaldılmasına, maliyyə risklərinin müəyyən edilməsi, risklərdən və xərclərin azaldılması ehtimalının nəzərə alınması və bunun üçün ehtiyat fondlarının formalaşdırılması təklif olunur.

*İkinci addım:* İnteqral maliyyə məqsədlərini, yəni birinci səviyyəli məqsədləri müəyyən etmək. Əsas məqsəd gəlirli fəaliyyət sahələrini təyin etmək, xərcləri azaltmaq, gəlirləri və mənfəəti artırmaq, şirkətin zəif və güclü tərəflərini, maliyyə risklərini müəyyən etməkdir.

*Üçüncü addım:* Maliyyə strategiyasının təməl məqsədlərini (şirkətin strukturuna və fəaliyyətinə uyğun olaraq göstərilən xidmət və satılan məhsulları təhlil etmək, yüksək gəlirli, xərcli, aşağı gəlirli və xərcli fəaliyyət sahələrini müəyyən etmək, şirkətin vergi-uçot, kredit, sərmayə strategiyasını müəyyən etmək) təyin etmək (ikinci səviyyə).

*Dördüncü addım:* Maliyyə məqsədlərinə nail olmaq üzrə fəaliyyəti (konkret görülməli iş və tədbirləri müəyyənləşdirmək, icra etmək) təyin etmək (III səviyyə).

Maliyyə institutlarının maliyyə göstəriciləri biznesin inkişaf mərhələlərindən (başlanğıc mərhələsi, artım dövrü, durğunluq dövrü, iflas dövrü) asılıdır.

Maliyyə strategiyası üzrə məqsədlər müəyyən edilib işlənidikdən sonra bu məqsədlərə uyğun maliyyə strategiyası üzrə görülməli işlərin və fəaliyyətin planlaşdırılması icrası həyata keçirilməlidir.Daha sonra görülən işlər yoxlanılmalı, qiymətləndirilməli və müəyyən nəticələr əldə edilməlidir.Səhvlər və ya uyğunsuzluqlar olduğu halda, əlavələrin edilməsinə zərurət yarandıqda, əlavə və dəyişikliklər edilir və müvafiq tədbirlər görülür.

## ƏDƏBİYYAT


1. Bəşirov R.A. Bank işi. Bakı-2007
2. Əsgərova R. Pul, Kredit və Banklar. Bakı-2007
3. Məmmədov N. Bank və maliyyə terminləri lüğəti. Bakı-1996
4. Tağıyev və başqaları. Maliyyə, pul tədavülü və kredit", Bakı-1999


## РЕЗЮМЕ


Статья посвящена понятиям стратегии в финансовых институтах. Под финансовой стратегией компании подразумевается генеральный план действий по своевременному обеспечению предприятия финансовыми ресурсами (денежными средствами) и по их эффективному использованию с целью капитализации компании.


## SUMMARY


The article is devoted to the concept of strategy in financial institutions. Financial strategy - providing money to edilməsi measures in place in the action plan. He was the formation of finance, planning covers the theoretical and practical issues, market conditions, financial stability and solving the tasks. Financial strategy objective is to explore the theory of market-based economy, the new səraitdə functioning of financial institutions in the near and distant future funding for the implementation of the method has been developed tactics vəformalarını investigating.

Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası | 2016-№1 | Серия общественно-политических наук

**İBADULLAYEVA N.**
*Bakı Dövlət Universiteti*

# VALİDEYNİNİ İTİRMİŞ VƏ VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQ VƏ YENİYETMƏLƏRİN SAĞLAMLIĞINDA OLAN PROBLEMLƏRİN ONLARIN TƏLİM-TƏDRİSİNƏ TƏSİRİ

***Açar sözlər:*** *uşaq və yeniyetmələr, internat məktəbləri, fiziki problemlər, sosial siyasət, təlim və tərbiyə.*

***Ключевые слова****: дети и подростки, школы-интернаты, физические проблемы, социальная политика, обучение и образование.*

***Keywords****: children, teenagers, boarding schools, physical problems, social policy, training and education.*

Cəmiyyətdə gedən proseslərin təhlili göstərir ki, insan sağlamlığında bir çox problemlər yaranır və həmin vəziyyət getdikcə ağırlaşır. Burada əsasən uşaq və yeniyetmələrin sağlamlığı xüsusi vurğulanmalıdır. Statistika göstərir ki, əlilliyə gətirib çıxaran bəzi xəstəliklər var ki, bu dövlət üçün böyük bir sosial problemə çevrilir. Qeyd etməliyik ki, sosial qayğıya ehtiyacı olan bu qrup insanlar, bir növ cəmiyyətdən kənarlaşdırılır və sosial həyatdan təcrid olunurlar. Bu, ilk növbədə bəzi valideynlərə aiddir. Sağlamlığında problemləri olan uşaqlar bəzən evdən uzaqlaşdırılır, müxtəlif bəhanələrlə dövlətin himayəsinə ötürülür. Bəzi hallarda isə uşaqlar müəyyən səbəblər üzündən valideynlərini itirir və yaxud valideynlər öz valideynlik hüququndan məhrum edilir, belə uşaqlar yenə də dövlətin himayəsinə keçir. Lakin ölkəmizdə bu sahədə lazımi işlər aparılır. Xüsusi müəssisələr var ki, burada uşaqlar və yeniyetmələr böyüyür, təhsil alır və gələcək həyata hazırlaşdırılırlar. Bu sahədə olan problemlərin təhlili və həlli yollarının aydınlaşdırılması xüsusilə yeniyetməlik dövrü üçün olduqca vacibdir.

Tədqiqatlar göstərir ki, "internat şəraitində oxuyan uşaqlar psixofizioloji inkişafda olduqca müxtəlif dərin pozulmalarla fərqlənir. Keçirdikləri xəstəliklərə görə uşaqlarda qavrama proseslərinin normal inkişafı pozulur, yadda saxlama və ifadəetmə prosesləri, xüsusilə onların aktiv sərbəst formalarında, yənişifahi-məntiqi düşüncəni səciyyələndirən təxəyyül və ümumiləşdirmə prosesləri əhəmiyyətli dərəcədə pozulur. İnternat şəraitində yaşayan uşaq və gənclərin əksəriyyəti üçün bəzi ciddi psixi pozulmalar, eyni zamanda əsəbilik hövsələsizlik tipikdir. Göstərilən proseslərin qeyri-normal fəaliyyəti uşağa dünya haqqında biliklərin mürəkkəb sistemini mənimsəməyə imkan vermir" (1). Dünyanın bir çox ölkələrində bu sahəyə aid hüquqi baza atrıq formalaşmış, xüsusi məktəblər sistemi təşəkkül tapmışdır. Belə ki, əlilliyi olan uşaqların xüsusi təhsilə ehtiyacları olduğu üçün onların təhsil almaları üçün lazımı tədbirlər görülməlidir. Bütün uşaqlar, xüsusi qayğıya ehtiyacı olan əlil uşaqlar da daxil olmaqla ibtidai və bütün digər təhsil pillələrində təhsil almaq hüququna malikdirlər. Xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün lazimi tədris ocaqları da yaradılır (2).

Xüsusi sosial qrup olan yeniyetmələr tədqiqatçıların daima diqqət mərkəzində olmuşdur. Bu sahədə fizioloji, psixoloji, mənəvi, bir sıra sosial məsələlər var ki, onların düzgün həlli yeniyetmələrin sosiallaşma prosesini daha rahat və səmərəli edir. Yeniyetmələrin emosional-psixoloji problemlərinə aid daha çox araşdırmalar aparılır. Psixoloji vəziyyətin qeyri-sabitliyi onların orqanizmində baş verən fizioloji proseslərlə, dəyişən dünyagörüşü, ətraf mühitin təsiri ilə izah olunur. Deyilənlərlə yanaşı anadangəlmə və yaxud sonradan qazanılmış xəstəliklər də var ki,bunlar yeniyetmələrin fiziki və mənəvi-psioloji durumuna əsaslı şəkildə təsir göstərir. Bu sahədə xeyli tədqiqatlar aparılsa da, mövcud vəziyyət bu işin ardıcıl olaraq davam etdirilməsini tələb edir.

Məqalədə qarşımıza qoyduğumuz məqsəd sağlamlığında problemləri olan uşaq və yeniyetmələrin təlim-tərbiyə problemləridir. Həm də bunlar valideyn himayəsindən məhrum olmuş və yaxud valideynlərini itirmiş uşaqlar qrupudur ki, internatlarda yerləşdirilmiş, burada yaşayır və oxuyurlar, bəziləri şənbə-bazar günləri evələrinə, qohumlarının yanına gedirlər. Təlim və tərbiyə prosesində qeyd edilən xüsusiyyətlərin təsirini öyrənmək üçün Bakı şəhərinin Sabunçu və Xəzər rayonlarında yerləşən internat məktəblərində xüsusi sorğu keçirilmiş, müəllimlərlə söhbətlər aparılmışdır. Qəsəbələrin birində yerləşən internat məktəbində sorğuda 123 uşaq və yeniyetmə iştirak etmişdir.

Problemin işlənməsində seçdiyimiz metod və metodologiya müasir elmdə qəbul olunmuş paradiqma və konsepsiyalar üzərində qurulmuşdur. İlk növbədə nəzərə alınmalıdır ki, şəxsiyyətin sosiallaşması üç əsas amilin təsiri altında həyata keçirilir: irsiyyət, mühit, tərbiyə. Digər tərəfdən, hər bir problemin təhlilinə kompleks yanaşma labüddür. Yeniyetmələrin fiziki və psixi səhhətində problemin olması onların həyatına mənfi təsir göstərir. Bu işi öyrənib problemin qarşısını almaq üçün tibbi, hüquqi, sosial-psixoloji, iqtisadi istiqamətlərdə araşdırmalar

aparılmalıdır. Faktları öyrənib vəziyyətin yaxşılaşdırılmasına doğru tövsiyyələr hazırlamaq lazımdır. Bunları nəzərə alaraq konkret sosioloji tədqiqat aparmaq üçün xüsusi sorğu anketi hazırlanmışdır. Burada suallar yeniyetmələrə ünvanlanmış və bloklar təşkil edilmişdir: sağlamlıq, qida, ekoloji mühit, məktəb və tədris, bir sıra amillərin səhhətə təsiri, həyat tərzi, fiziki inkişaf və hərəkətlər, insanların özünə münasibəti və s.

Sağlam nəslin inkişafı gələcək cəmiyyətin inkişafı üçün bir zəmindir. Sağlamlıqla yanaşı şəxsiyyət olmaq, vətəndaş kimi yaşamaq və cəmiyyətə fayda gətirmək də olduqca vacibdir. Cəmiyyətdə gedən qloballaşma və inteqrasiya prosesləri getdikcə öz həllini gözləyən problemlərin sayını da artırmışdır. Bu problemlər sırasında böyüməkdə olan nəslin fiziki və psixi sağlamlığı məsələsidir. Problemi yaradan səbəblərdən biri də gənclərin və yeniyetmələrin fiziki sağmalığında olan qüsurlardır.

Fiziki qüsurları olan uşaqlar həm evdə, ailədə, həm də dövlət müəssisələrində böyüyür, təhsil alır və sosiallaşır. Cəmiyyətin üzərinə düşən vəzifələrdən biri bu sosial qrupa mənsub insanları mümkün qədər qayğı və diqqətlə əhatə etmək, onları cəmiyyətə bir vətəndaş və şəxsiyyət olaraq hazırlamaqdır. Bu sahədə görülən işləri bir neçə qrupa ayırmaq lazımdır:

- Hüquqi, qanunvericilikbazanın formalaşdırılması;
- Tibbi müayinə və yardımın təmin edilməsi;
- Cəmiyyətə inteqrasiya olunması üçün sağlam sosial mühitin yaradılması, bunun üçün də təhsilin, sosial yardımın göstərilməsinin təmin edilməsi və s. işlərin görülməsi.

Daha ümumi xarakterli və adı çəkilən problemə öz təsirini göstərən amillər də var ki, bunları nəzərə almadan problemin həlli qeyri mümkün olur.Bu amillərdən ilk növbədə ekoloji böhranı göstərmək lazımdır. İnsanların ekoloji sığınacağı olan torpaq, su, hava, məkan bir çox mənfi dəyişikliklərə uğrayır. Nəticədə insan nəsli genetik səviyyədə defermasiyalara məruz qalır, irsi və sosial xəstəliklər günü-gündən yayılır. Digər bir amil – dövlətin ümumi sosial-siyasi və sosial-iqtisadi durumudur. Həyat səviyyəsi insanların maddi rifahına, sağlamlığına, qarşılıqlı münasibətlərinə əsaslı şəkildə təsir edir. Beynəlxalq qurumlar tərəfindən xüsusi hesablamalar aparılır ki, bunların əsasında yuxarıda göstərilən amillərə görə dövlətlərin reytinqini təyin etmək olur.

Bundan başqa, ölkənin, bölgənin tarixi inkişaf yolunu və hal-hazırda yaşadığı mərhələni də nəzərə almaq lazımdır. Sivilizasiyanın ən erkən mərhələsindən başlayaraq bu günə kimi gedən inkişaf həyat və düşüncə tərzinə, insanların dünyaya münasibətinə öz təsirini göstərir. Üstəlik əldə edilən maddi və mənəvi sərvətləri dəyərləndirən təsəvvürlər var ki, onlar sosial həyat formalarına öz təsirini göstərir, sosial institutların fəaliyyətini təmin edir. Ən qədim və dəyəri yüksək olan sosial institutlar elə ailə, din və əxlaq olmuşdur.

Hər bir xalqın öz dəyərlər sistemi formalaşır ki, bunun zəminində nəsillərarası münasibətlər qurulur, sosiallaşma prosesi gedir, təlim və tərbiyə işləri həyata keçirilir. Bu həm də fiziki qüsurları olan uşaq və yeniyetmələrə aiddir. Cəmiyyətin bu qruplara qayğısı xüsusi olaraq vacibdir.

Bu sahədə görülən işləri qiymətləndirmək üçün bəzi internat mərkəblərində oxuyan uşaqlara müraciət etdik. Bunun üçün xüsusi hazırlığı olan bir qrup tələbəni respondentlərlə işləmək üçün Bakı ətrafı kəndlərin birində yerləşən internat məktəbinə göndərdik. Əldə edilən nəticələrin təhlilinə keçirik. Burada təhsil alanların böyük əksəriyyəti valideynini itirmiş və yaxud valideyn himayəsindən məhrum olmuş müxtəlif yaşlı (o cümlədən yeniyetməlik yaşında olan) uşaq və gənclərdir. Məlum oldu ki, onlar arasında müxtəlif fiziki və əqli qüsurları olanlar çoxdur (əqli qüsurlu, görmə məhdudiyyətli, nitq məhdudiyyətli olan).

Burada təlim və tərbiyənin iki tələbi gözlənilir: inkluziv təhsilin imkanlarından istifadə olunmaqla yanaşı, müxtəlif yaşda, bəzən bir ailədən olan uşaqlar ünsiyyətdə olur, böyük uşaqlar kiçiklərə qulluq edir, yardım göstərir, onlara lazımi vərdiş və bacarıqları aşıladır. Məlumdur ki, uşaq yaşlarında təqlid böyük rol oynayır. Kiçik uşaqlar böyüklərə baxıb cəsarətli olmaq, hansısa işin qaydalarını öyrənmək üçün yaxşı fürsət tapırlar.

Bununla belə aydındır ki, fiziki və əqli sahələrdə problem yaşayan bu uşaqlara həm qulluqda, tibbi xidmətdə, həm də təhsil almaqda xüsusi şərait yaradılmalıdır. Müşahidələr göstərdi ki, uşaqlarda olan əqli qüsurlar nəticəsində bəzən neçənci sinifdə oxuduğunu, hətta öz adını deməkdə belə çətinlik çəkirlər. Məsələn, şagirdlər sırasında 12 yaşlı əqli cəhətdən qüsurlubir qız var. Təbii ki, belə uşaqlara xüsusi qayğı göstərilməlidir. Başqa bir sinifdə (4-cü sinif) 20 uşaqdan ikisində nitq qüsuru, bəzilərində isə yaddaş pozğunluğu və əqli gerilik var idi. Aparılan sorğu nəticəsində məlum oldu ki, uşaqların fikrincə, onların sağlamlığına əsasən ekoloji böhran, yəni havanın, suyun çirklənməsi, qida məhsulların süni olması təsir edir. Qeyd edildiyi kimi onlar ildə orta hesabla 2-4 dəfə xəstələnirlər.

Yeniyetmələrin səhhətinə mənfi və müsbət təsirini daha dərindən öyrənmək üçün biz yenə də suallarla şagirdlərə müraciət etdik. Məlum oldu ki, dərs prosesinin burada müsbət rolu qeyd olunmuşdur (oxumaq şəraiti, tədris olunan fənlər, müəllimlər və s.).

Bununla belə qapalı mühit, şəhərdən uzaq olması, ictimai tədbirlərdə iştirak etməməsi onların əhvalına, səhhətinə müəyyən dərəcədə mənfi təsir göstərir. Ümumi şərait lazımi tələblərə əsasən cavab versə də, bir sıra çatışmazlıqlar da vardır (sanitariya-gigiyena baxmından, dərslərin keyfiyyəti və s.). Eyni zamanda gündəlik vaxt büdcəsinin paylanması onların yaşına uyğun aparılmalıdır. Qida menyusu da bütün lazımi komponentlərdən ibarət olduğu üçün uşaqlar bundan razılıq edirlər.

Fiziki hərəkətlər, idman, bədən tərbiyəsi də internat sakinlərinin həyatında müəyyən rol oynayır. Bununla belə idman məşqləri kütləvi xarakter daşımır.

Oğlanlar əsasən futbol oynayır. Ümumiyyətlə uşaqların gün ərzində çox az hərəkət etdikləri məlum oldu.

Məktəbdə ümumi abu-hava müsbət xarakter daşıyır. Uşaqlar öz müəllimlərindən, köməkçi heyətindən, dostlarından, onlarla yaradılan ünsiyyətdən əsasən razılıq edirlər. Bəzi şagirdlər axşam və həftə sonları evə gedirlər. Bu bir növ daha çox təəssüratların toplanmasına, daha çox insanlarla ünsiyyətdə olmasına, fərqli rejimdə yaşamaq üçün şərait yaradır. Nəticədə sosial əlaqələr genişlənir, müqayisə və seçim imkanı artır. Belə həyat tərzi insanın bir şəxsiyyət kimi formalaşmasına müsbət təsir göstərir. Uşaqların əksəriyyəti burada qalmaqdan, yaşamaqdan, şəraitdən narazı deyildilər. Tədris prosesində yeniyetmələr fəal iştirak edirlər. Onlar dönə-dönə qeyd edirdilər ki, oxumağı çox sevirlər. Uşaqlar qeyd edirlər ki, dərslərin miqdarı, ağırlığı, keçirilmə tərzi, yəni ümumiyyətlə tədrisin təşkili onların sağlamlığına çox da təsir etmir.

Tədqiqat nəticəsində məlum oldu ki, bu məktəbdə uşaqlar ünsiyyətə möhtacdırlar və günün əksər vaxtını insanların arasında keçirmək istəyirlər. Daha dəqiq araşdırma və müşahidə göstərir ki, burada yeniyetmələrin yuxu rejimləri, qidalanmaları, geyimləri, istirahət vaxtlarının təşkili heç də qənaətbəxş deyildir. Məlumdur ki, yeniyetməlik dövründə hər bir uşaqların emosional-psixoloji durumu dəyişir, yeni tələbatlar və motivasiya sistemi formalaşır. Bəzən uşaqlar arasında vulqar sözlər işlədilir. Onların "çətin" yaş mərhələsində sevgiyə, qayğıya, məhəbbətə olan ehtiyacları qismən olsa da ödənilmir.

Həmçinin oğlanlar və qızlar arasında bu yaş mərhələsində formalaşan münasibətlərin özünəməxsusluğu nəzərə alınmalıdır, lakin görünür ki, burada yalnız qadağa və yaxud cəzalandırma tədbirləri ilə kifayətlənirlər. Sorğu aparanlar böyük sevinclə qarşılansalarda, uşaqların üzündə sevinc hissinin, xosbəxtlik duyumunun olmaması burada psixoloji mühitin heç də ürəkaçan olmadığındığını göstərirdi. Bütün qapalı müəssisələrdə olduğu kimi burada da rəhbərlik və sakinlər arasında qurulan münasibətlərdə asılılıq, avtoritarlıq hiss olunurdu. Uşaqlar verilən suallara "bəli", "xeyr" kimi qısa cavablar verir, ünsiyyətə asanlıqla girmirdilər. Uşaqlara qarşı münasibətdə laqeydlik hiss olunurdu.

İşçi personalın laqeydliyini bir çox səbəblərlə izah etmək olar. Böyük uşaq kütləsinin bir yerdə toplanılması, onların oxumaq və istirahət etmək, qidalanmaq rejimini təmin etmək olduqca çətin və ağır vəzifədir. Burada intizam, dəqiq iş bölgüsü, səlahiyyətlərin icrası olduqca vacibdir. Dövlət tərəfindən ödənilən maddi təminat, binaların, otaqlardakı əşyaların, texniki ləvazimatların və s. bütün lazımi normalara cavab verməsi təhsil müəssisəsinin yüksək səviyyədə olmasını göstərir. Ünsiyyətin yüksək səviyyədə olmamasının səbəblərindən biri də burada toplanılan uşaqların müxtəlif ailələrdən, bölgələrdən olması, səhhətində problemlərin yaşanmasıdır. Belə uşaqlarla fərdi şəkildə iş aparılmalı, onların psixoloji vəziyyəti və bütün digər qayğıları lazımi səviyyədə ödənilməlidir. Müəllim-şagird münasibətlərinə mənfi təsir göstərən amillədən biri də işçi personalın müəyyən

dərəcədə qeyri-peşəkarlığıdır. Bu kateqoriyaya daxil olan uşaqlarla işləmək üçün korreksion psixologiyanı yaxşı bilən mütəxəssislərə böyük ehtiyac var. Eyni zamanda işçilərin sağlamlığını da ön plana çəkmək lazımdır. İş rejimi elə təyin olunmalıdır ki, onlar vaxtı-vaxtında istirahət edə bilsinlər.

Beləliklə, xüsusi qayğıya, dəstəyə ehtiyacı olan və sağlamlıq imkanları məhdud olan uşaqların sosial-psixoloji vəziyyəti müəyyənləşdirilməli idi. Qeyd etdiyimiz kimi, sorğuda iştirak edənlərin əksəriyyəti əqli cəhətdən qüsurları olan uşaqlar idi. Bu uşaqlar arasında xüsusi istedada malik olan uşaqlar da var(xalça toxuma, müxtəlif növ rəqslərlə məşğul olma, rəsm çəkmək vəs). Əqli cəhətdən qüsurları olan uşaqların təlim-tədris və təhsil prosesi xüsusi təlim keçmiş müəllimlər tərəfindən həyata keçirilir. Lakin internat evində olarkən kadr çatışmazlığı və təhsildə istifadə olunan müasir texnologiyaların yoxluğu problemini müşahidə etdik.Fənlərin növləri, dərslərin saatı, tətil müddəti ümumtəhsil müəssisələrində olduğu kimidir.

Uşaqların qidalanma prosesi dövlət tərəfindən müəyyənləşdirilmiş normalar əsasında həyata keçirilir (gün ərzində 4 dəfə) və yaxın zamanlarda yenidən təmirdən çıxmış yeməkxana istifadəyə verilmişdir. Yeməkxanadan fərqli olaraq yataqxananın və bəzi binaların vəziyyəti heç də ürəkaçan deyildi. Bu binaların təmirə ehtiyacı olduğu da müşahidə edilmişdir.

Bu internat evində uşaqlar həm daimi olaraq, həm də yalnız dərs müddətində (belə qruplar pilot qruplar adlanır) burada qala bilirlər. Uşaqlarla apardığımız anket sorğusu əsasında əldə etdiyimiz məlumatlardan belə nəticə çıxarmaq olar ki, uşaqlar onlar üçün yaradılmış müvafıq şəraitdən razıdırlar. Lakin bəziləri çoxlu arzularının olduğunu, amma onları həyata keçirmək üçün istər maddi, istərsə də mənəvi cəhətdən imkanlarının olmadıqlarını bildirdilər. Sonda müsahiblərimdən biri qeyd etdi ki, "bizim, demək olar ki, məktəb tərəfindən bütün ehtiyaclarımız ödənilir, amma ailəni, ailə sevgsini hec biri əvəz etmir".

Beləliklə, obyektiv maddi və iqtisadi problemlərlə yanaşı, burada həm də sosial-psixoloji iqlim, mənəvi durum məsələləri yaranır. Öz qohumları, valideynlər, xüsusi ilə anaları üçün darıxan, internata yeni qəbul olunmuş uşaqlarla lazımi iş aparılmır: bunların mühitə adaptasiyasına nəzarət daha güclü olmalıdır ki, onlar gündə ağlayıb, analarını çağırmasınlar. Uşaqlar internata gələn tələbələrin əlindən tutur, qucaqlayırdılar. Bu da uşaqların sevgiyə ehtiyaclarının olduğunu göstərirdi. Onu da qeyd etmək lazımdır ki, qızların (yaşı yuxarı olan) əksəriyyəti başı bağlı idi. Yəni dini normalara uyğun qaydada hicablı idilər. Belə çıxır ki, mənəvi dəyərlər sırasında dini etiqad daha üstün rol oynayır, dünyəvi dəyərlər isə arxa plana çəkilir. Amma eyni zamanda bu faktor təhsil müəssisəsinin yerləşdiyi ərazi ilə də bağlı ola bilər.

Onu da qeyd etmək lazımdır ki, internat məktəbinin şəhərdən çox aralı yerləşməsi, yaxınlıqda xəstəxana, aptek, park, əyləncə mərkəzləri, mədəniyyət müəssisələrinin olmaması mənfi cəhətlərdəndir. Bu da uşaqların dünyagörüşünə,

sosial adaptasiyasına mənfi təsir göstərir. Aydındır ki, burada qalan uşaqların sağlam uşaqlarla ünsiyyətinin olmaması və ya çox az olması onların sosial mühitdən uzaq olmasına səbəb olur. Bu uşaqlar sadə anlayışların, terminlərin mənasını belə bilmirlər. Valideynlərin onlarla az maraqlanması və ya heç əlaqə saxlamaması vəziyyəti daha da kəskinləşdirir. Buradan belə bir nəticə çıxarmaq olar ki, uşaqların vaxtaşırı gəzintiyə çıxarılması, başqa uşaqlarla ünsiyyətə cəlb edilməsi, valideylərinin onlarla mümkün qədər tez-tez əlaqə saxlamasını təmin etmək mümkün olsa onların vəziyyəti stabilləşər, xəstəliklərin müalicəsi daha səmərəli olar.

Məhz burada olan uşaqlar ailə ilə əlaqə və qayğıdan məhrum olduğuna görə hər bir gələn adamı mehriban və səmimi qarşılayırlar. Bu isə, uşaqların xüsusi qayğıya ehtiyacı olduğunu bir daha təsdiqləyir.

Artıq qeyd etdiymiz kimi, yuxarı yaşlı internat sakinləri kiçik yaşlı sakinlərə rəğbətlə yanaşır, bu da onların ünsiyyətinə müsbət təsir göstərir. Dostlar sırasında uşaqlar öz yaşıdlarının adlarını daha tez-tez qeyd edirdilər.

Ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan uşaq və yeniyetmələrlə aparılan işin kifayət qədər zəngin hüquqi bazası var. Onların hüquqları qorunur və təmin edilir. Bununla belə uşaq müəssisələri sırasında olan internat məktəblərində müəyyən təkmilləşdirici tədbirlərin görülməsi vacibdir.

Birinci növbədə maddi bazanın gücləndirilməsidir ki, burada qalan fiziki və əqli cəhətdən qüsurlu uşaqların müalicəsi və inkişafı üçün şərait yaradılsın. Tərbiyəçilər, müəllimlər, psixoloqlar, tibb bacıları, həkimlər xüsusi hazırlıq kursları keçməlidirlər və daim ixtisasartırma və ya özünüsavadlandırma yolu ilə öz bilik səviyyələrini atırmalıdırlar. Bundan başqa, uşaqların ailələrə (imkan daxilində) qaytarılması və ailədə onların həm müalicəsi, həm təlim-tərbiyəsi ilə valideynlərin məşğul olmasını təmin etmək lazımdır. Hal-hazırda dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri ailələrdə, ailə üzvlərinin arasında münasibətlərin sağlam zəmin əsasında qurulmasının, sağlam nəslin böyüdülməsinin təmin edilməsidir. Bunun üçün "sağlam ana, sağlam uşaq" şüarına uyğun lazımi həyat səviyyəsinin təmin edilməsi, irsi və sosial xəstəliklərlə mübarizənin aparılması tibbi və sosial yardımın təmin edilməsi olduqca vacibdir. İnternat məktəblərində daima dəyişilən sosial şərait, uşaqların tələbatları və arzuları nəzərə alınmalıdır. İctimaiyyət tərəfindən bu işdə daima dəstək olmalıdır, iş yenilənmiş proqramlar və layihələr əsasında qurulmalı və aparılmalıdır.

## ƏDƏBİYYAT


1. Нравственное воспитание детей с ограниченным возможностями в школе-интернате // www.izh.ru/i/info/15393.html
2. Special needs education // http://www.citizensinformation.ie/

## РЕЗЮМЕ

Социологические исследование, проведенное в интернатах среди детей и подростков, лишенных родительской опеки или потерявших родителей, относящиеся к группе особой опеки, показало что, несмотря на то что в этой сфере проводится определенная работа, однако имеются и недостатки. Они носят комплексный характер, поскольку имеются проблемы в экономической, социально-духовной, психологической, а также в санитарно-гигиенической и медицинской сферах, которые ждут своего решения. Работа, проведенная в школах-интернатах, показывает, что здесь имеются нарушения в учебном режиме, в распределении бюджета времени в течение суток, имеется потребность в совершенствовании общения на уровне «учитель-ученик», следует использовать современные достижения в технологиях обучения, лечения и построения общения. В противном случае общество получит граждан и личности, которые не только имеют недостатки в физическом и психическом отношении, но и в социальном смысле.

## SUMMARY

A study which was conducted among children who were deprived of parental care or lost their parents, as well as having problems in the physical and mental health and residing in boarding schools, showed that some work certainly has been done in this area although it needs further development and mitigation of drawbacks. These drawbacks are complex due to the problems in the economic, social, mental, psychological, sanitary and medical fields, which need to be solved. The work carried out in boarding schools, shows that there are violations in the lessons schedule, in the distribution of time budget during the day, there is a need to improve communication at the level of "teacher-student", to use the modern advances in learning technology, treatment and construction of communication. Otherwise, the society will get individuals having issues not only in physical or psychological regard, but also lack social skills.

Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası | 2016-№1 | Серия общественно-политических наук

**İSKƏNDƏROVA A.**
*Gəncə Dövlət Universiteti*

# N.B.VƏZİROVUN "DALDAN ATILAN DAŞ TOPUĞA DƏYƏR" KOMEDİYASINDA QADIN ŞƏXSİYYƏTİNİN MƏNƏVİ – PSİXOLOJİ KEYFİYYƏTLƏRİ

***Açar sözlər:*** *N.Vəzirov, qadın şəxsiyyəti, cadugərlik, falçılıq, avamlıq, savadsızlıq, saflıq, cəsurluq.*

***Ключевые слова:*** *Н.Везиров, личность женщины, колдовство, гадание, невежество, неграмотность, чистота, мужество.*

***Key words:*** *Vezirov, the identity of the woman, witchcraft, divination, ignorance, illiteracy, purity, courage.*

Azərbaycanda maarifçilik hərəkatı uğrunda mübarizə aparan görkəmli mütəfəkkirlərdən biri də N.B.Vəzirovdur (1854-1926). N.B.Vəzirovun yaradıcılığında qadın problemi, ailədə, cəmiyyətdə qadına münasibət, qadının yeri və rolu, onun təhsilə, elmə, siyasi təfəkkürə sahib olması, müstəqil düşüncəsi mühüm yer tutur. Ədib demək olar ki, bütün əsərlərində ("Daldan atılan daş topuğa dəyər", "Müsibəti – Fəxrəddin", "Yağışdan çıxdıq, yağmura düşdük", "Nə əkərsən, onu biçərsən", "Adı var, özü yox" və s.) qadına olan münasibəti görünür. N.B.Vəzirov yaşadığı cəmiyyətdə Azərbaycan qadınlarının faciəsini, onlara qarşı fiziki, mənəvi – psixoloji zorakılıqları görürdü. N.B.Vəzirov qadınlarımızın həyatındakı bu mənəvi – psixoloji sarsıntıları cəmiyyətdəki ziddiyyətlərlə bağlayır və onları öz "mən"ləri uğrunda mübarizəyə çağırırdı. Ədib eyni zamanda Azərbaycan qadınlarını humanist, ədalətli, əzimkar, dözümlü, qayğıkeş, ailəcanlı, ailədə həmişə sülh carçısı kimi görürdü. Bütün məhrumiyyətlərə baxmayaraq onlar öz azadlıqları uğrunda mübarizə aparır, ərlərini, uşaqlarını, ən əsası da öz ləyaqətlərini, namus və qeyrətlərini qoruyurdular. (3, 318). N.B.Vəzirov yaratdığı qadın obrazları

vasitəsilə Şərq qadınlarının hamısının mənəvi – psixoloji keyfiyyətlərə malik olduğunu da göstərirdi. O, qadın şəxsiyyətinə yüksək qiymət verir, hətta mənfi planda təsvir etdiyi qadınların belə şəxsiyyətinə toxunmaqdan qaçır. Yaratdığı qadın obrazları vasitəsilə N.B.Vəzirov özünün qadın haqqında yüksək əxlaqi ideyalarını ifadə edirdi. Qadın şəxsiyyətinin psixoloji xüsusiyyətləri haqqında ədibin dediklərini "Daldan atılan daş, topuğa dəyər" komediyasında əyani surətdə görürük. Əsərdə kişi obrazları da (Əbdürrəhman, Heydərəli, İskəndər, Əbdürrəhim və b.) təsvir olunur. Əbdürrəhman öz təqsirini bilir, ona görə də Xırda xanıma sərt cavab vermir, onu sakit olmağa, danışmamağa çağırır.

Bunlarla yanaşı, əsərdə "Xırda xanım" (Əbdürrəhmanın övrəti, Səkinə xanım onların 18 yaşlı qızı, Pəri qarabaş, Nurcahan aralıq arvadı və b.) və başqa obrazlara rast gəlirik. Ədib Xırda xanım obrazı vasitəsilə həmin dövrdə yaşayan qadınlarımızın psixoloji vəziyyətini təhlil edir, istək və arzularını göstərir. Xırda xanım həyatından şikayətlənərək deyir: "Xudavənda, görəsən, mənim kimi də dünyada bədbəxt varmı? Qumun, torpağın sayı var, hesabı var, mənim dərdimin hesabı yoxdur. Az qalıb ciyərim od tutub yana... Daş doğaydı mənim əvəzimdə dərin yatmış anam...Içərim özümü yandırır, çölüm özgəni... Xırda xanım budu getdi, Xırda xanım odu getdi... Xırda xanım Əbdürrəhman bəy arvadı. Bəli, bəxtəvər başımıza, ağrım Xırda xanıma da, onun ərinə də... ah, ah!.." (1, səh. 24). O, Əbdürrəhman bəylə evlənməsindən peşman olduğunu dilə gətirərək deyir: "Səbəbin Allah evin yıxsın, tünbətün olsun, dərin yatsın, evi başına uçsun, dərbədər olsun məni bu evə düçar eləyəni!.. O günlərə daş düşəydi, zəlzələ oleydi, tarmar oleydi..." (1, 24).

Əvvəla burada N.B.Vəzirov incə bir psixoloji məqama toxunur. Qadın psixologiyasına. Baxın Xırda xanım Əbdürrəhman bəyə çox ağıllı, psixoloji baxımdan dərin mühakimələrə malik olan sözlər deyir. "Sən nə kişisən ki, mən səndən nə istəyim... Bilməzsən nə var, nə yox, bilməzsən arvadın dərdi nədi, uşağın dərdi nədi. Gündüz axşama kimi başın qarışıb gədə-güdəyə, uşaq-muşağa. Gecə qumar, gündüz qumar." (1, 25).

Xırda xanımın "Əvvəla elə onu götür ki, bizim bir yetişmiş qızımız var, onu gərək bir təhər eləyək." (1, 26) deməsi kişini hövsələdən çıxardır.

"İndi gəldik Mərəndə... Pərvərdigara, görəsən elə hamı arvad elə beləmi olurlar? Qaçar ala dağdan qara dağa, qara dağdan ala dağa. Yeniş-yoxuş, dərə-təpə, axırdan-axıra nədinədi kömür qaradı, qatıq ağdı." (1, 26) deyərək Əbdürrəhman bəy daha da əsəbləşir.

Ədib əsərdə Azərbaycan ailələrindəki dərdlərə toxunur. Ailə başçılarının, xüsusilə ananın bir dərdi var, oda qızının ərə getməsidir. Baxın, hələ müsəlmanların bu fikrləri bu gün də gündəmdədir. Düzdür, qızların taleyi ilə maraqlanmaq arxeotiplərimizdən biridir. Amma elimizin adət - ənənələri var. Qızı zorla ərə vermək olmaz. Əbdürrəhman bəyin dediyi kimi – "Arvad, Allaha bax, tarıya bax, qız deyəndə alma deyil, qarpız deyil tökəsən bazara, haray çəkəsən ay alma alan,

ay şaftalı alan. Dəli olmamısan ki, arvad? İndi başa düşdüm mətləbini, arvad... Elə işləri sən özün yaxşı bilirsən, gərək o gəlsin vizitə, yoxsa mən gedim ona nə deyim? Deyim ki, gəl mənim qızımı al? Tutalım ki, dedim, axır alarmı? Elə iş heç bir yerdə görünübdümü? Axı biz müsəlmanıq.” (1, 26).

Görəndə ki, Xırda xanımın bu ah – naləsi qızını ərə verməkdən ötrü imiş, onda məyus olursan. N.B.Vəzirov həmin dövrdə yaşayan ailələrdə bunları görürdü, məhz buna görə də, qadınlarımızın bu halına acıyır, onları təhsilə, elmə, mənəvi kamilləşməyə çağırırdı.

Kişi ilə söhbətdən ağlı bir şey kəsmədiyini görən Xırda xanım bu işin düzəlməyini caduya, duaya, fala baxdırmaqda görür. Odur ki, o, “Heç mümkün deyil, nə tövr olsa gərək varımdan, yoxumdan keçib bu işi düzəldim; yoxsa o qızların oxutmuş ləçərlər əgər bilsə, oğlanı çəkəcəklər bəndlərinə... Belə ittifaqı əldən buraxmaqlıq bişüurluqdur... Çünki oldun dəyirmançı, çağır gəlsin dən Koroğlu... Əbdürrəhim, Əbdürrəhim! Əbdürrəhim daxil olur və deyir: Nə buyurursan, xanım?” (1, 26).

Xırda xanım Əbdürrəhimə deyir: “Bu saat gedərsən Nurcahan arvadı və o Dərvişi ki Irandan təzə gəlib, çağırarsan bura. Nə tövr olsa gərək bu dəqiqə burada olalar. Başa düşdünmü? Şəhəri bir-birinə vurub tapıb gətirərsən!..” (1, 27).

Nurcahan arvadı gələnə qədər Xırda xanım ümidini caduya, fala, gözə görünməzlərə bağlayıb yalvarır: “Ay pərvərdigara, sən özün kömək elə, nəzir elərəm, hər ocaqda bir şam yandırım, beş qoyun kəsim, iki gün ildə ehsan verim. On yetim sevindirrəm. Ya göy çadırın sahibi!..” (1, 27).

Anasının bu işlərindən xəbər tutan 18 yaşlı Səkinə xanım daha açıq gözlüdür, anasının bu işləri onu açmır. O, anasına deyir: “Kələyini duymuşam... Mənciyəz elə işi bacarmaram.” (1, 27).

“Ya göy çadırın sahibi! Ya mıxı mismara döndərən Tanrı! Ya yoxdan bizi xəlq eləyən Tanrı! İmdad günüdür, yet dada!” (1, 28) deyərək Xırda xanım yalvarış edir.

Əsərdə həmin dövrdə geniş yayılmış cadugərlik, falçılıq, dua yazmaq kimi bəd əməllər tənqid olunur. Xırda xanım yüzlərlə, bəlkə də minlərlə xırda mülkədar qadınlarının ümumiləşdirilmiş obrazıdır. O, avam və savadsız bir qadındır. Ona görə də aralıq arvadı Nurcahana inanıb, onun vasitəsi ilə 18 yaşlı qızı Səkinə xanımı kəndə təzə təyin edilmiş həkim İsgəndər bəyə ərə vermək istəyir. Nurcahanın göstərişləri ilə Xırda xanım İrandan yenicə gəlmiş Heydərəlini çağırtdırıb, cadusu ilə “bir qızın, bir oğlanla ulduzunu barışdırmağa” əncam verməsini xahiş edir. N.B.Vəzirov qadınlarımızın avamlığını və bu səbəbdən də onların caduya müraciət etmələrini, pirə, ocağa üz tutmalarını tənqid edir. Müəllif bir tərəfdən belə sadəlövh, mövhumatçı qadınlara gülür, digər tərəfdən onların şəxsiyyətində özünü göstərən mənəvi – psixoloji boşluqlara acıyır, bir növ onları mənliyini. Ləyaqətini, qadınlıq qürurunu, mövqeyini qorumağa çağırır.

Əsərdə ikinci qadın surəti "aralıq övrəti" – Nurcahandır. Nurcahan qadına yaraşmayan əxlaqi, mənəvi – psixoloji xüsusiyyətlərdən tamamilə uzaq, rəzil, hiyləgər, pulgir bir qadındır.

Komediyada təsvir olunan Dəli Şirin də, öz hərəkəti və əməlləri ilə çox bəd işlər görür. Lakin o, Nurcahanın hiyləgər sifətinə üzün tutub, onu rüsvay edir. Xırda xanım qızı Səkinənin kəndə həkim təyin olunmuş İskəndərə ərə vermək üçün Nurcahanı yanına çağırtdırır.

Nurcahan Xırda xanımın otağına daxil olub deyir: "Salam əleyküm, Xırda xanım. Başına dönüm, xeyirdimi? Atam-anam sənə qurban." "Xeyir olmamış nə var, a başı batmış! Nə verərsən mənə, sənə bir elə zad bağışlayım heç dadı damağından getməsin?" deyə Xırda xanım cavab verir." (1, 28).

Xırda xanım Nurcahana deyir: "Indi bu saat bizim şəhərdə bir oğlan var. Doğrusu budur ki, mən onu çox şadlıq ilən oğulluğa qəbul elərdim, amma elə adamım yoxdur ki, bu işi düzəltsin. Bu işi heç kəs düzəldə bilməz, səndən savay." (1, 29).

Nurcahana baxın, pul üçün "mən"liyini belə qurban verir, ləyaqət və şərəfini qorumur, özünü itə bənzədərək deyir: "Itin olum, xanım! Siz özünüz yaxşı bilirsiniz ki, Nurcahan elə işləri su içməkdən hasand bilir, belə işlərin anasıdı... Sizə məlumdu bizim şəhərdə nə qədər qız gedir, mənsiz heç keçmir. Bax, xanım, başına dönüm, əvvəl bu Səfdərqulu bəy, sonra Nurcahan xanım, ondan sonra..." (1, 29).

Xırda xanım işin düzəlməsi üçün otuz manat pul və bir dəst çit paltar verir. Əlavə edərək deyir: "Bax, Nurcahan, bu işi səndən istəyirəm. Gərək nə tövr olsa düzəldəsən. Mən də sənə borclu oluram bir dəst şaldan libas əbrə işməkli, otuz manat pul və qabaqcan bir dəst çit paltar. Bəsdimi?"

Nurcahan söhbət zamanı İrandan təzə gəlmiş cadugər dərvişi tərifləyib, onu da işə qoşmaq istəyir: "Xırda xanım, başına dönüm, o Dərvişdən adama möcüzələr nağıl eləyirlər, adamın başının tükü biz-biz durur... Deyirlər ki, əgər istəsə səni də bu saat öz yanına biixtiyar caduynan aparar, necə ki, Hacı Iskəndər bəyin arvadını aparıbdır. Xanım, Dərvişi də yaxşı fikrinizə salmısınız." (1, 30).

Beləliklə, Xırda xanımın bu "tədbirində" Dərviş, Dəli Şirin və nökərlər də iştirak edirlər. Dərviş bu işdə mahir olduğunu deyib, Xırda xanımı inandırır: "Xanımcan, belə işlər mənim cadumun məqamında elə asandır necə ki, bir cam su içmək. O ki qaldı məni razı etməyə, o bağlıdır sizin şəfaətinizə." (1, 31).

Dərviş adəti üzrə bir neçə yalançı hərəkətlər edir, "səhnələr düzəldir", Xırda xanımı inandırıb, işin qurtardığını bildirir və duaları yazıb suya salıb: "Bu göy kasa qurbağadan ötrüdür və bu ağ kasa içməkdən ötrü. Dur, xanımcan, indi mənim elmim tamam oldu. Rüsxət verin, mən gedim." "Xırda xanım: Ağa Dərviş, buyur. Bu hesab deyil." (1, 33) deyib ona b eş manat verir.

Əsərdə təsvir olunan qadın obrazlarından biri də qarabaş Pəridir. Pəri özünü ağbirçək, ağıllı, tədbirli qadın kimi göstərir. Xırda xanımın bu işlərinə

inanmır: “A başınıza dönüm, bu arvad lap ağlını itiribdir axı. Bir deyən gərək, ay xanım, sən Nurcahanı tanımırsan, bilmirsən ki, o gündə min xan qapısında, bəy qapısında duz dadır? Ona sirr vermək olar?.. Işdi yağmadı, bitmədi. Ondan sonra zurnaya qulaq as. Gələcəkdi Püstə xanım, “a qız, Xırda, bacın ölsün, bu nə sözdü şəhərdə danışırlar?...” (1, 33).

Əsərdə ən maraqlı, tədqiq etdiyimiz problem baxımından diqqəti cəlb edən psixoloji anlardan biri də İskəndər bəylə Nurcahanın, Dəli Şirinin dialoqlarıdır. İskəndər bəy Nurcahana deyir: “Xala, sən nə diribaş qarısan? Mənəcə nə verərsən sənə bir elə dava verim ki, norəstə cavan olasan?”. Nurcahan isə İskəndər bəyin başını bişirmək üçün ona deyir: “Sən mənə nə verərsən sənə bir elə qız tapam ki, şam yandırmaq lazım olmaya, üzünə baxanda günə baxan kimi gözlərin qamaşa.

Gərdəni bir qarış, boyu sərv ağacı, ağ üz, qara kirpik, qara qaş, gözləri ala, ahu balası. İskəndər bəy isə ona bəlkə evli olduğunu bildirmək istəyərək deyir: “Ay sirr dağarcığı, bəlkə mən elə küflət sahibiyəm, onda?..” Nurcahan isə ona inanmır və İskəndər bəyə söyləyir: “Qoca sərçəyə cub-cub öyrədirsən? Sənin nə vaxtındı külfət sahibi olasan, dünənki uşaq ola-ola.” (1, 34).

Elə bu vaxt Dəli Şirin peyda olur İskəndər bəyin evində. O, Nurcahanı görən kimi əsəbləşərək deyir: “Paho, paho! Nurcahan qarı, axirətsiz! Nə tez xam yerə şikara çıxmısan?” Nurcahan isə cavabında deyir: “Qapıdan belə dur, mənim zırrama dəli ilə işim yoxdu!” (1, 35).

İskəndər bəy, Dəli Şirin, Nurcahan dialoqları C.Məmmədquluzadənin “Dəli yığıncağı” əsərindəki İskəndərin monoloqunu xatırladır. Burada həmin vəzifəni Dəli Şirin yerinə yetirir. “Dəlidən doğru xəbər” atalar sözündə deyildiyi kimi Dəli Şirin açır sandığı, tökür pambığı. O ki var Nurcahanın eyiblərini deyib, onu ifşa edir: “Bəy, mənim adım Dəli Şirindi. Tamam vilayət məni dəli hesab eləyir, mən bu saat sübut elərəm ki, mən dəli deyiləm. Ancaq ərzimə qulaq asınvə sən də, Nurcahan, əlim-ayağım dəyməmiş dur yerində.” Nurcahanın qolundan tutub dartır ortalığa. “Həkimbaşı, mən özümü dəli kökünə salmışam ondan ötrü ki, vilayətimizdə həqiqətdə dəli çoxdu və mən neyləyim; bazaar girdin gözü qıpıq, sən də ol gözü qıpıq! Həkim, eşitmişsinizmi ki, dəlidən doğru xəbər? Mən elə o dəlilərdənəm.” “A imansız dılğır qarı, sən haman Nurcahan deyilsənmi ki, Şahbaz

bəyi aldadıb apardın, biçarəni Qulaməli bəyin tələsində öldürdün. Səni gərək ağladım, hələ harasıdı... A qarı, de görüm, sən deyildinmi təziyə yerində Hacı Tanrıverdinin arvadının ətək qızıllarının səkkizini kəsib yasavul qabağında polisxanaya gedən” (1, 37).

İskəndər bəy onların danışığından bezib deyir: “Daha bəsdir, çıxın. Ikiniz də birdən çıxın. Tez, tez! Şirin dəli deyil. Dəli mənəm ki, bu hədyana indiyə kimi qulaq asırdım.” Deyərək onların ikisini də evdən çıxardır. (1, 37).

N.B.Vəzirov qadınların şəxsiyyətindəki mənəvi – psixoloji keyfiyyətlərinin çatışmazlıqlarını onların savadsızlığında, avamlığında görürdü. Həkimin otağındakı əhvalatlardan xəbəri olmayan Xırda xanım Nurcahandan xoş

xəbər gözləyir. O, otağında təlaş keçirir, çox nigarandır. Gecə pis yatdığını deyir: "Bu gecə heç yatmamışam, sabaha kimi fikirdə olmuşam. Indi başım yerində durmur, guya ki, mənim deyil... Bol xəyalat eləmişəm. Bir neçə vaxt iş düzəldib toy fikrinə düşmüşəm. Sonra Pərini götürüb Səkinənin evinə qonaq getmişəm. Bir neçə vaxt iş düzəlməyib hirsimdən ağlamışam... Xülasə, çox bədxab oldum... Indi sabah açılıb, görək Allah nə istəyir. Pəri, Pəri." Pəri gəlir və xanımının nə buyurduğunu xəbər alır. "Nurcahan bura gəlmişdi? Heç bir xəbər varmı? Deyə Xırda xanım xəbər alır və onun hələ gəlmədiyini biləndə daha da narahat olmağa başlayır.

N.B.Vəzirov bütün əsər boyu Azərbaycan adət - ənənələrini gözləyir, ailədə valideyn – övlad münasibətlərinə ciddi fikir verir. Azərbaycan qızlarının həya, abır, ləyaqət hisslərini nümayiş etdirir. Xırda xanım qızına nə dedisə desin, o onun üçün qanundur. "Sən deyən olsun, ancaq hirslənmə" deyərək anasını sakitləşdirir.

Nurcahan yenə şirin dili ilə Xırda xanımı aldatmağa çalışır. O, üzünü Xırda xanıma tutaraq deyir: "Əvvəl başdan ərz eləyim, Xırda xanım, başına dönüm, belə gözlərimiz aydın olsun." (1, 38). Nurcahan dəridən – qabıqdan çıxıb Xırda xanımı inandırmaq istəyir ki, iş düzəlib: "Xanım, gedim balalarımın üzün görməyim, əgər bunların hamısını deməmişəmsə. O da mənə zarafatnan dedi ki, sənə bir dava verim, on beş yaşında qız olasan. Bir danışan, bir məzəli oğlandı ki, heç dünyada özünün də əvəzi yoxdu." (1, 39). Dərviş də gəlib otağa daxil olaraq Xırda xanıma deyir: "Xanımcan, dəxi nə oturum, bu gün sübh tezdən Hacı Məhəmmədtağı və Hacı Kərim gəldilər mənim mənzilimə və mənə təklif etdilər ki, bu gecə cəm olalar mənim mənzilimə və mən onlar üçün dua yazım. Söhbət arasında mənə məlum etdilər ki, bu saat onlar gəlirlər təzə həkimin yanından. Guya Iskəndər bəy onlardan çox iltimas edib ki, onlar sizin qulluğunuza gəlsinlər namzədlik üçün və onlar şal və üzük tədarükünə düşüblər... Indi, xanımcan, bildinizmi mənim dualarımın hikmətini?!" (1, 40). Otağa daxil olan Əbdürrəhman bəy Xırda xanımın keyfinə soğan doğrayır: "Arvad, dünən sən mənim başıma nədən ötrü o müsibəti açırdın? Məgər övrətdə səbr olmaz, ağzına gələn hədyanı söylər? Indi necə oldu?" Əbdürrəhman bəy Xırda xanıma İskəndər bəyin evli olduğunu, hətta bir oğlu da olduğunu söyləyir. Xırda xanım xəbəri eşidəndən sonra halı pisləşir: "Əbdürrəhim, Pəri, Nurcahan, bu saat mənə bir xəbər, ay, ürəyim çatladı!.. Mənə bir az su! Tez! Öldüm, ay su." (1, 41). Əbdürrəhim Xırda xanımın göstərişi ilə Nurcahan və Dərvişi evdən qovur. Əsərin sonunda anasının halının pisləşdiyini görən 18 yaşlı Səkinə xanım anasını sakitləşdirərək deyir: "Ana, sənə qurban olum, nə qayırırsan? Uy Allah, uy!.." (1, 41).

Əsərin hansı sonluqla bitdiyinə fikir verdikdə görə bilərik ki, Pəri, Səkinə xanım müsbət obrazlardır. Nurcahan aralıq övrəti isə mənfi obrazdır. Amma hər birinin özünəməxsus mənəvi – psixoloji xüsusiyyətləri vardır. Mənfi obraz kimi təqdim olunan Nurcahan, Xırda xanım obrazlarında bir çeviklik, fərasət, dil,

düşüncə tərzi, münasibət qurmaq kimi psixoloji keyfiyyətlər diqqəti cəlb edir. (2, səh. 85). XIX əsrin ortalarında XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətində cərəyan edən falçılıq, dua, nəzir vermək, cadugərlik N.B.Vəzirovu narahat edir və insanları, xüsusilə qadınları bu qaranlıq işlərdən qurtarmaq yolunu axtarmaq onun əsas məqsədi idi. Düzdür, N.B.Vəzirov bunların səbəbini qadınların təhsilsizliyində axtarırdı. Əlbəttə, bu danılmaz həqiqətdir. Ancaq təkcə ayrı – ayrı fərdlərin təhsilə cəlb edilməsi, onların şüurunda kök salan asılılığı, acizliyi, köləliliyi aradan qaldırmaqla qadınların ictimai – sosial, mənəvi – psixoloji inkişafına nail olmaq qeyri – mümkündür. Azərbaycan maarifçilərinin psixoloji mübarizəsində ictimai həyatın, quruluşun, dövlətin dəyişdirilməsi demək olar ki, hiss olunmur. Bu da onların psixososial görüşlərində ən zəif cəhətlərdən idi. Burada, əlbəttə, N.B.Vəzirov da istisnalıq təşkil etmir.

Təbii ki, XIX əsrdə və ondan əvvəlki dövrlərdə ailələrdə gənclərin evlənmələri çox zaman qızın və ya oğlanın xəbəri olmadan həyata keçirilir. Belə ailələr də çox vaxt uğursuz sonluqla qurtarırdı. Necə ki, Əbdürrəhman bəyin və Xırda xanımın ailəsində bu hadisə uğursuzluqla sona yetdi. Nurcahan, Dərvi Xırda xanımın avamlığından, savadsızlığından, caduya, falçılığa inanmağından istifadə edib onu soyurlar. Gözlənilmədən Əbdürrəhman bəy Xırda xanıma İskəndər bəyin evli olduğunu xəbər verəndə, Nurcahan və Dərviş bəd ifşa edilərək qovulurlar.

N.B.Vəzirov bu əsəri ilə bir daha yaşlı qadınlara, xüsusilə gənc qızlara göstərir ki, həyatda gözüaçıq olsunlar, falçılara, cadugərlərə inanmasınlar. əsərdə cərəyan edən hadisələr bu gün də aktualdır. Hazırki XXI əsrin 15-16–cı illərində falçılıq, fırıldaqçılıq, cadu – piti, nəzir vermək, fırıldaqçı ekstrasenslərə inanmaq artıq adi hal alıb. Bütün bunları nəzərə alaraq Dini İşlər Üzrə Dövlət Komitəsi rəsmi surətdə falçılığın qadağan edilməsi haqqında xüsusi sərəncam verdi.

## ƏDƏBİYYAT


1. Nəcəf Bəy Vəzirov. Əsərləri. Bakı: Şərq-Qərb", 2005, 304 səh.
2. F.Talımzadə. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1967.
3. Ə.T.Baxşəliyev. Azərbaycanın milli – mənəvi dəyərlərinin sosial – psixoloji mahiyyəti. Bakı, 2011, 436 səh.


## РЕЗЮМЕ


Н.Везиров в существующем обществе видел трагедию азербайджанских женщин, морально-психологическое и физическое их насилие. Эти морально-психологические потрясения в жизни женщин Н.Везиро связывал с противоречиями, существующими в обществе и призывал их бороться за свое «я». В тоже

время писатель считал азербайджанских женщин гуманными, справедливыми, решительными, терпеливыми, заботливыми и вестниками мира в семье. Несмотря на все лишения, они сражаются за свою свободу, защищают честь и достоинство своих детей, мужей. Н.Везиров с помощью созданных им женских образов показал наличие морально-психологических качеств у всех восточных женщин. Н.Везиров высоко ценит личность женщины, при помощи созданных им женских образов он выражает свои высокие идеи и женщинах. Сказанное им о психологических особенностях личности женщин м наглядно можемвидеть в комедии «Камень, брошенный вслед, угодит в пятку». На примере образа маленькой женщины анализируется психологическое состояние женщины того времени, показываются их желания и мечты.

В произведениях Н.Везирова прослеживаются азербайджанские традиции, семейные отношения, показывается скромность, порядочность, достоинство азербайджанских девушек.


## SUMMARY

N.B.Vezirov saw the tragedy of Azerbaijani women, physical and psychological violence against them in a society where he lived. N.B.Vezirov connected these moral - psychological shocks of the women`s life with contradictions in a society and called called to fight them for their “I”. The writer saw Azerbaijani women as humane, fair, tolerant, caring, domesticated, a herald of peace in the family at the same time. Despite all the hardships they were fighting for their freedom and protecting their husbands, children and most importantly, their dignity, honor. N.B.Vezirov saw all moral psychological characteristics of all the Eastern women through female characters created by him. He appreciates the woman's identity, or even he avoid touching the identity of the women described in negative plan. N.B.Vezirov had expressing his high moral ideas about women through the female characters created by him. We see clearly the writer`s says about psychological characteristics of the personality of the woman in comedy “stones thrown behind hit ankle”. He analyzed psychological situation of our women through image Xırda xanım lived in that period, demonstrated their wishes and desires.

N.B.Vezirov waited for the traditions of Azerbaijan and paid serious attention to parent - child relationship in the family in all works. He demonstrated Azerbaijani daughters` modesty, decency, dignity feelings.

Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası | 2016-№1 | Серия общественно-политических наук

**ASLANOVA G.Ç.**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# AZƏRBAYCAN XALQ DASTANLARININ VƏ AŞIQ SƏNƏTİNİN TARİXİNDƏN

***Açar sözlər***: *sənət, aşıq, dastan, saz, ənənə.*
***Ключевые слова***: *искусство, ашуг, дастан,саз, традиция.*
***Key words***: *art, achug, epos, saz, tradition.*

Azərbaycan şifahi xalq yaradıcılığının bir növü kimi aşıq dastanları mühüm yerlərdən birini tutur. İri həcmli janrlara aid olan dastanların kökü yüzilliklərə aparır. Dastan sözünün mənası hekayə (farsca) və yaxud əhvalat, təsvir, hadisə, qissə, nağıl, tərif və başqa buna oxşar işlənir. Əsasən dastanları qəhrəmanlıq və məhəbbət dastanları kimi təsnif edirlər. Lakin professor M.H.Təhmasib bura ailə-əxlaq dastanları kimi üçüncü qrup ayırır. Bu qrupa dastanlarda olan əxlaqi-tərbiyəvi mövzuda olan süjetləri qruplaşdırır (1, 108-112).

Analoji klassifikasiyanı biz E.Eldarovada görürük:

I.Məhəbbət – lirik dastanları və ya xalq romanları ( “Əsli və Kərəm”, “Aşıq Qərib”).

II.Qəhrəmanlıq dastanları (“Dədə Qorqud”, “Koroğlu”, “Qara Məlik”, “Qaçaq Nəbi”, “Səttarxan”, “Qaçaq Kərəm”, “Molla Nur” və s.).

III.Didaktik dastanlar (“Alıxan və Pəri”). Əxlaq-etik məsələlərə həsr olunmuş (2, 30-40). Söz-saz sənəti daşıyıcıları ozan, uzan, varsaq, dədə, qam, ata və bir çox başqa adlarla ən qədim dövrlərdən indiyənədək tanınmışlar.

İlk dəfə “aşıq” adına türk sufiliyinin təməl daşını qoyan böyük şair və dahi Əhməd əl Yasəvinin (1105-1166) yaradıcılığında rast gəlinir. Ancaq ad özü (“aşıq”) XI əsrdən məlumdur.

"Aşıq" termini XIV-XV əsrlərdə yaranıb və birinci müğənni - ustad XVII əsrin əvvəllərində yaşayan və "aşıq" titulu alan Abbas Tufarqanlı sayılır. XVI əsrdə yaşayıb-yaradan Qurbaninin "aşıq" titulu yoxdur.

İş orasındadır ki, qədim zamanlar və orta əsrlərdə belə sənətkarların başqa adları olub: "varsaq", "dədə", "ozan", "yansaq" və s. Bunlardan ən qədimi varsagdır, onlar hələ ozanlardan qabaq xalq arasında tanınıblar. M.Seyidov qədim Azərbaycan ədəbiyyatının araşdırıcısı, varsaq və ya varsaz sözünü, onların başqa mənalarından (yer adı, tayfa, şer forması, melodiyanın adı) savayı, həm də yaradıcı, ustad mənaların qeyd edib. Onun dediyinə görə varsaq çalıb, oxuyub, oynayıb, tamaşa göstərən istedadlı adamlardır. Bu mənada varsaqlar aşıqların qədim əjdadları sayılır. "Aşıq" sözü Azərbaycanda ərəb işğalından sonra ortaya gəlib. Onunla bərabər"ozan" sözü də "aşıq" sözü ilə bərabər işlənib. Çox güman, xalq şair-musiqiçiləri Azərbaycanda daha qədim zamanlarda olub, ancaq onlardan bəhs edən ən qədim yazılı mənbə qəhrəmanlıq dastanı "Dədə Qorqud"dur. Vətənpərvərlik hissləri, qəhrəmanlıq, fədakarlıq, düşmənlərə qarşı müqavimət, igidlərin şücaəti ilə yanaşı dastanda rəvayət və mahnılar yaradan ustadının obrazı, onun xalqın həyatında olan rolu və əhəmiyyəti göstərilir. Bununla yanaşı, ifa etdiyi alətdən danışılır. Ozan (Dədə Qorqud) öz mahnılarını qopuzun müşayəti ilə oxuyur. Dədə Qorqud təkcə ustad müğənni deyil, o həm də insanlara xoşbəxtlik, yaxşılıq istəyən müdrik ağsaqqaldır.

Bəzi mənbələrdə Dədə Qorqud cadugar, təbib, övliya, imam, Məhəmmədin yaxın dostu, soltan, şeyx və s. kimi göstərilir. Onların arasında tanınmış alim M. Təhmasibin də adın çəkə bilərik. Qədim "ozan" sözünün "aşıq" sözü ilə əvəz olunmasından Abdul-Qadir Marağai, Mahmud Qaşqari, akademik V.V.Radlov, professor M.F.Köprülüzadə kimi alimlərin əsərlərində rast gəlinir. Onlar həmçinin qopuzdan və onun görünüşündən yazıblar. Dastanda iki cür müğənni göstərilir: birinci - məşhur, fitri istedadlı, sonradan xalq arasında ustad adlanan bu Dədə Qorqud özüdür. Dədə (ata) onun adının yanında ustadın üstünlüyünə işarədir; ikinci cür ozan - adı, sıradan olan o qədər də məşhur olmayan ifaçıdır. Sonralar da Azərbaycanda (Orta Asiya və b. ölkələrdə) görkəmli aşıqların adlarına "Dədə" əlavə edirlər. Məsələn, Dədə Ediyar, Dədə Kərəm, Dədə Ələsgər, Dədə Əsəd, Dədə Şəmkir və s. xalq ifaçılarının arasında başqa bir ada da rast gəlinir - yanşaq. Bu sözün mənası boşboğaz, çox danışanlar. Məsələn, Kəlbəcər rayonunda Yanşaq adlı kənd mövcuddur. Orada xeyli aşıq vardır.

Yanşaq sözü ozan sözü kimi aşığın adına titul kimi əlavə edilmir. Üz.Hacıbəyov "aşıq" sözünü "eşq" (ərəbcə) ilə bağlayır, türk mifoloji təsəvvürlərini araşdıran tanınmış alim F.Köprülüzadə belə nəticə çıxarır ki, "aşıq" sözü "işıq" sözünün törəməsidir. Şərqşünas alim, türkoloq V.Qordlevskiy yazır ki, "qələndərləri" (dərvişləri) "işıq" da adlandırırdılar. "Çox ola bilər ki, burada iki sözün - "işıq" və "aşıq" (ərəbcə "Allah eşqi ilə odlanan") sözlərinin kontaminasiyası (iki ifadənin birləşdirərək yeni ifadə əmələ gətirməsi) ilə qarşılaşırıq, yəni "işıq" sözü

sufi anlayışının xalq etimologiyasıdır. Dünyanı gəzib-dolaşan dərvişlər dağ başına çıxıb ocaq yandırarmışlar. Aşağıdakı dübeyt belə yazmağa əsas verir:

Uca dağ başında yanar bir işıq,onu bekleyen qarip bir aşıq... (6, 175).

Başqa bir versiyaya əsasən "aşıq" anlayışının sufi təriqətləri ilə bağlılığı göstərilir (məsələn, XIII-XIV əsrin əvvəlindəki aşıq-mülhidlər).Qəznəvilər (999-1040), Səlcuqlar (XI-XII əsrlər) və Qaraxanilər (XI-XVII əsrlər) hakimiyyəti dövründə "Şeyx" ("Şıx") nüfuzli din xadimlərinə, tanınmış alimlərə, sufi təriqəti başçılarına, ticarətdə və sənətkarlıqda nüfuz sahiblərinə deyirdilər. Burada biz "axilər" təriqətinə mənsub olmuş dahi şair Nizami Gəncəvinin "Şeyx Nizami" və 20 il dərvişlik etmiş Sədi Şirazi (Şeyx Sədi) kimi şəxsiyyətləri göstərə bilərik (4, 125)."Aşıq" həm də XVI əsrdə geniş yayılmış və "türkü" adlanan hərbi himnləri yaradanlara da deyiblər. Həmin sənətkarları xalq "a şıx" deyə çağırırdı. Burada "a" artırması qədim türk adlarında hörmət və ehtiram göstəricisi olub. Məsələn, Aşıq Ələsgərin ustadı Alıya "Şıx Alı" da demişlər (5, s.36).

Nəhayət, Ə.Bədəlbəyli "İzahlı monoqrafik musiqi lüğəti"ndə "aşıq" sözünə belə tərif verir:"Aşıq" (ərəb. aşiq – vurğun, məftun) – yaradıcılığında şairlik, nəğməkarlıq, çalğıçılıq (instrumental ifaçılıq), bədii qiraət və rəqs sənətlərini üzvi surətdə, sintetik tərzdə birləşdirən xalq sənətkarı" (8, 28). Dastan iki bir-birinə bağlı hissədən – nəsr və nəzmdən ibarətdir. Nəsr hissəsində aşıqlar sözlə hekayət nağıl edirlər. Nəzm hissəsi isə cürbəcür aşıq havacıqları üstündə oxunur. Adətən, məclislərdə, şənliklərdə, toylarda ifa edilən dastanlar, bəzi hallarda 2-3 gecəyə danışılır.

Dastanın girişi Ustadnamə, ortada dastan özü və axırda Duvaqqapama ilə tamamlanır.Adətən üç Ustadnamə deyilirdi, öyüd-nəsihətli, müdrik sözlərlə, əvvəlki ustadların adlarına tərifnamə, alqış deməklə, qoşma poetik formasında şerlərdən ibarət idi. Keçmişdə birinci Ustadnamə Məracnamə adlanırdı və Məhəmməd peyğəmbərə həsr olunurdu.Ustadnamədən sonra Dastan özü gəlir. Aşıq dastanı nağıl edən zaman araya mahnı epizodları daxil edir. Məclis yorulmasın deyə, aşıq həmçinin məzəli, satirik və maraqlı, dastanla heç bir əlaqəsi olmayan əhvalatlar söyləyir (qaravəlli). Keçmişdə bunları xüsusi ifaçılar deyirdi. Xalq onları "ey yar" adlandırırdı.Ə.Eldarova dastanın bölgüsünü belə verir (məs: məhəbbət – lirik dastanı).1.Qəhrəmanın doğulub boya-başa çatması. 2. "Buta vermək". 3. Çətinliklərin və maneələrin araya gəlməsi və onları dəf etməsi üçün mübarizə. 4. Savaş və qələbə. Çox zaman savaş elə istədiyi qıznan olur (məs: "Valeh və Zərniyar", "Üseyn və Reyhan" və s.) (2, 38).

Qələbə çalıb qəhrəman öz istəklisinə qovuşur. Dastanın axırında Duvaqqapma ifa olunur. Məhəbbət dastanlarının əksəriyyətində sonda sevgililərin qovuşmasına həsr olunmuş mahnı oxunur. Bununla əlaqədar dastanı tamamlayan hissənin adı Duvaqqapmadır. Bu termin xalq arasında toy məclisi ilə bağlıdır və gəlinin üzündən toyun axırında duvağı qaldırmaqla bağlıdır. Bundan başqa məhz Duvaqqapmada, Ustadnamədən fərqli olaraq, hansında ki, aşıq keçmiş ustadların

adlarını çəkib, onlara təriflər deyirdi. Duvaqqapmanın axırıncı bəndində, nəhayət, aşıq öz adını və ya təxəllüsünü açıqlayır. Lirik, təsirli, gözəl şer nümunələrindən ibarət dastanın nəzm hissəsi mahnı formasında ifa olunur. Burada çoxsaylı aşıq hava və havacatlarından istifadə olunur. Məsələn, bir dastanın ifası zamanı 20-30 və daha çox aşıq havasından istifadə olunur.Aşıq Talıb Ələsgər oğluna istinadən (1968-ci il) "Abbas və Gülgəz" dastanının ifası zamanı bu kimi havalar ifa olunur: "İran gəraylısı", "Sallama gəraylı", "Keşiş oğlu", "Misri", "Orta sarıtel", "Təcnis", "El havası", "Afşarı", "Ağır sərili", "Baş sarıtel", "Duraxanı", "Aşıq Useyni", "Paşa keçdi", "Bayramı", "Qaytarma", "Cəlili", "Köhnə gözəlləmə", "Qəhrəmanı", "Hicran kərəmisi", "Yanıq kərəmi", "Dübeyt", "Dilqəmi", "Naxçıvani", "Urfani", "Kərəm gözəlləməsi", "Mirzəcani", "Müxəmməs gözəlləməsi", "Müxəmməs" – özü də bəziləri bir neçə dəfə istifadə olunur (2, 39).

Musiqi materialının qorunmasında həm də hər mətnin ona məxsus hava üzərində ifa olunmasının böyük rolu olmuşdur. Hal-hazırda 250-yə yaxın aşıq havasının adı bəllidir. Bu, əlbəttə ki, əsrlərlə yaranan aşıq havalarının bir hissəsidir. Not yazısı işlənilməsinə görə cüzi bir hissəsi qorunub bizə çatdırılıb."Aşıq havacatı" və ya "saz havaları" azərbaycan xalq musiqisində özünəməxsus, mühüm yer tutur. Sinkretik sənət olaraq, aşıq hələ qədim zamanlardan özündə bir neçə incəsənət növlərini birləşdirib. Aşıq yaradıcılığında musiqi (instrumental ifaçılıq və mahnı oxuma), poeziya, teatr (rəqs və mimika) kimi incəsənətin sahələrini işlədir.

Hal-hazırda tədqiqatçılar aşıqları, onların imkanlarını nəzərə alaraq, üç qrupa bölürlər. Birinci – Ustad aşıqlar – dastan yaradan, şair, bəstəkar, mükəmməl saz ifaçısı və müğənni, rəqqas və aktyor, təcrübəli və müdrik ustad. İfaçı aşıqlar – bu qrupdakı aşıqlar şer və musiqi yaratmırlar. Onlar qədim saz-söz ənənələrini qoruyub saxlayan və onları ifa edən sənətçilərdi. Şair aşıqlar və yaxud el şairləri - ənənəvi havacata əsaslanıb aşıq sənətinin şer nümunələrini yaradan söz ustadlarıdır. Özləri havalar bəstələmir, sazda ifaları birinci iki qrupdan zəif olur, bəzən heç olmur (Aşıq Dilqəm, XVIII-XIX əsrlər).

Ən çox yayılmış və qədim ifa növü – solo ifadır. Aşıq bütün məclis boyu həm dastan və ya dastandan bir hissə nağıl edir, həm qaravəlli oxuyur, həm saz çalır və s. Aşığı  həm də yastı balaman müşaiyət edə bilər, tez-tez iki balamançıya da rast gəlmək olur. İki aşıq bir araya gələndə aralarında deyişmə adlanan bir müsabiqə aparılır. Deyişmə zamanı aşıqlar bir-birinə (sual-tapmaca) bağlama təklif edirlər. Birinci aşıq saznan bir bağlama oxuyur, sonra onu özlə təkrarlayır. İkinci aşıq cavabın tapıb öz tərəfindən başqa bağlama təqdim etməlidir. Deyişmə onda bitir ki, aşıqların biri tapmacanın cavabını verməsin. Onda xalq arasında deyirlər "Filan aşıq filan aşığı bağladı". Adətə əsasən, uduzmuş aşıq öz sazını qalib gəlmiş aşığa verməlidi.

Azərbaycan aşıqları sırasına XIX əsrdə ilk qadın-aşıq daxil olmuşdu – Aşıq Pəri.1811-ci ildə Qarabağın Xırdapara – Dizaq (Cəbrayıl) mahalı, Maralyan

kəndində doğulmuş, 1830-cu ildə Şuşaya köçmüş və oradakı aşıq məclislərində böyük hörmət sahibi olub. Firudin bəy Köçərli onun gözəl və bilikli xanım olduğunu yazır. Aşıq Pəri bir neçə şair və aşıqlarla – Mirzə Həsən bəy Mirzə, Kərbəlayi Abdulla Canızadə, Cəfərqulu xan Nəva, Məhəmməd bəy Aşiq, Mirzə-can Mədətov və s. deyişmişdir və hamısında uğur qazanmışdır. Az bir zamanda yazdığı gözəl şerləri və hazırcavablığı ilə Qarabağ şairləri arasında tanınmışdı, Şuşa şer məclislərinin iştirakçısı olub.İlk dəfə Mirzə Yusif Qarabağinin "Məcmueyi-divani Vaqif və muasirini digər" (1856) məcmuəsində ilk dəfə şerləri çap olunub. Həmçinin A.Berjenin tərtibatı ilə "Qafqaz və Azərbaycanda məşhur olan şuarənin əşarina məcmuədir" (Leypsiq, 1867) kitabında şerləri dərc olmuş-dur. Cəmi 40-50 şeri, əsasən qoşmaları dövrümüzədək gəlib çatmışdır.

Sovet illərində ən məşhur qadın-aşıq Rəhilə Həsənova olmuşdu. O cürə sazda (qoltuq sazı) ifa edib, oxuyardı. Cürə sazı nisbətən kiçik həcmilidir və 4-5 simi var. Bir oktava başqa sazlardan yuxarı səslənir. Keçmişdə cürə sazda Zaqatala və Şamaxı aşıqlarının çox bir hissəsi ifa edirdi. 1937-ci ildə Azərbaycan Dövlət Filarmoniyasında cürə sazında çalan qadınlardan ibarət ansambl təşkil edilmişdi. Ona əvvəl Q.Hüseynli, sonra S.Hacıbəyov, onlardan sonra da C.Ca-hangirov rəhbərlik etmişdi (2, 42). Müasir aşıqların arasında ən yayılmış tavar sazdır. Uzunluğu 120 sm 9 (hərdən bir 8) simlidir.

Müstəqillik illərində qadın aşıqlarımız, qadınlardan ibarət ansambllar inkişaf etmişdir. "Aşıq Pəri məclisi" adında qadın-aşıqlardan ibarət məclislər qurulur, konsertlər verilir. Qadın aşıq sənəti öz inkişafını yaşayır. Çox sayda qadın aşıqları peyda olub. Onların arasında artıq xalq arasında tanınan, sevilən, məşhur qadın aşıqları da var.Hal-hazırda azərbaycan aşıqlarının sıralarında qadın-aşıqlar öz yerini tutub. Bunların arasında Azərbaycan əməkdar artisti, incəsənət işçisi, aşıq Ulduz Quliyeva (Sönməz), həm də üç şer toplusu müəllifidir. Dastan yaradan qadın ustad aşıqlar arasında həm də Gülarə Azaflı, aşıq Tellinin adlarını çəkmək olar. Aşıq Pəri məclisindən Aşıq Günel Tovuzlu, Aşıq Sülfiyyə və başqalarını sadalamaq olar.Qadın aşıqlarının içində Azərbaycanın Əməkdar İncəsənət xadimi, fəlsəfə elmlər doktoru, Aşıq Samirəni də qeyd etmək lazımdı. Demək olar ki, əsrlər boyu kişi sənəti olan aşıq sənətinə indi qadınlar da çox aktiv qoşulub.

## ƏDƏBİYYAT

1.M.H.Təhmasib.Azərbaycan xalq dastanları (orta əsrlər), "Elm", 1972

2.Э.Эльдарова. Искусство ашыгов Азербайджана. «Ишыг», Баку-1984

3.M.H.Təhmasib, Ə.Axundov "Azərbaycan xalq dastanları" 5 cilddə (I cild), "Lider nəşriyyatı", Bakı-2005, 392 s.

4. T.Məmmədov. Azərbaycan xalq – professional musiqisi: aşıq sənəti. "Musiqi dünyası" (1-2), 2001, s.122-129

5. Q.Namazov. Azərbaycan aşıq sənəti. B.,1984

6. Вл. Гордлевский. Государство Сельджукидов Малой Азии. М.- Л., 1941

7. Дж. Тримингем. Суфийские ордена в Исламе. М., 1989
8. Ə.Bədəlbəyli. Musiqi lüğəti. B., 1969

## РЕЗЮМЕ

Ашугский дастан как один из видов фольклора возник много веков назад и занимает очень важное место. Будучи синтетическим жанром по своей сути, он объединяет поэзию, музыку (пение и игра на инструменте), танец, театральное исполнение. Эпические, лирические, дидактические (назидательные) сюжеты имеют разнообразное музыкальное сопровождение. Относящийся к крупным жанрам, дастан включает в себя и множество мелких форм (жанров). Ашугское искусство, будучи испокон веков мужским занятием, привлекает всё больше женщин – устадов (творцов) и исполнителей

## SUMMARY

Ashugs heroic poem as one of types of folklore, has arisen many centuries ago and takes very important place. Being a synthetic genre in essence, he unites poetry, music (singing and a play on the tool), dance, theatrical execution, Epic, lyrical, didactic(instructive) plats have various music. Belonging to large genres, heroic poem includes also a set of small forms (genres). Ashugs art, being from time immemorial a mail occupation, attracts more and more female-masters (creators) and performers

Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası | 2016-№1 | Серия общественно-политических наук

**İRFAN AYDIN**
*Azərbaycan Dillər Universiteti*

# ORTA MƏKTƏB ŞAGİRDLƏRİNDƏ İNGİLİS DİLİNDƏ KOMMUNİKATİV BACARIQLARIN İNKİŞAF ETDİRİLMƏSİNİN BƏZİ PROBLEMLƏRİ

**Açar sözlər:** *ünsiyyət, kommunikativ bacarıqlar, adekvat kommunikasiya vasitəsi, şagirdlərin ehtiyac və tələbatları.*

**Key words:** *communication, communicative skills, adequate means of communication, needs & preferences.*

**Ключевые слова:** *коммуникация, коммуникативные умения, адекватное средство коммуникации.*

Ali və orta məktəblərin qarşısında duran əsas vəzifələrdən biri şagird və tələbələrdə tədris edilən xarici dildən kommunikasiya məqsədilə istifadə etmək bacarığının müasir dövrün tələbələrinə uyğun olan səviyyədə formalaşdırılması və inkişaf etdirilməsidir. Bu gün dünya miqyasında əsas ünsiyyət vasitəsi statusunu qazanmış ingilis dilinin kommunikasiya vasitəsi kimi mənimsənilməsinin vacibliyi danılmazdır. Orta təhsil müəssisələrində irəli sürülən əsas məqsədlərdən biri tədris edilən xarici dilə praktik şəkildə yiyələnməkdir. Xarici dilin tədrisi metodlarının səmərəliliyinin artırılması istiqamətində irəli sürülən məqsədlərdən ən önəmlisi şagirdlərə kommunikativ vərdişlərin aşılanmasıdır. Lakin təcrübə göstərir ki, orta məktəb şagirdlərinin tədris edilən xarici dildə, o cümlədən ingilis dilində kommunikativ vərdişləri heç də qənaətbəxş deyil. Bu cür vəziyyəti törədən səbəblərdən danışarkən, ilk növbədə təlim prosesində aktuallığını itirmiş materiallar əsasında tərtib edilən dərslik və dərs vəsaitləri, ənənəvi hesab edilən metod və üsullardan istifadə edilməsini qeyd etmək lazımdır.

Orta məktəb şəraitində ingilis dilini öyrənən şagirdlər bu dildə danışıq, yazı, eşidib-anlama və oxu bacarıqlarına tələb edilən səviyyədə yiyələnməli, dilin aspektləri olan qrammatika, leksika və fonetika sahəsində lazımi bilikləri mənimsəməlidir. Müvafiq biliklərə yiyələnmədən, kommunikasiya prosesində istifadə edilməli olan leksik vahidlər, qrammatik və intonasiya strukturları, səs və səs birləşmələrini mənimsəmədən kommunikativ vərdişlərə tələb edilən səviyyədə yiyələnmək qeyri-mümkündür. Lakin, dilin aspektləri təcrid edilmiş şəkildə deyil, kompleks şəkildə mənimsənilməli, dil vərdişləri olan leksik, qrammatik və tələffüz vərdişləri ənənəvi üsullardan istifadə etməklə deyil, kommunikativ-yönümlü şəkildə formalaşdırılmalı və inkişaf etdirilməlidir.

Onu da qeyd etmək lazımdır ki, dilin aspektləri olan qrammatika, leksika və tələffüzün ənənəvi üsullarla şagirdlərə aşılanması heç də arzu edilən nəticələri vermir. Məhz bu səbəbdən dilöyrənənlərin, o cümlədən ingilis dilini öyrənən orta məktəb şagirdlərinin bu dildə ünsiyyət vərdişlərinə yiyələnmələrinin nəzəri və praktik problemlərinin araşdırılması son dərəcədə aktualdır. Məlum olduğu kimi, xarici dillərin, o cümlədən də ingilis dilinin tədrisinə kommunikativ yanaşma uzun illərdir ki, xarici dil tədrisinin müxtəlif pillələrində uğurla həyata keçirilir. Kommunikativ yanaşmanın əsasını təşkil edən kommunikativlik prinsipi şagirdlər tərəfindən mənimsənilməli olan hər bir linqvistik vahid, hər bir nitq modeli kommunikativ baxımdan əhəmiyyət kəsb etməli və məhz bu prizmadan qiymətləndirilməlidir (1).

Bu gün kommunikativlik xarici dillərin, xüsusilə də ingilis dilinin tədrisi prosesində olduqca mühüm rol oynayan, perspektivli və günün tələblərinə cavab verən istiqamətdir. Onu da qeyd etmək lazımdır ki, kommunikativ vərdişləri dedikdə, həm danışıq, həm də oxu və yazı, həm də eşidib-anlama bacarıqları nəzərdə tutulur. Orta məktəb şagirdlərində kommunikativ bacarıqların formalaşdırılması və inkişaf etdirilməsinə gəldikdə, burada innovativ metodların yeri və rolunu xüsusilə vurğulamaq lazımdır. Onu da qeyd etmək vacibdir ki, orta məktəbdə kommunikativ yanaşmanı tətbiq edərkən, təlim prosesinin düzgün şəkildə təşkil edilməsi məsələsi xüsusi əhəmiyyətə malik olan və uğurlu nəticələrin əldə edilməsini təmin edən mühüm şərtlərdən biri olduğu nəzərə alınmalıdır.

Onu da qeyd etmək lazımdır ki, dilin aspektləri olan leksika, qrammatika və fonetikanı lazımi səviyyədə mənimsəmədən tədris edilən xarici dilə adekvat kommunikasiya vasitəsi kimi yiyələnmək qeyri-mümkündür. Şagirdlər də ingilis dilində kommunikativ bacarıqlarını formalaşdırmaq və inkişaf etdirmək üçün ilk növbədə dilin sisteminin mənimsənilməsi vacibdir. Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, çox vaxt qrammatik qaydaların əzbərlənməsi, leksik vahidlərin, səs və səs birləşmələrinin öyrənilməsi heç də arzu edilən nəticələri vermir. Bu cür halları aradan qaldırmaq və onların qarşısını almaq üçün ingilis dilinin təlimi prosesi kommunikativyönümlü şəkildə təşkil edilməli və həyata keçirilməlidir. Orta məktəbdə ingilis dilinin kommunikativyönümlü təlimini düzgün şəkildə

aparmaq üçün ilk növbədə dilin kommunikativyönümlü təlimi prosesinin uğurlu şəkildə həyata keçirilməsini təmin edən amilləri müəyyənləşdirib, şagirdlərin ehtiyac, maraq və tələbatları üzərində təşkil edilən, günün tələblərinə cavab verən səmərəli təlim sistemi və çalışmalar sistemi işlənib hazırlanmalıdır. Orta məktəbdə ingilis dilinin kommunikativyönümlü təliminin müvəffəqiyyətlə həyata keçirilməsi üçün əhəmiyyətli olan prinsip və tələbələr müəyyənləşdirilməlidir.

Tədris edilən xarici dildə kommunikativ bacarıqların formalaşdırılması və inkişaf etdirilməsi problemi xarici dillərin tədrisi metodikasının olduqca aktual və hələ də həllini tapmamış məsələlərdən biridir. Qeyd etmək lazımdır ki, kommunikativ təlimin əsas vəzifəsi müvafiq, kommunikativ yönümlü çalışmalardan istifadə edərək şagirdlərdə kommunikativ bacarıqların formalaşdırmaqdır. Şagirdləri tədris edilən xarici dildə müxtəlif situasiyalarda baş verən kommunikasiya prosesində iştirak edərək kommunikativ niyyətlərinə nail olmağa hazırlayan kommunikativ təlim xarici dilin öyrənilməsinə motivasiya yaradır. Şagirdlərin maraqları və tələbatlarını nəzərə almaqla seçilmiş təlim materialları onların diqqətini cəlb edir, dilöyrənənlərin şərti-real və real kommunikasiya prosesinə təşəbbüskar, fəal iştirakçı qismində iştirakını təmin edir.

Onu da vurğulamaq lazımdır ki, kommunikasiya prosesinin səmərəli şəkildə təşkil edilməsi və həyata keşirilməsini şərtləndirən əsas amillərdən biri dilöyrənənlərdə özünə əminlik və özünə inamın yüksəksəviyyədə olmasıdır. Müvafiq linqvistik biliklərə malik olan, qrammatIk bacarıqlar və lüğət ehtiyatı tələb edilən səviyyədə olan, lakin özünə əminlik və özünə inamı lazımi səviyyədə olmayan şagirdlər tədris edilən xarici dildə ünsiyyətə girməkdən çəkinir, çox vaxt kommunikativ xarakterli çalışma və tapşırıqların yerinə yetirməkdən imtina edir. İngilis dilini öyrənən şagirdlərin yaradıcı fəaliyyətini stimullaşdıran, onlarda motivasiyanı formalaşdıran kommunikativyönümlü tapşırıqların yerinə yetirilməsi dilöyrənənlərdə özünə əminlik və özünə inamı yüksəldilməsini təmin edən şərtlərdəndir.

İngilis dilini öyrənən orta məktəb şagirdlərinə kommunikativ bacarıqlarının aşılanması məqsədilə sinifdə müvafiq şərait yaradılmalı, tələbələrə təqdim edilən leksik vahidlər, qrammatik və intonasiya strukturları, mənimsənilməli olan nitq modelləri kommunikativ baxımdan əhəmiyyətli olmalı, şagirdlərdə kommunikativ niyyətlərinə nail olmaq üçün linqvistik və nitq imkanlarının yaradılmasına xidmət etməlidir. İngilis dilinin kommunikativ yönümlü təlimi prosesində şagirdlər bir çox problem və çətinliklərlə rastlaşır. Bir çox hallarda şagirdlər onlarda olan leksik və qrammatik potensialdan, özlərinin nitq imkanlarından kommunikativ niyyətlərinə nail olmaq üçün istifadə edə bilmirlər. Onu da qeyd etmək lazımdır ki, ingilis dilinin kommunikasiya vasitəsi kimi öyrənildiyi şəraitdə nitqin linqvistik cəhətdən düzgünlüyü dilin mənimsənilməsinin əsas göstəricisi hesab edilmir. Bu mövqeyə əsaslanaraq, xarici dildə kommunikasiya qurmaq bacarığı yalnız qismən qrammatik qaydaların mənimsənilməsi səviyyəsindən asılıdır (2).

Mənimsənilmiş qaydaların praqmatik kompetensiyaya komponentlərdən biri qismində daxil etmək qabiliyyətidir.

Qeyd edilməlidir ki, orta məktəbdə xarici dil tədrisinin əsas məqsədi dil və nitq bacarıqlarına yiyələnmək və linqvistik biliklərin mənimsənilməsi deyil, dilöyrənənlərdə tədris edilən xarici dildə kommunikativ bacarıqların formalaşdırılmasıdır. Şagirdlərdə kommunikasiya prosesində iştirakçı olan tərəflərin mənimsənilmiş linqvistik biliklərdən istifadə etməklə və onlarda səhv etmək qorxusu olmadan tədris edilən xarici dildə əminliklə kommunikasiya qurmaq qabiliyyətinin formalaşdırılmasına üstünlük verilir. Problemi araşdıran tədqiqatçılar qeyd edirlər ki, dilöyrənənlər mənimsənilmiş dil və nitq vahidlərindən informasiya, fikir və ideya mübadiləsi üçün istifadə edə bilmədiyi halda linqvistik biliklərin mənimsənilməsi tamamilə mənasız və nəticəsi olmayan bir prosesə çevrilmiş olur (3).

Qeyd etmək lazımdır ki, son zamanlar kommunikativ təlimlə bağlı olan problemləri müzakirə edərkən ilk növbədə dilöyrənənlərdə şifahi nitq vərdişlərinin inkişaf etdirilməsini nəzərdə tuturlar. Beləliklə də, tədrisin pilləsindən asılı olmayaraq şagirdlərdə şifahi nitq vərdişlərinin inkişaf etdirilməsinə yönəldilmiş fəaliyyət tədris edilən xarici dildən effektiv və kommunikativ məqsədlərə uyğun olan şəkildə istifadə etmək qabiliyyətinin formalaşdırılması istiqamətində qurulmalıdır.

Hər hansı xarici dili öyrənən tələbələr qarşısında müəyyən vəzifələr irəli sürülür. Qoyulan məqsədlər real olmalı, şagirdlərin bilik səviyyəsini, vərdiş və bacarıqlarının qiymətləndirmə kriteriyaları müəyyənləşdirilməlidir. İngilis dilinin öyrənilməsi prosesində şagirdlər əvvəllər istifadə olunmamış linqvistik vahidlərdən, və yaxud artıq mənimsənilmiş qrammatik strukturlardan, söz və söz birləşmələrindən yeni situasiyalarda istifadə etməli olurlar. Bu zaman müxtəlif çətinliklərin meydana çıxması, müxtəlif xarakterli səhvlərin törədilməsi təbii bir hal kimi qəbul edilməlidir. Bununla əlaqədar olaraq hansı dil və nitq səhvlərinin dərhal aradan qaldırılmasının zəruri olduğu müəyyən edilməlidir. Onu da qeyd etmək lazımdır ki, müasir dünyada hər hansı fənnin tədrisi prosesində müxtəlif xarakterli səhvlərin buraxılması tam təbii bir hal kimi qəbul edilir. Həm dili tədris edən müəllimlərin, həm də şagirdlərin səhvlərə qarşı olan münasibətlərinin konstruktiv xarakterli olması olduqca vacibdir.

Deyilənləri yekunlaşdıraraq, qeyd edilməlidir ki, orta məktəb şagirdlərində kommunikativ bacarıqların formalaşdırılması və inkişaf etdirilməsi barədə danışarkən, nəzərə almaq lazımdır ki, xarici dildə kommunikasiya prosesində adekvat şəkildə iştirak etmək qabiliyyəti yalnız müəyyən linqvistik meterialların mənimsənilməsi demək deyil. Şagirdlərdə hər hansı situasiyada baş verən kommunikasiyada spontan şəkildə iştirak etmək qabiliyyətinin formalaşdırılması orta məktəbdə xarici dil tədrisinin əsas məqsədlərindən biri olmalıdır.

Bu məqsədə nail olmaq üçün şagirdlər tədrisin ilkin mərhələsindən başlayaraq müxtəlif kommunikativ fəaliyyət növlərinin yerinə yetirilməsinə cəlb olunmalıdır. Bu istiqamətdə təşkil edilən iş məqsədyönlü, sistemli, mərhələli şəkildə həyata keçirilməlidir.

## ƏDƏBİYYAT

1. Brumfit, C.J.(1984a) Communicative Methodology in Language Teaching. The roles of fluency & Accuracy, Cambridge.Cambridge University Press. p.78
2. Hymes, D.1972. On communicative Competence. In J.B. Pride & J.Holmes (eds.), Sociolinguistics, p. 269-293. Hacmondsworth, Penguin
3. Гусейнзаде Г.Д. Обучение речевой коммуникации на иностранном языке. Баку, Мутарджим, 2001, с.17-21.

## РЕЗЮМЕ

Первый контакт с новым языком связан с многочисленными трудностями. Изучение иностранного языка предполагает изучение системы языка и норм его функционирования. Изучение его означает усвоение того, где, что и кому следует говорить. Основная цель обучения иностранному языку и его изучения несомненно заключается в формировании у обучаемых умения общаться на изучаемом языке.

## SUMMARY

The first contact with a new language is fraught with many difficulties. Learning a foreign language implies learning the system of the language & the norms of its functioning. Learning a language means learning when to use what to whom. The main aim of teaching & learning a foreign language must clearly be enabling language learners to communicate in the target language.

Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası | 2016-№1 | Серия общественно-политических наук

**SƏFİYEVA S.E.**
*Azərbaycan Dillər Universiteti*

# STRATEJİ KOMPETENSİYANIN İNKİŞAF ETDİRİLMƏSİNİN BƏZİ PROBLEMLƏRİ

***Açar sözlər:*** *kommunikativ kompetensiya, strateji kompetensiya, kommunikasiya strategiyaları*
***Key words:*** *communicative competence, strategic competence, communicative strategies*
***Ключевые слова:*** *коммуникативная компетенция, стратегическая компетенция, коммуникативные стратегии*

Müasir dünyada xarici dillərin tədrisinə prioritet yanaşma kimi qəbul edilmiş kommunikativ yanaşmanın əsasında duran prinsiplər dil fakültələrində xarici dillərin, xüsusilə də ingilis dilinin öyrədilməsi və öyrənilməsində əsas məqsəd kimi tələbələrə kommunikativ kompetensiyanın aşılanmasını nəzərdə tutur. Kommunikativ kompetensiyanın formalaşdırılması və inkişaf etdirilməsində ixtisas dilinin linqvistik aspektlərinin öyrədilməsi əsas məqsəd kimi deyil, dilin mənimsənilməsində bir vasitə kimi qoyulur. İxtisas dili olan xarici dildə strateji kompetensiyanın inkişaf etdirilməsinin linqvistik problemlərindən danışarkən, tələbələrə nöqsanlı tələffüzə, lüğətə və ya qrammatikaya görə çaşğınlıqdan boyun qaçırmağa, kommunikasiya partnyorlarını sosial cəhətdən uyğun olmayan, üslubi baxımdan adekvat olmayan nitqlərinə görə təhqir etməkdən boyun qaçırmağa və kommunikasiyanın pozulmasının qarşısını almaq üçün müvafiq strategiyalardan istifadə etmək bacarıqları aşılanmalıdır.

Problemi araşdıran tədqiqatçıların bəziləri belə hesab edirlər ki, kommunikativ kompetensiyanın əsas komponentlərindən biri olan strateji kompeten-

siyanın formalaşdırılması və inkişaf etdirilməsinə dair həm dil fakültələrində istifadə edilən dərslik və dərs vəsaitlərində, həm də xarici dili ixtisas kimi tədris edən müəllimlər tərəfindən lazımi diqqət yetirilmir. Onu da xüsusilə vurğulamaq lazımdır ki, hətta ana dilinin tədrisində də olduqca əhəmiyyətli olan bu kompetensiyanın inkişaf etdirilməsi məsələsinə çox vaxt etinasız yanaşılır. Strateji kompetensiya tələbələrin həm ana dili, həm də öyrənilən xarici dilin tədrisində diqqət mərkəzində olan problemlərdən birinə çevrilməlidir. Hər iki dildə kommunikasiya pozulmaları baş verə bilər, onları törədən linqvistik və kommunikativ xarakterli çətinliklər meydana çıxa bilər. Həm ana dili, həm də xarici dildə bu cür çətinliklərin öhdəsindən gəlməklə, kommunikasiya prosesinin pozulması hallarının qarşısını almaq mümkündür. Şübhəsizdir ki, ana dilində strateji kompetensiyaya yiyələnmiş tələbə ixtisas kimi öyrənilən xarici dildə böyük çətinliklərlə rastlaşacaq. Xarici dildə, xüsusilə də ixtisas dili kimi öyrənilən xarici dildə strateji kompetensiyaya yiyələnmək dili professional məqsədlərlə öyrənən tələbələr üçün həlledici əhəmiyyətə malikdir. Lakin, təəssüflə qeyd edilməlidir ki, kommunikativ kompetensiyanın aşılanması həm ali, həm də orta təhsil müəssisələrində xarici dillərin tədrisi zamanı etinasız yanaşılan, həm proqram tərtibçiləri, həm dərslik və dərs vəsaitlərinin müəllifləri, həm də xarici dilləri tədris edən müəllimlərin diqqətindən kənar qalan məsələlərdən biridir. Xüsusilə də, deyilənlər strateji kompetensiyaya aid edilə bilər.

Məsələyə müəyyən aydınlıq gətirmək üçün «kommunikasiya strategiyası» termininin tədqiqi tarixinə nəzər salmağı məqsədəuyğun hesab edirik. Problemi tədqiq edən L.Dörnye və Skottun "İkinci dildə kommunikasiya strategiyaları" (2) adlı məqaləsində "kommunikasiya strategiyaları" termininin yaranması və inkişafı tarixi izlənilmişdir. Məqalədə göstərilmişdir ki, ilk dəfə bu termin L.Selinker tərəfindən işlənmiş, lakin kommunikativ strategiyaların təbiəti haqqında geniş məlumat verilməmişdir (4). Kommunikativ yanaşmanın banilərindən biri olan S.Saviqnon "coping strategies" terminini işlədir və bu strategiyaların kommunikativ təlim və əldə edilmiş bilik, vərdiş və bacarıqların yoxlanılmasında əhəmiyyətini xüsusilə vurğulayır. Lakin E.Taron və G.Yule (5) kommunikasiya strategiyalarına tarif verməyə nail olmuş və beləliklə, bu sahədə ən nüfuzlu alimlər kimi qəbul edilmişlər. Dörnye və Skottun əsərində qeyd olunduğu kimi, kommunikasiya strategiyalar 1980-ci illərdə tədqiqat obyekti kimi çıxış etməyə başladı. Kommunikativ təlim və kommunikativ yanaşmaya dair sanballı elmi əsərləri ilə məşhurlaşmış M.Kanal və M.Sveyn kommunikasiya modelinə daxil etmiş və onların məhz kommunikativ kompetensiya kontekstində formalaşdırılması və inkişaf etdirilməsini məqsədəuyğun hesab etmişlər (1).

Onu da demək lazımdır ki, 1980-ci illərdə bu istiqamətdə aparılan araşdırmalara marağın əhəmiyyətli dərəcədə artması müşahidə olunurdu. Belə ki, L.Dörnye və Skott da nəşr edilmiş elmi-tədqiqat əsərlərində ayrıca bir bölməni kommunikasiya strategiyalarının komseptuallaşdırılmasına dair mövcud olan

müxtəlif yanaşmalara həsr etdilər. Onlar əsərlərində kommunikativ strategiyalara dair mövcud mövqe və baxışları təhlil edir, kommunikasiya strategiyalarına verilən təriflərə münasibətlərini bildirirlər. Tədqiqatçı alimlər kommunikasiya strategiyalarını dildən istifadə edən insanların linqvistik və kommunikativ imkanlarının tələb edilən səviyyədə olmadığı səbəbindən kommunikasiya prosesində yaranan boşluqları doldurmaq üçün verbal və qeyri-verbal təcili yardım qurğuları kimi qiymətləndirirlər. Problemi araşdıran müəlliflər kommunikasiya strategiyalarını kommunikasiya prosesində partnyor qismində çıxış edən şəxslərin kommunikativ məqsəddə razılaşmaq, müəyyən dərəcədə konsensus əldə etmək üçün cəhd edərkən mənanın müştərək razılaşdırılmasında istifadə edilən vasitələr kimi qəbul edirlər. L.Dörnye belə hesab edir ki, xarici dildə danışan insanların kommunikasiya prosesində rast gəldikləri problem və çətinliklərin ilkin mənbəyi onlarda öyrənilən dildən kommunikasiya məqsədləri ilə istifadə etmək imkan və təcrübəsinin lazımi səviyyədə olmamasıdır. Kommunikasiya prosesində problem və çətinliklərin meydana çıxmasının səbəblərindən biri kommunikasiya iştirakçılarında fikirləşmək üçün kifayət qədər vaxtın olmamasıdır. Mövcud problemlərin həllinə kömək edən gecikdirmə strategiyaları kommunikasiya iştirakçılarına fikirləşmək və kommunikasiya kanalını açıq saxlamaq üçün vaxt qazanmağa imkan verir (2).

M.Kanal və M.Sveyn qeyd edirlər ki, strateji kompetensiya istifadə edilmə tərzinin müxtəlifliyi və kommunikativ kompetensiyanın lazımi səviyyədə olmaması ilə bilavasitə bağlı olan kommunikasiya pozulmalarını kompensasiya etmək üçün, yəni əmələ gələn boşluqları aradan qaldırmaq üçün, istifadə edilməli olan linqvistik strukturları məna baxımından ekvivalent olan başqa strukturlarla və qeyri-verbal vasitələrlə əvəz etmək üçün verbal və qeyri-verbal kommunikasiya strategiyaları kimi qiymətləndirilir. Tədqiqatçıların fikrincə, kommunikasiya strategiyalarının əsas xüsusiyyəti kommunikasiya prosesində problemlər və çətinliklər meydana çıxan zaman kommunikasiya iştirakçılarında partnyorlarına kommunikativ niyyətlərinin nədən ibarət olduğunu müvəffəqiyyətlə ötürmək qabiliyyətidir (5).

Strateji kompetensiyanı dil fakültələrində təhsil alan tələbələrə aşılamaqla, professional məqsədlərlə ingilis dilini öyrənən tələbələrdə müxtəlif situasiyalarda, müxtəlif kommunikativ kontekstlərdə öyrənilən dildən adekvat şəkildə istifadə etmək, kommunikativ niyyətlərinə nail olmaq qabiliyyətini aşılamaq mümkündür. Tələbələrə aşılanmalı olan strategiyalardan danışarkən, ilk növbədə ləngitmə və tərəddüd strategiyalarını qeyd etmək lazımdır. Tələbələr özlərini problemin və çətinlik yaranan zaman, onlarda müəyyən dərəcədə ümidsizlik hissi və tərəddüdlər əmələ gələndə, sözü gedən strategiyalardan istifadə etməklə, söhbəti davam etdirmək imkanını əldə edirlər. Bu strategiyalar həmçinin dinləyən şəxsə kommunikasiyanın hansı istiqamətdə inkişaf etdirilməsini ehtimal etməyə imkan verir.

Kommunikasiya prosesində yaranan boşluqları doldurmaq məqsədilə istifadə edilən şablon ifadələrə münasibətdə nitqin səlisliyinə töhfəsini verən adi, hamı tərəfindən qəbul edilmiş normalara uyğun şəkildə deyilə bilər. İfadəni tam şəkildə deməyə ehtiyac olmadığı halda «I see what you mean» ifadəsindən istifadə edilə bilər. Əslində, real kommunikasiya prosesində bu tipli ifadələrdən tez-tez istifadə edilir. Bu da nitqin təbii xarakterini təmin edir və şərti-real deyil, həqiqətən real həyatda baş verən kommunikasiya prosesinə xas olan verbal və qeyri-verbal vasitələrdən istifadə etməklə real kommunikativ kontekstin yaradılmasına xidmət edir. Başqa bir strategiya deyilənləri təkrar etmək, kommunikasiyada partnyor qismində çıxış edən şəxsin sualını təkrar etmək, əsas fikir və ideyalara diqqəti cəlb etmək üçün onları yenidən səsləndirməklə kommunikasiya iştirakçısı ona lazım olan vaxtı əldə etmiş olur.

Əvəzetmə strategiyasından danışarkən onun növlərini göstərmək düzgün olardı. Belə ki, əvəzetmə strategiyaların aşağıdakı növləri kommunikasiyanın pozulmasının qarşısını almağa imkan verir:

- əvəzliklərin istifadə edilməsi (this, if, they, something);
- ümumiləşdirici söz (əşya, şəxs);
- sinonimlərdən istifadə etmək (get - receive, discussion - debate, etc);
- ümumiləşdirici fiziki keyfiyyətlər (rəng, ölçü);
- xüsusi keyfiyyətlər (it has four legs);
- funksional xarakteristikaları göstərmək (you can dress a wound with it).

Kommunikasiya prosesində yaranan pauzaları doldurmaq üçün istifadə edilən qeyri-verbal vasitələrdən danışarkən, jestləri və mimikanı xüsusilə vurğulamaq lazımdır. Həmçinin həmsöhbətlərini yardım üçün müraciət etməklə, arzuedilməyən pauzaların qarşısını almaq mümkündür. Belə ki, “What do you call it again?” əslində sual deyil, müraciət kimi qəbul edilməlidir. Onu da xüsusilə qeyd etmək lazımdır ki, kommunikasiya prosesində baş verə bilən pozulmaların qarşısını almaq üçün istifadə edilə bilən ən önəmli vasitələrdən biri də intonasiyadir. İngilis dilində intonasiyanın rolunu nəzərə alaraq intonasiyanın verdiyi imkanlardan adekvat şəkildə istifadə etmək qabiliyyətinin dil fakültələri tələbələrində inkişaf etdirilməsi strateji əhəmiyyət kəsb edən problemlərin birinə çevrilir.

Onu da nəzərə almaq lazımdır ki, bəzən bu strategiyalardan kompleks şəkildə istifadə edilə bilər. Məsələn, ana dili Azərbaycan dili olan tələbə “knife” sözü üçün “a ... er ... do you know?” - “bıçag ... bıçag ... for cutting something” əlləri ilə kəsmə hərəkətlərini göstərərək soruşa bilər. Kommunikativ strategiyalarından danışarkən öz sözləri ilə ifadə etmə (rephrasing - “Let me put it in a different way”, sözlərin götürülməsi, təkrar, mimika, jestlər və digər strategiyaları qeyd etmək lazımdır. Kompensasiya etmək məqsədilə istifadə edilən strategiyalar (compensatory strategics) kommunikasiya prosesində mənanın aydınlaş-

dırılması və anlama səviyyəsinin yoxlanılması üçün müvafiq sözlərdən, özlərinin linqvistik imkanlarından istifadə etməli, kommunikatın niyyətlərinə nail olmaq üçün müvafiq intonasiya-strukturlarından, mimika və jestlərdən istifadə etməlidir. Məsələn, dildən istifadə edən və linqvistik və kommunikativ imkanları məhdud olan insanlar "Do you mean ..? Are you following me ..? Yeah?" tipli ifadələrdən istifadə etməklə öyrənilən dildə baş verən kommunikasiya prosesində meydana çıxa biləcək problem və çətinliklərin qarşısını almağa nail ola bilirlər.

Kommunikasiya strategiyalarının aşılanması problemini araşdıran müəlliflərin fikrincə, "kommunikasiya strategiyaları" termini iki həmsöhbətin müxtəlif kommunikativ situasiyalarda konsensus, yəni razılıq əldə etmək üçün qarşılıqlı cəhdləri ilə bilavasitə əlaqəlidir. Onu da vurğulamaq lazımdır ki, məna kəsb edən strukturlar dedikdə, həm linqvistik, həm də sosiolinqvistik strukturlar nəzərdə tutulur.

Problemin araşdırılmasına həsr edilmiş çoxsaylı elmi əsərlərin müəlliflərindən olan H.Taron kommunikativ strategiyalarının təsnifatını işləyib hazırlamışdır. Bu təsnifata görə kommunikativ strategiyalar aşağıdakı şəkildə təqdim edilə bilər:

- *Öz sözləri ilə danışmaq*. Kommunikasiya iştirakçısının istifadə etmək istədiyi sözün semantik çalarlarını bölüşən, dilin lüğət tərkibində olan söz və söz birləşmələrinin istifadə edilməsi. Eyni zamanda kommunikasiya iştirakçısı deyilənlərin olmadığını bilir. Misal olaraq "Windpipe" (the passage located at the back of the mouth by which air reaches the chest) sözünün əvəzində "pipe" (a metal tude used to carry liquids and gases from one place to anothen a tube, with a small bowl at one end, in which tobacco is smoked) sözünün istifadə edilməsini göstərmək olar. İngilis dilinin izahlı lüğətindən götürülmüş şərhlərdən göründüyü kimi sözlərin səslənməsində oxşarlığa baxmayaraq, onların semantik mənaları fərqlidir. Belə ki, kommunikasiya prosesində "A piece of food lodged in his windapipe" cümlosindo "windpipe" sözünün yerinə "pipe" sözünün işlədilməsi heç də düzgün deyil. Danışanın linqvistik imkanlarının məhdud olması göz qabağında olan bu halda onun həmsöhbəti nə demək istədiyini başa düşməkdə çətinlik çəkmir. Adətən bu cür situasiyalarda məna kommunikativ kontekst vasitəsilə çatdırılır.

- *Təsvir etmə.* Əşya və hər hərəkətin əlamətlərinə və ya xarakterinin təsvir edilməsi (She is, uh, smoking, something. I don't know what the name is. That, uh, Persian, and we ust in Turkey a lot of). Buradakı "cigarette" sözünü unudan kommunikasiya iştirakçısı həddindən artıq çox vaxt onun izah edilməsinə sərf edir.

- *Söz icad etmək.* Kommunikativ niyyətlərinə nail olmaq üçün söz icad edilir. Danışan məqsədinə nail ola bilsə də, bu cür sözlər yalnız bu kontekstdə, yalnız bu situasiyada istifadə edilə bilər.

- *Alınma sözlərdən islifadə.* Əksər hallarda burada tərcümə edilən dildən sözlərin olduğu kimi saxlanılması. Burada tərcüməsi çətinlik törədən sözlərin «kalka» üsulu ilə tərcümə edilən dilə köçürülməsi hallarına aid etmək olar. Çox vaxt bu cür hallara bəraət qazandırmaq mümkündür, çünki bəzən sözlərin ana dilində ekvivalentlərinin olmaması, bəzən də məfhumların dilöyrənən tələbələrin mədəniyyətində və onları əhatə edən gerçəklikdə olmaması adekvat tərcüməni qeyri-mümkün edir. Lakin bu cür kommunikativ strategiyalardan sui-istifadə hallarına yol verilməməlidir. Ana dilində xarici dil sözlərinin mənalarını adekvat şəkildə çatdırılması mümkün olduğu halda, xarici dil sözlərinin ana dilinə gətirilməsi və ana dilində mövcud olan sözlərin xarici sözlərlə əvəz edilməsi yolverilməzdir.

- *Hərfi tərcümə.* Tədris edilən xarici dildən ana dilinə və ana dilindən öyrənilən dilə tərcümə qaydalarını və normalarına lazımi səviyyədə yiyələnməmiş tələbələr çox vaxt həm Struktur, həm də leksik səviyyədə çoxsaylı səhvlərin törədilməsi hallarına yol verməmək üçün ana dilindən sui-istifadə etməklə, kommunikativ niyyətlərinə nail ola bilirlər.

- *Mimika və jestlər, bədən hərəkətləri.* Burada qeyri-verbal vasitələrdən söhbət gedir. Belə ki, verbal səviyyədə fikir və mövqelərini bildirməyə aciz olan tələbələr ingilislər "body language" adlandırdıqları bədən hərəkətləri, mimika və jestlər vasitəsilə kommunikativ məqsədlərinə nail ola bilərlər.

- *Köməyə çağırış.* Dəqiqləşdirmək məqsədilə, danışan şəxs həmsöhbətinə "What's this? Mow do you call it" tipli cümlələrlə müraciət edə bilər.

- *Vaxtında qarşısını almaq.* Belə ki, danışan şəxs özünün linqvistik və kommunikativlik cəhətdən acizliyini bildiyi halda, hər hansı mövzunun müzakirəsində iştirak etməkdən imtina edə bilər. Lakin bu kommunikativ strategiyadan da sui-istifadə edilməməlidir.

Real həyatda baş verən kommunikasiya situasiyalarında kommunikasiya strategiyalarının xarici dil, o cümlədən də xarici dili ixtisas kimi öyrənən tələbə ilə linqvistik savada malik olan dildaşıyıcısının linqvistik bilikləri və linqvistik imkanları arasında boşluğu doldurmaq, əvəzetmə strategiyalardan istifadə etmə cəhdləri müşahidə edilir. Əvəzetmə strategiyalardan istifadə etmək üçün, boşluqları müəyyən dərəcədə doldurmaq üçün mimika, jestlər, bədən hərəkətlərindən və sözlərin əlamətlərinin təqdim edilməsindən istifadə oluna bilər. Kommunikasiya pozulmasının qarşısının alınması mümkün olmadığı halda, təklif edilən mövzunun müzakirəsində iştirak etməkdən imtina edilə bilər. Bu məqsədlə müxtəlif kommunikasiya strategiyalarından istifadə edilə bilər. E.Taron kommunikasiya strategiyalarının xarakteristikasını aşağıdakı şəkildə təqdim etmişdir:

1. Danışan şəxs məlumatı, mənanı dinləyiciyə çatdırmaq istəyir.
2. Danışan güman edir ki, kommunikativ mənanı ötürmək üçün istifadəsi məqsədəuyğun, düzgün və adekvat olan linqvistik və qeyri-verbal vasitələrdən istifadə etmək üçün onun bilik, vərdiş və bacarıqları kifayət qədər deyil.

3. Danışan şəxs kommunikativ niyyətlərinə nail olmaq üçün, fikirlərini həmsöhbətlərinə çatdırmaq üçün:

a) cəhd etməkdən boyun qaçırır;

b) alternativ vasitələrdən istifadə edir. Mənanın dinləyicilərə məlum olması, danışana məlum olanda, demotivasiya baş verir və danışan şəxs alternativ vasitələrdən, kommunikativ strategiyalardan istifadə etməyi dayandırır.

E.Taron xarici dilin mənimsənilməsinə dair ədəbiyyatda kommunikasiya strategiyaları termininə öyrənmə strategiyası, produksiya (yaradıcı) strategiyası və persepsiya (qavrama) strategiyası terminləri ilə qarışıq salındığını vurğulamışdır. Kommunikasiya strategiyaları anlayışının digər terminlərdən fərqləndirmək üçün araşdırmalar aparılmışdır.

Kommunikasiya strategiyalarına ekvivalent olan təsnifatlardan danışarkən, H.Taron, Korder, Falrk tərəfindən təqdim edilmiş təsnifatları qeyd etmək lazımdır.

Ötən əsrin 1960-ci illərindən başlayaraq kommunikativ yanaşma, kommunikativ təlim, kommunikativ kompetensiya anlayışları Britaniya tətbiqi linqvistləri tərəfindən yaradıldı və geniş şəkildə yayılmağa başladı.

## ƏDƏBİYYAT


1. Canale, M. and M.Swain. 1980. Theoretical bases of communicative appriaches to second language teaching and testing. In Applied Linguistics. 1: 1-47
2. Dörnyci and Scott. Communication Strategies in a Second Language, 1997
3. Savignon, S. Communicative language teaching: Definitions and directions. In: J.E. Alatis (ed.), Georgdown University Round Table on Language and Linguistics.Washington, D.C: Georgetown University Press, p. 207-217
4. Selinker, L. (1972). Interlanguage. IKAZ, p. 10, 209-230
5. Tarone, E., Yule, G. Focus on the Language Learner. Oxford: Oxford University Press, 1989


## РЕЗЮМЕ


В статье рассматривается проблема формирования стратегической компетенции у студентов языкового вуза. Одна из проблем, настоятельно требующих своего разрешения в эпоху глобализации, является обучение студентов коммуникативным стратегиям на изучаемом языке.


## SUMMARY


The article deals with the problem of developing language student’s strategic competence. One of the urgent problems to be solved in the era of globalization is teaching communicative strategies in the target language.

Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası 2016-№1 Серия общественно-политических наук

**QURBANOVA V.**
*Bakı Slavyan Universiteti*

# AZƏRBAYCANDA ORTA İXTİSAS PEDAQOJİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İNKİŞAFI (XX ƏSRİN 30-CU İLLƏRİNİN II YARISINDA)

***Açar sözlər:*** *ibtidai təhsil, pedaqoji texnikum, pedaqoji təhsil, ümumi təhsil*
***Ключевые слова****: начального образования, педагогических колледжей, педагогического образования, общего образования*
***Keywords:*** *primary education, teacher training colleges, teacher education, general education*

30-cu illərin ikinci yarısı orta ixtisas pedaqoji təhsilinin inkişafında 1935/1936-cı tədris ilində Laçın pedaqoji texnikumu, 1935-ci ildə Astarxanbazar pedaqoji texnikumu bağlandı. 1937-ci ildə isə Naxçıvan pedaqoji texnikumu Ordubad şəhərinə köçrüldü. Pedaqoji texnikumların birləşdirilməsinin əsas səbəblərindən biri kifayət qədər ibtidai sinif müəllimi hazırlamaqları ilə bağlı idisə, digər tərəfdən ikillik müəllimlər institutlarının yaradılması bu tip məktəblərin birləşdirilməsini tələb edirdi. 5 il müddətində, yəni 1936-1941-ci il arasında pedaqoji texnikumlar respublikamız üçün 11875 nəfər orta pedaqoji təhsilli müəllim kadrları hazırlamışdı. Bunu aşağıdakı cədvəldən görmək mümkündür:

1936-1941-ci tədris ilində pedaqoji texnikumlarda kadr hazırlığı

| № | Pedaqoji texnikumlar | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | 1936 | 1937 | 1938 | 1939 | 1940 | 1941 | Cəmi |
| 1 | Kirovabad | 163 | 263 | 329 | 370 | 222 | 302 | 1649 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | (Gəncə) | | | | | | | |
| 2 | Nuxa (Şəki) | 66 | 64 | 73 | 92 | 163 | 185 | 643 |
| 3 | Ağdam | 72 | 89 | 102 | 160 | 161 | 150 | 734 |
| 4 | Göyçay | 35 | 73 | 120 | 124 | 78 | 151 | 581 |
| 5 | Ağdaş | 54 | 72 | 71 | 67 | 124 | 70 | 458 |
| 6 | Zaqatala | 30 | 73 | 31 | 85 | 82 | 111 | 412 |
| 7 | Şuşa | 86 | 122 | 152 | 283 | 87 | --- | 730 |
| 8 | Qazax | 120 | 161 | 211 | 245 | 285 | 121 | 1133 |
| 9 | Qaryagin (Füzuli) | 83 | 169 | 156 | 125 | 204 | 98 | 835 |
| 10 | Quba | 86 | 110 | 62 | 71 | 74 | 68 | 471 |
| 11 | Lənkəran | 50 | 68 | 100 | 191 | 51 | --- | 460 |
| 12 | BXMŞ | 21 | 70 | 100 | 79 | 85 | 59 | 414 |
| 13 | M.Ə.Sabir adına Bakı | 132 | 174 | 148 | 113 | 109 | 80 | 756 |
| 14 | Hadrud | 53 | 61 | 80 | 137 | 127 | 122 | 580 |
| 15 | Sabirabad | 31 | 32 | 34 | 48 | --- | --- | 145 |
| 16 | Salyan | 62 | 56 | 65 | 125 | 24 | 105 | 437 |
| 17 | Qusar | 38 | 66 | 113 | 119 | 83 | --- | 419 |
| 18 | Şamaxı | 38 | 25 | 64 | 88 | 92 | 89 | 396 |
| 19 | Naxçıvan | 71 | 84 | 80 | 154 | 134 | 89 | 612 |
| 20 | Cəmi: | 1291 | 1832 | 2091 | 2676 | 2185 | 1800 | 11875 |

Cədvəldən də göründüyü kimi pedaqoji texnikumlar qısa bir müddət ərzində orta pedaqoji təhsilli müəllim kadrları hazırlamaq sahəsində böyük işlər görmüşlər. Bu sahədə Kirovabad (Gəncə), Qazax, Ağdam, Qaryagin (Fizuli), Şuşa, M.Ə.Sabir adına Bakı pedaqoji texnikumlarının fəaliyyətləri xüsusilə diqqətəlayiq olmuşdur. Qazax Müəllimlər Seminariyasının tarixini araşdıran professor Fikrət Seyidovun tədqiqatlarına görə, Qazax pedaqoji texnikumu müəllim hazırlığında 2-ci yerdə dururdu. Əgər Bakıdakı pedaqoji texnikumlarda 755 tələbə təhsil alırdısa, Qazax pedaqoji texnikumunda 405 tələbə təhsil alırdı (1, 91). Qazax pedaqoji texnikumunda ildən-ilə təhsil alan tələbələrin sayı artmışdır. Əgər 1918-1935-ci ilə kimi bu məktəbi cəmi 658 nəfər bitirmişdisə, sonrakı illərdə həm tələbələrin, həm də məzunların sayı artmışdı. 1935-1941-ci illərdə Qazax pedaqoji məktəbinə 2640 tələbə qəbul edilmişdir. Həmin illərdə pedaqoji məktəbin 1140 məzunu olmuşdur. Qazax pedaqoji texnikumunun kadr potensialı bölgələrdə yerləşən digər pedaqoji texnikumların pedaqoji kollektivlərindən həm sayına, stabilliyinə, elmi-metodik hazırlığına görə ciddi şəkildə fərqlənmişdir.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən pedaqoji texnikumda 411 tələbə təhsil alırdı (2, 36). Texnikumları proletarlaşdırmaq məqsədilə bəy, xan ailəsindən olan gənclərin qəbuluna məhdudiyyət qoyulmuş, kəndli və fəhlə

balaları üçün əlavə güzəştlər, təqaüdlər tətbiq edilmişdi. Məsələn, 411 tələbədən 300 nəfəri təqaüd alırdı (2, 36). Pedaqoji texnikumun buraxdığı müəllimlər Muxtar Respublikanın pedaqoji kadrlara olan ehtiyacını ödəmirdi. 1931-1932-ci illərdə pedaqoji texnikumu cəmi 99 nəfər bitirmişdi. O dövrdə Muxtar Respublikada cəmi 470 müəllim fəaliyyət göstərirdi ki, onlardan da 76 nəfəri qadın idi (2, 36).

Pedaqoji kadrlara olan ehtiyacı ödəmək məqsədilə naxçıvanlı gənclər Bakıdakı pedaqoji məktəblərə göndərilir və ya onlar üçün kurslar təşkil olunurdu. 1935-ci ildə Muxtar Respublikanın 130 nəfər gənci Bakı, Gəncə, Moskva, Leninqrad, Tiflis şəhərlərinə təhsil almaq üçün göndərilmişdi (3).

1930-1931-ci tədris ilində Naxçıvan Pedaqoji Texnikumunun nəzdində kəndli-gənclər məktəbi açıldı və buraya 30 nəfər gənc qəbul edildi (4, 37). 1937-1938-ci tədris ilində orada artıq 180 nəfər oxuyurdu. Pedaqoji texnikumların proletarlaşdırılmasına xidmət edən fəhlə fakültələri az sonra ləğv edildi. Naxcıvanda fəaliyyət göstərən fəhlə fakültələri pedaqoji texnikumla birləşdirildi. 30-cu illərdə Muxtar Respublikanın müəllim kadrları ilə təminatında pedaqoji texnikum mühüm rol oynadı. 1926-1941-ci ilə qədət texnikumda 1071 nəfər müəllim hazırlanmışdı ki, onlardan da 182 nəfəri qadın idi (2, 37). Həmin illərdə Muxtar Respublikanın Ordubad şəhərində yeni pedaqoji texnikum açıldı (2, 37). İlk tədris ilində texnikuma 57 nəfər tələbə qəbul edilmişdi ki, onlardan da 7 nəfəri qadın idi. Növbəti tədris ilində tələbələrin sayı xeyli artaraq 213 nəfərə çatdı (2, 38). 30-cu illərdə Muxtar Respublikada pedaqoji kadr hazırlığında Naxçıvan və Ordubad pedaqoji texnikumları səmərəli fəaliyyət göstərmişdir.

1940-1941-ci illərdə Naxcıvan Pedaqoji Texnikumunu 94, Ordubad Pedaqoji Texnikumunu 92 nəfər bitirərək pedaqoji fəaliyyətə başladılar. 1941-ci ildə Naxçıvan Pedaqoji Texnikumu Ordubad Pedaqoji Texnikumu ilə birləşdirildi (2, 38). Bu qərarın verilməsini şərtləndirən əsas səbəb Naxçıvanda Müəllimlər İnstitutunun yaradılması olmuşdu (5).

1940-cı ildə Sabirabad və Lənkəran pedaqoji texnikumları bağlandı. Bağlanmış texnikumların tələbələri digər pedaqoji texnikumlara göndərildilər. 1940/1941-ci tədris ilində Şuşa pedaqoji texnikumu bağlandı. Texnikumun Azərbaycan bölməsinin tələbələri təhsillərini Ağdam pedaqoji texnikumunda davam etdirdilər. 1941-ci ildə Qusar pedaqoji texnikumu Quba pedaqoji texnikumu ilə birləşdirildi. Darülmüəllimin (oğlanlar üçün) və Darülmüəllimatın (qızlar üçün) birləşdirilməsi nəticəsində yaradılan Bakı Müttəhid (Birləşmiş) Pedaqoji Məktəbdə 1930-1931-ci tədris ilində rus və erməni şöbələri yaradıldı (6, 10). 1930-cu ildə pedaqoji məktəb Beynəlmiləl Pedaqoji Texnikum adlandırıldı. 1936-cı ildə ona görkəmli Azərbaycan şairi Mirzə Ələkbər Sabirin adı verildi. 1938-1968-ci illərdə məktəb Rus Pedaqoji Məktəbi adlandı ( 6, 10). 1931/1932-ci tədris ilində Naxçıvan və Şuşa pedaqoji məktəblərinin nəzdində erməni şöbələri

yaradıldı. 1938-1939-cu tədris ilindən pedaqoji məktəb ümumtəhsil məktəblərinin ibtidai sinifləri üçün rus dili müəllimi hazırlığına başladı (7, 249).

1930-1940-cı illərdə pedaqoji texnikumları 17 245 nəfər müəllim bitirmişdir. Bu da kifayət qədər böyük rəqəmdir.

XX əsrin 30-cu illərində Azərbaycanda orta pedaqoji ixtisas təhsilli kadrların hazırlığında mükəmməl bir sistem yaranmışdı. 20-ci illərdə kadr hazırlığında özünü göstərən sistemsizlik, pərakəndəlik, məzmunun tez-tez dəyişməsi, zəruri elmi-pedaqoji və metodiki ədəbiyyatın yoxluğu artıq aradan qaldırılmışdı. Pedaqoji texnikumlar öz işlərini ölkədə gedən icbari ibtidai təhsilin həyata keçirilməsinə istiqamətləndirilmişdilər. Ona görə də orta ixtisas pedaqoji təhsil müəssisələrində təhsil alan tələbələrin və məzunların sayı ildən-ilə artırdı. Əgər 1930-1931-ci tədris ilində 13 pedaqoji texnikumda 4 453 tələbə təhsil alırdısa, 1938-1939-cu tədris ilində onların sayı 10 367 nəfər olmuşdu. Əgər 1930-1931-ci tədris ilində həmin texnikumları cəmi 898 nəfər bitirmişdisə, 1938-1939-cu illərdə texnikumları 2 933 nəfər bitirmişdi. Texnikumların sayı isə 7 il ərzində xeyli artmış, 13-dən 19-a yüksəlmişdir. Bir faktı qeyd edək ki, Azərbaycanda 20-ci illərində əvvəllərində fəaliyyət göstərən 3 müəllimlər seminariyasında cəmi 120 nəfər tələbə oxuyurdusa, 1938-1939-cu ildə onların sayı 86 dəfədən artıq artmışdı. Pedaqoji texnikumlarda oxuyan tələbə qızların da sayı ildən-ilə artmışdır. Belə ki, 1930/1931-ci tədris ilində 13 pedaqoji texnikumda 1 173 nəfər, 1931/1932-ci tədris ilində 15 pedaqoji texnikumda 1 232 nəfər, 1932/1933-cü tədris ilində 23 pedaqoji texnikumda 1 249 nəfər, 1933/1934-cü tədris ilində 21 pedaqoji texnikumda 1 046 nəfər, 1934/1935-ci tədris ilində 20 pedaqoji texnikumda 1 245 nəfər tələbə qız təhsil alırdı (7, 224).

Bir faktı qeyd etmək yerinə düşər ki, 30-cu illərdə dövlət orta ixtisas pedaqoji təhsilli kadr hazırlığına digər sahələrə nisbətən daha çox diqqət yetirirdi. Baxmayaraq ki, ölkədə kənd təsərrüfatı və sənaye yenidən qurulurdu. Faktlara diqqət yetirək:1932/1933-cü tədris ilində 85 texnikum fəaliyyət göstərirdi ki, orada təhsil alan şagirdlərin 30,6 %-i pedaqoji, 18,3% -i kənd təsərrüfatı, 23,5 %-i sənaye-texniki, 27,6%-i isə tikinti, yol və rabitə, tibb, musqi texnikumlarında təhsil alırdı (8, 41). O dövrdə müəllim kadrlarına olan ciddi ehtiyaca baxmayaraq, pedaqoji texnikumlarda tədris prosesi hüquqi-normativ sənədlərə əsasən tənzimlənirdi. Tələbələrin seçiminə, tədris prosesinin təşkilinə, təlim-tərbiyə işlərinin cəmiyyətin tələblərinə uyğun qurulmasına ciddi fikir verilirdi. Tədris prosesindəki uğursuzluq tələbələrin texnikumlardan xaric olunması ilə nəticələnirdi. 30-cu illərin ikinci yarısında bu məsələyə daha ciddi yanaşılırdı. Faktlara diqqət yetirək: 1935-ci ildə pedaqoji texnikumlarda 5 964 nəfər tələbə təhsil alırdı. Onlardan 501 nəfəri texnikumu vaxtında bitirə bilməmişdir. 1936-cı ildə 439 nəfər, 1937-ci ildə 450 nəfər, 1938-ci ildə 466 nəfər, 1939-cu ildə 614 nəfər, 1940-cı ildə 385 nəfər texnikumu vaxtında bitirə bilməmiş və ya tələbələr sırasından xaric olunmuşdu (7, 224).

Pedaqoji texnikumları bitirən müəllimlər öz işlərini ibtidai siniflərdə dərs deməklə bitmiş hesab etmirdilər, onlar cəmiyyətdə gedən ictimai-siyasi proseslərdə yaxından iştirak edir, yaşlı əhalinin təhsilə cəlb olunmasında, sovet dövlətinin təhsil siyasətinin yerlərdə həyata keçirilməsində nəinki fəallıq, hətta fədakarlıq göstərirdilər. Elə bunun nəticəsidir ki, 1939-cu ildə SSRİ-də icbari təhsilin həyata keçirilməsində fədakarlıq göstərən müəllimlərin əməyi qiymətləndirilərkən, Azərbaycan müəllimlərinin də bu sahədəki fəaliyyəti təqdir olunmuş, 82 nəfər müəllim SSRİ-nin order və medalları ilə təltif edilmişdir. Təqdirəlayiq haldır ki, həmin müəllimlərdən 39 nəfəri maarif sahəsində səmərəli fəaliyyətlərinə görə o dövr üçün çox yüksək orden olan Lenin ordeni ilə təltif edilmişdi. Orta ixtisas pedaqoji təhsilli kadr hazırlığını həyata keçirən texnikum müəllimləri də unudulmamışdı. Zaqatala pedaqoji texnikumunun rus dili müəllimi Həmzət Əfəndiyev Lenin ordeni ilə, Qazax pedaqoji texnikumunun müəllimi Məcid Tağızadə «Qırmızı Əmək Bayrağı» ordeni ilə təltif edilmişdi. Həmzət Əfəndiyev Qori Müəllimlər Seminariyasının məzunu olmuş, həyatının 38 ilini müəllimliyə həsr etmişdir.1938-1958-ci illərdə Zaqatala pedaqoji texnikumunda rus dili müəllimi işləmişdir. Məcid Tağızadə 1940-1942-ci illərdə Qazax pedaqoji məktəbinin direktoru, 1945-1951-ci illərdə Qazax rayon xalq maarif şöbəsinin müdiri olmuşdur. Həmin illərdə pedaqoji məktəblərdə işləyən müəllimlərin tərkibi xeyli yaxşılaşır.

SSRİ-də millətlərarası ünsiyyət dili rus dili olduğundan bütün idarə və təşkilatlarda sənədləşmə işləri də rus dilində aparılırdı. Rus dilini öyrənmədən SSRİ ali və orta ixtisas pedaqoji məktəbləri ilə əlaqə saxlamaq mümkün deyildi. Həmin illərdə ruspublikada ali və orta ixtisas təhsilli rus dili müəllimlərinə ehtiyac hiss olunurdu. 1935-ci ilin yanvarında VIII Ümumazərbaycan Sovetlər Qurultayı pedaqoji texnikum və pedaqoji institutlar vasitəsilə rus dili müəllimlərinin hazırlanmasına və məktəblərdə rus dili tədrisi vəziyyətinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirməyə qərara aldı (9,22). Qurultayın qərarına əsasən 1936-cı ildə APİ-nin filologiya fakültəsinin nəzdində rus dili və ədəbiyyat şöbəsi açıldı. Əvvəldən də məlum idi ki, yeni yaranan şöbə qısa bir vaxtda ehtiyacı ödəyə bilməyəcək. 1936-1940-cı illərdə respublikanın ümumtəhsil məktəblərində 1 627 rus dili müəlliminə ehtiyac var idi (4, 277). 13 mart 1938-ci ildə ÜİK(b)P MK və SSRİ Xalq Komissarları Soveti "Milli respublikaların və mahalların məkktəblərində rus dilinin məcburi öyrədilməsi" haqqında qərar qəbul etdi. Elə həmin il 23 mart 1938-ci ildə Azərbaycan K(b)P MK və Azərbaycan Xalq Komissarları Soveti respublikanın bütün ümumtəhsil məktəblərində rus dilinin öyrədilməsini vacib hesab etdi. Ona görə də pedaqoji texnikumların qarşısına sosial-siyasi əhəmiyyət kəsb edən fəzifə qoyuldu. Rus dili müəllimlərinə olan ehtiyacı ödəmək məqsədilə 532 nəfər rus dili müəlliminin pedaqoji texnikumlarda hazırlanması, 185-nin isə RSFSR-dən və digər respublikalardan dəvət olunması qərara alındı. 30-cu illərin axırlarında milli məktəblərdə də rus dilinin öyrənilməsinə diqqət artdı.

1938-ci ildə ÜİK(b)P MK və Xalq Komissarları Sovetinin birgə qərarı ilə milli məktəblərdə rus dilinin tədrisi məcburi elan olundu. Müəllim kadrları hazırlayan texnikumlarda rus dilinin öyrənilməsi səviyyəsinin yüksəldilməsi məqsədilə pedaqoji texnikumların ixtisaslı müəllimlərlə təminatı ön plana çəkildi. 1938-ci ildə respublikanın 2 995 məktəbində cəmi 411 rus dili müəllimi işləyirdi (10, 133). Azərbaycan Xalq Komissarı Sovetinin qərarına görə, qısa bir müddətdə milli məktəblər üçün rus dili müəllimləri hazırlanmalı idi. Ona görə də M.Ə.Sabir adına pedaqoji məktəbdə rus dili müəllimlərinin hazırlığına başlandı. Bu sahədə qarşıya qoyulmuş məqsədi reallaşdırmaq üçün yeni pedaqoji məktəb yaradaıldı. 1938-ci ildə Bakıda mədəni-maarif texnikumu təşkil olundu (11). 1939/1940-cı illərdə pedaqoji kurslarda 416 rus dili müəllimləri hazırlandı (12, 7).1939/1940-cı illərdə respublikanın 2 500 məktəbində rus dili fənni tədris olunurdu (12,7).

1935-ci ildə SSRİ Xalq Maarif Komissarlığının "Ali təhsil müəssisələrinə və texnikumlara qəbul haqqında" qərarı SSRİ-də ali və orta ixtisas məktəblərinin demokratikləşdirilməsinə imkan verdi. Siyasi cəhətdən etibarsız hesab edilən və seçki hüququ olmayan valideynlərin uşaqlarının ali və orta ixtisas təhsili müəssisələrinə qəbulu ilə bağlı məhdudiyyətlər aradan qaldırıdı. Bu da təbii ki, tələbə kollektivinin sosial tərkibinin yenidən formalaşdırılmasına imkan verdi. Az sonra bu tədbir öz bəhrəsini verdi.

Əgər 1936/1937-ci tədris ilində respublika məktəblərində 15 137 nəfər müəllim çalışırdısa, 1937/1938-ci tədris ilində onların sayı 16 392 nəfər, 1938/1939-cu tədris ilində 19 244 nəfər, 1939-1940-cı tədris ilində 21 393 nəfər, 1940/1941-ci tədris ilində 22 016 nəfər olmuşdur (13, 228).

Etiraf etmək lazımdır ki, 20-ci illərdə və 30-cu illərin əvvəllərində müəllim kadrları hazırlığında kəmiyyət keyfiyyəti xeyli üstələmişdi. 1920-ci ilin yayında Bakı, Çuxuryurd, Corat, Qusar, Lənkəran, Hacıkənd, Nuxa (Şəki), Şuşa, Zaqatala şəhərlərində 1 120 nəfər (7, 212), ümumiyyətlə isə 1920-1923-cü illərdə 2 365 nəfər qısamüddətli kurslardan keçmişdi (5, 62). 1921-ci ildə Bakıda 8 müxtəlf kurslarda 393, Göyçayda 42, Tərtərdə 48, Qubada 43, Nuxada (Şəki) 40, Qazaxda 19, Salyanda 66, Qaryagində (Füzuli) 50, Gəncədə 120, Ağdaşda 60, Lənkəranda 86, Yelenadorfda (indiki Göygöl) isə 20 dinləyici vardı (14, 49-50). İnsanlar arasında pedaqoji təhsil almağa böyük həvəs və maraq vardı. 1935-ci ildə pedaqoji texnikumların bəzilərində bədən tərbiyəsi müəllimləri hazırlayan şöbələr təşkil olundu. Respublikada bədən tərbiyəsi müəllimlərinə ciddi ehtiyac var idi. 1931-ci ildə Bakıda tışkil olunan Zaqafqaziya Dövlət Cismani Mədəniyyət İnstitutu ali təhsilli bədən tərbiyəsi müəllimi hazırlamağı qarşısına məqsəd qoysa da bu fəzifənin öhdəsindən gələ bilmirdi. İnstitutda Azərbaycan şöbəsini yalnız 1933-1934-cü tədris ilində yaratmaq mümkün olmuşdu (15, 11). Həmin il institutda 265 nəfər tələbə təhsil alırdı. Ona görədə bütün ağırlıq pedaqoji texnikumların üzərinə düşürdü. 1938-ci ildə Nuxada (Şəkidə) bədən tərbiyəsi texnikumu açıldı (11).

Naxçıvan Muxtar Respublikasında icbari ibtidai təhsilin uğurla həyata keçirilməsində Naxçıvan və Ordubad pedaqoji texnikumlarının, 1939-cu ildə fəaliyyətə başlayan Müəllimlər İnstitutunun böyük rolu oldu. İnstituta 180 nəfər tələbənin qəbulu nəzərdə tutulsa da, 129 nəfər tələbə yığmaq mümkün oldu ki, onlardan da 31 nəfəri qız idi.1940-1941-ci tədris ilində Müəllimlər İnstitutunda 4 fakültədə (dil-ədəbiyyat, fizika-riyaziyyat, təbiət-coğrafiya və tarix) 230 nəfər tələbə oxuyurdu. 1941-ci ildə institutun 65 nəfər ilk buraxılışı oldu (16, 32). Məzunların sayının azalmasının əsas səbəbi I kursa qəbul edilənlərin bir hissəsinin orduya səfərbər edilməsi idi.

Ümumiyyətlə isə, 1940-cı ildə respublikanın məktəblərində 19 897 müəllim çalışırdı ki, onların da 11 253 nəfəri orta pedaqoji təhsilli idi. 1940-1941-ci tədris ilində ölkədəki məktəblərin 1 668-i ibtidai, 1 240-ı natamam orta, 654-ü isə orta məktəb idi. 1938-1940-cı illərdə Xalq Maarif Komissarlığı xətti ilə 29 530 nəfəri əhatə edən 103 məktəb binası tikilib istifadəyə verilmişdi (17, 15). XX əsrin 30-40-cı illərində orta ixtisas pedaqoji təhsil müəssisələrinin ölkədə yeni tip ziyalılar nəslinin formalaşmasında mühüm rolu oldu.

**ƏDƏBİYYAT**

1.Seyidov F. Maarifimizin təkrar xəzinəsi, Bakı, 2001, 272.s.

2.Cəfərov H. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları.Bakı, “Elm və təhsil”, 2011, 344 s.

3.”Şərq qapısı” qəzeti, 15 avqust 1935

4.A.Atakişiyev. Bakı Dövlət Universitetinin tarixi. I hissə. Bakı, “Bakı Universiteti” nəşriyyatı, 1991, 528 s.

5.Məmmədov V. Naxçıvan Müəllimlər İnstitutu.Naxçıvan.”Əcəmi”, 2004 6.Ağayev Ə.,Əliyev A. Böyük Sabirin adına layiq.Bakı, “Təhsil”,1999, 63 s.

7.M.Mərdanov. Azərbaycan təhsil tarixi. II cild. Bakı, Təhsil, 2011, 702 s. 5.

8.Атакишиев А. и др. Развитие среднего специального образования в Азербайджане (1920-1985 гг.). Баку, «Маариф», 1990

9.Azərbaycan SSR işçi-kəndli hökumətinin qanunlar və sərəncamlar külliyatı. Bülleten, 1935, № 11, s. 22

10.Рзаев А.К. Очерки истории высшего педагогического образования в Азербайджане. Баку, 1996

11.Azərb.Resp.MDA.f.57, siy.1,iş.1410,v.120,

12.Азербайджанский Педагогический Институт Русского Языка и Литературы им. М.Ф.Ахундова (1946-1996 гг.). Баку, «Мутарджим», 1996, 158 с.

13.M.Mehdizadə. Azərbaycanda sovet məktəbinin tarixinə dair xülasələr. Bakı, Azərtədrisnəşr, 1958, 328 s.

14.Azərbaycan arxivi.1975, № 1-2

15.Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası. Bakı,”Adiloğlu”,2001,112 s.
16.Джафаров Ф. Развитие народного образования в Нахичеванской АССР (1920-1941 гг.). Автореф. дис. канн. ист. наук. Баку, 1991
17.Məmmədov M. Azərbaycan SSR-də ümumi təhsilin inkişafı “Azərbaycan məktəbi” jurnalı, 1957, № 10, s.9-23

## РЕЗЮМЕ

Во II половине 30-х годов XX века в Азербайджане была создана основательная система в подготовке среднеспециального педагогического образования. Была ликвидирована безсистемность, разбросанность, частое изменение содержания, недостаточность важной научно-педагогической и методической литературы. Если в 1930-1931 учебном году число обучающих в 13 педлагогических техникумах достигло до 4453 студентов, то в 1931-1932 учебном году их было 10367 человек, а число техникумов превысилось с 13 до 19.

## SUMMARY

The article explains that in the II half of the 30-ies of XX century in Azerbaijan was established a thorough system in the preparation of secondary special education teacher. Systems was eliminated, dispersion, frequent changes in the content, lack of important scientific and educational and methodical literature. If the 1930-1931 academic year, the number of training in pedagogical colleges reached 13 to 4453 students in the 1931-1932 academic year, there were 10367 people. A number of colleges have exceeded 13 to 19.

Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası | 2016-№1 | Серия общественно-политических наук

**MƏMMƏDOV S.**
*Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu*

# MÜSTƏQİL İŞLƏRİN TƏŞKİLİ ZAMANI TƏLƏBƏ AUDİTORUYASININ İDARƏ OLUNMASI

***Açar sözlər:*** *müstəqil iş, tələbə auditoriyası, idarəetmə, tələbələrin idarə olunması*
***Ключевые слова:*** *самостоятельная работа, аудитория студентов, управление, управление студентов*
***Keywords:*** *independent work, students' audience, management, student management*

Tələbələrin müstəqil işlərə cəlb olunması bir tərəfdən təlim prosesinin, digər tərəfdən tərbiyə prosesinin səmərəliliyini yüksəldir. Tələbələr müxtəlif səpgili müstəqil işlərə cəlb edilirlər. Onların sırasında tədqiqat fəaliyyəti özünəməxsus yer tutur, kreativliyin (yaradıcı təfəkkürün) həyata keçməsinə şərait yaradır. Təbii ki, tələbələrin müstəqil işləri kortəbii olmur. Təşkil edilir, rəhbərlik və nəzarət altında olur. Audiyoriyadankənar müstəqil işlər tələbələrin təlimə motivasiyasının yüksəldilməsinin mühüm şərtidir.

Yeni pedaqoji təfəkkür şəraitində mütəxəssis hazırlığının səviyyəsinə və keyfiyyətinə verilən tələblər artmışdır. İnstitut, universitet, konservatoriya və təhsil akademiyasında təhsillə əhatə olunan gənclər gələcəyin mütəxəssisləridir. Təhsil illərindən onlarda məqsədyönlülük, təşəbbüskarlıq, peşəkarlıq nümayiş etdirmək, idarə etməyi bacarmaq, müstəqil fəaliyyət göstərmək və fikir yürütmək kimi önəmli keyfiyyətlər formalaşmalıdır. Başqa sözlə, işlər elə təşkil olunmalıdır ki, onlarla əmək bazarında rəqabətədavamlı olsunlar.

Sovet dövründə və son illərə qədər belə idi ki, ali təhsil diplomu almış istənilən şəxs təyinatla yerlərə göndərilir və ya azad təyinat alaraq işlə təmin olunur, yaxud da xüsusən Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan və başqa bu kimi iri şəhərlərdə boş yerin olmaması səbəbindən işlə təmin edilmək üçün növbəyə alınırdılar.

Ölkəmizdə bazar iqtisadiyyatına keçidlə və cəmiyyətin bütün sahələrində, o cümlədə təhsildə aparılan islahatlarla işçi, mütəxəssis seçiminə ciddi tələblər verilir. Heç kim (direktor, müdir, rəis) zəif mütəxəssislə işləmək marağında deyil. Hər bir sahədən keyfiyyət tələb edilir.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsi "Təhsilin keyfiyyət səviyyəsi" adlanır. Həmin maddədə deyilir:

"9.1. Təhsilin keyfiyyət səviyyəsi ölkədə qəbul olunan dövlət təhsil standartları əsasında beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşdırılaraq təhsil pillələri üzrə müvafiq keyfiyyət göstəriciləri sisteminə (təhsil proqramları, abituriyentlərin hazırlıq səviyyəsi, maddi-texniki baza, infrastruktur, informasiya resursları, təhsilverənlərin peşəkarlığı və elmi-pedaqoji səviyyəsi, mütərəqqi tədris texnologiyaları və s.) uyğun olaraq müəyyən edilir.

9.2. Təhsil müəssisəsində kadr hazırlığının keyfiyyət səviyyəsi məzunların milli və beynəlxalq əmək bazarında rəqabət qabiliyyəti, ölkənin sosial və iqtisadi inkişafında rolu ilə müəyyən edilir" (1).

Vaxtilə təhsil (maarif) şöbələrinin müdirləri təyinatla göndərilənləri, yaxud hər hansı müəllimi özü işlə təmin edirdi. İndi isə, respublika Təhsil Nazirliyi bu vəzifəni öz üzərinə götürmüşdür. Qabaqcadan respublikanın ümumtəhsil məktəblərindəki boş yerlər barədə nazirliyə məlumatlar daxil olur. Nazirlik hər il qəzetlərdə elan verərək həmin boş yerlərə (məktəb direktorluğuna, direktor müavinliyinə, müxtəlif fənlər üzrə müəllimliyə və s.) müsabiqə elan edir.

Hazırda dünyanın bir çox ölkələrində pedaqoji internatura tətbiq olunur. Ali təhsilin bakalavriat pilləsini başa vurub müəllim işləmək istəyənlər bir illik, yaxud ikiillik internatura təhsilinə cəlb edilərək, müvəffəqiyyətlə təhsil aldıqdan sonra ona lisenziya və sertifikat verilir. Həmin sertifikat və lisenziya məktəbdə müəllim işləməyə hüquq verir. Belə lisenziyası və sertifikatı olmayan şəxslər artıq müəllim kimi fəaliyyət göstərə bilməzlər. Onlar ya magistraturaya daxil olmalı, yaxud da başqa sahələrdə çalışmalı olurlar.

Ali təhsil sistemində internaturanın tətbiqinin zəruriliyi Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda xüsusi olaraq vurğulanır: "3.3. müəllim hazırlığı sistemində *internatura* modelinin tətbiq edilməsi" (2).

Təhsil Nazirliyinin xüsusi sifarişi ilə professor A.N. Abbasov pedaqoji internaturanın təşkilinin, idarə olunmasının başlıca istiqamətlərini, internaturada təhsil müddəti, internaturada təlimin məzmunu, internaturanın qarşısında duran vəzifələr və c. özündə əks etdirən tədqiqat aparmış, hətta "Pedaqoji internaturanın Əsasnaməsi"nin layihəsini hazırlamışdır. Həmin tədqiqat ayrıca kitab halında nəşr edilmişdir.

Hələ ki, pedaqoji internaturanın tətbiqinə başlanmamışdır. Təbii ki, internatura səriştəli pedaqoji kadr hazırlığına, rəqabətəqabil mütəxəssisin yetişdirilməsinə öz töhfəsini verəcəkdir.

Rəqabətəqabil mütəxəssis hazırlığı sahəsində tələbələrin müstəqil işləri yerinə yetirməsi özünəməxsus rola malikdir. Müstəqil işlər peşə vəzifələrinin öhdəsindən yaradıcı şəkildə gəlmək, müntəzəm olaraq öz biliklərini, peşə bacarıqlarını artırmaqda gələcək müəllimlərə, digər ixtisaslar üzrə mütəxəssislərə öz köməyini göstərir.

Müstəqil iş müəllimin rəhbərliyi və idarəliyi ilə tələbələr tərəfindən müstəqil olaraq yerinə yetirilən, bəzən də qabaqcadan hazırlanmış proqram, yaxud təlimata üzrə tələbələrin şəxsi maraqlar və planları, psixoloji xüsusiyyətləri hesaba alınmaqla yerinə yetirilən idrak fəaliyyətidir.

Prof. F.A. Rüstəmov və dos. T.Y. Dadaşovanı düzgün qənaətlərinə görə, tələbələrin müstəqil işlərinin səmərəliliyini təmin etmək məqsədilə birinci kursdan başlayaraq son kursadək təhsilin bütün mərhələ bə pillələrində müstəqil işlərin ən aktual formalarından istifadə olunmalıdır. Tələbələrin müstəqil işləri konkret və perspektiv məqsədlərə xidmət etməlidir" (3, 255).

Müəlliflər tələbələrin müstəqil işləri zamanı bir sıra prinsipin gözlənilməsini məqsədəuyğun hesab edir. Onları diqqət mərkəzinə gətirək: "1. *Sistemlilik və ardıcıllıq prinsipi.* Ali məktəbdə müstəqil işlərin həm təlim, həm də təlimdənkənar formalarından geniş istifadə olunmalı, onun təşkilində təsadüfliyə yol verilməməlidir.

*2. Sinergetik yanaşma prinsipi.* Tələbəyə müstəqil işə müxtəlif elmlərin qarşılıqlı əlaqəsi baxımından yanaşmaq öyrədilməlidir.

3. *Vaxtdan düzgün istifadə olunması və yorğunluğa yol verilməməsi prinsipi.* Bu prinsip tələbələrin müstəqil işinin səmərəliliyini təmin edən prinsiplərdən biridir.

4. *Tələbə əməyinin elmi təşkili prinsipi.* Tələbənin təlim əməyini elmi əsaslarla qurmadan nə səmərəliliyi və mədsəd ardıcıllığını təmin etmək, nə də tələbənin əmək qabiliyyətini inkişaf etdirmək mümkün deyil.

5. *Müstəqillik prinsipi.* Müstəqil işin icrası zamanı tələbə elmi informasiyaları axtarıb tapa bilir, bu və ya digər fikri, ideyanı əsaslandırır. İdraki fəallıq göstərir, elmdə özünəməxsus "cığır" açmağı, işin icrasını yeni, orijinal yolunu, tərzini tapır" (3, 255-257).

Müstəqil işlərinin qarşısında duran vəzifələr bunlardır:

-tələbələrin tədris materialını mənimsəmələrini motivləşdirmək;

-öz təhsilinə və təliminə görə tələbə oğlanların və qızların məsuliyyətini artırmaq;

-onların ümumi və peşə səriştəliliyinin inkişaf etdirilməsinə nail olmaq;

-tələbələrdə özünütəhsilin, özünütərbiyənin və özünütəkmilləşmənin, əxlaqi saflığın formalaşdırılmasını təmin etmək;

-tələbələrdə özünüidarə vərdişlərinin və özünüinkişaf tələbatının formalaşmasına nail olmaq və s.

Müstəqil işlər yüksək səviyyədə yerinə yetirilsin deyə, tələbələr məlumatlandırılmalıdırıar. Müstəqil iş nədir? Onun hansı növləri var? Nə zaman aparılır? Necə yazılır? Necə tərtib olunur? Mənbələrə, mövcud ədəbiyyata hansı məsələlərlə bağlı müraciət edilir? Müstəqil iş necə başlanır və necə yekunlaşır? Tələbələrdən ötrü müstəqil işlərin faydası nədən ibarətdir? Müstəqil işlərdə nəzəri və praktik işlərin nisbəti necədir? Planlaşdırma necə aparılır? Mövzu necə seçilir? Hansı problemin nə necə araşdırılması məqsədəuyğundur? Müstəqil işlərin yerinə yetirilməsində ali məktəb müəlliminin rolu nədən ibarətdir?

Bu məlumatlandırma, mühazirələrin gedişində və seminar məşğələlərində aparılır, yuxarıdakı suallara da, təbii ki, müəllimlər aydınlıq gətirirlər. Deməli, tələbələrdə müstəqil işə marağın, motivasiyanın yaradılmasının mühüm vasitəsi kimi təlimin fəal texnologiyaları çıxış edir. Bu mənada, ilk növbədə təlimin səmərəli forması problem mühazirələridir.

Bundan başqa, seminar-diskussiya köməyə gəlir. Seminar məşğələsinin bu növü iştirakçıların dialoji ünsiyyət prosesi kimi yaranır. Seminar-diskussiyanın gedişində nəzəri və praktik problemlərin müzakirəsində və müəyyənləşdirilməsində birgə əməkdaşlığın praktik təcrübəsi formalaşır.

Bu, bir həqiqətdir ki, müstəqil iş zamanı tələbələrin özlərinin əldə etdikləri biliklər, topladıqları materiallar və məlumatlar müəllim tərəfindən hazır şəkildə verilən biliklərdən daha yaxşı mənimsənilir. Həm də bu işin fərəh doğuran cəhəti vardır: tələbə biliyi özü əldə edib. Bunun üçün axtarışlara başlayır. Toplanan məlumatlar, qazanılan biliklər həm də uzun müddət yadda qalır, onları tətbiq etmək asan və əlverişli olur.

Müstəqil işin təşkili prosesində yaradıcı fəallığın inkişaf edir, fərdi yanaşmanın həyata keçirilməsi ilə bağlı mütəxəssis hazırlığının keyfiyyəti yüksəlir. Bu zaman tələbələrin idrak fəaliyyətinin təşkilatçısı kimi müəllimin rolu artır. Çünki o, mütəxəssislərin yaradıcı imkanlarını müəyyən edir, tələbələrə öz gələcək peşəsinə müstəqil yiyələnmək qabiliyyəti aşılayır.

Müstəqil işin bir neçə növü vardır. Diqqət edək:

Auditoriya, auditoriyadankənar, yaradıcı, o cümlədən elmi-tədqiqat işi.

1. Auditoriya müstəqil işi müəllimin bilavasitə rəhbərliyi və onun tapşırığına əsasən yerinə yetirilir. Praktik məşğələlərin, seminarların, laborator praktikumların təşkili və mühazirə oxunarkən müstəqil işi həyata keçirməklə əldə olunmuş materiallardan faydalanırlar.

2. Auditoriyadankənar müstəqil iş. Müəllimin tapşırığına əsasən müəyyənləşsə də, müəllimin iştirakı tələb olunmur. Yerinə yetirilmə müddəti müəllim tərəfindən müəyyən olunur.

Tədris planında nəzərdə tutulmayan tələbə elmi işləri auditoriyadankənar müstəqil iş hesab olunur. Prof. N.M. Kazımov tədris planına daxil edilməyən elmi tədqiqatlarda tələbələrin iştirakı formalarını aşağıdakı şəkildə təsnif edir:

1. Kafedraların tədqiqat işlərində tələbələrin iştirakı. 2. Tərcümə işində tələbələrin iştirakı. 3. Tələbələrin auditoriyadanxaric vaxtlarda fəaliyyətləri. 4. Tələbə elmi cəmiyyətlərində iştirak. 5. Elmi seminarlarda tələbələrin iştirakı. 6. Təsərrüfat hesablı elmi tədqiqat müqavilələrində tələbələrin iştirakı. 7. Elmi konfranslarda tələbələrin iştirakı. 8. Tələbə elmi işlərinin kafedralarda və fakültə elmi şurasında müzakirəsi. 9. tələbə işlərinə baxışların təşkili. 10. Magistraturada elmi-tədqiqat təcrübəsi. 11. Pedaqoji prosesin təkmilləşdirilməsində tələbə elmi işinin əhəmiyyəti" (4, 311-315).

Təsnifat qənaətləndiricidir. Lakin magistraturada elmi-tədqiqat təcrübəsini tədris planına daxil edilməyən elmi tədqiqatlara daxil etmək düzgün deyildir. Bu elmi-tədqiqat təcrübəsi tədris planına salınır. Magistrantlar təxminən bir ay müddətində elmi institutlarda elmi-tədqiqat təcrübəsi keçirlər. Məsələn, Azərbaycan Dövlət Pedaqoji Universitetinin və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman akademiyasının müvafiq ixtisaslar üzrə magistrantları tədris məşğələlərindən azad olunaraq Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunda elmi-tədqiqat təcrübəsində olurlar. Onların davamiyyəti gündəlik yoxlanılır, elmi-tədqiqat təcrübəsindəki fəaliyyəti qiymətləndirilir, qiymət kitabçasında qeyd olunur. Bundan başqa, elmi-tədqiqat təcrübəsində olduqları müddətdə məşğələlərin mövzuları xüsusi jurnalda yazılır.

Auditoriyadankənar müstəqil iş təlimin praktik, təhsilləndirici və yaradıcı və inkişafetdirici vəzifələrinin həyata keçirilməsinə xidmət edir, əldə olunmuş bilik və bacarıqların tətbiqolunma dairəsini genişləndirir. Auditoriyadankənar işi bu və ya digər fənnin təliminin bütün müddətində həyata keçirilir, tələbə oğlan-larda və qızlarda yeni biliklərə yiyələnmək tələbatı yaradır və bu tələbatı artırır.

3. Tədqiqatçılıq işi yaradıcı şəxsiyyətin hazırlığında və tərbiyəsində mühüm istiqamətdir, yeni obyektiv elmi biliklərə sahib olmağa kömək göstərir. Tədqiqatçılıq fəaliyyəti zamanı tələbələrdə müasir perspektiv texnologiyalar səviyyəsində peşə təfəkkürü, o cümlədən mücərrəd təfəkkür, didaktik bacarıqların yüksək səviyyəsi formalaşdır; elmi və peşə fəaliyyətində məhsuldar əməkdaşlıq etmə qabiliyyəti təkmilləşir.

Ali təhsilin bakalavriat pilləsində buraxılış işlərinin, magistratura pilləsində magistrlik dissertasiyasının necə yazılması və necə müdafiə edilməsi ali təhsil diplomları almaları tələbələrin tədqiqatçılıq fəaliyyətinin səviyyəsindən xeyli dərəcədə asılıdır. Bu sahədə elmi rəhbərin və müvafiq kafedranın üzərinə mühüm vəzifələr düşür.

Tələbə elmi konfransları üçün məruzə mətnlərinin hazırlanması, çıxışın yığcam variantının tezis şəklinə salaraq nəşrə verilməsi, çıxışın mövzusuna aid materialların toplanması, sistemləşdirilməsi, müqayisələrin aparılması, əldə olan

materiala öz çıxışında tənqidi yanaşmaq və ya ümumiyyətlə, münasibət bildirmək – bütün bunlar tələbələrin müstəqil işlərin yerinə yetirilməsi istiqamətindəki səmərəli fəaliyyəti kimi dəyərləndirilə bilər.

Buraxılış işlərini yerinə yetirən, yaxud magistrlik dissertasiyası üzərində işləyən gənclərdən tədqiqat mövzusuna aid elmi məqalələr yazaraq respublikanın elmi jurnallarında, yaxud institutun, universitetin "Elmi əsərləri"ndə nəşrinə nail olmaq tələb edilir. Deməli, elmi məqalələrin yazılması da müstəqil işlərin mühüm növlərindəndir.

**Problemin aktuallığı.** Məqalədə müstəqil işlərin təşkili zamani tələbə auditoriyasının idarə olunması məsələlərinə toxunulur ki, bu sahədə tədqiqatlar olmadığından problem aktuallıq kəsb edir.

**Problemin yeniliyi.** Müstəqil işlərin təşkili zamani tələbə auditoriyasının idarə olunması sahəsində müəllimin fəaliyyətinə dair xüsusi tədqiqat əsəri yoxdur. Bu problemə müraciət edilməsi ilk təşəbbüs kimi qiymətləndirilə bilər.

**Problemin praktik əhəmiyyəti.** Ali məktəb müəllimləri məqalədə öz əksini tapmış məsələlərdən faydalana biləcəklər.

## ƏDƏBİYYAT

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2009.

2. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". "Azərbaycan müəllimi" qəz., 2013, 25 oktyabr

3. Rüstəmov F.A., Dadaşova T.Y. Ali məktəb pedaqogikası: Ali məktəbin magistratura pilləsi üçün dərslik. Bakı: Nurlan, 2007.

4. Kazımov N.M. Ali məktəb pedaqogikası: Dərslik. Bakı: Nicat, 1999.

## РЕЗЮМЕ

Статья посвящена организации самостоятельных работ студентов. В высших учебных заведениях самостоятельные работы студентов делятся на аудиторные и внеаудиторные. В статье автор подробно останавливается на целях, значении и проведении самостоятельных работ на аудиторных и внеаудиторных занятиях, а также отмечает, что целенаправленная организация самостоятельных работ является эффективным условием управления студенческой аудиторией.

**SUMMARY**

The article is devoted to the organization of independent work of students. In higher education the independent work of the students are divided into classroom and extracurricular. The author dwells on the goals, meaning and conduct independent work in the classroom and extracurricular classes, and notes that the targeted organization of independent work is an effective student audience control the condition.

Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası | 2016-№1 | Серия общественно-политических наук

**МАНСУРОВА Э.Э.**
*Бакинский славянский университет*

# ЛЕКСИКОГРАФИЧЕСКИЕ ИСТОЧНИКИ НА ЗАНЯТИЯХ ПО ЯЗЫКУ. СЛОВАРЬ-СПРАВОЧНИК ПОД РЕДАКЦИЕЙ С.И.ОЖЕГОВА

***Açar sözlər:*** *lüğət, təhlil, rus dili, milli auditoriya.*
***Ключевые слова:*** *словарь, анализ, русский язык, национальная аудитория.*
***Key words:*** *dictionary, analysis, Russian language, national auditory.*

В процессе практических занятий по русскому языку в вузовской аудитории большое значение имеет аналитическая работа со словарями. В этой статье мы хотим представить анализ Словаря-справочника под редакцией С.И.Ожегова. Словарь-справочник «Правильность русской речи» под общей редакцией С.И.Ожегова является одним из наиболее удачных словарей трудностей. Справочник строится на анализе большого фактического материала живой речи. Учитываются данные периодики, языка средств массовой информации, политических выступлений, особенности языка сцены и т.д. Многообразие и богатство привлекаемого к исследованию материала позволяет авторам Словаря получать в каждом конкретном случае достоверные результаты, соотнося факты живой речи с историей русского литературного языка.

Вместе с тем бросается в глаза нечеткость культурноречевой позиции авторов, что, разумеется, связано прежде всего с нечеткостью самих представлений о норме, существующих в русском и советском языкознании. Например, в предисловии ставится вопрос: «Что такое высокая культура

речи?» (1, 4). Отвечая на этот вопрос С.И.Ожегов, автор предисловия, вполне сознательно затрагивает самые разные уровни речи. Сначала, разумеется, он говорит о правильности, но правильность связывается с точностью и выразительностью (1, 4).

В этом утверждении уже прослеживается общее теоретическое противоречие, которое одновременно является и естественным, и парадоксальным. Правильность как соответствие нормам литературного языка не всегда является выразительным и, следовательно, коммуникативно значимым. Напротив, коммуникативно значимым и эффективным часто оказывается экспрессивное средство, находящееся за рамками системы норм. Именно это противоречие оказывается движущей силой эволюции. С другой стороны, именно оно не дает возможности исследователям однозначно решать вопрос о статусе конкретного языкового средства, или, скажем, вопрос о соотносительности конкретных вариантов.

Задача словаря упорядочить трудные случаи словоупотребления. При этом ясно, что проблема словоупотребления затрагивает сразу несколько разных проблем, связанных с формой, функцией, сочетаемостью, семантикой слова. Правильное, т.е. точное, уместное, логически верное употребление слов затрагивает все уровни их функционирования, и всех этих уровней касается представленный в словаре-справочнике анализ.

В словаре особое внимание уделяется употреблению фразеологических единиц, что не нашло отражения в его названии. Следует отметить, что данный Словарь-справочник в этом отношении сыграл в свое время и играет сейчас роль уникального источника по живой трансформации фразеологических единиц. По сути дела, факты, отмечаемые в Словаре как неточности, отражают динамику живой жизни фразеологизмов в современной русской разговорной речи. Здесь изменение значения, внутрифразовая парадигматика, контаминация и т.д.

Важнейшим отличительным признаком рассматриваемого Словаря является объяснительная статья. В словарных статьях дается подробное объяснение неправильного словоупотребления, указывается его происхождение и причины. Словари трудностей русского языка, издававшиеся после Словаря-справочника под редакцией С.И.Ожегова, также не представляют объяснительных статей. Таким образом, можно сказать, что положительный опыт составителей данного Словаря не был учтен, хотя его целесообразность налицо. Возможно, составителей других словарей трудностей пугала объемность статей, однако это единственно верный путь.

Положительным моментом в Словаре является постоянное прослеживание связи литературного языка и просторечия. Следовательно, составители Словаря понимают, что говорить о правильности речи, рассматривая литературный язык как мертвую догматическую систему, недопустимо. С

другой стороны, хоть это специально и не оговаривается в предисловии, просторечие рассматривается составителями Словаря не как система явно сниженных языковых средств, находящихся за пределами литературного языка, а, скорее всего, в соответствии с внутренней формой данного термина, в значении близком значению термина «разговорный язык». То есть имеется в виду «просто+речие», простая, спонтанная, неподготовленная речь. Например, в статье, посвященной слову *яички* читаем: «В последнее время в просторечии широко распространилось употребление *яички* (во множественном числе) вместо *яйца*, без всякого оттенка уменьшительности» (1, 211). Дается объяснение данного факта: «Такое употребление пришло из городского просторечия, для которого характерно обилие «вежливых» уменьшительных слов» (1, 211).

Подобные статьи строятся совершенно верно. Идеальным является объяснение причин явления в возможно более широком контексте эволюции языка. Следует также отметить, что подобные статьи носят нейтральный с точки зрения кодификации характер. В частности, здесь не указывается, является ли допустимым, или, напротив, недопустимым данное словоупотребление. Видимо, констатация факта без его квалификации может быть расценена как допустимость.

Словарь-справочник строится по алфавитному принципу. Слова, употребление которых в современной русской речи связано с теми или иными трудностями, даются по алфавиту. Поэтому в Словаре отсутствует тематическая систематизация. Однако, как свидетельствует анализ Словаря, больше всего рассматривается трудных случаев словоупотребления, связанных с паронимией и тавтологией. При этом многие случаи являются общеизвестными. Тем не менее помещение их в настоящий словарь оказалось очень удачным, так как по поводу их употребления дается научный комментарий.

Например, статья на слово *абориген* строится следующим образом. Сразу после слова *абориген* дается толкование его значения, после чего приводится иллюстративный материал и этимологическая справка. На это уходит первый абзац словарной статьи, второй абзац носит уже орфологический характер, здесь читаем: «Поскольку уже в самом слове *абориген* есть значение «местный, коренной», избыточны и неправильны словосочетания *местный абориген*, *коренной абориген* и т.п.» (1, 9-10). Затем приводятся примеры на подобное неверное употребление слова.

Следует отметить, что подобные статьи являются очень ценными, так как они вмещают в себя максимальную информацию как о слове, так и о речевой ошибке. Единственным изъяном с точки зрения орфологического анализа может считаться только отсутствие орфологической интерпретации, т.е. авторы Словаря не объясняют причин образования в речи подобных тавто-

логичных сочетаний. Разумеется, объяснение напрашивается само собой: это прежде всего незнание значения слова. Это самое простое объяснение, которое лежит на поверхности: раз высказывание носит тавтологический характер, следовательно говорящий не знает значения хотя бы одного из составляющих слов. Но интересно и в то же время характерно другое явление. А именно употребление слова *абориген* со временем приводит к оттеснению на задний план каких-то одних элементов семантической структуры слова и актуализации других. В данном случае значение «коренной» в семантике этого слова отходит на задний план. Во всяком случае это наблюдается в просторечии. Актуально лишь значение «местный житель».

В Словаре обычной является подобная структура статьи из двух абзацев, каждый из которых фактически является самостоятельной функциональной единицей. Например, «автоматически - о чем-н. действующем, совершающемся самостоятельно, механически, непроизвольно» (1, 11). Второй абзац: «Неоправданным является употребление наречия *автоматически* в значениях, не связанных с автоматизмом или непроизвольностью, когда уместнее употребить слова: закономерно, обязательно» (1, 11). Или, например, «Авторитет – «общепризнанное влияние, уважение, приобретенное кем-н., пользоваться авторитетом, завоевать авторитет уронить свой авторитет и т.п.» (1, 11). И второй абзац: «В литературном языке употребляется только по отношению к человеку. В современной публицистике (преимущественно в газетах) слово *авторитет* неправомерно употребляется вместо *популярность, известность* и т.п.» (1, 11).

Неточности наблюдаются и в этой словарной статье. Например, в ней неоправданно противопоставляется публицистика литературному языку. Понятно, что это элементарная оплошность, и тем не менее фраза «в литературном языке употребляется *так- то*, а в современной публицистике неправомерно употребляется *так-то*» говорит о противопоставлении.

Следовало написать, что «нормой литературного языка является», «в публицистике встречается следующее ошибочное словоупотребление».

Эта структура является наиболее удобной и целесообразной для словаря подобного типа, однако авторы не ограничиваются этим типом статьи, порой они дают очень большую и разностороннюю информацию. Например, статья на *волнительный, волнительно* занимает в словаре две страницы. Статья начинается с попытки определить место слова *волнительный* в русском литературном языке. Приводится высказывание Б.Тимофеева относительно наречия *волнительно*. Если В.Тимофеев осуждает употребление этого слова вместо обычного для литературного языка слова *волнующе*, то авторы Словаря пытаются доказать, что в «речевой практике издавна возникала потребность в образовании от глагола *волновать, волноваться* наряду с причастием *волнующий* и прилагательного *волнительный*, выражающего

определенную «качественность» по слову *волнение* (ср. такие пары, как *возмущающий* и *возмутительный* от глагола *возмущать-возмутить*; *одобряющий* и *одобрительный* от глагола *одобрять-одобрить*)» (1, 35).

Таким образом, здесь мы видим, как в словарной статье лексикографы разворачивают целую дискуссию по поводу правомерности употребления слова, стремятся обосновать свою точку зрения лексико-семантическим анализом, что вообще не имеет отношения к Словарю. Отсюда можно сделать вывод о том, что данный Словарь носит совершенно свободный в структурном отношении характер. Словарные статьи строятся как угодно, все зависит от того, как и сколько информации хотят представить составители.

После этого еще около двух страниц текста посвящено объяснению с самых разных точек зрения, почему употребление слов *волнительный* и *волнительно* в современном русском языке является вполне закономерным. Приводятся примеры, дается историко-научная справка.

Следует также отметить, что эта и подобные статьи выпадают из общего направления, так как имеют иную мотивировку. В большинстве статей данного Словаря приводится ошибочное словоупотребление и объясняется причина ошибки. В рассматриваемой же статье на *волнительный, волнительно* мы видим другие мотивы, здесь речь идет об ошибочном мнении ученого, считающего недопустимым употребление слова, словарная статья же ставит своей целью доказать не ошибочность словоупотребления, а правильность, допустимость словоупотребления и ошибочносгь мнения ученого. Поэтому сама статья получилась необычно большой. Кроме того, анализ, представленный в этой статье, сближает лингвистические словари с энциклопедическими.

Таким же образом строится и статья на лексему *качественный*. Здесь мы читаем: «*Качественный* – прилагательное. Одно из значений этого слова – «высокого качества», например, *качественный ремонт, качественные продукты питания* и т.п. Ревнителями чистоты и правильности речи это слово несправедливо осуждается на основании его «нелогичности»; ведь «качество может быть и отвратительным, и плохим, и хорошим, и отличным» (Тимофеев Б. Правильно ли мы говорим? Л., 1960)» (1, 97).

Статья также носит полемический характер. Она начинается с осуждения мнения ученого, после чего приводятся аргументы в пользу подобного словоупотребления, дается историко-научная справка, подтверждающая мнение авторов Словаря. Данная статья также имеет большой объем. Однако во второй части словарной статьи составители останавливаются и на неверном, с их точки зрения, употреблении слова *качественный*. Например, «Вместе с тем неоправданным является применение слова *качественный* к

предметам обихода, к людям, чертам характера и т.п. Только в шутку можно сказать, например, *качественный суп* или *некачественный*» (1, 98).

Рассматриваемая статья не лишена и эмоциональности, что еще раз свидетельствует о свободном характере Словаря. Это проявляется и в иронии по поводу «ревнителей чистоты и правильности речи».

Составители Словаря не всегда проявляют категоричность, нередко их рекомендации носят чисто информативный характер. Например, в статье на слово *много* отмечается, что «В литературной речи рекомендуется избегать словосочетания *столько много*, заменяя его словами *много, так много, такое большое количество* и т.п.» (1, 115).

Некоторые рекомендации не совсем понятны. Например, в статье на слово *мнительный* заключительная фраза такова: «В литературной речи смешение слов *мнимый* и *мнительный* недопустимо» (1, 115).

Такое смешение недопустимо вообще в русском языке, так как слова *мнимый* и *мнительный* имеют совершенно разные значения. Поэтому не следовало подчеркивать, что «в литературной речи недопустимо». Может создаться впечатление, что такое смешение недопустимо в речи интеллигентных людей, в речи, претендующей на соответствие нормам литературного языка, вообще же, например, в речи простых людей ничего страшного в этом нет.

Нередко словарные статьи строятся на более демократической основе, когда составители как бы обмениваются с читателем своими мыслями. Например, «*Напополам*. В просторечии употребляется вместо литературного слова *пополам*. Встречается в художественной литературе как средство речевой характеристики персонажей. Однако вряд ли правомерно употребление этого слова в авторской речи даже в целях стилизации» (1, 123-124).

Возможно, это только форма, однако в большинстве статей авторы четко указывают на недопустимость или неправомерность употребления. Здесь же выражение «вряд ли правомерно» говорит о неуверенности. С другой стороны, ценным в Словаре, наряду с его огромной информативностью, является также демонстрация общего состояния и динамики различных процессов, протекающих в национальном русском языке. Как уже отмечалось выше, термин *просторечие* составителями Словаря употребляется в значении «простая, обыденная речь», т.е. в соответствии с его внутренней формой. Это дает возможность представить картину национального языка, объективное состояние соотношения различных средств, параллельно употребляющихся и лишенных резкого противопоставления.

## ЛИТЕРАТУРА

1. Правильность русской речи / Словарь-справочник под ред. С.И.Ожегова. М.: Наука, 1965, 232 с.

## XÜLASƏ

Məqalə ali məktəbdə leksikoqrafik mənbələrlə işə həsr olnub. Məqalənin əsasını Bakı Slavyan Universitetindəki iş təcrübəsi təşkil edir. Diqqət mərkəzində S.İ.Ojeqovun redaktəsi ilə Arayış lüğəti məqalələrinin təhlili dayanır. Aparılan təhlil göstərir ki, müəlliflərin tövsiyələri həmişə optimal səciyyə daşımır. Bəzən məqalələrin özü polemik səciyyə daşıyır. Bəzən leksikoqraflar düzgün formaları müəyyən etməkdə çətinlik çəkirlər. Məqalə müəllifinin fikrinə görə, ali məktəb auditoriyasında qeyri-müəyyənliyə yol verməк olmaz. Deməli, müəllimin özü "hakim" rolunu icra edərək nitqin üstün formasını müəyyən etməlidir.

## SUMMARY

The article deals with the lexicographical sources in the high school auditorium. This article is based on the experience of work at Baku Slavic University. The focus is on analysis of articles from the dictionary edited by S.O.Ojegov. Analysis shows that not all the recommendations of the authors are optimal. Sometimes the articles themselves are polemical. Sometimes lexicographers show the uncertainty in determining the correct forms. The author concludes about the inadmissibility of variant reading in the high school auditorium. Hence the instructor is obliged to assume the role of "judge" and determine the preferred form of speech.

Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər seriyası | 2016-№1 | Серия общественно-политических наук

**АЛИЕВА А.П.**
*Бакинский славянский университет*

# ТЕОРЕТИЧЕСКИЕ ПРЕДПОСЫЛКИ ИЗУЧЕНИЯ ТВОРЧЕСТВА Л. Н. ТОЛСТОГО В АСПЕКТЕ ОПРЕДЕЛЕНИЯ БЕССОЗНАТЕЛЬНЫХ МОТИВОВ ПОВЕДЕНИЯ

***Açar sözlər:*** *şüuraltı, nəzəriyyə, L. N. Tolstoy, transfer, həyacan, mənəviyyat*
***Ключевые слова:*** *бессознательное, теория, Л. Н. Толстой, трансфер, тревога, духовность*
***Key words:*** *unconscious, theory, L. N. Tolstoy, transfer, anxiety, spirituality*

Основная предпосылка заявленного исследования состоит в утверждении, что в произведениях Л. Н. Толстого содержится материал по бессознательно-психическому, способный пролить свет на механизм его проявления и влияния на поведение человека. Следовательно, изучение бессознательного в текстах этого писателя должно опираться на предшествующую традицию. Эта традиция раздваивается, кроме того, оба направления были заложены самим З. Фрейдом. Первое направление представлено в контексте фрейдовских клинических исследований феномена бессознательного и его влияния на работу сознания. Второе направление также связано с именем З. Фрейда и его попытками распространить созданную им теоретическую матрицу на явления культуры, философии и искусства. Таким образом, анализ работ австрийского ученого, проведенных им в обоих направлениях, способен создать теоретические принципы исследования творчества Л. Н. Толстого в указанном направлении.

Наконец, даже поверхностное знакомство с творчеством Л. Н. Толстого дает основание для широкого привлечения его к психоанализу. Разумеется, сама методика психоанализа при этом не будет содержать в себе ни-

чего нового. Новое будет связано с обнаружением, интерпретацией и систематизацией фактов бессознательного психического и его влиянием на поведение в произведениях Л. Н. Толстого.

Чисто терминологически концепт «бессознательное» мало о чем говорит. Как и всякий системный термин, его необходимо рассматривать в актуальной для него парадигме. Такой парадигмой для бессознательного является «сознание-бессознательное-сверхсознательное» или, по терминологии самого Фрейда, «эго-ид-суперэго».

Такое явление психической жизни, как бессознательное никак не могло оказаться вне поля зрения исследователей. Оно могло по-разному называться, но поведение человека, когда оно не поддается разумному объяснению, не могло не обращать на себя внимания. Уже Платон в своих диалогах специально останавливается на тех феноменах, которые противоречат разуму человека. Например, в диалоге «Протагор» он специально останавливается на безрассудстве, противопоставляя это свойство рассудительности (1, 442). Тот факт, что у древнегреческого ученого отсутствует сам термин *бессознательное*, мало что значит. На наш взгляд, важно признание безрассудства чем-то характерным для человека. Рассудительность и вообще пользование интеллектом греки считали важнейшим качеством человека. Следовательно, безрассудство человека как разумного существа было в центре внимания.

Термин *бессознательное* обращает на себя внимание уже в силу собственной образной основы. Дело в том, что в обычном представлении внутренний мир человека отождествляется с сознанием. Можно использовать другие известные термины, например, такие как *духовность, психика, душа* и др., так или иначе все они ассоциируются с сознанием. Поэтому термин *бессознательное* производит на первый взгляд впечатление парадоксальной игры слов. Как может нечто, относящееся к внутреннему миру человека, считаться лишенным сознания, быть бес-сознательным. Или быть вне сознания, но при этом относиться к сознанию. Возможно, глубина фрейдовского открытия как раз и находит отражение в этом парадоксе.

Феномен бессознательного исторически вносит закономерный разлад в представления о сознании. В самом деле мысли о целостности сознания противостоит мысль о структуре сознания, когда некоторая его часть может не поддаваться рефлексии. С другой стороны, термин *сознание* становится частным термином по отношению к общему, который должен распространяться как на сознание, так и бессознательное. Иными словами, «сознание» перестает быть глобальным понятием, охватывающим или призванным охватить все многообразие психических процессов.

Бессознательное противоречит сознанию как осознанию того, что происходит с индивидом, способности понимать пространственно-

временные параметры бытия. Встает закономерный вопрос о параллельном существовании сознательного и бессознательного. Действует ли их механизм одновременно, или одно из них исключает другое. Ответы на все эти вопросы предполагают знание не только механизма проявления данных феноменов, но и знания самих этих феноменов, того, что они представляют собой на самом деле.

История открытия феномена бессознательного имела место в точном соответствии со значением самого термина и его соотношением с понятием сознания. Интересно, что З. Фрейд, будучи практикующим врачом, оперировал понятием «сознание». Следовательно, *бессознательное* определялось как «несоответствующее сознанию» (2). Иными словами, сознание признавалось как способность к восприятию и пониманию. Поскольку в процессе работы с больными обнаруживалась прослойка или пласт психических явлений, не поддающихся осознанию, он (этот пласт) находился за пределами того, что могло расцениваться как сознание. Отсюда следовало, что сознание не носило глобального характера, и оно не могло отождествляться с понятием психической жизни.

Метод свободных ассоциаций, к которому пришел Фрейд в результате работы с пациентами в клинике, дал ему основание признать, что механизм рефлексии независимо от воли больного в каких-то моментах подвергается торможению. Вообще ассоциативный механизм всегда носит свободный характер, в том смысле что он зависит от той структурной связи, которая складывается до момента ее актуализации. Например, если пациенту задается некоторый тематический план, от которого он отталкивается, то все равно цепь ассоциаций носит свободный характер. Саму ассоциативную цепь задать невозможно. Более того, врач или кто-либо другой ее не в состоянии предугадать.

